AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU
-------------------------------------------------------------------

# YARDIMLI
# FOLKLOR ÖRNƏKLƏRİ

**1-ci kitab**

**BAKI - 2014**

**Kitab görkəmli folklorşünas alimlər İsrafil Abbaslının və Bəhlul Abdullanın əziz xatirəsinə həsr olunur.**

**Toplayanlar:** **İsrafil ABBASLI,**
**Bəhlul ABDULLA,**
**Elxan MƏMMƏDLİ**
**Bilal ALARLI (HÜSEYNOV)**

**Tərtib edənlər:** **fil.ü.f.d. Elxan MƏMMƏDLİ**
**Bilal ALARLI (HÜSEYNOV)**

**Redaktor:** **fil.ü.f.d. Tahir ORUCOV**

**Rəyçilər:** **Xalq şairi,**
**fil.ü.f.d. Sabir RÜSTƏMXANLI**
**fil.ü.f.d. Elçin ABBASOV**

**Yadımlı folklor örnəkləri. 1-ci kitab.** Bakı, Elm və təhsil, 2014, 334 səh.

Kitaba ertem peçeneqlərinin qədim yurdu olan Yardımlı bölgəsindən toplanmış folklor örnəkləri daxil edilmişdir. Folklor örnəkləri 1987-ci il və 2013-cü il yay ekspedisiyaları zamanı toplanmışdır.

folklorinstitutu.com

Y 4603000000 Qrifli nəşr
N-098-2014

© Folklor İnstitutu, 2014

*ÖN SÖZ*

## ERTEM TÜRKLƏRİNİN YURDU

Yardımlı ölkənin əyalət bölgələrindəndir. Burada iqtisadiyyat və ticarət yerli əhalinin tələbatına uyğun şəkildə inkişaf edir. Bölgənin folkloru və etnoqrafiyası əhalinin məşğulluğu və məişət həyatı ilə bilavasitə bağlıdır. Coğrafi mühit, dağ və meşə relyefi əhalinin şifahi yaradıcılığının personativ qaynaqlarıdır. Buna görə də Yardımlı və yardımlılar haqqında ətraflı məlumat əldə etmədən bölgənin folklor istiqamətlərini müəyyənləşdirmək çətindir.

**Yardımlının coğrafi mühiti.** Ölkənin cənubunda yerləşən Yardımlı Azərbaycanın ən ucqar bölgələrindəndir. Yardımlının coğrafi mövqeyi maraqlıdır. Ərazi Lənkəran iqtisadi rayonuna daxildir, dağlıq ərazidə yerləşir. İqlimi isti, normal nəmlidir, qışı mülayim, yayı isti keçir. Respublikamızın paytaxtı Bakı şəhərindən 304 km aralıda yerləşir. Yardımlı rayonunun ərazisi 66720 ha torpaq sahəsini əhatə edir. Ərazinin təxminən üçdə biri - 20536 hektarı meşəlikdir. 39-38 dərəcə şimal en dairəsində, 48-49 dərəcə şərq uzunluq dairəsində yerləşir.

Rayon qərbdən İran İslam Respublikası ilə, cənubdan Lerik, şərqdən Masallı, şimaldan Cəlilabad rayonları ilə həmsərhəddir. Şimal və Qərbdən qonşu İran İslam Respublikası ilə dövlət sərhədinin uzunluğu 96 km-dir. Rayonun ən böyük və ən uzun çayı Viləş çayıdır. Viləş çayı Yardımlı rayonunu mərkəzdən iki hissəyə bölür. O, Xəzər dənizinə tökülür. Onun uzunluğu 111 km-dir. Viləş çayının qolları - Alar, Peştəsər, Solqard və Vəlişli çaylarıdır. Rayon kiçik Qafqaz dağlarının davamı sayılan Talış sıra dağlarının şimal-qərbindədir. Rayon mərkəzi olan Yardımlı qəsəbəsi Viləş çayının sol və sağ sahilində, Yardımlı çökəkliyindədir. Meşələrin ümumi sahəsi 21 min hektara yaxındır. Rayon mərkəzi dəniz səviyyəsindən 1000-1800 metr yüksəklikdə yerləşir. Talış və Peştəsər silsilələrinin şimal-qərbində, Peştəsər və Buravar silsilələri arasında Yardımlı çökəkliyi var. Rayon ərazisi ən hündür

zirvəsi (Şahnişin) 2490 metr yüksəklikdə olan Talış sıra dağları, ən hündür zirvəsi 2244 metr olan Peştəsər sıra dağları və Buravar sıra dağları ilə əhatələnir. Şinunkələk 2419 metr, Tarakən 2350 metr hündürlükdədir. Sərt dağ zirvələri qışda yağan qar nəticəsində başdan-başa ağappaq, yayda yamyaşıl rəngə bürünür. Yayı mülayim keçən isti iqlimi var.

Yardımlıda altmış mindən çox əhali yaşayır. Əhali arasında kişilər qadınlara nisbətən çoxluq təşkil edir. Rayon əhalisinin əsas məşğulluğu kənd təsərrüfatı ilə bağlıdır. Burada maldarlıq inkişaf etmişdir. Rayon taxıl, kartof, tərəvəz və digər kənd təsərrüfatı məhsulları istehsal edir, burada maldarlıq və quşçuluğun inkişafı ilə əlaqədar olaraq, ət, süd və yumurta bolluğu müşahidə olunur. Meşə zolaqları və otlaqlar xeyli iribuynuzlu mal-qara və qoyun saxlamağa imkan verir. Arıçılığa xüsusi diqqət yetirilir.

**Yardımlının tarixi.** Qədim zamanlarda Yardımlı ərazisindən karvan və ticarət yolu keçirmiş. Bir zamanlar bölgədən Ərdəbilə tərəf uzanan digər bir yol da olmuşdur. Xalq arasında buna Zəvvarilər yolu deyirmişlər. Məkkə və Mədinə kimi müqəddəs ziyarətgahlara gedən zəvvarlar Nisəqala yaxınlığında dayanıb istirahət edərmişlər. Xorasan, Qum, Kərbala, Nəcəf və Şama gedənlər də bu yoldan istifadə etmişlər. Səyyahlar və ziyarətçilər Qaraqaya üstündəki Mənzilgah adlı yerdə dayanarmışlar. Peştəsər silsiləsini aşıb Nəmin və Meşkinə çıxan zəvvarların yolunu ulduzlar nişan verərmiş. Sirəmlə düzülmüş ulduzlar "hacılar yolu" ilə paralel bir şəkildə Yardımlı ərazisindən Yaxın və Orta Şərq ölkələrinə gedənləri istiqamətləndirərmiş.

Araşdırıcılar Yardımlı toponimi haqqında, bu toponimin sözaçımı ilə bağlı maxtəlif elmi fikirlər söyləmişlər. Yardımlı sözünü necə izah etmək olar? ***Yardım edənlər, yoxsa ertim peçeneq tayfası kimi?*** Bir ehtimala görə, Yardımlı "yardam" sözündən yaranıb. Xalqın, ulusun bir hissəsi kimi izah olunur. "Ərdəbil" adının kökünün də "yardam" olduğunu söyləyirlər. İkinci fərziyyəyə görə, Yardımlı "ertim" adından törəyib. Budaq Budaqovun fikrinə görə, Yardımlı VIII yüzilliyin sonlarından Ural-Volqa

çayları arasında yaşamış peçeneqlərin qədim mənbələrdə erdim/erdem kimi qeyd olunmuş tayfasının adından və mənsubiyyət bildirən -li şəkilçisindən ibarətdir. XII-XIII yüzilliklərdə Şimali Qafqazdan qıpçaqların Azərbaycana gəlişində peçeneqlər də iştirak etmişlər. Tədqiqatçıların ehtimalına görə, erdem tayfası da peçeneqlərlə Azərbaycana bu vaxt gəlmişlər.

Tarixçi Qiyasəddin Qeybullayev də bu toponimi peçeneq tayfalarının adı ilə bağlayır. "Ertim" peçeneq tayfalarından birinin adıdır. Əski türkcədə ərdəmli, cəngavər mənalarında yozulur. Hər iki müəllifin ideyası özünü doğruldur. Həqiqətən də, bizə məlum olan qədim etnosların ulu əcdadları teonim mənşəlidir. Qədim toponimlərin bir çoxu tanrılar və ruhlarla bağlı olmuşdur. Yardımlı rəmzi sufilikdə Yar-Adəm kimi izah olunur ki, bu rəmzlər qədim Misir yazılarında ən qüdrətli rəmzlər hesab olunur. Yar rəmzi qədim Misir yazılarında Yaru (Yalu) çölləri kimi qeyd olunur və bu, ilkin materiya mənasındadır, göydə yaradılmış ruhlar dünyası ilə bağlı rəmzdir. Yardımlı sözünün Yar-Adəm şəklində izahı bir konsepsiya kimi yeni görünür. Burada bir tacirin yaşadığını, hamıya komək əli tutduğunu – yardım etdiyini və "Yardımlı" adının bu yolla yarandığını söyləyənlər də var. Lakin yaşlı adamlar deyirlər ki, aran yerlərindən yazda, yayda bura cox adam yaylağa gələrdi. Bu yerin abi-havası, suyu xəstələri həyata qaytarar, onlara yardım edər, şəfa gostərərmiş. Cox guman ki, yerin bu xususiyyətindən də adı yaranmışdır.

Hun imperiyası dağılandan sonra onun yerində Ağ Hun dövləti yarandı, Orta Doğuda və Qafqazda hökmü keçən dövlət olub. Buna tarixdə Eftalit dövləti də deyirlər, hökmdar Eftalın adiyla belə adlanıb. Bu dövləti iki böyük türk tayfası - ağ hunlar və yar tayfası birgə idarə edirdi. Yar tayfasının adı Azərbaycandakı bir çox toponimlərdə öz izini qoyub: Qarayar, Şəhriyar, Yarməmmədli, Yarılı, Yaraqullu, Yaralgöl (dağ), Yarımçı (dağ), Yarımça (çay və kənd)... nəhayət, Yardımlı! Bu da bir elmi versiyadır. Bəs onda Yardımlı sözünün peçeneqlərin bir qolu kimi ertim/yartım etnonimi ilə nə əlaqəsi var? Belə məlum olur ki,

Yartım qəbiləsinin indiki Yardımlı adlanan ərazidəki tarixi tədqiqatçıların qeyd etdiyindən çox-çox qədimdir. 1924-cü ildə arxeoloq İ.Əzimbəyov toponimi türkcə "yardım edənlər" anlamında izah edib. Xalq deyimlərinin birində Əli adlı alicənab şəxsin bura gəlib çox çətin dağlıq şəraitində yaşayan adamlara köməklik göstərdiyinə, çoxlu su dəyirmanı düzəltdirdiyinə görə onun müvəqqəti yaşayış məkanına Yardım Əli deyiblər. Belə bir variant da var ki, "Yardım Əli" dəyirman tikdirib, taxıl üyüdüb, adamlara təmənnasız paylayıb. Bu rəvayətə görə, onun əsli Cənubi Azərbaycanın Mədətli kəndindən olub, üç yüz il bundan əvvəl Daşkəndə köçüb və burada məskunlaşıb. Mədətin Sultanəli, Qurbanəli və Xubalı adlı üç oğlu olub. Daşkənddəki Alyar (Əliyar və Allahyar da deyirlər) bulağı da onun adıyla bağlıdır.

Başqa bir variantda Yardımlı yaşayış məntəqəsinin yerində böyük şəhərin olduğu bildirilir. XIII yüzillikdə burada sivilizasiya olub, şəhər mədəniyyəti inkişaf edib. Bu şəhər sivilizasiyası dağıdılandan sonra onun qalıqları meşəlikdə itib-batıb. Yardımlı ətrafındakı xarabalıqlar qədim yaşayış məntəqəsinin izləridir. Görünür, kəndlərin kütləvi yandırılması hadisəsi baş verib. Həmin sivilizasiyadan monqol-tatar yolu (Ərdəbil-Cavad qəzası) və Quludaş yolu yadigar qalıb.

XIX yüzillikdə Quba qəzasında Yardım-oba kəndi olmuşdur. "Peçeneq" sözünü türk dillərindəki bacanaqla da bağlayırlar. Oğuzların "Üç ox" adlanan 12 qolundan biri peçeneqlərdən ibarət idi. Onlar müxtəlif vaxtlarda Azərbaycana gələrək, xalqın etnogenezində iştirak etmişlər. Başqa bir məlumata görə, qıpçaq soyundan olan peçeneqlər (patsaanaklar//paçanaqlar) Azərbaycanda daha əvvəllərdən olmuşlar "Peçeneq" sözü Mahmud Qaşqarlıda beçenek, Rəşidəddində beçene, Yazıçıoğlu Əlidə biçene, Əbülqazi xan Xivəlidə beçene kimi xatırlanır. Yardımlı, Ərdəbil və Füzuli şivələrində "ana" mənasında işlənən baccı-bacı sözü məlumdur. Bu söz peçeneq-piçənək adındakı bacanaq (bacının əri) sözünün kökündür. Araşdırıcıların qənaətinə görə, "yegən-yegan" - "bacı uşağı", "bacı oğlu" və "yengə" - "köçərkən gəlini

müşayət edən qadın" mənalı sözlər məhz o zamandan etibarən peçeneqlərin və ertim-ərdəm-yardımların dilindən bu tayfanın adını daşıyan indiki Yardımlı şivələrinə keçmişdir.

Yardımlılar rayonun adını, bu toponimin mənasını, başqa toponimlərlə bağlılığını araşdırmağa çalışır və müxtəlif fərziyyələr irəli sürürlər. Yardımlı toponiminin yaranması haqqında başqa bir variant da mövcuddur. Rövşən Süleymanov yazır ki, Azərbaycan Respublikasının şimal-qərbində, qonşu Gürcüstanla sərhəddə Yarıdamlı adlı kiçik yaşayış məntəqəsi yerləşir. Ağstafa rayonunun ucqar məskənlərindən sayılan Yarıdamlı kəndi, görəsən, eyniadlı rayonun mərkəzi hesab olunan Yardımlı toponimi ilə hansı mənada yaxınlıq və bağlılıq təşkil edir? Bu barədə mənim şəxsi fikrim var ki, Yardımlı "yarımdolu" sözündən götürülmüşdür. Kecmişdə dolu cəki vahidi olub. Məsələn, bir kiloqram varsa, yarim kiloqram da var. Əgər bir dolu varsa, demək, yarımdolu da olmuşdur. Bəlkə də bu ərazilərdə yarımdolu cəki vahidindən istifadə olunmuşdur. Axı, kecmişdə batman, girəvinkə və sair cəki vahidləri olmuşdur. Hər vilayətin də öz cəkisi olmuşdur. Beynəlxaq cəki vahidi kiloqram keçmişdə olmamışdır. Bu fikir tamamilə səhv də ola bilər, bu, sadəcə bir ehtimaldır.

Valeh İsmayilov bildirir ki, Turkiyənin Şanlıurfa rayonunda Yardımlı adlı köy var, qəribəsi də budur ki, orada yasayanların dili yardımlıların ləhcəsinə çox yaxındır.

Yozumlar çox, mənbələr zəngin, araşdırıcılar saysız-hesabsız... Bu fikirlərin arxasında bir həqiqət yatır: Yardımlı qədim türk diyarıdır və burada ulu ertem türklərinin varisləri yaşayır.

Tarixi hadisələr folklor nümunələrində də öz əksini tapmışdır. 1928-ci il təvəllüdlü Alar kənd sakini Rəhmanova Dodogül (Bibigül) Şıxhüseyn qızından toplanmış bayatıda əsli Qızılbaşlı gəlindən söhbət açılır. Bu qadın böyük Şıxhüseynin nəticəsi, kiçik Şıxhüseynin qızıdır. Babası Şıxhüseynli kəndinin əsasını qoyub:

Ay lala, xaşxaşdı gəlin,
Əsli Qızılbaşdı gəlin.

Bala, evlisən, ev qədri bil,
Ev sənə peşkəşdi, gəlin.

Bu bölgə tarixin müəyyən mərhələsində Lənkəran və Ərdəbil xanlıqlarının sərhəddində yerləşib. Gülüstan və Türkmənçay müqavilələrindən sonra bütün Şimalı Azərbaycan torpaqları kimi Yardımlının ərazisi də Rusiyanın idarəçiliyinə keçib. Bölgə 1921-1930-cu illərdə Lənkəran qəzasının Vərgədüz dairəsi adlanıb. Rayon 1930-cu ildə təşkil edilib və 1938-ci ilədək Vərgədüz adlandırılıb. 1938-ci ildən sonra indiki adı ilə tanınmağa başlayıb. Lənkəran qəzası ləğv edildikdən sonra Yardımlı müstəqil rayon statusu aldı. Lakin ötən yüzilliyin iyirmi-otuzuncu illəri Yardımlı tarixinin daha çox acı səhifələri kimi xatırlanır.

Bölgə ilə bağlı daha bir maraqlı tarixi fakt ondan ibarətdir ki, ötən yüzilliyin iyirminci illərində burada müsavatçılarla mübarizə adı altında xeyli adam məhv edilmişdir. Xüsusən, iyirminci illərin ikinci yarısından müsavatçılara qarşı başlayan repressiyalar 1926-1927-ci illərdə şiddətləndi. Bolşeviklərin hakimiyyəti möhkəmləndikcə, keçmiş müsavatçılar həbs edilir, sürgün olunur, güllələnirdilər. Bolşeviklər yerli əhaliyə qarşı amansız mövqe tutur, daha çox sərhəd zolağında yerləşən kəndlərdə sərt siyasət yeridirdilər.

Milli Məclisin deputatı, professor Musa Qasımlı yazır ki, 1936-cı il 15 fevral tarixində SSRİ Xalq Komissarları Soveti ölkənin təhlükəsizlik tədbirlərini əsas götürərək Vərgədüz və Astara rayonlarının İran ilə sərhədə yaxın kəndlərinin 250 təsərrüfatının köçürülməsi haqqında qərar qəbul etmişdi. Mircəfər Bağırov 1936-cı ilin dekabr ayında ölkə rəhbəri İ.V.Stalinə göndərdiyi tamamilə məxfi məktubunda bir il ərzində İranla sərhəd kəndlərdə yaşayan 700 ailənin SSRİ-nin digər ərazilərinə, 300 ailənin isə Azərbaycanın müxtəlif rayonlarına köçürüldüyü barədə hesabat vermişdi. Mircəfər Bağırovun Yardımlı rayonuna səfərindən sonra Azərbaycan K(b)P MK-nın 1937-ci il 1 avqust tarixli 14/2 saylı tamamilə məxfi qərarı ilə Xalq Komissarları Sovetinə sərhədə 500 metr yaxınlıqda yerləşən bütün yaşayış mən-

təqələrini köçürmək tapşırıldı. Yardımlı rayonunun Ləzran sovetliyində sərhəddən 60 metr aralıda yerləşən Biromot kəndindən 10 təsərrüfat, Ovra sovetliyində sərhəddən 40 metr aralıda yerləşən Ovra kəndindən 63 təsərrüfat, həmin sovetliyin sərhəddən 30 metr aralıda yerləşən Laceyir kəndindən 22 təsərrüfat, Perembel sovetliyində sərhəddən 40 metr aralıda yerləşən Deman kəndindən 10 təsərrüfat köçürülməli idi. Digər kəndlər də sərhədə yaxın yerləşirdilər. Onları da acı tale gözləyirdi.

1937-ci ilin oktyabr ayında Azərbaycan SSR XKS həmin kəndlərin boşaldılmasına dair qərar qəbul etdi, 1938-ci ildə həmin yaşayış məntəqələri köçürüldü. Musa Qasımlı daha sonra yazır ki, yardımlılar əsasən Əli Bayramlı (indiki Şirvan), Astarxanbazar (indiki Cəlilabad) və Puşkin (indiki Biləsuvar) rayonlarına köçürüldülər. Hətta Quba rayonuna köçənlər də oldu. Ev-eşiklərini itirən bu adamların çoxu xəstəlik üzündən və mühitə uyğunlaşa bilmədiklərindən dünyalarını vaxtsız dəyişirdilər. Yardımlı kəndlərinin köçürülməsi sonrakı illərdə də davam etdirildi. İkinci Dünya müharibəsindən sonra Yardımlının İran ilə sərhəddəki bir çox kəndləri, o cümlədən qədim Deman kəndi köçürüldü. Həmin dövrdə köçürülən nəsillərin davamçıları bu gün Masallı, Cəlilabad, Biləsuvar, Lənkəran, Şirvan, Quba, Göycay, Sumqayıt, Bakı və digər yerlərdə yaşayırlar. Köçürmələr Yardımlıdan toplanmış folklor nümunələrində də öz əksini tapmışdır. Alar kənd sakini, 1926-cı il təvəllüdlü Şahverənova Zöhrə Hacıəbiq qızından toplanmış “Ağ almalı bağlarım qaldı” nəğməsində yurd-yuvasından perikən insanların ağrılı-acılı yaşantıları dinləyicilərinin ürəyini ağrıdır. Nəğmənin mahnıbaşısı doğrudan da kədərli hadisələrin poetik ifadəsi kimi səslənir:

Qara at qaçdı gəldi,
Ağ almalı bağlarım qaldı.
Yüyənin açdı gəldi,
Ağ almalı bağlarım qaldı.
Xanımlara muştuluq,
Ağ almalı bağlarım qaldı.

Bəylər barışdı gəldi,
Ağ almalı bağlarım qaldı.
Üstü dumanlı dağlarım qaldı.

Musa Qasımlı yazır ki, tarixi araşdırmalar nəticəsində bu qənaətdəyəm ki, sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycana bolşevik simasında qayıtmış ermənilər daşnak siyasətini üstüörtülü şəkildə həyata keçirmiş, milli ruhlu partiya və dövlət xadimlərini, ziyalıları və görkəmli din adamlarını məqsədyönlü surətdə repressiya etmişlər. Yardımlıda bir nəfər də olsun erməni yaşamadığı halda, mühüm vəzifələri onların nümayəndələri tuturdular. Ötən yüzilliyin 20-30-cu illəri Yardımlı tarixinin xatırlanması istənilməyən acı bir səhifəsidir. Adamların repressiya edilməsinin onlarla ailəyə gətirdiyi müsibətlər isə nəsillər dəyişdikcə unudulsa da, onları arxivlərin artıq tarixləşmiş, toz basmış sənədlərindən silmək mümkün deyil!

Yardımlının qədim, orta yüzillik və çağdaş tarixini araşdıranlar, əsasən, yardımlılar özləridir. Musa Qasımlı, Mehdi Həsənov, Mirnağı Nəzərli, Elman Mustafayev, Şahlar Məmmədov, Təbiət Tanrıverdiyev və Əli İskəndərov Yardımlının tarixinə sözdən heykəl qoymuşlar. Bölgənin tarixi, etnoqrafiyası və folkloru ilə bağlı məlumatlar bu müəlliflərin əsərlərindən götürülmüşdür.

**Alınmaz qalalar və müqəddəs ziyarətgahlar.** Yardımlı qala qalıqları, mağaralar, pir və ziyarətgahlarla zəngin bir bölgədir. Bu daşınmaz maddi mədəniyyət abidələrində bölgə ilə yanaşı, Azərbaycan tarixi üçün maraqlı olan sirlər yatır. Belə tarixi abidələrdən biri Qız qalasıdır. ***Qız qalası (V əsr)*** təbii abidədir. Alar kəndi yaxınlığındakı uca dağ silsilələrinin birində yerləşən konusşəkilli qaladır. Mirnağı Nəzərli yazır ki, el arasında Qız qalası kimi tanınan bu qaya zirvəsi lap qədimdən insanların sığınacaq yeri olub. Burada yerli atəşpərəstlər əvvəlcə ibadətgah, sonra isə qala bürcləri inşa etməklə güclü və möhkəm bir istehkam qurublar. Dəniz səviyyəsindən təxminən 2200 metr yüksəklikdə yerləşir. Qalanın üstündə od yerlərinin izlərini tapan tədqiqatçılar buranın həm də atəşpərəstlik dövründə fəaliy-

yət göstərən məbəd olduğu fikrini irəli sürürlər. Ehtimal edilir ki, İslamdan əvvəl oda sitayiş edən atəşpərəstlər burada yaşayıb və məbəd ucaldıblar. Sonralar məbəddən ərəb işğalçılarına qarşı qala kimi istifadə ediblər. Qalanın tarixini V-IX əsrlərlə, zərdüştlüklə məşğul odsevərlər dövrü ilə bağlayırlar. Alar Qız Qalası 1812-ci ildə İran hökmdarı Fətəli şah Qacarın vəliəhdi, İran ordusunun baş komandanı Abbas Mirzənin Azərbaycana hücumu zamanı müdafiə baxımından mühüm əhəmiyyət kəsb edib. Uzaqdan baxanda dağın başında papaq kimi görünən qalanın bir tərəfi dərin uçurumdur. Üç tərəfdən sərt döngəli, təhlükəli qaya cığırı vasiətsilə qalanın üstünə gedib çıxmaq olur. Buranı ziyarət etmək bir gün vaxt aparır. Qalaya saxsı borular vasitəsilə Xanbulaqdan su kəməri çəkilib. Həmin saxsıların izləri bu günədək qalır. Qaladan 500-600 metr aralıda Oğlanqala var. Hər iki qalaya gediş-gəlişi təmin edən yeraltı yol, tunel olub. Təhlükə olanda bir qaladan digərinə xəbər vermək üçün bürclərdə tonqal qalanıb. Əraziyə yerlilər Voynbərə deyir. Dəniz səviyyəsindən 2500 metr yüksəklikdə qədim qəbristanlıq, müxtəlif mağaralar, eləcə də 10-15 ədəd gözətçi məntəqəsi var. Qayaüstü yazılar diqqəti çəkir. Tədqiqatçılara görə qalanın ətrafı Orta əsrlər yaşayış məntəqəsi olub.

Qız qalası haqqında müxtəlif variantlı beş əfsanə yazıya alınmışdır. Bu folklor nümunələrinin sonunda əfsanənin qəhrəmanı olan Qız Ərdəbilə gedib çıxır. Bu da onu göstərir ki, Yardımlının iqtisadi, mədəni və ticarət əlaqələri içərisində Ərdəbil önəmli yer tutur. Həmin əfsanələri ayrı-ayrı vaxtlarda Sabir Rüstəmxanlı, Mirnağı Nəzərli, Şamil Əsgər və İlham Əsgərov yazıya almışlar. Sabir Rüstəmxanlı variantında əfsanə belədir: "Qız qalalarının hərəsinin öz əfsanəsi var. Ümumi olan cəhət nədir? Yadelli düşmənə və ya sevmədiyin adama əyilməmək, öz sevgisini, toxunulmazlığını, müqəddəsliyini və ismətini qorumaq; ələ düşməmək üçün ölmək, əlac hər yerdən üzüləndə qurban getmək! Yardımlı Qız qalasında əfsanə həm də Ərdəbillə bağlıdır. Yadelli hökmdarın bütün təkliflərini, arzularını cavabsız qoyan,

öz sevgisinə sadiq qalan qız müdafiənin uzun çəkəcəyini bilir. Qabaqcadan öz sevgilisinə, öz "Fərhadına" qalaya gizli su çəkdirir. Sonra düşmən bunu duyub suyu kəsəndə əlacı qalmır. Atları tərsə nallatdırıb gecəylə qaladan qaçır. İz düşməni çaşdırır. Qızı itirirlər. bir müddət sonra düşməni ondan məktub alır: "Sənin istəyin baş tutan deyil! Məni axtarma! Məni ərdə bil!" Guya qaladan qaçan qız bir mənzil yol gedib Savalanın ətəyində dayanmış, məktubu da ordan göndəribmiş. Onun köç saldığı yer də o gündən Ərdəbil adlanıb. Hansı tarixi həqiqətin sorağıdır bu əfsanə, kim bilir? Qız qalası ilə üzbəüzdə - ayrı bir zirvədə, ayrı bir əfsanə dumanına bürünmüş Oğlan qalası ucalır".

Rayon ərazisindəki digər tarixi abidə ***Cüzünqala*** adlanır. Mehdi Həsənov yazır ki, Cüzünqala Babək yadigarıdır. Qala Yardımlı şəhərindən 2 kilometr şimal-qərbdə, Məran dağının dəniz səviyyəsindən təxminən 1100-1150 metr yüksəkliyində yerləşir. Dərin dərələrlə dilimlənən sıldırım qayalıqların Dəlləkli kəndi ərazisi ilə qovuşduğu məkanda xalqın qəhrəmanlıq tarixindən soraq verən qədim memarlıq abidəsinin qalıqları indi də durur. Düz xətt boyunca cərgələnən keçilməz qayalardan ən sərt, ən uca və ən nəhənginin zirvəsində əzəmət və vüqarla dikələn bu çoxəsrlik sənət nümunəsi xalq arasında Qala dağı, Moran qalası, Burc dağı, elmi mənbələrdə isə Cüzünqala, Düzünqala, Cüzzünqala adları ilə tanınmaqdadır. Divarları 23x23x6 sm kvadrat formalı bişmiş kərpicdən yapılmış Cüzünqala, eyni zamanda ikinci bir qatla – sərt qaya daşları ilə də işlənilmişdir. Daxili və ətraf əraziləri ilə birlikdə o, 1200 kvadratmetrlik sahəni tutur. Qalın torpaq qatları ilə örtülən və üzərindəki iri kol-kos və ağaclarla dövrələnmiş tikili qalıqları 15 metrəyədək hündürlükdədir. Abidənin daxili ərazisi oxşar fraqmentləri olan bədii keramika nümunələri ilə zəngindir. Ətraf ərazidə çoxlu miqdarda minalı və boyalı gil qab nümunələri vardır. Qalanın girəcəyində 3-4 metr hündürlüyündə, uçuq vəziyyətdə digər bir tikili qalığı da mövcuddur. Yarı uçulmuş bu binanın hansı məqsəd daşıdığı hələlik məlum deyildir. Cüzünqala abidəsinin

sərhədləri cənub, şərq və qərbdən dərin və qorxulu yarğanlar, şimaldan isə dağ-qala divarları ilə əhatə olunmuş düzənlik və hamar ərazidən ibarətdir. Mühafizə divarları rolunu oynayan bu sərt qayalıqlar Dəlləkli çayına qədər uzanır. Maraqlıdır ki, abidənin yerləşdiyi qalanın hər üç tərəfinin kələ-kötürlüyü tişə və külünglərlə çapılıb səthi hamarlanmış və düşmən əsgərlərinin aşağıdan yuxarı qalaya çıxmasına əngəl yaradılmışdır. Orta əsrlərdəki bir çox qalalar kimi Cüzünqalanın da gizli yeraltı yollara malik olması ehtimal edilir. Çətin anda qalanı tərk etmək üçün salınmış bu yollar, yaşlı qocaların dediyinə görə, Cüzünqaladan çox da uzaq olmayan Moran bürcünə, Bil yaxınlığındakı Göz qalası və Qalacıq adlı yerlərə kimi uzanır. Təəssüf ki, uçurulub dağıdılmış gizli yolların qalan hissəsi hələlik müəyyən edilməmişdir. Qalanı içməli su ilə təmin etmək üçün bura gildən hazırlanmış su boruları qoyulmuşdur. Su boruları Qızılqayadan qalaya doğru istiqamətlənmişdir. Burada Moran bürcü adlı keşikçi qalasının da uçuqları hündür bir təpə kimi qaralmaqdadır. Qalaça qranit kimi möhkəm qaya daşları ilə inşa olunmuşdur. Sərt qaya daşları ilə işlənilmiş qalaçanın divar qalıqlarının ümumi uzunluğu təxminən 45 metrə, qalınlığı isə 2 metrə çatır. Moran bürcündən Cüzünqala üçün əsasən, keşikçi və müşahidə məntəqəsi məqsədilə istifadə edildiyi açıq şəkildə özünü göstərir. Görünür, Cüzünqalanı müdafiə edən döyüşçülərdən bir qrupu Moran bürcündə dayanır, düşmən tərəfdən təhlükə gözlənilən vaxt burdan qalaya müəyyən işarələr verilirmiş.

Tuştutan dağında əlavə kiçik bir gözətçi məntəqəsi də salınıb. Tuştutan müşahidə bürcünün ancaq fəsad-bünövrə yeri qalmaqdadır. Moran bürcünün həm Gəvran kəndi ətrafında izləri güman edilən Düzdağ qalası, həm Alardakı Qız qalası, həm də Mamulğan və Ökü qalaları ilə əlaqəli şəkildə olması böyük maraq doğurur. İndiki Yardımlı ərazisini dövrələyən Quludaş və Peştəsər sıra dağları boyunca hündür təpələr və dağ zirvələri üstündə cərgələnən keçmiş qala abidələri, yəqin ki, ümumilikdə böyük bir müdafiə sisteminə daxil edilmiş kompleksin ayrı-ayrı

hissələri olub. Cüzünqalanın qədim Moran yaşayış məntəqəsini, yaxud da qədim Avaraq şəhərinin müdafiəsi üçün inşa edildiyini söyləmək olar. Burada qədim Bərzənd və Ərdəbil şəhərini birləşdirən Avaraq şəhərinin xarabalıqları qalmaqdadır. Yaşlı qocaların məlumatına görə, əsrin əvvəllərində Avaraq şəhər qəbiristanlığının yaxınlığındakı Girdə Ləzir adlı meşəlik sahəsində bir-birindən o qədər də aralı olmayan üç tikili abidə: qülləli qalaçalar, saxsı borularla çəkilmiş su kəmərləri, şəhərin ilk giriş qapısının daş darvazasının oturduğu sütunların qalıqları açıq-aydın hiss edilirmiş. Əksər tədqiqatçılar Cüzünqalanın qədim Avaraq şəhərini mühafizə məqsədilə Hülakilər dövləti zamanında – XIII-XIV əsrlərdə inşa edildiyini, XV-XVI əsrlərədək bu möhtəşəm akropolun – qala şəhərciyin həmin yaşayış məntəqəsinin qorunmasında istifadə edildiyini bildirirlər. Qaracadağın qoynundakı qayalıqlar arasında qədim daş karxanasının – memarlıq emalatxanasının qalıqları da buradadır. 1987-ci ildə Cüzünqala abidəsinin tədqiq edən bir qrup axeoloq və memar, o cümlədən Qoşqar Qoşqarlı, Tofiq Əzizov, Təvəkkül Əliyev, Vilayət Kərimov ətraf ərazidən tapılmış qablardakı keramikanın xarakterinə, qalanın tikinti texnikasına və memarlıq üslubuna əsaslanaraq, onu XIV-XVI əsrlərin abidələri sırasına daxil etmişlər. Cüzünqalanın yaşını daha əvvəllərə çəkən tarixçilər də az deyildir. Azərbaycanın tanınmış arxeoloqu İ.Əzizbəyov Cüzünqalanın IX əsrdə tikildiyini və ərəblər tərəfindən dağıdıldığını göstərmişdir. Məlumdur ki, ilkin orta əsrlərdə Ərdəbildən Beyləqana və Bərdəyə gedən qədim ticarət və karvan yolunun bir hissəsi Yardımlı ərazisinə məxsus olan Deman yaylasından keçmişdir.

IX əsrdə xürrəmilər hərəkatının gücləndiyi vaxtı Ərdəbildən ərəb sərkərdəsi Afşinin qərargahı olan Bərzənd şəhərinə istiqamətlənən qədim yolun bir hissəsi Deman yolundan keçir. Bərzənd şəhəri 835-ci ildən Babək hərəkatına qarşı mübarizə aparan ərəb qoşunlarının komandanı Afşin Heydər ibn Kavusun qərargahı olan Bərzənd qalası Babəkin şəhəri və son sığınacağı Bəzz, Bəzzeyn qalasının 40-45 kilometrliyində yerləşib. Uzun

illərdən sonra tədqiqatçıların inadla axtardıqları Bəzz qalasının yeri dəqiqləşdirilsə də, qala ilə bağlı, xüsusilə Bəzzeyn sözü ilə əlaqədar fikirlər hələ də yekunlaşmayıb. Bəzz, Bəzzeyn sözünü şəhərə, kəndə, iki yaşayış məntəqəsinə, həmçinin dağa, iki dağa, dağlıq əraziyə verilən bir toponim kimi qeyd edirlər. Orta əsr müəlliflərinin əksəriyyəti Bəzzi ayrı-ayrı zirvələrdə çoxlu keşikçi və qala bürcləri olan dağlıq bir ərazi, dağlıq bir vilayət kimi təsvir edirlər. Xürrəmilər hərəkatı ilə bağlı tədqiqat aparan müasir tarixçilərin də demək olar ki, çoxu Babəkə məxsus iki Bəzz qalasının olduğunu təsdiqləyir. Bəziləri Bəzz sözünü ikilik bildirən «eyn» şəkilçisi ilə Bəzzeyn şəklində yazmışlar ki, burdan da aydın olur ki, həmin adda bir-birinə yaxın olan iki yaşayış məntəqəsi varmış. Bu iki Bəzzdən biri bütün ehtimallara görə, rus-İran sərhədində yerləşən Əliabad kəndinin yerində olmuşdur. Əliabad kəndi Yardımlı ərazisində 1953-cü ilə qədər mövcud olmuş bir kəndin adıdır. Deportasiyaya məruz qalmış bu kənd vaxtı ikən Cüzünqaladan o qədər də aralı yerləşməyib. Göründüyü kimi, söhbət Babəkin son sığınacağı olan Bəzz qalasından yox, bu qalaya yaxın, onun oxşarı, onun kimi dağlıq ərazidə çoxlu irili-xırdalı qalalar sistemi ilə mövcud olan və xürrəmilərə məxsus digər bir Bəzz qalasından gedir. Babəkin adına istər İran Azərbaycanında, istərsə də respublikamızın cənub rayonlarında çoxlu qalalar aid edilir. Maraqlıdır, Bəzz, Bəzzeyn qalaları sisteminə daxil olan bu müdafiə qurğularından yalnız Cüzünqala öz ilkin və ona yaxın, oxşar Cüzz/Bəzz adını saxlaya bilib. Çox maraqlıdır ki, Bəzzeyn sözünün özü iki oxşar obyektin varlığına açıq şəkildə dəlalət etməkdədir. Ərəb dilində «bəzz» hissə, parça, «eyn» isə həm ikilik, həm də başqasına oxşar bənzər mənasını verir. Belə olan məqamda bəzi müəlliflərin hələ də inadla axtardıqları o biri Bəzzin harada yerləşməsi sualının meydana çıxması təbii, real görünür. Digər tərəfdən əgər ərəb dilində «bəzz» hissə, parça deməkdirsə, «cüzz» sözü də bu lisanda həmin anlamda işlənir. Bəzzeyn sözü çox vaxt mənbələrdə Bəzzin kimi də qeyd edilir. Cüzün sözü də, şübhə-

siz, «cüz» və «eyn» komponentlərindən ibarət olub, sonralar fonetik dəyişikliyə məruz qalaraq, Cüzzeyn, Cüzzün, Cüzün şəklində formalaşmışdr. Belə olan halda, oxşar hissə, oxşar parça mənasında anlaşılan Cüzzeyn, yaxud Cüzzün sözünün Bəzz və ya Bəzzeyn (Bəzzin) sözü ilə sinonim olduqlarını qətiyyətlə demək mümkündür. Bu sözlərin eyni dildə eyni mənaya malik olduğuna əsaslanıb, ikinci Bəzz qalasının məhz Yardımlı ərazisindəki Cüzünqala olduğu qənaətinə gəlmək fikri daha inandırıcı və həqiqətə uyğun görünür.

Mehdi Həsənov yazır ki, Moran bürcü, Qala daşı, Kəlölən (kələ/qələ olan), Oncakələ (Öncə+qala), Qala boynu, Böyük qala yeri, Kiçik qala yeri, Düzdağ qalası, Qalacıq, Qalavar, Qalalar, Səngin qalası, Qız qalası, Deman qalası ərəb dilində qala mənasında işlənən «oura» sözü ilə bağlı yaranan Ovra, Avur (Aura), Urağaran (oura+kən; qala+kənd+qalalar), Nisaqala (Qız/qadın qalası) kimi keçmiş qala-şəhərcik yerləri Yardımlı ərazisində bir vaxtlar mövcud olmuş bütöv bir vilayət və ya mahalın böyük müdafiə kompleksinin ayrı-ayrı hissələri və parçaları kimi fəaliyyət göstəriblər.

Yardımlının qədim və orta əsrlər tarixinə aid memarlıq abidələrindən biri də Ərsilə kəndinin yaxınlığında yerləşən ***Abidərdə türbəsidir***. Müxtəlif mənbələrdə gah Abuzərdə, gah Abazərdə, gah Abi-Dərzə və digər bu kimi adlarla ünvanlaşan türbə əslində xalq arasında daha çox Abidərdə ocağı kimi tanınır. Türbə əsrlərdən bəri müqəddəs ziyarətgah kimi qorunur. Tarixi abidə Arus kəndi ərazisində yerləşir, XVI-XV əsrlərə aiddir, adının "Abidərzə" şəklində deyildiyi və yazıldığı, divarlarının isə çay daşlarından hörüldüyu qeyd edilir. Yardımlı torpaqları uzaq əsrlərdən başlayaraq, son zamanlara kimi bir sıra müqəddəs şəxsiyyətlərin, övliyaların, sufi dərvişlərinin, qızılbaş müridlərinin yaşadığı və fəaliyyət göstərdiyi ərazilərdən sayılır. Ulu Zərdüştün, qədim sirli, sehirli maqların, sufilərin və şeyxlərin doğulduğu və dəfn olunduğu Savalanla, Muğanla, Ərdəbillə əhatə olunması və onlara yaxın məsafədə yerləşməsi indiki Yardım-

lı ərazisini ilahi sirlərin, mifik olayların, möcüzəli hadisə və obyektlərin məkanı, şəfaverici, xilaskar şəxslərin yurdu kimi tanıtmağa əsas verir. Bu cəhətdən bölgənin qədim mədəniyyət abidələri içərisində daha çox diqqəti cəlb edən memarlıq nümunələrini də əsasən, belə sirli-soraqlı pirlər, ocaqlar və türbələr təşkil edir. Onların da əksəriyyəti tanınmış sufi, hürufi, qızılbaş müridləri və sərkərdələrinin görkəmli nümayəndələrinin adı ilə bağlıdır. Yardımlı bölgəsində gərgin mübarizə və təbliğat aparmaları, bəzilərinin isə öz əqidəsi və amalı uğrunda bu yerlərdə həlak olmaları tarixdən yaxşı məlumdur. Alar kəndində Baba Pirəli, Ünəçdə Seyid Xurram, Horonuda Çiləxana, Yolocaqda Pir Məkkə, Bozayranda Mirzə Nur, Ostayırda Piraşğa, Peştəsərdə Pirə-Pənah, Mişkireyndə Şeyx Sultan Məhəmməd türbələri və ocaqları belə abidələr sırasına daxildir. Bu çoxsaylı pirlər, ziyarətgahlar içərisində Abidərdə türbəsinin özünəməxsus ayrıca yeri var. Yardımlı bölgəsində öz əvvəlki görünüş və əzəmətini az-çox qoruyub mühafizə edən və daha çox indi də kütləvi şəkildə ziyarət olunan ocaq Abidərdə türbəsidir. Abidərdə türbəsi Lərzan və Ərsilə kəndləri arasında qərar tutur. Abidərdə türbəsi əsl sənət əsəridir. Abidə Azərbaycan mədəniyyətinin XIV-XV əsrlər memarlıq nümunələri sırasına daxil edilir. Abidərdə türbəsinin ətrafında sahəsi 2 hektardan da çox hamar yerdə itib-batmaqda olan qəbir daşları görünür. Ərsilə kənd sakini, filoloq Səftər Dadaşovun məlumatına görə, bir vaxtlar bu qəbiristanlıqda Lərzan, Eçara, Şələ və Ərsilə kimi qonşu kəndlərinin adamları dəfn olunurmuş. Tədqiqatçılar abidənin hürufi və ya qızılbaş müridlərindən birinə aid olduğunu bildirirlər.

Mehdi Həsənov yazır ki, türbənin həm adı, həm də onun kəraməti ilə bağlı müxtəlif fikirlər mövcuddur. Xalq arasında Abidərdə sözü fars dilindəki «su» mənasını bildirən «ab» və «dərd» sözlərinin birləşməsindən yaranıb. Yaxınlıqdakı müəyyən kimyəvi tərkibli şəfa bulağına işarə olaraq «dərdlərə dərman olan su» anlamında daha çox vurğulanır. Doğrudan da, Abidərdə türbəsindən bir qədər aşağıda «Yeddi dərdin dərmanı» adlı şəfa

suyunun mövcudluğu da bu fikrə müəyyən mənada qüvvət verir. Belə bir inam var ki, hər kəs bu bulağın suyundan içərsə o, yeddi ağır xəstəlikdən nicat tapa bilər. Bəzi tarixçilər abidənin adını XV əsrin məşhur fars-tacik şairi Əbdürrəhman Caminin əsərlərinin birində adı çəkilən peyğəmbər əshabələrindən Əbu Dərdanın adı ilə əlaqələndirməyə çalışırlar. Digər bir versiyaya görə, xalq arasında Abidərdə ocağı kimi tanınan bu abidənin əsl adının bir neçə əsr əvvəl Ərdəbil tərəflərdə yaşayan Şeyx Seyid Əbuzər adlı məşhur din xadimi ilə bağlı yarandığı söylənilir. Deyildiyinə görə, qoca yaşlarında səyahət zamanı yolda vəfat edib və ölümündən azca əvvəl buranı yol yoldaşı olan qızına nişan verib. Burda dəfn edilməyini vəsiyyət edən Şeyx Seyyid Əbuzərin məzarı sonradan ən gur, ən inamlı pir, ocaq kimi ziyarət olunmuşdur. Ağa Mahmudov ətraf kəndlərin yaşlı sakinlərinin verdikləri məlumatlara əsaslanaraq bildirir ki, Abidərdə türbəsinin sahibi qatı dindar olub. Başqa yerdən buraya gələrək şəfa suyunun yanında yerləşib, ömrünün sonuna qədər burda təkbaşına ibadətlə məşğul olub. İkinci ehtimala görə, türbədə uyuyan şəxs Ərdəbilin tanınmış seyidlərindən biri olub, Səfəvi qoşununun tərkibində yüksək mövqe tutub. Qoşunun Şimali Azərbaycana yürüşü zamanı o da iştirak edib. Yolda vəfat edib və burda da dəfn olunub. Digər bir ehtimala görə, qəbir sahibi məşhur dərviş olub və bu yerlərə səfəri zamanı qəflətən vəfat edib. Ətraf kəndin adamları tərəfindən elə buradaca da torpağa tapşırılıb. Məzarının üstündə sonralar onun yaxın adamları şəhərdən ustalar gətirmiş və o dövrün tanınmış şəxslərinə xas olan günbəzli məqbərə düzəltdirmişlər. Tarixçilərin əksəriyyəti Abidərdə türbəsini orta əsrlərə aid etsələr də bəzi müəlliflər onun yaşını IX-XII əsrlərə aparıb çıxarırlar.

Yardımlı ərazisində tarixi əhəmiyyət kəsb edən abidələrdən biri də **Seyid Xürrəm** (Xuram və Xurrami də adlanır) piridir. Seyid Xürrəm piri Ünəç kəndində, köhnə kənd qəbiristanlığında yerləşir. Qəbrin ziyarətgaha çevrilməsi burada əbədi yuxuya dalan şəxsin vaxtilə müqəddəs və alicənab bir adam oldu-

ğunu göstərir. Haroni kəndi yaxınlığındakı orta yüzilliklərin tarixi abidələrindən biri Çiləxanə türbəsidir. **Çiləxanə türbəsi** səkkiz guşəlidir, ağ daşdan hörülmüşdür. Alar kəndinin yaxınlığında camaatın böyük inam və etiqad bəslədikləri bir pir, ocaq yeri vardır. Adına **Baba Pirəli türbəsi, yaxud Piri** deyilir. Hər il Qurban bayramında Aların, Şıxhüseynlinin və ətraf kəndlərin camaatı Baba Pirəli türbəsinin ətrafına toplaşır, qurbanlarını burada kəsir, iri qazanlarda ehsanat verirlər. Kənd ağsaqqallarından biri imkansız və yoxsul adamları müəyyənləşdirir, Baba Pirəli türbəsində kəsilmiş qurbanların ətindən həmin ailələrə göndərir. Baba Pirəli piri təkcə ziyarətgah deyil, həm də adamların bir yerə toplaşıb məsləhətləşdiyi, təsərrüfat həyatı ilə bağlı mühüm qərarlar qəbul etdiyi bir məkandır. Pirin yuxarısandan Sarıbulağa və Şahnişinə gedənlər burada ayaq saxlayıb, xüsusi ornamentləri olan qırmızı kərpicdən hörülmüş məzarı ziyarət edir, daşları öpür, əlləri ilə sığal çəkib dualar oxuyurlar.

Yardımlı ərazisində ən qədim inanc yerlərindən biri də Ostayır-Ocaqkənd ərazisindəki **Piraşğa** türbəsidir. Piraşğa türbəsində, yaşlı sakinlərin dediklərinə görə, çox uzaq vaxtlarda seyid nəslinə mənsub hansı təriqətinsə fəal üzvlərindən biri, imamlar ailəsinə yaxın olan qoca bir şeyx dəfn edilmişdir.”Pir”, “şıx”(şeyx), “ağa” sözlərinin birləşməsindən yaranıb, sonralar müəyyən dəyişikliyə uğrayan Piraşğa sözü “Şeyx ağanın piri” mənasında xalq arasında hələ də işlənməkdədir. Türbənin əsl adı Piraşquzdur, Azərbaycan türklərinin, oğuzların, xüsusilə, aşquzların – iç oğuzların adı ilə bağlıdır. Pir və aşquz sözlərindən əmələ gələn Piraşkuz sözü İç oğuz piri anlamında işlənir. Piraşkuz toponimi Zərdüştlüklə əlaqədar yaranmışdır, el arasında “Yel ocağı” kimi tanınır. Piraşğa son Orta əsrlərin yadigarı hesab olunur. Sözün aşquz-aşkuz şəklinə düşməsi bir qədər mübahisəlidir. Ola bilər ki, Piraşğa türbəsi dağın ətəyində yerləşdiyi üçün belə adlandırılıb. Piraşğa sözünü “aşina” və “işıq” anlamında da düşünmək mümkündür. İşıq (od) aşqa-aşğa sözü ilə eyni kökdəndir. Ərazidəki digər qədim yer adlarının da mənşəyi

Zərdüştlik dövrünə gedib çıxır. Bu mənada toponimi "işıq piri" anlamında izah etmək mümkündür. Yolocaq kəndindəki **Pir Məkkə piri** də ziyarət olunan, ümid bəslənilən ocaqlardan biridir. Orta yüzilliklərin tarixi abidəsi sayılan **Şeyx Sultan Seyid Məhəmməd türbəsi** əvvəlki adı Muxuş olan Mişkireyn kəndindəki qəbiristanlıqda, Qabaqdibi kəndinin yuxarı hissəsində yerləşir. Toponim təhrif edilərək (Qovaqdibi) Qabaqdibi şəklinə düşmüşdür. Kənd ərazisində Qovaqdibi adlı bulaq mövcuddur. Yerli əhali arasında buna Kəndbulağı da deyilir. Tədqiqatçıların fikrincə, yaşayış məntəqəsi vaxtilə bu bulağın yanında salındığı üçün kəndin adı Qovaqdibi adlandırılmışdır. Kənd sonralar böyüyərək qonşu Köryədi və Mişkireyin kəndləri ilə birləşmişdir. Bu qəbiristanlıq orta yüzilliklərə aiddir. Türbə sahibinin başdaşı xüsusi sifarişlə hazırlandığından özünəməxsus yaraşığa malikdir. Məzarda əbədi uyuyan Sultan Seyyid Məhəmməd Yardımlıda ilk Şeyx rütbəsi qazanan şəxs olmuşdur.

Yardımlının maraqlı və görməli yerlərindən biri Təkdam şəlaləsidir. ***Təkdam şəlaləsi*** Yardımlının vizit kartı sayılır. Təkdam şəlaləsi Masallı-Yardımlı yolunun 25-ci kilometrliyində yerləşir. Otuz dörd metr hündürlükdən tökülən şəlalə iki mərtəbəlidir. Yuxarıya qalxmaq üçün pilləkən quraşdırılıb. Deyilənə görə, sovet dönəmində bu dağlıq-meşəlik ərazidə, şəlalənin yanında tək gözətçi daxması varmış ona görə də buranı "tək dam" adlandırıblar. Beşmərtəbə deyilən yer Təkdam şəlaləsinin arxa hissəsində, bir neçə kilometr məsafədə, çox çətin coğrafi ərazidə yerləşir. Meşənin dərinliyində beş ayrı dağ mərtəbəsindən tökülən şəlalə bu adla tanınır. Maşınla qalxmaq mümkün deyil, adamlar buraya piyada qalxmalı olurlar. Enişli-yoxuşlu yol insanları yorur, lakin möhtəşəm mənzərə seyrçiləri özünə çəkir. Qayalardakı böyük dəliklər diqqəti çəkir. Bunların kaha (mağara) olduğunu söyləyən yerlilər vaxtilə burada qaçaqların yaşadığını söyləyirlər.

**Yardımlı toponimləri.** Yardımlıda 1 şəhər tipli yaşayış məntəqəsi, 87 kənd var. Bu yaşayış məntəqələrində 80 ümum-

təhsil məktəb, o cümlədən 42 tam orta, 22 ümumi orta, 16 ibtidai məktəb və 1 texniki peşə məktəbi fəaliyyət göstərir. 3 məktəbəqədər tərbiyyə və 5 məktəbdənkənar müəssisə vardır. 89 mədəniyyət obyekti, tarix-diyarşünaslıq muzeyi, uşaq musiqi məktəbi, şəhər və kənd mədəniyyət evləri, kinoteatr, 2 şəhər və 24 kənd klubu, 1 rayon mərkəzi kitabxanası və 57 kənd kitabxanası fəaliyyət göstərir. Rayonda 36 səhiyyə müəssisəsi (1 mərkəzi xəstəxana və 2 kənd xəstəxanası, 17 tibb məntəqəsi və 16 həkim məntəqəsi) vardır. Yardımlının kəndləri bunlardır:

Abasallı
Abbasabad
Abdinli
Alcabulaq
Alar
Anzov
Arus
Arvana
Astanlı
Avaş
Avun
Avur
Bərcan
Bilnə
Bozayran
Bürzünbül
Cerimbel
Çanaxbulaq
Çayüzü
Dağüzü
Daşkənd
Dəlləkli
Deman
Dəryavar
Eçara
Əfçədulan
Əngöül
Ərsilə
Ərvərəz
Əsədabad
Gavran
Gendərə
Gərsəva
Gilar
Gölyeri
Gügavar
Hamarkənd
Honuba
Horavar
Horonu
Xanbulağı
Jiy
Keçələkaran
Köhnə Qışlaq
Köryədi
Kürəkçi
Qabaqdibi
Qaraqaya
Ləzir
Ləzran
Mamılğan
Məceyir
Məlikli
Mirimli
Mişkireyin
Nisəqala
Odurağaran
Osnagaran
Ostayır
Ökü
Peştəsər
Porsova
Perimbel
Separadi
Sırıq
Solgart
Şəfəqli
Şıxhseyinli
Şıxlar
Şilavangə
Şovut

| | | |
|---|---|---|
| Tairli | Ünəç | Yolocaq |
| Telavar | Vəlişli | Zəngələ |
| Teşkan | Vəlixanlı | Zenqaran |
| Tiləkənd | Vərgədüz | Zeynalazir |
| Uragaran | Vərov | Zövin |

***Alılar, Allar, yoxsa Alar?*** Alar kəskin soyuqların mövcud olduğu sərt təbiətli yüksək dağ kəndidir. Dağları başdan-başa kəklikotu üstədir. Burada çoxlu müalicə bitkiləri bitir. Alar abidələr diyarıdır. Mağaralarla zəngin bir yerdir. Kənd Alar çayının (Viləş çayının qolu) sahilində, məşhur "Qız qalası" yaxınlığındadır. Mənbələr Alar ərazisində qədim şəhər mədəniyyətinin olduğunu təsdiq edir. Kənd tarixdə həm də Alar üsyanı ilə tanınır. Alar ərazisidə qədim və orta əsrlərə aid çox zəngin arxeoloji nümunələr aşkar edilmişdir. Alar kəndində daş qutu qəbirlərə dair maddi-mədəniyyət nümunələri tapılmışdır. Çox təəssüf ki, həmin qiymətli mədəniyyət nümunələri təsərrüfat işləri görülərkən yerli sakinlər tərəfindən əhəmiyyət verilmədən dağıdılmışdır. Alar Qız qalası bölgənin ən məşhur tarixi abidəsidir. Buradakı **Söhbət daşı** adından məlum olduğu kimi, camaatın söhbətləşmək üçün toplaşdığı daş olub. **Xan daşı** xanın oturub dincəldiyi, ətrafı seyr etdiyi və qəlyan çəkdiyi yer olub. Daşın üstündə qəlyan oyuğu deyilən izlər var. **Qadın heykəlləri, Dəvə karvanı, Goreş qəbiristanlığı, Baba Pirəli piri, Dəvəboynu** kimi abidələr nəsillərin nəsillərə yadigarıdır.

Alar türk tayfasının adıdır. Xalq ehtimalına görə, İrandan gəlib burada ilk binə salan Alı xan və övladlarının şərəfinə əvvəlcə Alılar adlandırılıb. Sonra Allar və nəhayət, Alar formasına düşüb. Rövşən Süleymanov yazır ki, bu ərazilərdə Alar xanı yaşayıb, qızını məşhur din xadiminə verib. Sonra da coxlu mal-qara verib kürəkəninə, Şıxhüseyn kəndi ordan yaranıb. İndi bu kəndlərin mal-qarası azalıb. Vaxt olub, burda xanların bişirdiyi plovun həlimini yığmaq üçün çay aşağı insanlar düzülürmüşlər. Aclıq vaxtı bu ərazilərdə bolluq olub, var-dövlət cox olub, İran

şahlarından təsdiqlənmiş şəcərə möhürləri var imiş. Toponimi eyni zamanda Şahsevən tayfalarından olan alarlılar ilə də bağlayırlar. Alar toponimi ilə bağlı Şahlar Məmmədovun apardığı araşdırmalar da maraqlıdır. Bu söz türkcədə al – "qırmızı" və ar/ər komponentlərindən ibarət olub "qırmızı rəngli (dərili) ərənlər" mənası verir. Bundan başqa, alar türk dillərində "hündür yer" mənasındadır. "Kitabi-Dədə Qorqud" dastanlarında alar, alan sözləri də bu mənalarda işlənmişdir: a) alan-hündür mənasında: "Qazan gög alan çəmənə çadır dikdirdi"; b) alan-sabah, sübh tezdən mənasında: "Alan sabah yerindən turan qızlar". "Alan" sözünün "alar" (Alar-sabah, sübh tezdən mənasında) variantına da təsadüf edilir: "Alar sabah Dərsə xan yerindən uru turdı", yaxud: "Alar sabah sapa yerdə dikiləndə ağ ban evli". Altay sözü mənbələrdə Alatau şəklində qeyd olunur ki, bu da "uca dağ" anlamındadır. Lakin Alar toponiminin etnooykonim olması fikri daha inandırıcıdır. Aları monqol yürüşlərində (XIII əsr) iştirak etmiş türk-monqol mənşəli oyrot tayfasının bir qolu da sayırlar. XIX əsrin ortalarında alarlar canşalı (cahanşahlı) tayfa birliyinə daxil idilər. Q.Qeybullayev arxiv materiallarına istinad edərək göstərir ki, Canşalı tayfası (cahanşahlu) allar adlanırdı və Lənkəran bölgəsində yaşayırdı.

1947-1953-cü illərdə 32 kənd deportasiyaya məruz qaldığı üçün indi yardımlıların böyük bir hissəsi bütün cənub rayonlarında yaşayırlar. Stalin dönəmindəki bu siyasətin məqsədi İranla olan coğrafi yaxınlıqdan ərazinin təhlükəsizliyini qorumaq idi. Alar da repressiyaya məruz qalan kəndlərdəndir. Buranın sakinləri toplu halda Cəlilabad rayonuna köçürüldülər. Cənuba aparan yol Alar kəndinin içindən keçir.

Alar kəndi uzunmüddətli tarixi mədəniyyətə malikdir, yarandiği əsrdən dövrümüzə qədər kənd, öz sayılıb-seçilən mədəniyyətini nəsillərdən-nəsillərə ötürmüşdür. Kəndin sakinləri həmişə öz ayıq-sayıqlığı, qonaqpərvərliyi, iradəliliyi, mərdliyi və hünərliliyi ilə ön sıralarda öz yerini tutmuşdur. İnsanlar tarix

boyunca kəndin adət-ənənələrini qoruyub saxlamış və nəsillərdən-nəsillərə ötürmüşdür.

Sözaçımı müxtəlif yerə yozulan toponimlərdən biri Bozayrandır. İman Sadıyev yazır ki, **Bozayran** boz (quş) və ayran (ayıran) sözlərindən yaranıb, quş ovlağı deməkdir. Bu sözün digər yozumu kəndin uzaqdan görünüşü ilə bağlıdır, bu yozuma görə, Bozayran - bozaran, boz rəngdə olan deməkdir. Kəndin adının qədim türk tayfası ilə bağlı olduğunu da söyləyirlər. Kənd “Çur-Çur” deyilən yerin ətrafında salınmışdır.

**Burzunbul (Bürzünbül)** Viləş çayı sahilində, Peştəsər silsiləsinin yamacında kənd adıdır. Kənd orada mövcud olmuş Top türbə Pirzünbül pirinin adındandır. Toponim iki hissədən- Pir və sünbül sözlərindən ibarətdir. Əski çağlardan bu günə kimi, əsasən ehtiram və “niyyət” əlaməti olaraq, Pirə, Ocağa nəzir qoyulur. Həmin nəzirlər arasında çörək, bugda, sünbül başağı da olmuşdur. Yerli əhali arasında kəndin adını “düyü, çəltik yeri” kimi də izah edənlər var. Lakin buna qədər də kəndin adı Burzumbuli (“pir sünbülü”) idi. Astara rayonunun Burzubənd kəndi vardır, əsl adı Barzabənd şəklindədir. Toponim barz (uca, hündür, yüksək) və band (dağ, təpə) sözlərindən ibarət olub “hündür təpə” mənasındadır. Göründüyü kimi, oykonimlər fonetik cəhətdən uyğunluq təşkil etsə də, mənaca heç bir yaxınlığı yoxdur.

Yardımlı toponimləri arasında maraq doğuran yer adlarından biri də **Deman** yaşayış məntəqəsidir. Deman düzü, Deman yaylası adla deyilir. İran İslam Respublikası ilə sərhəd bölgədə yerləşir. 1953-cu ildə Sovet hökuməti sərhəd bölgələrdə “öz təhlükəsizliyini“ təmin etmək məqsədilə Deman yaşayış məntəqəsini ölkəmizin digər bölgələrinə köçürmüşdür. Yerli əhalinin dilində Deman sözü “dəmyə yerlər”, “suvarılmayan əkin sahələri” kimi yozulur. Mehdi Həsənovun fikrincə, yaşı antik çağlardan hesablanan Moran, Pankü, Deman, Avaraq, Ərvərəz, Şişnavar kimi qədim toponimlər Respublikamızda mövcud olan ən ulu coğrafi adlarla bir sırada durmaqdadır. Deman düzü dəniz səviyyəsindən 1600-1800 metr hündürlükdə olub, hun xaqanı,

şöhrətli sərkərdə Metenin babası Teomanın adı ilə yaxından səsləşir. Mənbəyini Deman düzündən götürən Viləşçayın sol sahilindəki coğrafi adların, demək olar ki, əksəriyyəti təmiz türk mənşəli olub, yurdun qədim çağlarından xəbər verir. İlicur, Cərcəbil, Avaraq, Gilar, Bolqarçay, Moran belə toponimlərdəndir. Deman sonralar tayfa və şəxs adlarına keçmişdir. Təbiətlə daim təmasda olan türk elatları dumana ikili münasibət göstərmişlər. Duman bir tərəfdən hər yanı bürüdüyünə, görmədə çətinlik yaratdığına və insanları çöllərdə azdırdığına görə yamanlanmışdır. Duman digər tərəfdən insanlara xoş ruhiyyə bəxş etmiş, torpağa nəmlik gətirib otları göyərtdiyi üçün əziz tutulmuşdur. F.Rəşidəddin yazır ki, Qayı İnal xan öləndən sonra onun oğlu olur. Bayat boyundan olan Korqut və Erki razılığa gəlirlər ki, ona Tuman, yəni Duman adı qoysunlar. Divan adamları etiraz edib bildirirlər ki, duman tutqunluqdur. Bu ad xan oğluna yaramaz. Korqut deyir ki, düzdür, dumanda ətrafı seçmək olmur. Ancaq o, nəmlik gətirir, otları göyərdir. Duman çəkiləcək, otlar göyərəcək, sürülər çoxalacaq. Uşağa Tuman adı verirlər. Qaynaqlarda Tuman-Duman antroponiminə tez-tez rast gəlinir. Məsələn, Metenin atası Tuman, türklərin özlərinə ilk ata saydıqları Aşinanın nəvəsi Tümen, Misirin məmlük sultanı Əşrəf Tuman bəy, XVI əsrdə Çobanilərin Kor Duman adlı şahı belə yaranmışdır. Tuman (Duman) tayfa adı kimi də qeyd olunur. A.Bakıxanov yazır ki, Sasani şahı Anuşirvan Dağıstanda Tuman tayfasından gözətçi dəstəsi qoyub, ona tabe olan yerləri Tuman şah adlandırdı. Həmin şahlıq Səməndər, Sulak, Balk, Tarku qalalarını əhatə edirdi. S.Onullahi Təbriz şəhərində XIV əsrə aid Tuman əkə məqbərəsinin olduğunu yazır. "Kitabi-Dədə Qorqud"da Qazan xanın Tumanın qalasında dustaq olduğu bildirilir. Sonradan gürcülər Duman qalasının və mahalının adını Dmanisi şəklinə saldılar. Duman tayfasının Qafqazda məskun olduğu yerlər bir qala ilə məhdudlaşmırdı. İ.Cəfərsoylu dumana tapınan türklərin Orta Anadolunun qədim sakinləri olduğunu yazır. Türkiyə ərazisində yaşayan Duman etnosu güclənəndə Orta Anado-

luya yayılmış, zəifləyəndə Qafqaz dağlarının ətəklərinə çəkilmişdir. “Kitabi-Dədə Qorqud” qəhrəmanlarının miladdan çox-çox öncəki hadisələrlə bağlılığı Deman, Arus, Ərsilə, Məlikli toponimlərinin yaranma tarixinin də qədim olduğunu göstərir. Türk qövmü ilə bağlanan toponimlərdən biri Honubadır. İsmayıl İsmayılov yazır ki, **Honuba** kəndi qədim Hun türklərinin adını yaşadır. Kəndin adı Hun və oba sözlərindən yaranmışdır, hunların yaşadığı oba anlamına gəlir.

Yardımlının **Ləzir və Ləzran** toponimləri də maraq doğurur. Ləzir yaşayış məntəqəsi 1918-1920-ci illərdə keçmiş binə yerində salınmışdır. Keçən əsrin əvvəllərində Lənkəran qəzasında Ləzran adlı iki kənd və Ləzir adlı bir köçəbə qeydə alınmışdır. Ləzir və Ləziran orand tayfasına məxsus tirənin adıdır. Bəzi yozumlara görə, Ləzir-ləc yer (sucaq), Ləzran-ləc və İran dillərində ran-yer mənasındadır. Yardımlıdakı Ləzir və Ləzran oykonimləri tayfa adından yaranmışdır. Ləzran toponimi ləzir tayfa adı və an cəmlik şəkilçisindən ibarət olub, ləzirlər, yəni ləzir tayfası anlamındadır. Ləzran Yardımlının 1953-cü ildə deportasiya edilmiş kəndlərindən biridir. Cəlilabad rayonundakı Ləzran kəndi həmin bölgədəki ləzir (orand) tayfasının adıyla bağlıdır. Bu tayfanın adı Lerik rayonunun Pirəsora inzibati ərazi vahidində Bilnə çayı sahilindəki Orand məntəqəsinin adında qalmışdır. Mənbələrə görə, XIX əsrdə Lənkəran qəzasında maldarlıqla məşğul olmuş orandlar 3 qoldan ibarət idilər. Onlar qışı Muğanda, yazı isə Talış dağlarında keçirirdilər. Orandların birinci qolu Ləzran, ikinci qolu Orand, üçüncü qolu isə Nuravud kəndlərini salmışdılar. Zeynələzir yaşayış məntəqəsinin adı da ləzirlərlə bağlıdır. Zeylələzir-Zeynələzir “aşağıda, ətəkdə yerləşən ləzirlər” mənasındadır. Yardımlıda Girdə Ləzir adlı toponim də var. Mehdi Həsənov Girdə Ləzir, Ləzran, Ləzir, Zeynələzir toponimlərinin eyni kökdən yarandığı qeyd edir.

Yozumu xalq etimologiyasına əsaslanan toponimlərdən biri **Ostayır** adlanır. Rəvayətə görə, Ostayır “ustalar yurdu” deməkdir və burada yaşamış Usta Tayırın (Tahirin) adıyla bağlıdır.

Mehdi Həsənov yazır ki, xalq yaddaşında yaşayan və heç vaxt da unudulmayacaq bir rəvayətə görə, əsli Ocaqkənddən olan bir nəfər – Tahir adlı ağac ustası qohum-əqrəbasından ayrılıb kəndin qabağındakı təpənin üstündə məskən salıb. Usta Tahirin nəsli çoxaldıqca təpənin üstündəki evlərin sayı artmağa başlayıb. Bu iki kəndi bir-birindən fərqləndirmək üçün yeni salınan kəndə onun ilk sakini Usta Tahirin şərəfinə Usta Tahirli adı verilib. Bu ad zaman keçdikcə dəyişilərək Ostayır şəklinə düşüb. Usta Tahirin vəsiyyətinə görə, onun övladları əkinçilik və maldarlıqla yanaşı, başqa sənəti də öyrənməliydilər. Sonralar həmin nəsildən çıxan qızların, gəlinlərin toxuduqları xalı, fərş, palaz, xalça, kilim adla deyilirmiş. Maraqlı burasıdır ki, Ostayır kəndinin və eləcə də Ocaqkəndin köhnə qəbristanlığındakı başdaşılarının çoxunda xəncər, balta, kuzə, tüfəng, kürək, həvə, şan, xış, iynə-sap şəkilləri həkk edilib. Bəzi başdaşılarında rəqs edən qız, balabançı, aşıq şəkilləri çəkilib. Bu yolla qəbir sahibinin peşəsini müəyyən etmək olur. Bu həm də kənddə dəmirçiliyin və dulusçuluğun inkişafını göstərir. Çoxlu sənətkarları olan Ostayır bu gün də ustalar yeri, ustalar yurdu, ustalar kəndi kimi tanınır.

**Pirembel** Viləş çayının sahilində, Sarıqaya dağının yamacındadır. Pirembel tayfasından Adnalı, Babalı, Lütfəlikənd, Ocaqlı, Məlikqasımlı, Mahmudbəyli, Atamxanlı və Kürəkçi yaranmışdır. Pirembel tayfasının böyük hissəsi panavand adlanırdı və XIX əsrin II yarısında 64 ailədən ibarət idi. Onlar aşağıdakı qollara ayrılmışdır: Ocaqlı, Hacı Tapdıq qışlaq, Sadiqli, Hacı Mustafalı və Fərzullaqışlaq. Cəlilabaddakı Şötüklü kəndi də bu tayfadan yaranmışdır. Yerli əhalinin məlumatına görə, yaşayış məntəqəsini pirembel tayfasından olan Şötükxan Göyçə oğlu adlı bir nəfərə məxsus ailələr saldığına görə belə adlanmışdır. Azərbaycan dilinin dialektlərində şötük/şötix “dəvənin belinə bağlanan enli ip, örkən” mənasında işlənir. Oykonim Şotuqlu variantında da qeydə alınmışdır. Cəlilabaddakı Ocaqlı (əsl adı Ocaqqulu) kəndi də pirembel tayfasından yaranmışdır. XIX əsrin ortalarında Pirembel kəndindən çıxmış ailələrin Avaş adlanan yerdə məskunlaşması

nəticəsində **Avaş** kəndi yaranmışdır. Türk dillərində və monqol dilində ab/av (aş) sözü "qoruq", "uzaq", "yaşayış məskənindən kənar", "boş yer", "sakitlik" kimi izah olunur. Abaş/Avaş adı çox güman ki, xəzər və peçeneqlərin tərkibindəki avaz/abaz/abas tayfasının bir qolunun adı ilə bağlıdır. Pirembel sözü iki hissədən – Piron-Piran-Peron və bel komponentindən ibarətdir. Şübhə etmirik ki, peron, firon və piramida sözlərindəki per-pir leksemi pir sözündən yaranmadır. Deməli, pir həmin söz köklərinin ən qədimi olub "Tanrı", "Müqəddəs" mənasındadır. Bel komponentinə gəldikdə isə müxtəlif yanaşmalar mümkündür. Bel-bil mənbələrdə "sərhəd", "çöl", "kənar", "müqəddəs", "tanrı", "uca" və tayfa adı mənalarına gəlir. Ərbil və Ərdəbil toponimindəki bil sözü bel komponenti ilə eyni anlamdadır. Pirembel sözü "Tanrıya iman gətirənlər" mənasındadır. Müqəddəs övliyalar, seyyidlər nəsli olan məşhur Pirembel tayfası onun mənşəyi ilə bağlı fikirləri bir daha təsdiq edir. Perimbelin əsasının IX_X yüzilliklərdə qoyulduğu güman edilir, ilk adı Xəlfəli olub. Kənd qəbiristanlığında dəfn olunmuş seyidlərin məzarları və bu məzarların üzərində Salınan türbələr camaatın inanc yeri – ziyarətgahdır. Perimbel həm də abidələr diyarıdır.

Kəndin tarixi abidələrdən biri **Elçi daşıdır**. Elçilər keçmişdə kənddə kiməsə elçi düşdükləri zaman burada otürarmışlar. Elçi daşında birilərinin oturduğunu görən kənd ağsaqqalları buraya gələr və ondan sonra elçilərin niyyətinə görə hərəkət edərmişlər. Əsasən, qız istəməyə gələnlərin oturduğu daş imiş. Ağsaqqallar yığışaraq buradan elçilərin istəməyə gəldiyi qızın evinə yollanarmışlar. Kənddə diqqət çəkən obyekt dağın başında, təxminən 1600 metr yüksəklikdəki möhtəşəm məsciddir. Məscid bir neçə il əvvəl iranlı ustalara tikdirilib. Kənddəki ən məşhur tarixi-dini abidə Mirqiyas ağa türbəsidir. Bütün kənd bu imam nəvələrindən törədiyinə görə, hamısı seyid nəsli sayılır. Adının mənası yüksəklikdə yerləşən ocaq kimi izah edilir. Perimbel tayfa adıdır. Kəndlilər hamısı bir kişinin nəsli olduğuna inanırlar. Tək nəsildən törəmək məsələsi də bu torpağın müqəddəs olması ilə izah edilir.

**Pirdodan (Pirdovan)** 1933-cü ildə köçürülmüş kəndlərdən biridir. İranla sərhəd ərazidə salınmışdır. Hazırda həmin kənddə yaşayış yoxdur. Toponimin əvvəlki adı Pirdovan/Pirdövlan olub. Yardımlı ərazisində Pirdovan dağı da mövcuddur. Dağ adını ərazidəki pirin adından almışdır. Tədqiqatçlara görə, pirin adı qıpçaqların tərkibində Azərbaycana gəlmiş duvan tayfasının adı ilə bağlıdır. Keçmiş adı Pir Davidan olmuşdur. Yaşayış məntəqəsi oradakı pirin (Pir Davidan) adıyla adlandırılmışdır. Tədqiqatçıların fikrincə, oykonim Pir Cavidan (xürrəmilərin ilk başçısı) adının yerli əhali tərəfindən təhrif edilmiş formasıdır. Bəzi tədqiqatçılar isə oykonimi türk dillərində topdan (sıldırım qaya, dik yamac) coğrafi termini ilə əlaqələndirir.

Coğrafi adlar içərisində mənşəyi mübahisə doğuran yer adlarından biri də **Porsovadır**. Porsovalılar təbii şəraitinə, həm də yaxınlıqdakı pirə görə buranın müstəqil "pir" və "səfa" sözlərinin birləşməsindən yarandığı qənaətindədirlər. Kəndin adı "Pirsəfa", yəni "səfa piri" anlamını daşıyır. Piri ziyarət edənlər, ilk öncə, orada səfa olduğunu güman edirlər. Bunları nəzərə aldıqda, yuxarıda deyilənlər bizi başqa cür düşünməyə sövq edir. Azərbaycanın cənubundakı Muğan əyalətində əhalisi türklərdən ibarət olan Parsabad şəhəri mövcuddur, anlamca "parsların abad etdiyi yer" deməkdir. Buna görə də "Porsova" sözünün "Parsoba"nın təhrif olunmuş şəkli olduğunu düşünmək olar. Porsova oykonimini yerli əhali Porsoy kimi tələffüz edir. Xalq Pirsoy adını Porsoy şəklinə salıb. Yerli əhali kəndin əsasının yaxınlıqdakı Televar yaşayış məntəqəsindən köçüb gələn sakinlər tərəfindən salındığını qeyd edir. Porsova oykonimi Pir- sava yaxud, Pir-sobu şəklində izah etmək olar. Sava sözü dilimizin dialekt və şivələrində və bəzi türk dillərində "soyuq, sərt hava şəraiti" mənasındadır. Bu fikrə görə, Porsova-Pirsava "Sərt hava şəraitində dəfn edilmiş pir" anlamındadır. Pir sözünün ikinci komponentini sobu (Pirsobu) şəklində də izah etmək mümkündür. Cənubi Azərbaycandan bir ailə də həmin kəndə köçüb gəlmişdir. Əgər bu cənubdakı Sobu kəndidirsə, eyni oykonimin

Pirsoy və Pirsobu şəklində adlandırılması da həmin miqrasiyadan yaranmışdır. Yerli əhali Pir-soy, yaxud Pir-sova, sonradan gələn ailə isə Pir-sobu adlandırılmış və oykonim sonralar fonetik cəhətdən təhrif edilərək, Porsova şəklinə düşmüşdir. Kəndin düzgün adı Pirsoydur.

Yardımlı ərazisində yer adlarından biri də **Sivdaş** adlanır. Bir müddət Göytəpə mərkəz olmaqla ətraf ərazilər Cəlilabad və Yardımlı rayonlarının ərazisi bütövlükdə və Biləsuvar rayonunun bir hissəsi Bolqarçayın sağ sahilindəki ərazi Sebidaş və yaxud Səfiddaş polis idarəsinə tabe idi. Bu adın bölgədə müxtəlif fonetik variantlarına rast gəlirik: Sufidəşt/ Sefiddaş/ Səfiddaş/ Sebidaş/ Sebican. Yardımlı ərazisində pir və ocaqların geniş yayılması daha çox sufilik və qızılbaşlıqla bağlı olub. Bu təriqət Səfəvilər sülaləsinin süqutundan sonra tədricən unudulmuşdur. Bu ərazilər Sufidəşt (dəşt- səhra, çöl, ərazi - Sufilərin yaşadığı ərazi) adlanmışdır. Söhbət bu bölgədə mövcud olmuş sufi təriqətindən gedir. Bu təriqətin ideyalarını yayanlar Sufi dərvişləri adlanırdı. Dərvişlərin dəfn olunduğu yerlər sonralar ziyarətgahlara çevrilmişdir.

Göytəpə vaxtilə Lənkəran qəzasının Sebican (Sivdaş) vilayətinə daxil olaraq, Azərbaycanın cənub bölgəsinin ən strateji yaşayış məntəqələrindən biri olmuşdur. Türkmənçay müqaviləsindən sonra Sufidəş//Səfiddaş//Göytəpə bölgəsinin inzibati mərkəzinin adı dəyişdirildi, mərkəz Prişib-Pravoslavnoye kəndinə köçürüldü. Ruslaşdırma siyasəti nəticəsində bir vaxtlar adı Göytəpə ilə yanaşı çəkilən Sufidəş təriqətçilərin sufi dünyagörüşünə son qoyuldu.

**Solqard** Ağçayın sahilində, dağətəyi ərazidədir. Keçmişdə Solqar adlanırdı. Həmin rayondakı Anzov kəndindən köçüb gəlmiş ailələrin Solqar(d) adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır. Tədqiqatçıların fikrincə, Solqard-talış dilində solo və qard sözlərindən olub “yuxarı qalxmağa imkan olmayan yer”, “tozlu yol” mənasında izah olunur. Lakin belə deyil. İndiki Solqard adlanan ərazidə Solqar adlanan yer olmuşdur. Deməli,

toponimin izahını qədim türk dilində axtarmaq lazım gəlir. Toponimin tarixən təqribən bu şəkildə günümüzə gəlib çıxdığını gümün edirik: Sal-qarta//Sal-qarti//Sol-qar//Sol-ğard//Solqard. Soqarti sözünün türk mənşəli olduğunu demək olar. Dilimizdə sal sözünün "iri, bərk lay daş" mənası da vardır. Qard isə qədim türk dilindəki "dərə" mənasında işlənmiş qarti sözü ilə bağlıdır. Güman ki, oykonimin tərkibindəki sol/sal - etnonim adıdır və hun tayfalarından olan "sal"la əlaqədardır. Q.Qeybullayev yazır: Çox güman ki, salların bir hissəsi avarların tərkibində Zaqafqaziya ərazilərinə yayılmışlar. Sal tayfasının adı bir çox toponimlərdə qalmışdır. Salyan şəhəri adını hun tayfalarından olan saldan götürmüşdür. Qaynaqlarda sal sözü həm də tarixi şəxsiyyət kimi göstərilir. Məlumdur ki, Oğuz qağanın hər bir oğlundan dünyaya dörd oğul gəlir və bundan sonra oğuz nəsli, sülaləsi yaranır. Dağ xanın oğlanlarının adları aşağıdakılardır: Salur qazan, Eymur xan, Alaüntülü xan, Üregür xan. Sallarla bağlı olan Salur sözü "Kitabi-Dədə Qorqud" dastanlarında da qeyd olunur: "Bir gün Ulaş oğlu Tülü quşun yavrısı, bizə miskin umudı, Amit soyının aslanı, Qaracuğın qaplanı, Qonur atın iyəsi, xan Urızın ağası, Bayındır xanın göygüsü, Qalın Oğuzın dövləti, qalmış yigit arxası Salur Qazan yerində turmuşdı". Sal sözü "çay", "çay kənarı", "su" mənalarında da işlənir. Solqard sözü türk dillərində "Çay qırağı ərazi" mənasındadır. Həqiqətən də həmin kənd çayın yaxınlığında yerləşir. Sal sözünün tarixi şəxsiyyət və oğuz şəcərəsi ilə bağlanılmasını nəzərə alsaq, Solqard oykoniminin "Sal tayfasına məxsus dağlıq ərazi", yaxud "sallar yaşayan ərazi" mənasında olduğunu görmək mümkündür.

Burovar silsiləsinin ətəyində yerləşən kəndlərdən biri **Televar** adlanır. Bu oykonim ərəbcə "tel"-təpə, kurqan, "var" isə yer, tərəf sözündən olub, " təpə yeri" mənasındadır. Bəziləri də tıle (qızıl), "qızıl yer" kimi qəbul edir. Televarın "qızıl yer" adlandırılması kəndin müqəddəs şəcərəsi ilə bağlı ola bilər. Porsovada Tiləkənd yaşayış məntəqəsi də var. Bir varianta görə, oykonim talış dilində "gilli, palçıqlı ərazidə salınmış yaşayış

məntəqəsi” mənasındadır. İkinci varianta görə, til sözü Azərbaycan dilində “kənar, qıraq” deməkdir. Tiləkənd “kənar kənd” mənasındadır. Tilə sözü Tülə-Tülü tayfa adlarına çox yaxındır. Bu etnotoponimə Azərbaycanın ərazilərində rast gəlinir: Tülər (Qubada dağ və kənd adı), Tülü (Balakəndə kənd), Tülallar (Xanlarda kənd), Tülüconi (Lerikdə kənd), Tülücon-Tilcon (Yardımlıda yer adı) adlı toponimlər vardır. Tülü sözü ilə yaranan toponimlər qədim türkdilli dulu tayfasının adı ilə bağlıdır. Qırğızlarda tolo adı indi də mövcuddur. Tiləkənd və Televar toponimlərinin kökü eyni anlamda olub, oğuz tayfasına mənsubdur. Toponimin Tele+var variantı daha inandırıcıdır. Azərbaycanda qədim tele etnoniminin “dəli” (Dəllər və Dəlilər) şəklində mövcudluğu da bildirilir. Türklərin yaşadığı bütün bölgələrdə tele tayfası ilə bağlı toponimlər vardır. Telə etnonimi Teli (qaraqalpaq), Tilev (qazax), Tileu (özbək), Teleu (başqırd), Telev (qırğız), Tele (noqay) və müasir Altaylarda Teleut/ Telenqut və Teles şəklində qalmaqdadır. Telə etnonimi Monqolustanda Teli hidronimində, Altayda Dele və Qazaxıstanda Tele-kol coğrafi adlarında qalmışdır. Tilə toponimi qədim türkcə tilkə “hissə”, “torpaq sahəsi”, “zolaq” deməkdir. Tiləkənd və Televar toponimləri qədim türk dilində “ geniş torpaq sahəsi olan yer” mənasındadır. Lakin Yardımlı oykonimlərindəki tilə sözünün etnotoponim olması daha inandırıcıdır. Hər iki toponim (Tiləkənd, Telavar) “Tilə tayfasına məxsus yer” mənasındadır. Mənbələrdə d-t keçidi ilə türkmənşəli dalay (tayfa adı) və talay, tele (ut) Mərkəzi Asiyada tayfa adlarına rast gəlinir.Telelər VII-VIII yüzilliklərdə tokuz-oğuz adı ilə də adlanmışlar. Qıpçaqların və xəzərlərin tərkibində Azərbaycana gəlmiş telelər dəlilər-dəllər variantında bir çox coğrafi adlarda öz izlərini saxlamışdır.

Viləş çayının sahilində, dağətəyi ərazidə yerləşən yaşayış məntəqələrindən biri **Şovut** adlanır. Mənbələrə görə, oykonim 1917-ci ildə Şout, 1933-cü ildə Şüvid variantında qeydə alınmışdır. Tədqiqatçılar Şovut toponimini “şadlıq bəxş edən yer”, “pöhrələnən yer”, “geniş ön” kimi izah edirlər. başqa bir varian-

ta görə, bu toponim qədim tayfa adını özündə əks etdirir. XIX əsrə aid məlumata görə, kəndin əvvəlki adı Culut olmuşdur. Tədqiqatçılara görə, Culut monqol işğallarında iştirak etmiş sünnit tayfasının adının təhrifə uğramış formasıdır. XX yüzilliyin birinci yarısında rəsmiləşdirilmiş Şout/Şovut kəndi Culut sözünün təhrifi nəticəsində yaranmışdır. Şovut/ Culut "culutlar yaşayan ərazi" mənasındadır.

Rayonun **Ökü** toponimi haqqında da müxtəlif fikirlər var. Mehdi Həsənov yazır ki, ökü sözü əvvəllər azərbaycanlıların ulu əcdadlarının adını bildirən oğuz sözünün qədim şəklidir. Okuz kimi, sonralar isə Oku və ya sözün son samitinin düşməsi, həm də saitlərin incələşməsi nəticəsində Ökü formasına düşmüşdür. Xalq yaddaşında isə Ökü "ov" və "kuh" dağ sözlərindən əmələ gəlib "ov dağı" mənasında anlaşılır. Lakin digər tədqiqatçıların ehtimalına görə, yaşayış məntəqəsinin adı bəzi türk dillərindəki "mağara, zağa" mənalı ükü sözündəndir. Anzov türkcədən "xan soylu", "xan nesilli" demekdir.

**Yardımlı folklorunun əsas istiqamətləri.** Yardımlı folklorunun regional özəllikləri kompleks halda araşdırılmamışdır. Lakin folklorun ayrı-ayrı janrları üzrə toplama materialları mövcuddur. Bölgə folklorunun toplama və araşdırma istiqamətləri, qismən də olsa, Mehdi Həsənov, Təbiət Tanrıverdiyev, Şahlar Məmmədli, Ələsgər Cəfər kimi toplayıcıların yazılarında özünə yer almışdır. Onların toplayıcılıq fəaliyyəti bölgə lətifələrini, nağılları, mifoloji rəvayətləri, toponimlər haqqında xalq yozumlarını, əfsanələri, nəğmələri və lirik növün digər janrlarını əhatə edir. AMEA Folklor İnstitutunun arxivində saxlanılan materiallar və 2013-cü ilin yay ekspedisiyaları Yardımlıda zəngin folklor mühitinin mövcudluğundan soraq verir. 1987-ci ildə Nizami adına Ədəbiyyat İnstitutunun Folklor şöbəsi Yardımlıya İsrafil Abbaslı, Bəhlul Abdulla və Elxan Məmmədlidən ibarət toplayıcı qrup göndərmiş, əldə olunan nümunələri arxiv materialı kimi qoruyub saxlamışdır. Yardımlı folklor bölgəsi tarixi və coğrafi mövqeyinə görə Azərbaycan folklorunun tam öyrənilmə-

miş sahəsi olaraq qalır. Bölgənin coğrafi təsviri, əhalinin məşğuliyyəti, etnoqrafik özəllikləri folklorda da öz əksini tapır. Daha doğrusu, Yardımlı folklorunun janr və növ istiqamətlərini, mövzu və məzmun çalarlarını xalqın təsərrüfat və məişət həyatı müəyyən edir. Yer-yurd adlarının xalq etimologiyası, toponimlərin yozumları və elmi sözaçımları bölgənin etnik mənşəyinin türk əsilli, Oğuz mənşəli olduğunu üzə çıxarır.

Bölgəyə məxsus folklor mətnləri təkcə yer-yurd adları ilə bağlı nümunələrdə deyil, kifayət qədər sanballı janrlarda - əfsanələrdə də özünü göstərir. Qız qalası və Oğlan qalası əfsanələrində bunun bariz nümunələrinin şahidi oluruq. Bölgəyə uzun müddət elmi-texniki inkişafın nəticələri tətbiq olunmadığından Yardımlı folklorunu xüsusi folklor məclisləri yaşatmışdır ki, buraya toyları, nişan gecələrini, qız toylarını, yas mərasimlərini, nağıl gecələrini, ifaçı aşıq yığnaqlarını daxil etmək olar. Folklor söyləyiciləri müxtəlif səviyyəli olmuş, peşəkar və qeyri-peşəkar kimi iki böyük qrupa bölünmüşdür. Peşəkarlar sırasına toy şənliklərinin təşkilatçıları olan qadınları və yas mərasimlərinin təşkilatçıları olan ağıçıları aid etmək olar. Aşıqlar da bu qrupa daxildirlər. Qeyri-peşəkarlar lətifələr, bayatı, kürdü deyənlər və başqalarıdır. Yardımlı rayonunun Alar kənd sakini, 1928-ci il təvəllüdlü, savadsız Rəhmanova Dodogül (Bibigül) Şıxhüseyn qızından yazıya alınmış kürdülər həm məzmununa, həm də formasına görə maraq doğurur. Maraqlıdır ki, nəğmə şəklində söylənilən kürdülərin mahnıbaşısı olmur və onlar bayatıya bənzəsələr də, misralarının sayına görə ondan fərqlənirlər:

Gəlin gəlir, haçan gəlir?
Sirr sözümü açan gəlir.
Gecə oğlumun mollası,
Gündüz yazı yazan gəlir,
Ay Allah, pərgarımı pozan gəlir.

Qapuzda hovuz,
Tuman al mənə.

Yaşıl qanovuz,
Tuman al mənə.
Geyim sallanım,
Sən də bax mənə.

Bazarda maşa,
Bəg oğlu Paşa.
Bazara bir çit gəlib,
Gülləri qoşa.
Onnan mənə almason,
Gəl, məni boşa.

Kürdü boynuna, ətəyinə, yaxasına və qol yerlərinin kənarına xəz tikilmiş üst geyimidir. Kürdünağırı adlı yallı tərzində oyun havası da var. Kürdü bəzən hay-küylü musiqi havasına da deyilir. Kamançada ifa olunan lirik musiqi növlərindən biri kürdü adlanır. Azərbaycan klassik musiqisində bu adda muğam şöbələri mövcuddur. Bölgədə kürdü sözü cəsur, igid mənasında işlənir, kürdü havası da cəsurlar, igidlər üçün səslənmişdir. Kərbəlayı Həvəs İmpirat qızı Əsgərovanın söylədiyi "Gəlinlər üçün kürdülər" digər kürdülər kimi quruluşuna görə bayatıdan fərqlənir:

Xara tuman səkkiz qat,
Dördün saxla, dördün sat.
On iki uşaq anasıyam,
Ey üç uşaq anası,
Nədən oldun ikiqat?!

Yardımlıdan toplanılan aşıq ədəbiyyatı nümunələri azlıq təşkil edir ki, bu da bölgədə peşəkar, ustad aşıqların deyil, ifaçı aşıqların yaşaması ilə bağlıdır. **Aşıq Həsən Sahratovun** şeirləri 1987-ci ildə toplanmışdır. Yardımlı rayon tarix-diyarşünsalıq muzeyinin direktoru Əli İsgəndərovun verdiyi məlumata görə, Aşıq Həsənin yaradıcılıq nümunələrinin xeyli hissəsi toplanmış dəftər itmişdir. Aşıq Həsən Sahratovun "Qadan alım" qoşmasında deyilir:

Gəzdir barmaqları tellər üstündə,
Sədəfli sazını çal, qadan alım.

Bu dostlar əyləşən el məclisində
Zilini bir bəmə sal, qadan alım.

Beşgünlük dünyanın qalma qeydinə,
Dövlət toplamağın düşmə meylinə.
Demə, kasıblıqdır, düşüb püşkümə,
Salma ürəyinə xal, qadan alım.

Həsən ilə gəzsən eşqin bağında,
Biri durar solu, biri sağında.
Gecənin qarıyıb keçən çağında
Bir məni yadına sal, qadan alım.

Ələsgər Cəfər "Musiqi tariximizdən" adlı araşdırmasında yazır ki, Aşıq Həsən bütün dastanlarımızı əzbər bilirdi. Aşıq Alı, Aşıq Ələsgər, Tufarqanlı Abbas, Qurbani, Sarı Aşıq yaradıcılığı onun sinəsinə köçmüşdü. Özü də gözəl qoşmalar, təcnislər yazırdı. Həsənin apardığı kənd toyları el bayramı olardı. "Dövran gecəsi" deyilən gecədə aşığa qulaq asmaq üçün əsl izdiham yaranardı. Ötən yüzilliyin 50-60-cı illərində rayonda qız-gəlinlərin toylara getməsi çox yaxşı qəbul olunmasa da, heç kəs ünlü sənətkardan keçməz, onun xətrinə icazə verərdilər ki, gedib mağarın bir hissəsində oturub onu dinləsinlər. Elə ki, aşıq məclisə girdi, milçək uçsaydı, səsi eşidilərdi. Həsən də başlayardı, nə başlayardı. Gecə saat 1-i keçəndə dastanı yarımçıq saxlayar, bütün dinləyiciləri intizarda qoyardı. Beləliklə, Aşıq Həsən üç gün-üç gecə, bəzən yeddi gün-yeddi gecə tamaşaçılara ovsunlu gecələr bəxş edərdi. "Yardımlı" adlı qoşmasında Aşıq Həsənin doğma yurdu tərənnüm olunur:

Tərifin söyləyim bir övlad kimi,
Adın gəzsin bu cahanı, Yardımlı.
Bu ellərə baxmaq olmaz yad kimi,
O bütün ruhların canı Yardımlı.

Dağlar arasında gözəl mənzərə,
Baxırsan yam-yaşıl, böyük dağ-dərə.

Aşıqlar söz qoşub bil milyon kərə,
Bulağın tək bulaq hanı, Yardımlı.

Gözəl guşəsisən sən təbiətin,
Bu yerdə hər səhər vardı qiymətin,
İnkişaf etmişdir mədəniyyətin,
Ucaltmısan çox insanı, Yardımlı.

Dağlar döşündəki gözəl baxışın,
Hansı usta etdi gözəl naxışın.
İlhamla coşaraq aşıq qardaşın,
Gəzinir saz ilə hər yanı, Yardımlı.

Aşıq Həsən bil ki, səndə ucaldı,
İlhamın coşdurub, sazını çaldı.
Şirin mahnıları yadına saldı,
Ucalsın şənliyin sanı, Yardımlı.

Ələsgər Cəfər Yardımlının ikinci tanınmış aşığı Gülağa Bayrıyev haqqında da söhbət açır və onun Ostayır kəndindən olduğunu bildirir. **Aşıq Gülağa Bayrıyev** 1974-cü ildə rayon mədəniyyət evində "Aşıqlar dəstəsi" adlı ansambl yaratmış, bu dəstəyə aşıqlarla yanaşı, zurna və balaban ifaçılarını da dəvət etmişdir. Belə sənətkarlardan biri yastı balabanın və zurnanın mahir ifaçısı Nəcəf Nəcəfov olmuşdur. Bölgənin digər məşhur saz ifaçısı Aşıq Məlik Nuriyev Avun kəndindən çıxmışdır. Qaraqaya kənd sakini Eynulla İsmayılov deyir ki, ustad aşıqların deyimləri ilə aşıqlıq edən aşıq Məlik də deyimsiz deyildir. O, sazın səsini ana laylasına bənzədir və saza məhəbbətini "Sazdı, saz" qoşmasında bu cür möhürləyir:

Məlikəm, sinəmdə min söhbətim var,
Aqil insanlara, bil, hörmətim var.
Sədəfli sazımla ünsiyyətim var,
"Sarıtel", "Dilqəmi" çalan sazdı, saz.

Aşıq Gülağanın "Bəyənmir" qoşmasında saz-söz sənətinə xor baxanlar hədəf götürülür:

Çərxi-fələk, nədir yenə dönmüsən,
Naşılar Şakiri, Xanı bəyənmir.
Dağ döşündə tütək çalan çobanlar,
Məclisdəki tar-kamanı bəyənmir.

Bir zaman var idi, gəzərdik qoşa,
Bir yerdə ömr edib dolardıq yaşa.
İndisə ürəklər dönübdür daşa,
Bülbül gülü, gül xandanı bəyənmir.

Köhnə adətlərin gedibdir suru,
Gözəl zəmanələr günəştək duru.
İndi nə quldur var, nə də ki, oğru,
Molla- qazı bu dövranı bəyənmir.

Baxıram hər yanda xoş keçir həyat,
Namərdlər səfasın görürlər heyhat.
Ay Gülağa, aşıqlığı sən gəl at,
Aləm dönüb, hər ozanı bəyənmir.

Vaxtında toplama işləri aparılmadığından bir çox folklor örnəkləri unudulmuşdur. Daha çevik əyləncə xarakterli nümunələr, əsasən, lətifələr yaşam keyfiyyətini qoruyub saxlamış və Yardımlı folklorunda digər janrlara nisbətən üstünlük təşkil etmişdir. Yardımlı lətifələrini ilk dəfə Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşları ötən yüzilliyin səksəninci illərində bölgəyə olan folklor ekspedisiyası zamanı toplamışlar. Bu nümunələrin içərisində Mamılğan lətifələri xüsusilə diqqət çəkir.

Bölgənin lətifələrini bölgənin öz ziyalıları da yazıya almışlar. Ələsgər Cəfər (Ələsgər Əvəz oğlu Cəfərov) 1954-cü ildə Şəfəqli kəndində anadan olub. Şeir, hekayə və povestlər yazır. Bir neçə kitabı işıq üzü görüb, şeirləri isə almanaxlarda oxuculara çatdırılıb. Ələsgər Cəfər Yardımlı folklor örnəklərini həvəslə toplayır və baş redaktoru olduğu rayon qəzetində çap edir. Topladığı "Yardımlı lətifələri" onun folklorşünaslığa ən

yaxşı töhfəsidir. Yaxşı deyiblər ki, lətifə ölməyən bir janrdır. Təbiət Tanrıverdiyev Yolocaqda dolaşan gülüş xəzinəmizi toplamışdır. Mehdi Həsənovun qələmə aldığı lətifələr də orijinallığı ilə seçilir. Təbiət Tanrıverdiyev və Mehdi Həsənov bu folklor nümunələrini ziyalı yanğısı ilə toplamışlar. Lakin onlar folkloreşünas olmadıqlarından topladıqları nümunələrdə dialekt elementlərini saxlamamışlar. Buna baxmayaraq, hər iki ziyalı öz xalqı qarşısında olduqca xeyirxah bir iş görmüş, xeyli şifahi xalq ədəbiyyatı nümunəsini unudulmaq təhlükəsindən xilas etmişdir. Mehdi Həsənovun topladığı lətifələrin əsas qəhrəmanı Oruc Moranlıdır. Məsələn, **"Su içim, ya içməyim?"** lətifəsində Oruc Moranlının düşdüyü gülməli vəziyyət belə təsvir olunur: "Oruc Moranlı şəhərə təzə getdiyi vaxtlarda yolu bir dəfə hamama düşür. Çimib bayıra çıxanda tərli olduğu üçün möhkəm susayır. Ancaq yadına düşür ki, tərli-tərli su içmək ona ziyan ola bilər. Kənddə axı belə deyirdilər. Görəsən, şəhərin dəbi nədir? Başqa adamlardan da soruşmağa üzü gəlmir. Fikirləşir ki, eləməsin tənbəllik, elə kənddə qoyub gəldiyi anasına zəng vursun. Düzünü bilsə, elə o deyər.

Oruc çox əzab-əziyyət çəkib, nəhayət, telefonda anası ilə danışır, deyir:

- Ay ana, hamamdan təzə çıxmışam. Bir az da tərliyəm. Genə sən yaxşı bilərsən, su içim, ya içməyim?"

**"Bəs sən harda idin?"** başlıqlı digər lətifədə dodaq qaçırdan bir vəziyyətdən danışılır: "Oruc Moranlı Bakıda qaldığı illərdə qonşularından birinin arvadı şəhərdəki dəlixanada aşpaz işləyirmiş. Bir axşam televizorda şəhər dəlixanasından bəhs edən veriliş göstərirmişlər. Oruc da oturub maraqla verilişə baxır.

Səhərisi gün o, qonşu qadınla küçədə rastlaşıb deyir:

- Axşam televizorda dəlilər hamı meymun kimi nə oyun çıxardırdılar. Gülməkdən, az qalırdı, qarnım cırılsın. Sənin üçün də çox baxdım, ancaq görə bilmədim".

Təbiət Tanrıverdiyevin topladığı "Yolocaq lətifələri"nin əsas qəhrəmanı Gülməlidir. Gülməli ümumiləşdirilmiş obrazdır,

Yolocaqda baş verən gülməli hadisələrin, demək olar, hamısı onun ayağına yazılır. Bu, cəlilabadlıların Lotu Salman, şəkililərin Hacı dayı, səlyanlıların Mirzə Bağı, lənkəranlıların Balaəmi komik obrazına bənzəyir. Gülməli, əsasən, sovet dönəminin lətifə qəhrəmanıdır, çünki bu lətifələrdə kolxoz quruluşu və kolxoz sədri ilə bağlı lətifələr üstünlük təşkil edir. "**Boynun yoğundur"** başlıqlı lətifədə Gülməlinin hazırcavablığı diqqət çəkir: "Sədr Gülməliyə dedi:

- Get, evdən givi götür, gəl. Kəllərin boynuna bağlayıb, kotanı sahəyə apar.

Gülməli giv üçün evə getdi. Sədr briqadiri idarəyə çağırıb, ona tapşırdı ki, kəllərin birini açıb tez sahəyə burax. Briqadir belə də etdi.

Gülməli givi götürüb, tövləyə gəldi. Baxıb gördü ki, kəlin biri yoxdur. İdarəyə gəlib sədrə dedi:

- Tövlədə bir dənə kəl var, biri yoxdur. İndi mən nə edim?

Sədr dedi:

- Çox asan, burda nə var ki, heç bir çətin iş yoxdur. Givin bir tərəfin öz boynuna, bir tərəfin də kəlin boynuna bağla, kotanı sahəyə apar.

Gülməli işin nə yerdə olduğunu başa düşüb, sakitcə dilləndi:

- Yox, sədr, mənim başım çox balacadır, boynum da nazikdir, giv boynumdan çıxar. Sənin başın yekədir, boynun da yoğundur. Elə giv sənin boynunun ölçüsündədir. Gəl, givi qoşum sənin boynuna, kotanı sahəyə aparım."

Ələsgər Cəfərin "Yardımlı lətifələri" digər lətifələrdən mövzu genişliyinə və qəhrəmanlarının çoxsaylı olmasına görə seçilir. Ə.Cəfərin topladığı lətifələrin qəhrəmanları cerinbellilər, şəfəqlilər, sivdaşlılar, bozayranlılar, pornayımlılar və digər kəndlərin hazıcavablarıdır. "**Day sözüm yoxdu"** lətifəsinin qəhrəmanı cerinbelli Axund Məciddir: "Cerinbelli Axund Məcid ali dini təhsil alıb qayıdandan sonra adamlar ziyarətinə gəlirlər. Gələnlərin arasında qonşu kənddən də biri olur. Söhbət zamanı Axundun biliyini yoxlamaq istəyən qonşu kəndli soruşur:

- Axund, əgər əsl alimsənsə, de görüm, mən bura gələndə nə yemişəm?

Axund Məcid əvvəlcə təəccüblənir. Sonra baxıb görür ki, qonağın yaxasında qatıq ləkəsi var. Qımışır:

- Olmasaydı ağzın bu qədər yırtıq,

Dağılmazdı yaxana o qədər qatıq.

"Qatıq" sözünü eşidən qonşu kəndli əlini əlinə çırpır:

- Day sənə sözüm yoxdu, alimsən ki, alim."

**"Amandı, qoyma asfalta çıxsın"** lətifəsində sivdaşlıların gülüş xəzinəsinə baş vururuq: "İki sivdaşlı Bakıya gedirmiş. Yolda avtobus xarab olur. Biri baxıb görür ki, qıç-qıça bağladığı toyuqlardan birinin ipi açılıb. İstəyir ki, götürüb qıçlarını yenidən bağlasın, toyuq əlindən çıxıb meşəyə tərəf qaçır. Dostu tez qışqırır:

- Aya, qoyma asfalta çıxsın, asfalta çıxsa, day çatmaq olmaz."

**"Cəddimi naqruzkaya salma"** lətifəsində pornayımlılar öz komediativ keyfiyyətlərini göstərirlər: "Zarafatcıl bir seyid xaltura edən UAZ sürücüsünə onu Pornayım tərəfə aparmağı xahiş edir. Seyiddən yaxşı pul qoparacağını fikirləşən sürücü maşının nasazlığına baxmayaraq razılaşır. Palçıqlı bir dərədən keçəndə maşın batır. Əlacı kəsilən sürücü seyidə tərəf dönür:

- Ağa, cəddini çağır, qoy maşın çıxsın.

Seyid qapını açıb düşə-düşə gülür:

- A bala, o maşın buradan çıxan deyil, yalannan mənim cəddimi naqruzkaya salma."

Yardımlı lətifələri Azərbaycan folklorunun zəngin bir sahəsini təşkil edir. Hələ el arasında toplanılmalı xeyli lətifə var.

Mifik rəvayətlər və rəvayətlər, əfsanələr, olmuş əhvalatlar bölgənin tarixi hadisələrinin bədii ifadəsidir. Bu folklor nümunələri yer-yurd adlarının sirli-soraqlı yaranış tarixindən söhbət açır. "Kərəm köçü" adlı rəvayətin məzmunu həm mifik, həm də real tarixi hadisələrlə səsləşir. Bu rəvayətin süjet xətti Dədə Qorqud boylarındakı əhvalatlara bənzəyir. Dağüzü kəndinin

yaxınlığında, Savalan dağı ilə üzbəüz yüksək qayalıqlar üstündə köhnə bir yurd yeri var ki, el arasında buraya Kərəm köçü deyirlər. Hər yanı sıldırım qayalıqlarla dövlərənmiş bu qədim yurd yerinə ancaq cığır bir yolla qalxmaq mümkündür.

Rəvayətə görə, Kərəm adlı nəhəng gövdəli, pəhləvan biləkli bir çoban öz sürüsünü həmin yerdə saxlarmış. Bu köç onun yaylaq yeri imiş. Həramilər, quldurlar neçə dəfə onun sürüsünü oğurlamağa çəhd göstərsələr də, bu, heç cür mümkün olmurmuş. Səbəbi köçün qarşısındakı iri bir daşın giriş hissəyə qoyulması imiş. Bu nəhəng daşı təkcə Kərəm qaldırıb qapı kimi köçün bərəsini örtərmiş. Özü isə çox vaxt daşı yerinə qoyub ağılı bərkidər, arxayın bir halda gah Peştəsər obasına, gah da Arvanadakı evlərinə gedərmiş.

Kərəm köçdə olmadığı zamanlarda quldurlar nə qədər çalışırmışlar ki, içəriyə girmək üçün daşı qaldırsınlar, gücləri çatmırmış. Çox götür-qoydan sonra, nəhayət, belə kələk işlədirlər ki, kənardan köçün içərisinə qamışdan düzəldilmiş bir neçə tütək atsınlar. Kərəm götürüb çalsın, bəlkə, gücdən, qüvvətdən düşə. Onlar düşündükləri kimi də eləyirlər.

Kərəm köçdən tapdığı tütəkləri çaldıqca, odlu nəfəsindən bu qamış neylər çilik-çilik olub, bir-bir sıradan çıxırmış. Son dəfə düşmənlər köçə tərəf dəmirdən qayrılmış çoxlu deşiyi olan böyük bir tütək atırlar. Kərəm bu tütəkdən də çoxlu havalar çalıb oxuyur. Ancaq sən demə, dəmir tütək getdikcə onun gücünü zəiflədib azaldırmış. Bir gün daşı qaldırıb köçün qapısına qoyanda isə lap gözləri qaralır. Nə qədər güc vurursa daşı yerindən tərpədə bilmir. Qolları sustalıb, pərişan halda yerə oturur, alnında pucurlanan tər damcılarını silir. Quldurlara da elə bu lazım idi. De bayaq ha, hər tərəfdən tökülüb onu araya alırlar, qollarını seyizin möhkəm və cod tükləri ilə bağlayıb özünü də, qoyun sürüsünü də qabaqlarına qatıb aparırlar.

Hadisədən xəbər tutan Kərəmin Dağüzü kəndində yaşayan igid sevgilisi Həcər xanım tez köhlən ata süvar olub, tərkinə də bir xurcun kül yığaraq köçə tərəf mehmizləyib çapır. Çapdıqca

da külü havaya sovurur. Quldurlar ətrafı bürüyən toz dumanından, çınqıllı daş yollarda qığılcım qopardan nal cingiltisindən, kəsilmək bilməyən at kişnəməsindən Kərəmə köməyə böyük bir qoşunun gəldiyini zənn edib, onu da, sürüsünü də buraxıb cəld aradan çıxırlar. Rəvayətin digər variantı 1987-ci il folklor ekspedisiyası zamanı yazıya alınmışdır. Həmin variant tamamilə fərqli məzmundadır: "Arvanada, köhnə kəndin Peştəsər sıra dağlarının ən yüksək yerində dörd bir tərəfi sıldırım qayalıq olan yamac var. Orda 500-dək qoyun saxlamaq, daldalanmaq olar. Yamaca yalnız bir yerdən yol var imiş ki, o da böyük bir daşla örtülürmüş. Bir gün Kərəm 500 qoyunla - Ərdəbilə tərəf gedirmiş. Üzü Savalana tərəf dönəndə uzaqdan atlı dəstəsinin gəldiyini görür. Kərəm hiss edir ki, bu görünənlər soyğunçulardır. Bəs nə eləsin, çıxış yolunu tapsın? Kərəm sürünü həmin yamaca sürür, ağzını isə böyük daşla tutur. Beləliklə, həm sürünü, həm də özünü düşmənlərdən xilas edir. Elə o vaxtdan həmin yer " Kərəm köçü" adlanır".

Folklor nümunələrinin yerli toplayıcıları ixtisaslaşmış mütəxəssislər olmadığından yazıya aldıqları bəzi nümunələrdə bölgənin folklor dilini tam qoruyub saxlamamışlar. Folklor materialı kimi mövzu və məzmun baxımından maraq doğurduğundan, həmçinin söyləyicilərin böyük qismi dünyasını dəyişdiyindən bu nümunələr ilkin mənbələr kimi elmi əhəmiyyət daşıyır. Lakin bölgənin əksər folklor nümunələri toplanarkən dialekt özəllikləri saxlanmışdır. Buna görə də Yardımlı folklorunda işlənən dialekt sözləri əlifba ardıcıllığı ilə systemləşdirilərək kitaba əlavə olunmuşdur.

Beləliklə, Yardımlı folklorunun janr arealını və əsas istiqamətlərini bayatılar, kürdülər, ağılar, nəğmələr, mifoloji mətnlər, inanclar, rəvayətlər, əfsanələr, lətifələr, nağıllar və aşıq şeiri nümunələri müəyyən edir. Bölgənin folklor örnəkləri ilk dəfə olaraq ayrıca kitab halında çap olunur.

***Bilal ALARLI (HÜSEYNOV)***

# MİFOLOJİ RƏVAYƏTLƏR

## 1. Cavanlığın dərmanı

Keçmiş əyyamlarda Qarovuldaş kəndində Bəhlul adında bir kişi yaşayırmış. Bir gün Bəhlul evdə süfrə arxasında oturub nahar elədiyi zaman Savalan tərəflərdən bir nəfər onlara gəlib çıxır. Ev sahibi qonağı nə qədər təama buyursa da, oturmur. Bəhluldan ancaq üç günlük evlərində qalması üçün möhlət istəyir.

Üç gün gecə-gündüz kişi evdən bayıra çıxmır. Hər gün yuyunub pak olur. İbadətilə məşğul olur. Çoxlu dualar zikr eləyir. Üç gün müddətində nə yeyib-içirsə, bütün xərcini Bəhlul ödəyir.

Bəhlulun evdə 14-15 yaşlı yeniyetmə bir qızı da var imiş. Qız evin çardağından qonağın bütün hərəkətlərinə xəlvətcə göz qoymaqla məşğul imiş.

Üçüncü günün tamamında qonaq Bəhluldan xahiş edir ki, onu Arvana dağında bir yer var, adına Çobanlar yaylağı deyirlər, ora aparsın. Gecə yarısı Bəhlul qonağını da götürüb həramilər obasına, oradan da Çobanlar yaylağına qalxır. Qarabaqara onların arxasınca gələn Bəhlulun qızı Gülsəhər də çiçəkli dağlara yollanır. Gəl ki, gələsən, yolçular, nəhayət, gəlib uca bir dağın zirvəsinə çataraq dayandılar. Kişi zülmət uyuyan dağların qoynundakı yerlərə nəzər salır. Bir az aşağılarda işıq topası görüb tez Bəhluldan aralanaraq ora yaxınlaşır. Görür ki, bu işıq saçan əlvan dağ çiçəkləridir. Sevinir ki, axtardığını tapıb. Əlindəki mıxı tez nişangah kimi həmin çiçəyin ətrafına çalır.

Qayıdıb dağın başından onu gözləyən Bəhlulu tapır. Ona çıxarıb qızıl verir ki, yubanmadan kəndə dönsün, haqqı ilə bir çəpiş alıb geri qayıtsın.

Bəhlul çəpişi tapıb Çiçəkli dağa qalxanda artıq dan yeri qızarır. Kişi dağın zirvəsində Bəhluldan çəpişi alaraq bayaq nişanladığı səmtə aparır. Çəpişi həm mıxa, həm də bitkinin gövdəsinə bağlayır. Özü kənarda durub başlayır dua oxumağa. Birdən çəpiş sürətlə sıçrayıb kənara qaçmaq istəyir. Güc gəlib mıxı da, gülü də gövdəqarışıq yerindən qoparır. Kişi tez özünü irəli verir.

Görür çəpişin qorxudan bağrı çatlayıb. Axtardığı çiçəyin də kökü çox uzun və yoğun, həm də insan şəklindədir. Kişi gülün kökündən azca qoparıb yeyir. Heybəsini boynundan çıxarıb bitkini kökü qarışıq ora yerləşdirir. Sən demə, xəlvətcə qonağını izləyən Bəhlul da tez özünü yetirib bitkidən azca dadır. Kişi dönüb olur cavan bir oğlan, yedikcə hər ikisi cavanlaşır. Kişi görür Bəhlul da artıq bu sirri öyrənib. Heç nə demir.

Onların bütün hərəkətlərinə göz qoyan Gülsəhər qalır matməəttəl. Görür bayaqkı kişilərdən əsər-əlamət yoxdur. Əvəzində iki cavan, bığ yeri təzəcə tərləyən gənc qoşulub bir-birinə hara isə gedir. Qız istəyir atasını çağırsın. Səsi çıxmır. Evə gəlir. Görür atası nə gəzir. Əhvalatı anasına da söyləyir. Anası da ona qoşulub Çiçəkli dağa qalxırlar.

Deyirlər, o vaxtdan Arvana tərəflərdə hər gün gecə yarı uca dağ başında iki qadın görünür. Onlar dan yeri qızarana qədər burada oturub Cobanlar yaylağına baxırlar ki, bəlkə cavanlığın dərmanı olan dağ çiçəyini tapa bildilər.

## 2. Çiçəklərin dilini bilən adam

Qaranlıq bir gecədə İlyas kişinin darvazası bərkdən döyülür. Kişi geyinib eşiyə çıxır. Üzü bürünmüş əli dəmir əsalı nabələd bir nəfər ona yaxınlaşıb deyir:

“Qorxmaz adam olduğunu eşidib arxanca gəlmişəm, mənimlə bir gecəlik səfərə getməlisən. Arxayın ol, nə qədər qızıl-gümüş lazım olsa, verəcəyəm”.

Nə isə qonaq çox deyir, çox danışır. Axır İlyası razılığa gətirə bilir. İlyas əlüstü evə dəyib lazım olan bəzi şeyləri də götürür, elə gecəykən yol alırlar dabanbasaraq Əfçədulan gölünə tərəf. Gəlhəgəl, gəlib varid olurlar Dəryavar mahalının Əfşar-Dolan obasına. Uzaqdan oba itləri hənirtini duyub ağzı-ağıza verirlər. Başlayırlar tükürpədici səslə ulamağa. Kişi cibindən bir ot çıxarıb dilinə vurur, dodaqlarının altında nə isə bir dua oxuyub havaya üfürür. İtlər dərhal səslərini kəsirlər. Onlar qaranlıqda bir az da irəliləyib, sakit və lal dayanmış gölün ətrafına

çatanda kişi üzünü açır. Sonra İlyasla köməkləşərək çır-çırpı yığıb gölün kənarında gur bir tonqal çatırlar. Od gurlaşanda ağzıqapalı qazanı azacıq su ilə doldurub odun üstünə qoyurlar. Kişi İlyasa bir neçə dua öyrədir, əlinə də dəmir əsasını verir ki, aradabir daşa çırpsın. İlyası qalın keçəyə bürüyür. Gözlərini də möhkəm bir parça ilə sarıyıb, gölün qırağındakı daşın üstündə oturmasını tapşırır. Özü isə xəlvətə çəkilərək başlayır ucadan oxumağa. Aradabir dönüb gölün sinəsinə balaca çınqıl daşlar tullayır. İlyas kişinin öyrətdiyi kəlmələri dedikcə əlindəki dəmir əsasını da tez-tez daşa vurur. O, lazımi sözləri deyib qurtarır, əsanı dalbadal üç dəfə də gölün sinəsinə çırpıb ayağa durur, döyüşə hazır vəziyyət alır. Kişi duaları oxuduqca suyun üzü ləpələnir, adamın canına vahimə hissi çökür.

Birdən gölün dərinliyindən vəhşi bir bağırtı qopur. Dərhal iri bir qara pişik suları yarıb İlyasın sinəsinə sıçrayır. Caynaqlarını onun bədəninə ilişdirir. Üz-gözünü gəmirməyə başlayır. Ancaq qalın keçəyə dəniz pişiyinin nə caynağı, nə dişi batır. Pişik fürsət axtarır ki, İlyasın gözlərini çıxartsın. İlyassa bütün gücünü toplayıb pişiyin boğazını ələ keçirir. Güclü əlləri ilə onun boğazını sıxıb bərk-bərk boğmağa başlıyır. Kişi hələ də kənarda durub dua oxuyur, oxuduqca da havaya püfləyir. Son anda pişikdən elə bir bağırtı qopur ki, gölün sinəsi belə təlatümə gəlir. İlyas pişiyi elə göldə boğub yerə qoymadan cəld onun ölüsünü ocağın üstündə suyu qurumaqda olan qıpqırmızı qazana basır. Qara pişik qazanda o qədər qaynayır ki, bütün bədəni parça-parça olur, ət, yağ, sümükdən ayrılır. Kişi pişiyin bel sümüyünü götürüb sümürür. Qalan parçalarını da qoynunda gizlədir. Cibindən balaca bir güzgü çıxarıb, alovun işığında özünə baxır, heç bir şey görmür. Çox sevinir. Bilir lazım olan şey artıq hazırdır. İlyas çox fikir verir, görür, kişi danışır, ancaq gözə görünmür. Başa düşür ki, burda nə isə bir sirr var.

Kişi İlyasa çoxlu qızıl-gümüş verir. Yaxşılığının əvəzində ona həm də qazandakı pişik yağından da içməyi məsləhət bilir. İlyas qızılları götürür, ancaq qazandakı yağa qəti məhəl qoymur.

Kişi görür İlyas yağa toxunmadı, tez yağı da gətirdiyi başqa bir qaba yığıb, İlyasın qazanını da özünə verərək onunla halallaşıb yola düşür.

İlyas qazanı götürüb gölün suyunda yumaq istəyəndə birdən barmağı onun qulpundakı yağ ləkəsinə toxunur. Necə olursa, əli ilə ağzını siləndə barmağının ucu dilinə dəyir.

İlyas qızılları da, yuyulmuş qazanı da götürüb Moran dağ-ındakı kəndlərinə qayıdır. Yol ilə getdiyi vaxt güllər, çiçəklər ona salam verib, baş endirirdilər. Həm də yavaşca pıçıldayırdılar: ”Mən yüz dərdin dərmanıyam”, ”Ömrü cavanlaşdıran çiçək mənəm”, xülasə, hər çiçək xüsusiyyətlərini açıb İlyasa yol boyu deyir.

İlyas hiss edir ki, nə sirr varsa, hamısı bayaq əli toxunmuş yağın təsirindəndir. Azca dilinə dəyməklə gör nə qədər gülün, çiçəyin, ağacın dilini bilir. Kişinin təklif etdiyi yağı içmədiyinə görə təəssüflənir: ”İçsəydim əgər, yəqin heyvanların, quşların da dilini biləcəkdim” – deyə bir başına vurur, bir dizinə. İstəyir kişinin arxasınca getsin. Görür kişi nə gəzir, hara çatacaq, olan olub, keçən də keçmişdi.

### 3. Pərilər padşahı

Toran qovuşurdu. At üstündə Sarxanbəyli obasından dağaşağı sallanan rövzəxan Mollaoğlu pəsdən zümzümə edərək evlərinə tərəf gedirdi. Gəgəhməd aşırımından keçərkən birdən qarşısında irigövdəli bir məxluq durub əllərini döşünə qoydu və ona baş əyərək dedi:

- Ağa, bizə buyuracaqsan, məclisimiz var, ora gedəcəyik. Mərsiyə oxuyacaqsan.

Mollaoğlu əvvəl istədi atını çapıb aradan çıxsın. Ancaq atın cilovundan yapışıb təkid edən adam əl çəkmək istəmədi. Mollaoğlu çarəsiz qalıb razılaşdı. Atdan düşdü. Çığırnan bir az da getmişdilər ki, qabağında böyük bir mağaranın qapısı göründü. Qapıdan əyilib içəri keçdilər. Yerin altı ilə gethaget, gedib çıxdılar bir toy məclisinə. Mollaoğlu gördü nə yas, nə mərsiyə. Burda elə cahcəlallı bir toy var ki, ruzgarın gözü belə büsat, şənlik görməyib.

Mollaoğlunu görən adamlar ayağa duraraq ədəblə baş endirdilər. İki nəfər onun qabağına qaçıb qolundan yapışdı, hörmət və izzətlə məclisin baş tərəfinə apardılar. Başına qızıldan tac qoymuş bir nəfər hündür yerdə bardaş qurub oturmuşdu. Fərraşlar da yanında hazır. Mollaoğlu təzim edib irəli keçdi. Şah ona oturmaq üçün yer göstərdi.

Toy qızışdı, nə qızışdı. Dəfcilər cuşə gəlib elə möhkəm çaldılar ki, səsindən yer-göy titrədi. Mollaoğluya sədəfli bir qaval verdilər. O, qavalı qulağına tutub zil pərdədə elə bir muğam oxudu ki, əhsən sədaları çəpik səslərinə qarışıb ərşə bulənd oldu.

Çılpaq qadınlar Mollaoğlunu meydana çəkdilər. O, istədi getməsin, ancaq padşah başının işarəsi ilə ona oynamasını bildirdi. Ömründə oynamayan Mollaoğlu qara zurnanın sədaları altında elə bir yallı getdi ki, daha nə deyəsən. Qadınlar dövrə vurub onu əhatəyə aldılar. Çəpik çalanlar Mollaoğlunun sürətini get-gedə artırdılar. O qədər Mollaoğlu oxuyub oynadı ki, başına o qədər qızıl-gümüş səpdilər ki, sayı-hesabı olmadı. Bir də onu gördü ki, huşu başından çıxıb yerə dəydi. Gözlərini açanda özünü toyda yox, bayaq kişiyə rast gəldiyi yerdə gördü. Kişi ona bir heybə qızıl, bir də qıraqları naxışlanmış sehirli bir cam verib dedi:

- Bildim hardaydın, Mollaoğlu! Pərilər padşahının oğlunun toyunda elə oxudun ki, padşahın özü sənə valeh oldu. Bu, bir xurcun qızılı da sənə ənam verdi ki, ömrünün axırına kimi yeyib-içəsən. Bu da tilsimli camdır. Nə vaxt dara düşsən dadına çatar.

Yol boyu Mollaoğlu bayaqkı toyu, adamları xatırlamağa çalışdısa da, xəyalına bir şey gətirə bilmədi. Qorxdu ki, atın tərgindəki bir xurcun qızıl da yalan olar. Odur ki, hər döngəni aşdıqca tez əlini xurcuna vurur, onu yoxlayır, barmaqları qızıllara toxunanda rahat nəfəs alırdı.

## 4. Pərilərin toyu

Bayram kişi Qanlı dərədən keçəndə baxdı ki, bir toydur, bir büsatdır, gəl görəsən. Sazəndələr çalıb oxuyur, qızlar-gəlinlər əl-qol açıb ahəstə-ahəstə süzürlər, xülasə, Bayram kişi öz ayağı

ilə elə bir cəh-cəlallı toya gəlib çıxmışdı ki, daha onu təriflə-məklə başa gələn deyildi.

Yer-yerdən gözəl qızlar əllərində mey dolu camla onun qabağına qaçıb deyirdilər:

- Oho, xoş gördük, Bayram bəy, xoş gördük. Buyur bura, buyur bura. Bax, mənimlə əylənəcəksən, ha!

Onu çəkə-çəkə mağarın baş tərəfinə apardılar. Gətirib qabağı-na bir sini plovla şərab qoydular. Tapşırdılar ki, yemək yeyəndə bir-cə söz var ha, onu nəbadə dilinə gətirəsən. Bayram kişi gördü ki, ar-vadı da bunların içində rəqs eləyir, təzə güllü abi köynəyi də əynin-də. Fikirləşdi ki, nə toy, nə büsat. Yəqin pərilər yığıncağına düşüb.

Sinini irəli çəkib bir əli ilə ona yapışdı, biri əlini də yağa batırıb tez yanında oturmuş arvadının abi köynəyinin üstünə basdı və bərkdən "Bismillah" dedi.

Söz ağzından çıxar-çıxmaz pərilər gözdən itib dağıldılar. Gördü ki, əlindəki adi taxta parçasıdır, üstündə də bir az toz-torpaq qalağı.

Bayram kişi ordan birbaş evə gəldi. Gördü arvadı çoxdan yuxu tutub yatıbdır. Tez onu oyadaraq dedi:

- Ay arvad, bəs Qanlı dərədən nə tez qayıtdın. Özü də göz dəyməsin yaman oynayırdın ha!

Arvad and-aman elədi ki, nə toy, nə Qanlı dərə? Heç hara getməmişəm. Elə axşamdan yatdığımdır.

Kişi dedi ki, onda abi köynəyini gətirsin baxaq. Arvad gözüyuxulu durub o birisi otaqdakı sandıqdan abi güllü köynə-yini çıxarıb gətirdi. Ər-arvad diqqətlə baxanda, gördülər yağlı barmaqların izi köynəkdə aydın görünür.

## 5. Aladağ əfsanəsi

Bir gün ağsaçlı, ağgeyimli pirani kişi qapımızı açıb içəri girdi. O, atamla nə barədəsə danışıb xeyli söhbət elədi. Məlum oldu ki, kişi bizdə qonaq qalmaq fikrindədir. İstəyir ki, ay bədir-lənən vaxtı bir gecə atamı da, məni də özü ilə Aladağın zirvəsin-dəki Şişqayaya aparsın. Məqsədini açıb deməsə də, kişi atama

səfər zamanı həm də bir bayquş, bir siçan, bir örgən, bir də məşəl düzəltdirib götürməyi dönə-dönə tapşırdı.

Ondördgünlük ay göydə göründüyü bir gecə pirani kişi atamla məni yuxudan qaldırdı. “Birbaş Aladağa”, - deyərək yol getməyə başladıq. Qaraqayanın keçilməz cəngəllikləri arasından qoca dar cığırla bizi Avur çöllərinə qədər nəfəsimizi dərmədən apardı. Aladağın zirvəsinə getmək üçün biz neçə gədik, neçə təpə aşdıq. Gəlhagəl gəlib, axırda Şişqayanın altında görünən nəhəng bir sıldırımın yanına yetişdik. Ayın parlaq işığında dağın başı elə bil ki, alışıb yanırdı. Dörd tərəfi şış sıldırımla dövrələnmiş Şişqayaya baxanda adamı vahimə bürüyürdü. Yuxarıya qalxmaq üçün kişi bir neçə dəfə dağın ətrafını dolaşıb gəldi. Qayanın ən çətin, qorxulu yerindən keçərkən birdən o, su damcılarının səsini eşitdi. Daşlardan tuta-tuta həmin tərəfə getdi, əli ilə bizə də arxasınca gəlməyi tapşırdı. Su damcıları yuxarıdan süzülürdü.

Haradansa başqa bir güclü su şırıltısı da eşidilirdi. Elə bil sel nərildəyirdi. Ancaq görünmürdü. Bir az yuxarıda sal daşların arasında girəcəyini ot-ələf basmış kiçik mağaraya oxşar dar bir oyuğun qapısı qaralırdı. Kişi güclə özünü sığışdırıb sürünə-sürünə burdan içəri keçdi. Sel-su içəridə - yerin altındakı mağarada nərildəyirdi. Atam məşələ od vurdu. Mağara çox böyük idi. Divarlarında vəhşi göyərçinlər quruldaşır, içərisində yarasalar uçurdu. Yuxarıdan – mağaranın tavanından çay kimi tökülən gur sular burda hündür bir şəlalə yaratmışdı. Belə gur yeraltı sel mağaranın boşluqlarında hara axırdı bilinmirdi. Mağaranın daşlı otaqlarında bir xeyli gəzişdik. Hardansa içəri buz kimi sərin hava süzülür, əlimizdəki məşəli tez-tez söndürürdü. Birdən kişi üst tərəfdən, açıq bir yerdən ulduzlu səma parçasını görüb sevindi. Yuxarıya yol, demək, burdan idi. Daşlardan tuta-tuta mağaranın tavanından ulduzlu göy qüvvəsi görünən keçiddən qalxıb üstə çıxdıq.

Birdən yaxınlığımızdan bayquş səsinə oxşar zəif bir ulartı eşitdik. Səsdən adamın tükləri biz-biz olurdu. Dizlərimiz bu səsin vahiməsindən tir-tir titrəyərdi. Qoca gördü atam da, mən də çox qorxuruq. Tez o, özümüzlə götürdüyümüz bayquşu çıxa-

rıb havaya buraxdı. Bayaquş uçub bizdən xeyli yuxarıdakı zirvəyə qondu və bərkdən uladı. Bayaqkı ulartı bayaquşun səsi içərisində daha eşidilmirdi. Yenə daşlardan tuta-tuta yuxarıya qalxırdıq. Zirvəyə çatmağımıza hələ var idi. Bir azdan qarşımızda ayaq üstə rahat keçilə biləcək tunel göründü. Tunel çox qısa olduğundan o biri qapısı da hələ girməmiş aydın seçilirdi. Tunelə təzəcə qədəm basmışdıq ki, uzun qara kölgələr üstümüzə hücum çəkib adam kimi ağlaya-ağlaya, inildəyə-inildəyə bizi ötüb qabağa keçirdilər. Bu nə sehir idi? Bu nə sirr idi? Qorxudan atam da, mən də qocanın böyrünə qısıldıq. Kişi tez-tez ucadan dua oxuyaraq, heç nə olmamış kimi bizə ürək-dirək verməyə başladı:

-Bilin və agah olun, bizim çıxdığımız bu yerə neçə-neçə igidlər, pəhləvanlar gəlib. Ancaq burdan keçəndə davam gətirməyiblər. Üstlərinə hücum çəkən bu ağlayan kölgələrə nə qədər qılınc çalıb, ox atıblarsa da, heç nə eləyə bilməyiblər. Qorxularından özləri həlak olublar. Ölənlərin ruhunu qılınclamaq yox, bax, belə düz zikr eləməklə yola gətirmək olar. Bayaqkı o bayquş səsinə oxşar səs isə ağ divin nəriltisidir, hələ də, görünür, yuxudadır. Oyansa, ona da çarə taparıq.

Kişinin sözlərindən bir balaca ürəklənən kimi olduq.

Qoca örkəni belimizə bağlayıb, bir ucunu lap yuxarıdakı zirvəyə bənd elətdirdi. Bir əlimizlə kəndirdən, bir əlimizə də daşlardan yapışa-yapışa axırıncı yerə qədər qalxdıq. Elə bil göy üzündə dayanmışdıq. Bütün ətrafda ən hündür dağ zirvəsi bura idi. Əlimiz əgər daşlardan qopsa idi, çox-çox aşağılarda qaralan dərələrin boşluğuna yuvarlana bilərdik.

Zİrvənin qurtaracağında, sərt daşların arasında çoxlu kiçik oyuqlar var idi. Qoca atamdan siçanı alıb daşın üstünə buraxdı. Siçan əvvəlcə duruxdu. Sonra nə hiss etdisə, birdən sürətlə bizdən aralı ən iri bir oyuğa girdi. Kişi ancaq mənim güclə yerləşə biləcəyim həmin oyuğu göstərib dedi:

- Hə...ə, balaca, sənin işin bizə bax, burda lazım olacaq. Qorxma, sürün, keç içəri. Əlinə dəyən bərə mum kimi yumuşaq nə varsa, bəri ver. Nə qədər çox yığa bilsək, yaxşıdır.

Mən başımı güclə ora salıb, siçanın girdiyi oyuğun içərisilə qabağa süründüm. Əlimi uzadanda irəlidə qaya daşları arasına yapışmış arı şanına və vərəmuma oxşar yumuşaq məhlul barmaqlarıma toxundu. Daşların arasından xeyli belə xoş iyli, qara-qəhvəyi, qatı palçığa oxşar məhuldan yığıb qocaya verdim. Qocanın əlindəki qab dolanda onun məsləhəti ilə gəldiyimiz kimi həmin yolla da geriyə qayıtdıq.

Şişqayanı enib aşağı düzənliyə çatanda qoca atama dedi:

- İşin ancaq bir hissəsi görülüb. Qalır indi əsas məsələ: O da Avur düzündəki iki qaratikan kolunun arasındakı ilanla dovşanı tutmaqdır.

Qoca atamı əməlli-başlı başa saldı:

- Avur düzündə baş-başa bitmiş iki qaratikan kolu var. Gecənin bir vaxtı hardansa elə bir uğultu qopur ki, onun vahiməsindən qaratikan kolunun birinin altından ilan, o birinin altından dovşan çıxıb qaçır. Əgər biz həmin vaxt ilanla dovşanı tuta bilsək, onda çox dərdin dərmanını tapacağıq. Hərgah birini tutub, o birini tuta bilməsək, yenə bütün zəhmətimiz hədər gedəcək.

Biz Avur düzünü çox gəzib, çox dolaşdıq. Axır ki, axtarıb yan-yana bitmiş qaratikan kollarını tapdıq. Bir az aralıda oturub, gecə yarıya qədər pusquda dayandıq. Gecənin bir aləmində qəflətən elə bir tükürpədən səda gəldi ki, yer-göy titrədi. Bu vaxt baş-başa bitmiş qaratikan kolunun birinin dibindən bir ilan, o birisindən isə iri bir dovşan çıxıb qaçmaq istədi. Qoca dərhal əlini atıb ilanı tutdu. Dovşan isə atamın qolları üstündən sıçrayıb özünü kənara atdı. Qoca təəssüflə köksünü öturub dedi:

- Hayıf, çox hayıf, illər boyu çəkdiyim əziyyətdən. Bütün əməyim hədər getdi. Axı, mən bütün ömrümü ona sərf etmişdim. Çox dərdin dərmanı da burda idi. O da ki, belə... təzədən bir ömür gərəkdir ki, işə yenidən başlayasan.

## 6. Cinlərin Telnazı aparması

Dəstək qız idim. Alar kəndi ilə Şahnişin arasında yerləşən Salavatlıda oturmuşduq. Yaylağa çıxanda oba orda məskunlaşır. Mənimlə tay-tuş olan Telnaz adlı qızla obadan bir az aralı daş xınası eləyirdik. Bulaq bizdən xeyli aşağıda idi. Birdən Telnaz ayağa qlxıb, "Gəlirəm, gəlirəm", deyə bulağa tərəf qaçmağa başladı. Mən "Ay qız, hara gedirsən?" deyə qışqırdım. "Görmürsən, anam məni çağırır" deyib, üzüaşağı götürüldü. Mən boylansam da, heç kimi görmədim, ancaq ağlım o qədər kəsmədiyinə görə, çox da maraqlanmadım, oynamağımda oldum. Xeyli keçəndən sonra yorulub alaçığımıza getdim. Hava qaralanda obada hay-küy qalxdı. Telnaz yoxa çıxmışdı. Kimsə dedi: "Mən gördüm, obanın qırağında Xakinin qızıyla oynayırdı". Gəlib məni tapdılar. Telnazı soruşdular. Mən hər şeyi olduğu kimi danışdım. Dedim ki, hələ məni də özü ilə aparmaq istəyirdi, amma mən anamdan qorxduğum üçün getmədim. Soruşdulr ki bəs sən Telnazın anasını gördünmü? Cavab verdim ki, yox. Hamını heyrət bürüdü. Telnazın anası şivən qoparıb saçlarını yolmağa başladı: "Ay dad, ay haray, qızımı cinlər aparıb".

Bütün oba dağa-daşa düşüb Telnazı axtarmağa başladı. Çağıran kim, fit verən kim, tonqal yandıran kim. Telnaz bir tikə çörək olub göyə çıxdı. Bu minvalla üç gün-üç gecə qızı axtardılar. Əl-ayaq çatan bir dır-deşik də qalmadı, amma nə fayda? Qızın nə ölüsünü, nə də dirisin görən olmadı. ümidini itirən ata-ana yas mərasimi düzəltdi.

Kanakımon meşəsinə hələm-hələm adam gedə bilməzdi. Kanakımon meşəsi Şahnişinlə Salavatlının arasında yerləşirdi. İndi o meşədən ancaq kol-kos qalıb. Meşə o qədər qalın idi ki, içinə gün işığı düşmürdü. İki nəfər ağac kəsib öküzlərlə gətirəndə meşənin dərinliyində yanıqlı uşaq səsi eşidirlər. vahimələnsələr də, səs gələn tərəfə gedirlər. Ağacların lap sıx yerində, çipitlikdə beş-altı yaşlı bir qız uşağının zarıdığını görürlər. Yazıq qız onları görəndə zəhri yarılsa da, sonradan sakitləşir. Kişilər qızın başına

gələnləri öyrənirlər. Hansı obadan olduğunu, əslini-nəslini öyrənirlər. Salavatlıya tərəf üz tuturlar. O zaman gəlib çıxırlar ki, ağlaşma səsi obanı başına götürüb, Telnazın ata-anası qara geyinib. Qızlarını görəndə sevinclərinin həddi-hüdudu olmayıb, qızı tapanları çoxlu pay-püşklə, xalat-xarmanla yola salıblar.

Şad xəbər bütün obaya yayıldı. Hamı Telnazın başına toplaşdı. Qızcığaz başına gələnləri belə nağıl etdi: "Anam belində səhəng bulağın başında dayanıb məni çağırdı. Mən Həvəsin yanından durub onun yanına qaçdım. Anam məni dalına salıb meşəyə apardı. Meşəyə girən kimi anam yox oldu. Bütün bədənləri tüklə örülü olan çoxlu adam məni dövrəyə aldı. "Telnaz gəlib, Telnaz gəlib" deyib şənləndilər, oynamağa başladılar. "Al, bu konfetləri ye" dedilər, ciblərimi konfetlə doldurdular. Məni konfetləri yeməyə məcbur etdilər. Əlimi ciblərimə salanda cibimdəkinin konfet yox, mal təzəyi olduğunu gördüm. Nə qədər məcbur eləsələr də, təzəyi yemədim. Yemədiyimi görüb gözümün birini çıxardılar, orada atıb yoxa çıxdılar. Üç gün ac-susuz, tək-tənha meşədə qaldım. Ağlamaqdan başqa heç nəyə gücüm çatmırdı. Həmin adamlar səsimi eşidib məni bura gətirdilər".

Telnazın bu hekayəti hamını qorxutdu. Hərə bir cür danışırdı. Yaşlı arvadlar deyirdilər ki, cinlər qıza cindarlıq vermək istəyirmişlər. Amma qız onların verdikləri şeyi yemədiyinə görə cinlər məqsədlərinə çata bilməyiblər, qızın gözünü çıxardıb gediblər. Deyirdilər ki, Allah üzünə baxıb, o şeyləri yeməyib, yoxsa Telnaz onların birinə çevriləcəkdi. Hər nə isə, o gündən sonra bizi heç yerə tək buraxmadılar. Telnazla hərdən görüşürdüm. Sonra eşitdim ki, Telnaz uzaq bir kəndə gəlin köçüb, oğul-uşaq sahibidir, amma mən bir daha onu görmədim.

# ƏFSANƏLƏR

## 1. Qız qalası haqqında əfsanələr

***Birinci əfsanə:***
***Rüstəmxanlı Sabir Xudu oğlunun variantı***

Qız qalalarının hərəsinin öz əfsanəsi var. Ümumi olan cəhət nədir? Yadelli düşmənə və ya sevmədiyin adama əyilməmək, öz sevgisini, toxunulmazlığını, müqəddəsliyini və ismətini qorumaq; ələ düşməmək üçün ölmək, əlac hər yerdən üzüləndə qurban getmək! Yardımlı Qız qalasında əfsanə həm də Ərdəbillə bağlıdır.

Yadelli hökmdarın bütün təkliflərini, arzularını cavabsız qoyan, öz sevgisinə sadiq qalan qız müdafiənin uzun çəkəcəyini bilir. Qabaqcadan öz sevgilisinə, öz "Fərhadına" qalaya gizli su çəkdirir. Sonra düşmən bunu duyub suyu kəsəndə əlacı qalmır. Atları tərsə nallatdırıb gecəylə qaladan qaçır. İz düşməni çaşdırır. Qızı itirirlər. Bir müddət sonra düşməni ondan məktub alır: "Sənin istəyin baş tutan deyil! Məni axtarma! Məni ərdə bil!"

Guya qaladan qaçan qız bir mənzil yol gedib Savalanın ətəyində dayanmış, məktubu da ordan göndəribmiş. Onun köç saldığı yer də o gündən Ərdəbil adlanıb.

Hansı tarixi həqiqətin sorağıdır bu əfsanə, kim bilir?

Qız qalası ilə üzbəüzdə - ayrı bir zirvədə, ayrı bir əfsanə dumanına bürünmüş Oğlan qalası ucalır.

***İkinci əfsanə:***
***Nəzərli Mirnağı Mirəzəddin oğlunun variantı***

Bu ellərin başçısının gözəl qızı Qız qalasında yaşayırmış, həmin qız hədsiz məhəbbətlə Oğlan qalada yaşayan bir oğlanla sevirşirmiş. İki gənc öz sevgilərinə ömürlərinin sonunadək sadiq qalacaqlarına and içmişdilər. Hətta sevgilisi gizli yolla Qız

qalasına su kəməri də çəkdirmişdi. Lakin düşmən eldən bu qıza vurulan var imiş. Həmin düşmən qalaya çəkilən suyu da kəsir. Qızın ümidi kəsiləndə öz sevgilisinə qovuşmaq üçün birlikdə gecəykən atları tərsə nallatdırıb qaladan qaçaraq Savalan ətəklərinə qədər gedirlər. Düşmən tayfa qızı axtarır, lakin tapa bilmir. Bir ay yetişməmiş qızdan həmin düşmənlərə namə gəlir və orada qız oğlana yazır: "Məni bundan sonra axtarma. Məni ərdə bil". Dyilənə görə, Ərdəbil şəhərinin adı belə yaranıb və qızın gəlib köç saldığı yer də Ərdəbil kimi tanınmağa başlayıb".

***Üçüncü əfsanə:***
***Əsgərov Şamil Həjar oğlunun variantı***

Alar kəndinin əsasını bu kənddə yaşayan əhalinin onuncu babası Alıxan adlı cəsur bir kəndli qoymuşdur. İran şahı ilə üz-üzə gələn Alıxan ailəsi ilə birlikdə qaçıb bu dağlara sığınmış, zülmün qarşısında baş əyməmişdi. Onun Nigar adlı bir qızı dünyaya gəlmiş, gözəlliyində, qoçaqlığında qüsur olmamış, qeyrətinə görə eldə, obada ad qazanmışdı. Şahın qoşun başçısına ərə getməyi rədd edən bu qız sıldırım qayanın başında qala tikdirib Şah qoşununa qarşı meydan oxumuşdu. Buna görə də Alar kəndindəki Qız qalasına "Nigar qalası" da deyirlər. Qız istəyən qoşun başçısını və ona havadarlıq edən öz əmisi uşaqlarını öldürdükdən sonra Zəngələ kəndində ərə gedir. Hazırda Zəngələ camaatı Nigarlı adlanır.

***Dördüncü əfsanə:***
***Əsgərov İlham Şükr oğlunun variantı***

Bu əfsanəni bizdən böyüklər nağıl eləyiblər. Oğlan qalasında yaşayan bir igid Qız qalasında yaşayan bir qıza elçi düşür. Amma oğlan bu qızın xoşuna gəlmirdi. "Yox, deyəsən, bu oğlan məndən əl çəkməyəcək. Bu təkəbbürlüyü, özündən razılığı ona yedizdirməli, həddini başa salmalıyam" – deyə qız qalanın

yaxınlığındakı min başa qədər qoyun tutan mağaranın qənşərində dayanıb yaraşıqlı, qız birçəkli atına heyran-heyran baxdı. Atı yançidar edib otlağa buraxdırmışdı. Gözünü yaxın dost qədər əziz olan atına diksə də, fikri başqa yerdə, özündənrazı oğlanın yanında idi. Söz yox ki, oğlanın dilinə görə dilçəyi də vardı. Onun qalasının həndəvərinə həlhəbəs cahıl yaxınlaşa bilməzdi. İgidliyinə, qoçaqlığına bərabər cavan tapılmazdı. Amma xasiyyətindəki təkəbbür, lovğalıq qızı özündən çıxarır, daha coşqun, inadkar edirdi. Qız bilirdi ki, nə vaxtsa oğlanın qurbanına çevrilə bilər, əli heç yerə çatmaz. Çox düşünüb-daşınandan sonra oğlana xəbər göndərib görüş təyin etdi. Oğlan bildi ki, burada nəsə iş var, qız belə asanlıqla təslim olan deyil, amma çoxdan intizarında olduğu görüşə uça-uça gəldi. Qızın təklifini eşidəndə qanı cuşa gəldi, biləklərində kainatın gücünü duydu. Özlüyündə qovuşduğu həsrətin ləzzətini yaşamağa başladı. Amma qız da az aşın düzü deyildi. Bir şey bilməsəydi, bu mərci gəlməzdi: Bir-birimizin qalasına kəmənd atacağıq. Əgər sən mənim qalamı kəməndinlə dağıda bilsən, mən razı, sənə ərə gedəcəyəm. Əgər mən sənin qalanı uçursam, məni həmişəlik unudacaqsan. Öz gücünə inanan oğlan burada heç bir çətinlik görmürdü. Elə həmin inamla da kəməndini fırladıb qızın qalasının lap dibindən doladı. Güc verib qalanı yerlə yeksan etmək istədi. Amma nə fayda? Qalanı silkələsə də, başından bir neçə daş qopara bildi. Qalanın bütün çevrəsində zəncirin izləri qaldı, amma qala dağılmadı. Zəncirin izləri də, qalanın başından qopan daşların yeri də bu gün aydınca görünür.

Növbə qıza çatdı. Əslində qız oğlanın dəliqanlılığını nəzərə almışdı. Bilirdi ki, o, belə bir yol seçəcək, qalanı uçura bilməyəcək. Qız işinə daha ağıl və çəm-çümlə girişdi. Kəməndini oğlanın qalasının dibindən yox, başından atdı, tədricən çəkib qalanı dağıtdı. Dağılmış Oğlan qalanın izləri bu gün də qalmaqdadır. Beləliklə, oğlan məğlub oldu, kor-peşman çıxıb getdi. Ancaq dəli sevda onu rahat buraxmadı. Bu məğlubiyyət oğlanın inadını daha da artırdı. O, hər vəchlə qızı ələ keçirməyə, öz məq-

sədinə qovuşmağa can atdı. Oğlanın vədəxilaflığı qızı daha da qəzəbləndirdi, bu yerlərdən birdəfəlik çıxıb getmək qərarına gəldi. Bilirdi ki, oğlan onun dalınca gələcək, ona görə də atını tərsə nallatdırıb yola düşdü. Oğlan atın izi ilə səfərə çıxdı. Altı ay səfər axtarışından sonra ağlına gələn fikirdən az qaldı ağlını itirə - bəlkə qız məni aldadıb, atını tərsə nallatdırıb, tamam başqa səmtə üz tutub?! Üç günlük yolu bir günə qət edib qalanın yanına çatdı. Yubanmadan əks istiqamətə yola düşdü. Xeyli müddət yol getdi. Bir gün qarşıdan gələn tacir karvanı ilə rastlaşdı. Karvanbaşı oğlanın kim olduğunu bilincə, uzun müddət qoynunda gizlətdiyi məktubu ona verdi. Məktub qızdan idi. Qız yazırdı: "bir daha məni axtarma, artıq məni ərdə bil". Deyirlər, qızın yaşadığı Ərdəbil şəhərinin adı elə bu sözlərdən yarandı.

***Beşinci əfsanə***
***Rəhmanov Sənhan Nurulla oğlunun vüriantı***

Oğlan öz elinin xanı idi, qız öz elinin. Hərəsinin öz qalası vardı. Oğlanın qıza gözü düşdü, dedi, hökmən mənə gəlməlisən. Qızın öz istədiyi vardı. Oğlana getmək istəmədi. Oğlan dəstəsi gəlib qızın qalasına kəmənd atdı, qalanın başını uçurdu. Qız da öz dəstəsini başına alıb oğlanın qalasına kəmənd atdı, qalanı uçurub dağıtdı. Oğlanla qızın arasında ədavət gücləndi, qız gördü ki, öz qalasında dinc yaşaya bilməyəcək, istədiyi oğlana qoşulub bu yerlərdən getdi. Oğlan gəlib onu tapmasın deyə, atları tərsə nallatdılar. Oğlan atın getdiyi istiqaməti tapa bilmədi. Qız canını oğlanın əlindən qurtardı. Sonra qız oğlana məktub göndərdi ki, məni ərdə bil. Oğlan başa düşdü ki, qız onu aldadıb. O vaxtdan qızın yaşadığı yer Ərdəbil adlanır.

## 2. Dərəkeçməz

Alı xanın böyük qardaşı Şahağıda qəbiləli adam idi. Alının obasına öz adamlarından bir neçə nəfər göndərir ki, qəllə versin.

Alı qəllə verməkdən imtina edir. Deyir, bu mahalın qəlləsi qardaşıma bəs deyil, mənim xırda obamdan qəllə istəyir? Qəllə ala bilməyən adamlar qayıdıb xana Alının sözlərini çatdırırlar. Xan qəzəblənir və fərman verir ki, Alının gözlərini dünya işığına həsrət qoysunlar. Həmin gün Alını hüzuruna istəyir. Alı iki oğlu ilə şər qovuşanda qardaşının sarayına gəlir. Qapıçılar onu içəri buraxırlar. Alı daxil olur və deyir: "Biz qardaşıq, sən gəl mənim obam haqqında verdiyin fərmanı geri götür". Xan deyir: Ola bilməz, mən verdiyim fərmanı geri götürmürəm". vəziyyəti belə görən Alı oğlanları ilə xanı öldürür. Xanın mənzilində olan qadınlara qorxu gəlir ki, şivən qoparmasınlar. Sonra arxadan qapını qıfıllayıb geri qayıdır. Köçünü çatıb bir baş Talış dağlarına yola düşür. Bir neçə gün yol gəlib Çiçəkli yaylağının Üçbulaq deyilən yerində məskən salır. Yanında gələn və ona tabe olan adamlara deyir: "Siz bizdən ayrılmalısınız. Mənim arxamca qoşun gəlir. Siz nahaqdan fəlakətə düçar olmayın".

Rəiyyət razılaşır. Onlar oradan başqa səmtə yola düşürlər.

Alı xanın üç oğlu, bir qızı olub: Həsən, Nurpaşa, Qulam və Nigar. Oğlanlarının hər üçünü evləndirmişdi. Alı xanın arvadının adı Həcər idi. Belə rəvayət edirlər ki, Alı xanın Nurpaşa adlı oğlu ilə qızı Nigar doğma idi, yəni hər ikisi bir anadan olmuşdu.

Bir neçə gün ötəndən sonra Alı xanın qardaşı oğlu silahlı dəstə ilə gəlib indiki Şahnişin yaylağına çıxır. Qalın meşə ilə əhatə olunmuş bu dağlar ona vahiməli görünür. Yanında olan rəmldara deyir: "Bir rəml at, görək Alı xan hansı səmtə gedib". Dövrünün çox ağıllı adamlarından sayılan rəmldar ikinci dəfə qan tökülməsini rəva görmür. Deyir: "Xan, rəml göstərir ki, bu dərəni keçmək olmaz".

Alı xanın qardaşı oğlu öz adamları ilə geri qayıdır. O dərənin adı Dərəkeçməz qalır.

## 3. Əmbüz

Bir gün Alının oğlanları ova çıxmışdılar. Dağın aşağı hissəsindəki yastançadan çıxan tüstünü görürlər. Atlarını tüstü çıxan yerə sürürlər. Görürlər ki, orada kənd var. Kəndin bərabərindəki buğda qalağının yanından geri qayıdırlar. Gördüklərini Alı xana çatdırırlar. Alı xan deyir: "Yaxşı oldu, bir qədər pul götürüb və bir neçə at hazır edib gedin o kənddən taxıl alın". Alı xanın oğlanları kəndə gəlirlər. Kəndin ağsaqqalını istəyirlər. Ağsaqqal, Alı xanın oğlanlarından gəlişlərinin səbəbini xəbər alır. Onlar deyirlər: "Biz bu dağlara pənah gətirmişik. Azuqəmiz qurtarıb, bizə bir qədər taxıl verin". Kəndin ağsaqqalı deyir: "Bu taxıl xana məxsusdur. Onun dəcin heç kəs poza bilməz".

Alı xanın oğlanları qayıdıb atalarına əhvalatı nağıl edirlər. Alı xan deyir: "Gedin, əgər yenə də verməsələr, zor ilə alın".

Alı xanın oğlanları ikinci dəfə kəndə gəlirlər. taxıldan ötrü nə qədər xahiş edirlərsə, bir şey hasil olmur, axırda silaha əl atırlar. Kənd camaatı dağılışır, onlar taxıldan lazımi qədər götürüb geri qayıdırlar.

## 4. Qara at yolu

Kəndin adamları Lənkəran xanına şikayət ərizəsi yazırlar. Ərizəni o zaman Şahnişin yaylağına gəzintiyə çıxmış xana verirlər. Lənkəran xanı öz adamları ilə birlikdə həmin kəndə gəlir. Bundan xəbər tutan Alı xan Lənkəran xanını ehtiramla qarşılayır. Ayağına bir neçə qoç kəsir. Lənkəran xanı Alı xana deyir: "Mən səni zindana saldıracaqdım. Buraya nə vəziyyətdə gəldiyini bilmirdim. Qonaqpərvərliyindən xoşum gəldi. De görüm, məndən nə istəyirsən?" Alı xan deyir: "Xan sağ olsun, sənin mərhəmətinə sığınmışam. Bu dağlarda bir qədər yer istəyirəm".

Lənkəran xanı Alı xana bir qara at verib deyir: "Çap, harda atın bağrı çatlasa, ora qədər sənindir". Alı xanın mindiyi qara at indi "Qara at yolu" deyilən yerdə ölür. Lənkəran xanı həmin

yerin qəbələsini yazıb Alı xana verir. Bunu eşidən şikayətçilər daha o yerdə qalmırlar, köçüb qaçırlar. Alı xan boş qalmış kəndə daxil olur. Bundan sonra kəndi Alar adlandırırlar.

## 5. Xarı bülbül əfsanəsi

Xarı bülbülün çiçək dövrü qısa olur. May-iyun aylarında bitir. Otların, çiçəklərin içində bu məsum çiçək o qədər də açıq-aydın nəzərə çarpmır. Adətən, maili yamaclarda, hündür ağacların yaxınlığında bitir. Xarı bülbülə Yardımlının Bozayran kəndində “Miriş bostanı”, “Pir Əhməd kolatı” və “Tut bağı” deyilən sahələrdə, Viləş çayının sahilindəki “Bəylik bulağı” deyilən yerdə rast gəlmək olur.

Xarı bülbül haqqında belə bir əfsanə var: Deyilənə görə, bütün bitkilər bir zamanlar canlı imişlər. Onlar da insanlar kimi sevib-sevilirmişlər. Bülbül də dörd ləçəkli bu gülü sevirmiş. Arının bu ülvi məhəbbəti gözü götürmür. O, gülün gövdəsi ilə dırmaşıb gülün bir ləçəyini yeyir. Bütün güllər fəryad edir, allaha yalvarır ki, bülbülü güldən ayırmasın. Gülün adı o vaxtdan “Xarı bülbül” qalır. Xarı bülbül and içir ki, buraları heç vaxt tərk etməyəcək, Şuşadan başqa heç yerdə bitməyəcək. Şuşa işğal olunandan sonra heç yerdə bitməyən Xarı bülbül havası Şuşanın havasına oxşayan Yardımlıya ayaq açır.

## 6. Qaranquş

Qaranquşun biri bir adama aşiq olur. Pəncərənin önünə gəlir, bütün cəsarətini toplayır və pəncərənin şüşəsinə vurur. Tık... Tık... Tık...

Adam pəncərəyə tərəf baxır, işi çox oldugundan heç əhəmiyyət də vermir. Qaranquş dil açıb danışmağa başlayır.

- Ey adam, mən səni sevirəm. Səninlə yaşamaq istəyirəm. Səni darıxmağa qoymaram, səni incitmərəm.

Adam hirslənir:

- Yox, daha nələr, qaranquş da insana aşiq olarmış?

Qaranquş çox pis olur və ordan uzaqlaşır. Sonra yenə pəncərəyə yaxınlaşır və deyir:

- Gəl, dost olaq, bir yerdə yeyərik, bir yerdə oynayarıq, sənə yaxşı dost olaram.

Adam yenə etiraz edir. Bir az da kobud olduguna görə kəskin cavab verir qaranquşa. Qaranquş gedir, amma bir azdan yenə gəlir:

- Sonuncu dəfə gəlirəm, pəncərəni aç, icəri gəlim, çox soyuqdu. Əgər məni icəri almasan, mən isti ölkələrə getməli olacağam. Sən də təksən. Səni darıxmağa qoymaram.

Qaranquşun bu sözü adama çox pis təsir etdi. “Təksən” dediyinə görə, ondan çox incidi və onu qovdu. Qaranquş çox pərişan halda oradan uzaqlaşdı. Qaranquş gedəndən sonra adam darıxmağa başladı. Özünü çox qınadı ki, kaş onu qovmazdım. Başım qarışardı, tək olmazdım. Özünə təsəlli ücün deyirdi ki, yaz gələndə yenə gələcək. Aylar keçdi, yaz gəldi, o, qaranquşun yolunu hələ də gözləyirdi. Pəncərəni yaz bitənə qədər açıq saxladı, amma qaranquş gəlmədi. Başqa quşlar hamısı gəlmişdi, onlardan da soruşdu, heç birinin ondan xəbəri yox idi. Çox üzüldü, çox peşman oldu. Sonra bir mudrik qocanın yanına getməyi qərara aldı. Qocaya bütün baş verənləri danışdı. Qoca isə ona belə cavab verdi:

- O daha gəlmiyəcək. Qaranquşların ömrü altı aydır.

# RƏVAYƏTLƏR

## 1. Qəribə ov rəvayəti

Deyirlər keçmiş zamanlarda Yardımlıda 60-70 yaşlı bir qoca ovçu var imiş. Ovçuluqda səriştəliymiş. Bəzən şir, pələng ovuna çıxarmış. Atasından ona bir ov tüfəngi, bir xəncər qalıbmış. Ömrünün çoxunu ovda keçirən qoca Ağbilək adlı iti ilə qorxunc gecələri çöldə keçirər, ov ovlarmış.

Bir dəfə yenə qoca Ağbilənglə ova çıxıbmış. Kənd-kəsəkdən uzaq yolda uzanmış halda bir ayıya rast gələn qoca, bəlkə də bunun hiylə olduğunu, ya da naməlum bir ovçu tərəfindən vurulduğunu zənn edir. Bir anlıq nə Ağbilək, nə də qoca yerindən tərpənməyir. Sonra ayıya yaxınlaşan qoca ovçu az qala heyrətlənir. Kiçik bir odun parçası batıbmış ayının ayağına. Çox zaman insanla döyüşən bu vəhşi heyvan ovçunu görcək sanki insan kimi ağlamış, imdad gözləyirmiş. Bunu başa düşən ovçu ayının ayağından odun parçasını çıxarmış. Yerindən sıçrayan vəhşi qocaya əl oynada-oynada sanki “ arxamca gəl” deyirmiş. Ovçu Ağbiləklə vəhşinin ardınca meşənin dərinliklərinə gəlib çıxıblar. Deyirlər ki, yaxşılığa qarşı o vəhşi heyvan qocaya çoxlu balı olan arı şamı göstərərək oradan yox olmuş, bir daha görünməyibmiş.

Ömrünün çoxunu ovda keçirən ovçu qocanı vəhşinin bu hərəkəti heyrətləndirmiş, ömründə belə qəribə ova rast gəlmədiyini söyləmişdir.

## 2. Qaçaqların rəvayəti

Bir dəstə qaçaq var imiş. Bunlar ac-yalavac dolaşeylər. Gəleylər çıxeylər bir dəyirmana. İsteylər bu dəyirmana basqun eləsünlər. Gəleylər dəyirmana, göreylər heç şey yoxdu, çörək qırıntısinnən zaddan tapeylər. Bir müddətdən sora çıxub gedeylər. Yolda möhkəm küley qalxey bunnarun çoxi qırıley. İkisi

qaley, bular də gəley bizim bu kəndin üst səmtində bir Aharax kəndi varimiş orə. Bizim bu kənddən iki nəfər mal gəzeymiş, gəleylər Avarağa çatanda göreylər iki nəfər adam oturey. Yaxınlaşıb göreylər ikisi də ölüb. Hay düşey hər tərəfə, bəs, deməzsən, filan yerdə qaçaqlar qırılub. Bizim kəndin kəttasi də gəley bura. Bu qaçaqlərin ikisini də bizim bu kənddə basdırırdilər. Onda mən iri idim, ağlim kəseydi. Ölənin birinin adı Nəzər idi. Nəzəri bizim kənddə Heydər var idi, o yudi. Heydər də Adugözəlin oğludu. O vaxt bir arvad bu ölinin üstində belə bir bayəti demişdi:

- Atamin Nəzər oğlu,
At minər gəzər oğlu,
Oni yudi, dəfn etdu,
Heydər Adgözəl oğlu.

Yayda dəryayə varram.
Balta kəsməz buz olar.
Qış güni həmmamə getəm,
Topiğimnən toz olar.

Talehim gec gətirər,
Bəxt üzümə güldirməz.
Bir tərlanə tor qursam,
Ona düşən quzğun olar.

## 3. Kərəm köçü (1)

Dağüzü kəndinin yaxınlığında, Savalan dağı ilə üzbəüz yüksək qayalıqlar üstündə köhnə bir yurd yeri var ki, el arasında buraya Kərəm köçü deyirlər. Hər yanı sıldırım qayalıqlarla dövlərənmiş bu qədim yurd yerinə ancaq cığır bir yolla qalxmaq mümkündür.

Rəvayətə görə, Kərəm adlı nəhəng gövdəli, pəhləvan biləkli bir çoban öz sürüsünü həmin yerdə saxlarmış. Bu köç onun

yaylaq yeri imiş. Həramilər, quldurlar neçə dəfə onun sürüsünü oğurlamağa çəhd göstərsələr də, bu, heç cür mümkün olmurmuş. Səbəbi köçün qarşısındakı iri bir daşın giriş hissəyə qoyulması imiş. Bu nəhəng daşı təkcə Kərəm qaldırıb qapı kimi köçün bərəsini örtərmiş. Özü isə çox vaxt daşı yerinə qoyub ağılı bərkidər, arxayın bir halda gah Peştəsər obasına, gah da Arvanadakı evlərinə gedərmiş.

Kərəm köçdə olmadığı zamanlarda quldurlar nə qədər çalışırmışlar ki, içəriyə girmək üçün daşı qaldırsınlar, gücləri çatmırmış. Çox götür-qoydan sonra, nəhayət, belə kələk işlədirlər ki, kənardan köçün içərisinə qamışdan düzəldilmiş bir neçə tütək atsınlar. Kərəm götürüb çalsın, bəlkə, gücdən, qüvvətdən düşə. Onlar düşündükləri kimi də eləyirlər.

Kərəm köçdən tapdığı tütəkləri çaldıqca, odlu nəfəsindən bu qamış neylər çilik-çilik olub, bir-bir sıradan çıxırmış. Son dəfə düşmənlər köçə tərəf dəmirdən qayrılmış çoxlu deşiyi olan böyük bir tütək atırlar. Kərəm bu tütəkdən də çoxlu havalar çalıb oxuyur. Ancaq sən demə, dəmir tütək getdikcə onun gücünü zəiflədib azaldırmış. Bir gün daşı qaldırıb köçün qapısına qoyanda isə lap gözləri qaralır. Nə qədər güc vurursa daşı yerindən tərpədə bilmir. Qolları sustalıb, pərişan halda yerə oturur, alnında pucurlanan tər damcılarını silir. Quldurlara da elə bu lazım idi. De bayaq ha, hər tərəfdən tökülüb onu araya alırlar, qollarını seyizin möhkəm və cod tükləri ilə bağlayıb özünü də, qoyun sürüsünü də qabaqlarına qatıb aparırlar.

Hadisədən xəbər tutan Kərəmin Dağüzü kəndində yaşayan igid sevgilisi Həcər xanım tez köhlən ata süvar olub, tərkinə də bir xurcun kül yığaraq köçə tərəf mehmizləyib çapır. Çapdıqca da külü havaya sovurur. Quldurlar ətrafı bürüyən toz dumanından, çınqıllı daş yollarda qığılcım qopardan nal cingiltisindən, kəsilmək bilməyən at kişnəməsindən Kərəmə köməyə böyük bir qoşunun gəldiyini zənn edib, onu da, sürüsünü də buraxıb cəld aradan çıxırlar.

## 4. Kərəm köçü (2)

Arvanada, köhnə kəndin Peştəsər sıra dağlarının ən yüksək yerində dörd bir tərəfi sıldırım qayalıq olan yamac var. Orda 500-dək qoyun saxlamaq, daldalanmaq olar. Yamaca yalnız bir yerdən yol var imiş ki, o da böyük bir daşla örtülürmüş.

Bir gün Kərəm 500 qoyunla - Ərdəbilə tərəf gedirmiş. Üzü Savalana tərəf dönəndə uzaqdan atlı dəstəsinin gəldiyini görür. Kərəm hiss edir ki, bu görünənlər soyğunçulardır. Bəs nə eləsin, çıxış yolunu tapsın?

Kərəm sürünü həmin yamaca sürür, ağzını isə böyük daşla tutur. Beləliklə, həm sürünü, həm də özünü düşmənlərdən xilas edir. Elə o vaxtdan həmin yer “ Kərəm köçü” adlanır.

## 5. Peyğəmbərin dəvəsi

Deyilənlərə görə, Peyğəmbər Salavatullah hələ sağlığında ikən öz sevimli dəvələrindən birini qoşun başçısı Zübeyrə bağışlayır. Xilafətin ilk çağlarında Zübeyrin dəstəsi çox yerləri ələ keçirib, hətta Peştəsər dağlarına qədər belə gəlib çatır. Ən böyük toqquşma isə Deman düzündə Fərhad xanın qəsri önündə baş verir. İslam qoşunları ilə şiddətli döyüşlər aparan odsevər azəri türkləri ərəblərin zərbələri altında yaxınlıqdakı dağlara tərəf çəkilsələr da, inadlı vuruşlarını davam etdirir, təslim olmaq istəmirlər. Qızğın döyüşlərin birində ərəb qoşunlarının komandanı Zübeyrin mindiyi, Salavatullahın bağışladığı sevimli dəvə azərilərin atdığı sərrast və zəhərli oxlardan yaralanıb yerə yıxılır. Zubeyir can verməkdə olan iki hörgüclü dəvənin üstündən aşıb yerə düşür. Onun gözlərindən öpüb ayağa durur və əli ilə işarə edərək döyüşü səngitməyi tapşırır. Qoşun əhli bir-bir gəlib sevimli dəvənin önündə diz çöküb məyus halda gözlərini onun ağlar, nəmli gözlərinə dikirlər.

Dağlardan bu mənzərəni seyr edən türk əsgərləri “Arvan (dəvə) öldü, ha-a, arvan öldü, ha-a!”- deyə ura çəkib, başları son

nəfəsini yaşamaqda olan dəvəyə qarışan ərəblərin üstünə hücum çəkirlər. Qəfil zərbədən özlərini itirən ərəb qoşununu Savalan dağından o taya qovub geri qaytarırlar.

Sonralar islamı qəbul etmiş yerli türklər o vaxtdan bəri sevimli dəvənin öldüyü yeri öz dillərində Arvana, dəvənin göz yaşları və qanı ilə boyanmış yerlərdə boy atıb dirçələn, yalnız bu ərazilərdə bitən yaraşıqlı gülü isə Peyğəmbər çiçəyi adlandırmışlar.

## 6. Həzrət Əli ilə Xəlifə Ömərin şərti

Belə rəvayət edirlər ki, həzrət Əli ilə Xəlifə Ömər Xanbulaq üstündən ötüb keçərkən, əsrarəngiz gözəlliklər qarşısında sehrlənib bir müddət sükut içində dayanırlar. Lakin ətrafda bulağın olmaması hər ikisini çox mütəəssir edir. Belə şərtləşiirlər ki, kim öz qüdrətini göstərib burda bulaq yarada bilsə, Ulu Tanrı yanında ən şərafətli adam sayılmalıdır.

Əvvəlcə Ömər əlindəki əsanı yerə vurur. Bir şey görünmür. Hirsindən rəngi qaralmış Ömər bu dəfə əsanın ucunu dalbadal torpağa döyəcləyir. Yer yaşarsa da, su çıxmır ki, çıxmır. Növbə həzrət Əliyə çatanda əsanı yerə vurmaqla saf, göz yaşı kimi dumduru bulaq suyunun göyə dikəlməyi bir olur. Həzrət Əli görür ki, çıxardığı bulaq otluq yerdədir. Gələcəkdə itib-batmasın deyə, əbədi qalmaq üçün belindəki iti tiyəli Zülfüqar qılıncını qınından çıxarıb bulağın üstündəki iri qaya daşını parçalayır. Buz kimi dupduru su bu dəfə sərt qaya yarğanın arasından fəvvarə vurub çınqıllığa səpələnir. Ömər vəziyyəti belə görəndə bir qədər tutulub qalır.

Deyirlər, Xəlifə Ömərin əsa vurub döyəclədiyi həmin yer bütün fəsillərdə daim gömgöy otlarla örtülü olur. Ancaq heç vaxt su çıxmır. Həzrət Əlinin möcüzəsi ilə çağlayan dirilik bulağından içənlərin bədəni isə heç vaxt xəstəlik görmür.

## 7. Gəlindaşı

Deyirlər, bir vaxt ərəb qoşunları Azərbaycana gələndə Nisəkələ qalasını çox böyük qurbanlar bahasına ələ keçirir. Kəndi özlərinə tabe edən ərəblər bütün müdafiəçiləri qırıb qurtarsalar da, qalanın sahibi cəsur Nüşabəni heç cür təslim edə bilmirlər. Qoca qız özünün əsir alınacağını görüb gecə ikən gizlicə qaladan çıxır. Peştəsər yaxınlığında yenidən bir dəstə ərəb döyüşçüsünə rast gəlir. Qurtulmağın mümkünsüzlüyünü görən Nüşabə əllərini göyə qaldıraraq uca Tanrıya yalvarıb ondan kömək diləyir. Tanrı Nüşabənin sözünü yerinə yetirir. Düşmənin əlinə keçməmək üçün onu daş heykələ döndərir.

Deyilənlərə göə, indiki Peştəsər kəndinin yanındakı "Gəlindaşı" kimi tanınan daş heykəl də həmin hadisələrdən yadigar qalmışdır.

## 8. Xalqın şah deməyə dili gəlmədi

Belə söyləyirlər ki, Muğan düzündə tacqoyma mərasimi keçirən Nadir şah Moran və Sivdaş kəndlərində onun zülmünə qarşı artan narazılıqlara son qoymaq üçün üsyankar dağlılara hücum çəkir. Zalım şah tezliklə iğtişaşı yatırıb bir neçə kəndi də viran qoyur. Tələsik surətdə Ərdəbil şəhərinə grtmək üçün yola düşür. Qoşun Dağüzü kəndindən keçərkən şahın əmri ilə burdakı gözəl bir bulağın başında düşərgə qurulur. Zülümkar şahın qorxusundan bütün kənd əhli yaxınlıqdakı meşəyə qaçıb gizlənir. Şahın əskərləri çox axtarandan sonra kənddən gücla düşkün bir qarı, bir də onun evindən yemək üçün bir motal pendir tapırlar. Şah qarıdan əhalinin harda gizləndiyini soruşsa da, heç bir cavab almayıb, qəzəbindən onu suvarilərdən birinin atının quyruğuna bağlatdırır, daşlı yollarda o tərəfə - bu tərəfə o qədər sürütdürür ki, arıq vücudlu, çəlimsiz qarı da bayaq ömrünü zalım şaha bağışlayır.

Qoşun çəkilib gedəndən sonra əhali öz yurduna dönür. Qarının meyidini tapıb hörmətlə dəfn eləyirlər.

Sonradan kənd adamları şahın əyləşdiyi yerə Nadir bulağı adı versələr də, ona qarşı sonsuz kin və qəzəblərindən “şah” sözünü artırmağı özlərinə rəva görmək istəmirlər.

## 9. Əmbüz dağı

Ustadlar deyirlər ki, hələ lap qədim zamanlarda Odman düzündə Savalan adlı halal zəhmətlə məşğul olan bir kişi yaşayırmış. Hünərdə, zəhmətdə onun özü kimi həm də iki oğlu el-oba içində ad-san qazanmış imiş.

Ömrünün son çağlarını yaşayan ağsaçlı Savalan kişi şir ürəkli, pəhləvan biləkli oğlanları ilə hər il Odman düzündə yer şumlayıb buğda əkərmiş.

Bir gün yenə qardaşlar əkdikləri buğdanı xırmanda sovuraraq ayrı-ayrılıqda taya kimi üst-üstə yığıb əmbüz düzəldirlər. O günü axşamadək sovruq atıb yorulduğundan hər iki qardaş tez yatmalı olur. Gecənin bir aləmində yuxudan ayılıb buğda əmbüzlərinə nəzər salan Savalan kişi görür ki, kimsə qardaşlardan birinin buğda əmbüzundan iri çanağı doldurub dalbadal o biri qardaşın buğda tayasının üstünə tökür. Savalan kişi yavaş-yavaş yaxına gəlir. Diqqətlə baxanda oğlanın öz oğlu olduğunu görür. Qəzəbindən tir-tir əsir. Oğluna heç nə deyə bilmir. Əllərini göyə qaldırıb uca Tanrıdan ancaq ölüm diləyir.

Birdən göy guruldayır. İldırım çaxır. Ağsaçlı Savalan kişi başı qarlı nəhəng bir dağa çevrilir, yavaş-yavaş Odman düzündən aralanır. Ulu Tanrı oğru qardaşın bütün bədənini daşa döndərib, özünü də Cər-cəbil şəhərinin yaxınlığına tullayır. Oğurluq qatıldığından buğda əmbüzü uca bir dağa, xəyanətkar qardaşın əlindəki çanaq isə daşa çevrilib xəcalətlərindən Odman düzündən aralanıb bir az kənara çəkilirlər.

Belə deyirlər ki, indi göylərə baş çəkən başıqarlı Savalan da, Peştəsər silsiləsindəki Əmbüz dağı da, hələ qarğanmış Deman düzü də, Şəfəqkənd üstündəki nəhəng daş heykəl də, hətta Əmbüz dağına yaxın qayalardan birinin üzərindən yapışmaq

ucun əllərini, yanlarına söykəmiş qollarını güc verib qaldırarkən dayaq kimi qatlanmış diz yerlərinin izləri və nəhayət, buradakı böyük bir daş çanağın özü də həmin hadisələrdən əbədi bir nişanə kimi qalmışdır.

## 10. Əmbuzbaş əfsanəsi (2)

Hamarkəndin yaxınlığında Əmbuzbaş adlanan qədim bir daş heykəl var. Onun haqqında belə bir əfsanə söyləyirlər.

Çox-çox qədim zamanlarda bizim tərəflərdə Seyid şahmar adlı çoxlu kəndi olan bir ağa varmış. Seyid Şahmar camaatdan taxıl gəlirinin yarısına qədərini aparsa da, qalan məhsulda da tamahı var imiş. Ancaq camaatın qəzəbindən qorxduğu üçün bunu açıq etməyə cəsarəti çatmırmış.

Hamarkənddə kasıbdan-kasıb olan Əhməd kişi də böyük ailəsini yaza çıxarmaq üçün məhsula ümid bağlayıbmış. Artıq buğda hazır edilib evə aparılmaq vəziyyətində imiş. Bir çox kənd camaatı taxılını daşımış olsa da, yarıya qədəri imkanları olmadığından daşıya bilməyiblər. Çox vaxt xırmanda yatan Əhməd kişi səhəri aparmaq üçün buğdanı qomalayaraq, şananı ortasına vurub gedibmiş.

Axşam Seyid Şahmarın adamları buğdanı oğurlamağa gəliblərmiş. Çuvalları dənə yaxınlaşdırıb yığmaq istəyərkən daşa dönmüşlər.

## 11. Ümid

Belə deyirlər, çox qədim zamanlarda bir çərxi fələk var imiş. Adamlar və səyyahlar ora gəlib əlindəki mumu çərxi-fələyə vurub, sonra geri çəkərdilər. Mumda yazılanı oxuyub müəyyən elmi öyrənirdilər. Bir səyyahın mumuna belə bir söz yazıldı: "Bu duanı oxuyanda çərxi-fələk dayanır". Həmin səyyah oxudu. Çərxi-fələk onun gözünə dayandı. Səyyah orada nə elm vardırsa, hamısını dəftərlərə yazıb sandıqlara yığdı. Səyyah gəmi vasitəsilə öz ölkəsinə

gedəcəkdi. Sandıqları daşıyıb gəmiyə yığdı. Gəmi öz ünvanına çatmaq üçün dənizin sularında üzürdü. Gəmidə səyyah çox idi.

Allah-təala dedi:

- Ya Cəbrayil o, dünyanın elmini yığdı. Dünyanı xaraba qoyacaq. Get, onunla haqq-hesab çək.

Cəbrayil insan cildində həmən səyyahın yanına gəldi dedi:

- Sən kimsən?

Səyyah cavab verdi:

- Mən aliməm.

Cəbrayil dedi:

- Sən deyə bilərsən ki, Allah hardadır?

Səyyah sandığı açıb dəftərin oxuyub dedi:

- Allah ya sənsən, ya da mən.

Allahdan nida gəldi: "Ya Cəbrayil" gördün o, hər şeyi bilir. Onun sandıqlarını, dəftərlərinin hamısını tök dənizə. Cəbrayil səyyahın sandıqdakı dəftər-kitabını dənizə tökərkən səyyah əlin atıb bir xırda kağız vərəqi götürüb ovucunun içində gizlətdi. Yerdə qalan bütün sandıqları və onun içindəki dəftər və kitabları Cəbrayil dənizə tökdü. Sonra Cəbrayil qeyb oldu. Səyyah ovucunun içində gizlətdiyi kağız parçasını açıb oxudu. Orada yazılmışdı: "Ümid".

Bəli, doğrudanda insan həyatda ömrü boyu ümidlə yaşayıb, öz istək və arzularına çatmalıdır.

## 12. Filosofun məsləhəti

Bir adam bir filosofdan soruşur:

- Dövlətin dövlət olmağı üçün hansı şərtlər vacibdir?

Filosof, üç şərt, - deyə cavab verir.

- Onlar hansılardır, -deyə adam soruşur?

- 1. Ağıllı, siyasətçi, tədbirli, təcrübəli rəhbər; 2. Yaxşı, güclü inkişaf etmiş iqtisadiyyat; 3. Güclü ordu.

Adam soruşur:

- Əgər bunlardan buraxmalı olsan hansını buraxarsan?

Filosof cavab verir:

- Ordunu, ordusuz da dövlət yaşaya bilər.

- Adam soruşur:

- İkinci bəs hansını buraxarsan?

Filosof cavab verir:

- İqtisadiyyatı.

Adam Filosofa: "İnsanlar acından ölməz bəs?", -dedikdə isə Filosof cavab verir:

- Hamı acından ölməyəcək axı, müəyyən adamlar olacaq. Vay o ölkənin halına ki, onun ağıllı rəhbəri olmasın. O ölkə məhv olacaq. İnsanları da bəşər tarixində ağıllı padışahlar, olduqca görkəmli şəxsiyyətlər xilas etmişlər. Onlar öz ölkələrini aclıq və müharibələrdən qurtarmış, inkişaf etmiş ölkələr sırasına yüksəltmişlər.

## 13. Şahın əsası

Qədim zamanda bir şah olur, bu şahın cox bahalı bir əsası var imiş, bu əsaya cox məşhur bir oğrunun gözü düşür və başdıyır xəlvət vaxt axtarmağa... Nəsə, günlərin bir günü oğru, şah yatanda əsanı götürüb qaçır, şah ayılıb qışqırır:

- Qoymuyun, tutun oğrunu!

Şahın yanındakı xidmətçilər qacırlar oğrunun arxasıycan, lakin oğrunu tutmaq mümkün olmur. Şah məhkəmə qurur, xidmətçilərdən soruşur:

- Axı, niyə oğrunu tuta bilmədiniz, mən sizi gərək cəzalandıram.

Xidmətçilərdən biri bir az ağıllı olur, deyir, şah sağ olsun, mən bunun səbəbini bilirəm. Şah deyir:

- Söylə.

Xidmətci deyir:

- Şah sağ olsun, biz ona görə oğrunu tuta bilmədik ki, oğru özü üçün qacırdı, biz isə sənə görə qacırdıq.

İndi hamimiza iş tapşırırlar, hansı işi ki, ozümüzünkü bilirik, o işi fərli-başlı yarıdırıq, hansı işi ki, özümüzünki bilmirik, o iş şahın əsası kimi it-bata düşür.

## 14. Müsəlman

Bir nəfər cavan əlində bıçaq girir məscidə və deyir:

- Sizin aranızda müsəlman var?

Məsciddə olanlar cavanın əlində bıçağı görüb, qorxudan səslərini çıxartmırlar. Həmin adam yenə səslənir ki:

- Aranızda bir müsəlman yoxdu?

Bu an yaşlı bir kişi səsini çıxarır ki, mən müsəlmanam. Cavan yaşlı kişiyə baxır və deyir:

- Mənimlə gəl.

Bunlar məsciddən çıxırlar, cavan bir sürü qoyunları kişiyə göstərib deyir:

- Bu heyvanlar qurbanlıqdı, mənə kömək et, bunları kəsib paylayaq.

Qoyunların 3-4-nü kəsib soyurlar. Kişi yorulduğunu deyir. Cavan əlində qanlı bıçaq yenidən məscidə girir və yenə deyir:

- Ay camaat, sizin aranızda daha müsəlman yoxdu?

Məsciddə olanlar qanlı bıçağı cavanın əlində görüb, elə bilirlər ki, bu adam bayaqkı qocanı qətlə yetirib, qorxa-qorxa məscidin imamına tərəf baxırlar. İmam üzünü camaata tutub deyir:

- Nə üzümə baxırsız? İsa Məsihin canına and olsun ki, insan 2-3 rəkət namaz qılmaqla müsəlman olmaz.

## 15. Hər işdə bir xeyir var

Qədim dövrlərdə bir padişah varmiş. Həmin padişah öz yaxın dostunu özünə vəzir təyin edir. Bu vəzir cox ağıllı və alicənab birisi olur. Padişah bütün islərini vəzirlə məsləhətləşərmiş, vəzir də öz növbəsində ona yol göstərərmiş. Lakin həlli yolu mümkün olmayan məsələlərdə isə "Hər işdə bir xeyir var" deyərmiş.

Bir gün padişah ov ovlamağa gedəndə qəza neəticəsində öz barmağını xəncər ilə kəsib atır. Canı ağrıyan şah tez saraya qayıdır və vəziri yanına məsləhət almağa cagırır. Vəzir gəlir görür ki, sahın barmağı yoxdur, deyə bilmir ki, şah sağ olsun,

narahat olma, yerindən təzəsi cıxar. Məcbur olur, deyir, şah sağ olsun, hər işdə bir xeyir var. Bu söz canı ağrıyan sahı bərk qəzəbləndirir və əmr edir ki, vəziri zindana salsınlar.

Bir müddət sonra hadisələr yaddan cıxır. Şah yenə öz ətrafı ilə ova gedir, bu dəfə ceyran sürüsü bunları azdıraraq adam yeyən qəbilənin məskunlaşdığı əraziyə gətirir. Bunları qəbilə üzvləri tutur. Hər gün birini yeməyə baslayırlar. Nəhayət, növbə gəlib çıxır şaha. Şahı qəbilə başçısının yanına yeməyə aparırlar. Qəbilə başçısı şahın bədən üzvlərinin tam olmadığını görür, onu azadlığa buraxır. Cünki bu qəbilədə bədən üzvləri tam olmayan adam əti yemək haram sayılırmış.

Şah qayıdır öz sarayına, vəzirin sözü yadına düşür: "Hər işdə bir xeyir var". Əmr edir, vəziri sahın hüzuruna gətirirlər. Artıq vəzir qocalıb, üz-gözünü saqqal basıb tamam. Şah üzünü vəzirə tutub deyir ki, sən məni bagışla, sən deyən həqiqətmiş. Şah başına gələni vəzirə nağıl edir. Vəzir cavab verir: "Şah sag olsun, məni zindana salmağınızda da bir xeyir var. Siz məni zindana salmasaydınız, məni də özünüzlə ova aparacaqdınız. Mənim bədən üzvlərim tam olduğu ücün qəbilədə məni də yeyəcəkdilər".

## 16. Kor daş

Qış günlərinin birində iki nəfər iranlı Arvananın yaxınlığından gedirmiş. Yolun kənarından keçərkən nəhəng bir daş parçasına rast gəlirlər. Yolçulardan birisi o birini aldadıb deyir:

- Bu daşda elə bir hikmət var ki, bu üzündən o üzünə səs getməz.

Yoldaş inanır. Şərtləşirlər. İnanmayan yolçu daşın oyuğuna girib gözləyir. O biri isə səs salmadan oradan uzaqlaşır. Bir xeyli gözləyəndən sonra çıxıb görür ki, yoldaşı yoxdur. Həmin adam çıxış yolu tapmayıb dönür.

Elə buna görə də həmin daşı "Kor daş" adlandırırlar. O daş indi də Yardımlı rayonunun Arvana kəndi kənarında qalmaqdadır.

# İNANCLAR

1. Çöldə heyvan qalarsa, insanlar canavarın heyvana toxunmaması üçün ocağa nal atırlar.

2. Çöldə heyvan qalanda şalın dörd ucunu bağlayıb küncə atırlar.

3. Uşaq çığırdıqca 40 növ qabqacaq uşağın kürəyinə vururlar. Yaxud 7 dəfə uşağı qapıdan çıxarıb pəncərədən salırlar.

4. Uşaq tez böyüsün, həm də ayaq tutsun deyə uşağı xəlbirə qoyub 7 evdən pay alırlar.

5. Sicim üstə oturmaq olmaz. onun ardınca uzun-uzadı danışarlar.

6. Uşağ gec dil açanda uşağa sərçə əti verərlər ki, tez dil açsın.

7. Evə gəlin gələndə başına çörək qoyarlar ki, evə bərəkət gətirsin.

8. Gəlin gələndə qucağına oğlan uşağı qoyarlar ki, uğurlu olsun.

9. Gəlin evə gələndə qapıda bir qab su qoyarlar ki, gəlin suyu dağıtsın, su aydınlıq gətirər.

## ATALAR SÖZÜ VƏ DEYİMLƏR

1. El həmişə gəlib bostan qırağında düşməz.

2. Ovcumda olsa yalannam,
Bacımda olsa dilənnəm.

3. İki xan bir xalı üstə divan kəsə bilməz.

4. Səksən yaşında qoca,
İndi gedir mehraca.

5. Eynallıdı, hamısı bir hallıdı.

6. Malı bəylərə verib, iştahanı mənə.

7. Gedən gedər, qalan yol gözdər.

8. Əlindəki düyünü dişinə salma.

9. Eşşəklərin duası müstəcəb olsaydı,
Çarvadarlar yolda qalardı.

10. İttərün duası müstəcəb olsaydı,
Göydən sümük yağardı.

11. Mindim atın sağrısına,
Düz yanıvun ağrısına.

12. Bəyin yanında it kimi,
İtin yanından bəy kimi.

13. Xəşilimi yeyir,
Nənəmi söyür,
Gözün də mənə ağardır.

14. Sofidir soğan yemir,
Görsə qabığın qoymur.

15. Ha uzaq ola - yol yaxşıdır,
Ha yava ola - el yaxşıdır.

16. Qonaq kafir də olsa, hörmət lazımdır.

17. Him elədi, cim elədi,
Bu işləri kim elədi?

18. Qızılgül kölgəsindən nəm çəkər.

19. İt sənə dost olar, bir sümük atsan,
Namərd qədir bilməz, olsan da qurban.

20. Vətəndən didərgin olanın, qarın bağırsağı qazanda qaynar.

21. Xoş o adamın halına ki,
İt etibarda dostu ola.

22. Qaçan qoyunun qarnı doymaz.

23. Qızıma koma verim,
Üstündə dana verim.

24. Qızımı bəyə verim,
Üstündə düyə verim.

25. Əhmədə Əhməd düşüb,
Sənə nə zəhmət düşüb.

27. İynədəki sapın ucunu düyünlə ki,
Sonra peşman olmayasan.

28. Odunu ocağa qoy beş, pilə,
Yanmasa gözün deş.

# LAYLALAR

1. Lay-lay deyim həmişə,
Karvan gedib yemişə.
Sənə köynək tikmişəm,
Yaxası tər bənövşə.

2. Lay-lay deyim yaz olar,
Çaylar dolu qaz olar.
Səyyad olan tor qursun,
Belə tərlan az olar.

## TAPMACALAR

1. Qara toyuq qarğalar,
Evdən-evə yorğalar.
**(Tüstü)**

2. Ana bir qız doğdu,
Nə əli var, nə ayağı.
Qız bir ana doğdu,
Əli də var, ayağı da.
**(Yumurta)**

3. Tat oğlun katda gördüm,
Əcəb saatda gördüm.
İyirmi dörd ulduzu,
Dörd ayın altda gördüm.
**(Paqon)**

4. Bir damım var, içi dolu ağ yarmaça.
**(İydə)**

5. Sarı saqqal, uzun hoqqar,
Onu tapmayan olsun çaqqal.
**(Qarğıdalı)**

6. Hadrabani, hadrabani,
Altı qıçı var, iki dabanı.
**(Tərəzi)**

7. Suya düşər dağılar,
Sudan çıxar yığılar.
**(At quyruğu)**

8. Yolla gedən bir kişi,
Qarnına taxdım şişi.
Bir şaqqa ət verginən,
Nə erkək olsun, nə dişi.
**(Ana bətnindəki uşaq)**

9. Verən sənsən, alan sən,
Heç deməzsən yalan sən.
Gah bəzərsən aləmi,
Gah salarsan talan sən.
**(İlin fəsilləri)**

10. Uzun-uzun üləma,
Başında qıl dolama.
Qalxar padşah başına,
Ayağa gələr salama.
**(Namaz qılan adam)**

11. Buxarı, ay buxarı,
Buxaradan yuxarı.
Yeddi kərpic əyləşib,
Bir-birindən yuxarı.
**(Bürc)**

12. Hərində, ay hərində,
Yuva bağlar sərində.
Gecə-gündüz yol eylər,
Yerindədir ki, yerində.
**(Ay və Günəş)**

13. Bir ağacım var,
On iki budağı.
Hər budaqda da,
Dörd yarpağı.
**(İl, ay, həftə)**

14. Yazda geyinər, qışda soyunar.
**(Ağac)**

15. Həm bilirəm,
Həm bilmirəm.
**(Öləcəyəm, vaxtını bilmirəm)**

16. Həstədi, hay həstədi,
Şəki, Salyan üstədi.
İçində dənəcik var,
Özü qabıq üstədi.
**(Nar)**

17. Üstü taxta, altı daş,
Səkkiz ayaq, iki baş.
**(Vəl və öküzlər)**

18. Hilim, hilim, hilit,
Qapısı kilit.
Ya tapmacanı tap,
Ya da burdan it.
**(Qəbir)**

19. Əziziyəm bir ata,
Bir oğuldur, bir ata.
Altı camış üstü kim,
Çatılıbdır bir ata.
**(Çəkmə)**

20. Gündüz ağa,
Gecə nökər.
**(Yorğan, döşək)**

21. Su içində od, alov.
**(Samavar)**

22. Palıd paralı,
İçim yaralı.
Onu tapmayan,
Şeytan balalı.
**(Saz)**

23. Yolu düz, özü əyri.
**(Kotan)**

24. Burda bişər, orda düşər.
**(Məktub)**

25. Özü dəmirdən,
Quyruğu ipdən.
**(İynə, sap)**

26. Bir ağacım var,
Beş budağı,
Beş də sədəfi var.
**(Əl, barmaqlar, dırnaqlar)**

27. O nədir ki, qulağı ayağında.
**(Hörümçək)**

28. Bir təndirim var,
İki çörək tutur.
**(Qoz)**

29. Gündüz diri,
Gecə ölü.
**(Adam)**

30. Bir toyuğum var,
Qarnı yırtıq.
**(Buxarı)**

31. Üç dərviş başına bir
papaq qoyar.
**(Sacayağı)**

32. Balaca quyu,
Pıqqıldar suyu.
**(Qəlyan)**

33. Sürü-sürü quşlar,
Sürməyi quşlar.
Nə ağzı var, nə dişi,
Adamı dişlər.
**(Gicitkan)**

34. Burda yox,
Təbrizdə çox.
Ağzı belində,
Qanı yox.
**(Başmaq)**

35. Kağızlara od bükülər,
Ağızlara dürtülər.
**(Papiros)**

36. Bir yuvada iki toyuq,
Biri isti, biri soyuq.
**(Qış, yay)**

37. Dəvə dabanı,
Gəzər obanı,
Yeddi ayağı,
İki dabanı.
**(Əl tərəzisi)**

38. Əzizim haça gedər,
Bir yumurta içində,
Yüz əlli cücə gedər.
**(Nar)**

39. Nədəndi, ha nədəndi,
Bağrım başı zədəndi.
Dibi daş, ortası nar,
Başı heyva nədəndi?
**(Bunu da oxuyan tapsın)**

40. Bizdə var bir hindli,
Gah yeriyər, gah yırğalar tünd rəngi.
Gecələr mən meyxoşam, o cəngi,
Gündüzlər mürəkkəbəm, o dəngi.
**(Birə)**

41. Bəngi-bəngi, başını tut,
Döngü-döngü döşünü tut.
Qılman qoca əl-ayaq ver,
Hüseyn qoca, quyruğun tut.
**(Yəhər, cilov,
üzəngilər)**

42. Çay var, çay var, kölməy var,
Onu tez-tez görməy var.
Səksən səkkiz çatıda,
Doxsan doqquz ilməy var.
**(Balıq toru)**

43. Əyə-əyə, hamıya dəyə.
**(Ad)**

44. Bir qızım var, hər gələnin
üzündən öpər.
**(Dolça)**

45. Bir kişi var, qara tənəki
ağardar,
Ağ süpürgəni qızardar.
**(Dəllək)**

46. Babamın bir çuxası var,
Nə açmaq olur, nə qapamaq.
**(Göy qübbəsi)**

## V. CAVABSIZ TAPMACALAR

1. İnsanın əlindədir,
Şeytanın felindədir.
Quyruğu belindədir.

2. Girdədir-girdəkan deyil,
Yazılıdır-quran deyil.
Sarıdır-zəfaran deyil.

3. Saxsağan səkər,
Quyruğun bükər.
Qaz kimi qaqqıldayıb,
Yumurta tökər.

4. Dağda tappıldar ,
Çayda şappıldar,
Obada boyman,
Kənddə Süleyman.

5. Ağzı belində, canı yox.

6. Dağdan gəlir dadır suyu,
Heç kəs onu dada bilməz,
Cilfə toxur nazik bezdən,
Heç kəs onu hörə bilməz.

7. Burdan baxdım düz idi,
Sanadım əlli, yüz idi.
Oğlu padşahlıq edir,
Anası qız idi.

8. Ətdən şiş, qızıldan kabab,
Bir vaxt vardı yeyərdik.

# MƏRASİM FOLKLORU

## Novruz bayramı

Gəldi novruz bayramı,
Açıldı qönçə güllər.
Səf-səf eylər çimənlər,
Bilbillər eylər nalələr,
Ay baci, ver payımı,
Mən aparım ustadimə,
Ustadim üst eyləsün,
Məktəbdən azad eyləsün.
Dost güni, mənşər güni,
Allah sizi şad eyləsin.

Bahar Əhməd, bahar Əhməd, xoş Əhməd.
Bizim yerdə bağı-bostan əkəllər,
Əkdikcən şəhərlərə tökəllər.
Qırmızı əllərin kökə tutallar,
Əli-düldül, Əli-Düldül süvarə,
Suvar Qəmbər oldu cilovdər.

Əli bizi, Əli bizi bir imanə götürdü.
Götürəcəyin bizi şamə götürdü.
Qırmızı əllərini gögə götürdü,
Əli Düldül*, Əli Düldül suvarə,
Qəmbər oldi, Qənbər oldi cilovdar.

Gəldi Novruz bayrami,
Açildi qönçə gülləri.
Səf-səf çimənlər,
Bilbillər eylər nalələr.

---

* Düldül – Həzrət Əlinin atının adıdır (red.)

Ay baci ver payimi,
Mən aparim ustadimə.
Ustadim üst eyləsün,
Məktəbdən azad eyləsün.

Dost günü, məhşər günü,
Allah sizi şad eyləsün.

# TOY ADƏTLƏRİ

## 1. Yardımlının toy adətlərindən: Alar və Şıxhüseynli

Qız evinə paltarı bəzənib-düzənmiş qız-gəlinlər, arvadlar piyada aparırdılar. Adətən, Şıxhüseynlidən Alara və ya tərsinə paltar gətirirdilər. Xeyli məsafəni qadınlar piyada qət edirdilər. Kənddən çıxana qədər qadınlar müxtəlif mahnılar oxuyur, o biri kəndə çatanadək çalıb-oxumağı dayandırır, məzəli zarafatlarla, duzlu-dadlı söhbətlərlə yolu qısaldırdılar. Gəlinin kəndinə çatanda yenidən çal-çağıra başlayırdılar. Mahnılar, təxminən, halay mahnılarına bənzəyirdi. Qabaqda bir, bəzən iki qadın dəf çala-çala gedir, arxada kəlağayıdan yelləmə atmış qadınlar növbə ilə mahnı oxuyurdular. Qadınların yarısı bir misra ifa edir, digər yarısı nəqarətlə onların ayağını tuturdu. Nəqarət deyənlər avazlarının sonunu elə məharətlə uzadırdılar ki, elə bil, hansısa musiqi aləti ilə həmin notu saxlayır, sanki züy tutmaqla birinci dəstənin başqa misranı oxumağa başlamasına zəmin yaradırdılar.

*Birinci dəstə: Gəldi oğlan adamı, hey nar, hey nar.*

“Nar” sözü kifayət qədər uzadılır.

*İkinci dəstə: Adam, sındır badamı, hey nar, hey nar.*

Yenə “nar” sözü müvafiq avazla uzadılır, birinci dəstənin oxumasına ayaq verilir.

Gəlini bəzədilmiş atda aparırdılar. Əksər vaxt atın belinə yəhər qoymur, məxmərə, qumaşa bükülmüş çulla çullayırdılar. Bu, həm atı yaraşıqlı göstərir, həm də gəlinin daha rahat və təhlükəsiz oturmasına xidmət edirdi. Bəyin yaxın adamlarından biri atın yüyənindən yapışıb dalınca çəkirdi. Bəzən gəlinin qucağına uşaq qoyurdular. Bunun iki mənası vardı: bir tərəfdən oğlan evindən uşağa xələt-hədiyyə almaq istəyirdilərsə, digər tərəfdən gəlinə oğullu-uşaqlı olmaq arzularını ifadə edirdilər. yol boyunca cavanlar at yarışdırırdılar. Bir neçə atlı gəlini qabağa keçib atlarını döyəcləyir,

ötüşür, xeyli aralandıqdan sonra geri dönüb gəlinə tərəf çapırdılar. Camaat hündür yerlərə çıxıb bu yarışmanı maraqla seyr edir, qalib gələn atlını alqışlayırdılar. Sevdikləri qızların baxışlarını üzərlərində hiss edən cavanlar daha da qeyzə gəlir, qalib gəlmək üçün dəridən-qabıqdan çıxırdılar. Yarışmanın ən maraqlı anı oğlan evində asılaraq təzə bəy-gəlini gizlədən pərdəni qapıb bəy evinə çatdırmaq idi. Cavanların hər biri pərdəni birinci aparmaq istəyirdi. Atı sürətli, qolu qüvvətli igid atını pərdə aparanın atı ilə yanaşdırır, çapa-çapa pərdəni dartıb ələ keçirir, başqasına vermədən bəy evinə götürürdü. Bu zaman başqa özündən deyən cavan pərdəni qapır, uzaqlaşırdı. Nəhayət, daha cəsur olan bu yarışı öz xeyrinə başa vurur, bir neçə gün kəndin söhbət mövzusuna çevrilirdi.

Gəlin getdiyi evdə özü də hiss etmədən müxtəlif üsullarla sınaqdan çıxarılırdı. Sınaqdan biri gəlinin ağlını, dərrakəsini yoxlamaq məqsədi güdürdüsə, digəri onun işgüzarlığını, başqa birisi ailəcanlığını, gəldiyi evə münasibətini aydınlaşdırmaq məqsədi daşıyırdı.

Qaynata evdə olanda gəlin hələm-hələm gərdəkdən çıxmazdı, məcburiyyət qarşısında qaldıqda üzünü duvağa bürüyüb sakitcə qulluq göstərərdi. Ucadan danışmaq çox ayıb sayılırdı. Gəlin çox astadan danışar, bəzən isə, ümumiyyətlə, jest və mimikalardan istifadə edərdi.

## 2. Adət-ənənələr: Gəlinin sınaqları

*a) Gafahın*

Təzə gəlini sınaqdan keçirmək üçün yağış yağanda hay salarmışlar:

- Gəlin, gafahın islandı, qoyma.

Ağıllı gəlin deyərmiş ki, əşi, gafahın dəmirdi, islanıb nolacaq ki?! Avam gəlin tez qaçıb gafahını evə gətirərmiş.

*b) Motaltutma*

Gəlini sınağa çəkmək üçün inəkləri ona sağdırar, sonra deyərmişlər:

- Motal tut.

Ağıllı gəlin südü bişirib, üz-gözünü yığar, pendir elərmiş. Bu işi bacarmayan gəlin deyərmiş:

- Mən sağım, siz motal tutun.

Onda gəlini verərmişlər bir naxır sağmal inəyin döşünə, ta gəlin motal tutmağı öyrənənəcən.

*c) Çuvaldan un qurtarında*

Gəlin atası evinə baş çəkmək istəyir. Qaynanasından xahiş edir ki, ona ata evinə getməyə icazə versin. Qaynanası deyir:

- Gəlin, çuvaldan un qurtaranda gedərsən.

Gəlin ha gözləyir, görür, çuvaldan un qurtarmır ki, qurtarmır. Hər gün undan bir qab götürüb yelə verir. Un qurtarır. Qaynanası gəlinin kələyini başa düşür. Deyir:

- Get, ancaq çuvalı da götür, gələndə yelə verdiyin unu yığıb gətirərsən. Yığa bilməsən, atan evindən çuvalı boş qaytarma.

*ç) Duzlu çay*

Bir dəfə Paşa kişi gəlini Həvəsi çağırıb dedi:

- Gəlinim, çaya bir az duz tök, gətir mənə.

Həvəs çaya şəkər qarışdırıb gətirdi. Paşa kişi heç nə demədi, çayı ehtiyatla dilinə vurdu, şirin olduğunu görüb gülümsədi:

- Gəlinimsən ki, gəlinim, ağıllı gəlinim.

### 3. Yolocaq kəndinin kəsmət adət-ənənəsi

Sizə Yolocaq kəndinin keçmiş bir adət-ənənəsi olan kəsmət haqqında söz açıram. Bu adət-ənənə 1980-ci illərə qədər davam etmişdir. Kəsmət toy haqqındadır və belə başlanır.

Bildiyiniz kimi, hər bir valideynin arzusudur ki, öz oğluna toy etsin. Ona görə də oğlunun hansı qızı sevdiyini bildikdə həmin qız evindən “hə” cavabı aldıqdan sonra o qızın barmağına nişan üzüyü taxırdılar. Oğlan evi bu məclisə kəndin hər ailəsindən bir nəfəri qız evinə dəvət edirdi.

Oğlan evi bir neçə qoç, o cümlədən, düyü, yağ, qənd, çay və şirniyyat aparırdılar. Gələn qonaqlar axşam yeyib-içdikdən sonra marağı olan adamlar kəsmətdə qalıb iştirak edirdi. Geniş

bir otağda oğlan adamı, qız adamı, ağsaqqallar və qonaqlar bardaş qurub otururdular. Oğlan tərəfindən bir nəfər ağsaqqal, qız tərəfindən də bir nəfər ağsaqqal ayırırdılar. Onlar otağın ortasında dizləri üstə üz-üzə otururdular. Oğlan tərəfinin ağsaqqalının əlində pul, qız tərəfinin ağsaqqalının əlində isə şirniyyat olurdu. Hər iki ağsaqqal bir-birinin əlindən tuturdular.

Oğlan tərəfinin ağsaqqalı birinci deyirdi:

- Filankəsin qızını, filankəsin oğluna verirsənmi?

Qız tərəfinin ağsaqqalı öz cavabında deyirdi:

- Verdim.

Bu sözlər üç dəfə təkrar olunduqdan sonra ağsaqqallar və yerdəki adamlar xorla "Allah mübarək eləsin" - deyirdilər.

Qız tərəfinin ağsaqqalı pulu, oğlan tərəfinin ağsaqqalı isə şirniyyatı alıb ciblərinə qoyurdular.

Oğlan tərəfinin ağsaqqalı qız tərəfinin ağsaqalına deyirdi:

- Qız yolunda məndən nə alacağın varsa söylə.

Qız tərəfinin ağsaqqalı deyirdi:

- Filan qədər qənd, düyü, şirniyyat, yağ, çay, qoç, xalat nəğd pul və s.

Oğlan tərəfinin ağsaqqalı həmişə çalışırdı ki, ərzağın əşyaların və pulun miqdarını azaltsın.

Bunların hər biri haqqında ayrıca razılığa gəlirdilər. Məsələn pul haqqında:

Qız ağsaqqalı deyirdi: - 10000 manat.

Oğlan ağsaqqalı deyirdi: - çoxdur en aşağı.

Qız ağsaqqalı deyirdi: - 7000 manat.

Oğlan ağsaqqalı deyirdi: - çoxdur, en aşağı.

Qız ağsaqqalı deyirdi: - 5000 manat.

Sonda oğlan ağsaqqalı deyirdi: - "Allah mübarək eləsin".

Hər bir haqda bu qayda ilə razılığa gəlirdilər. Sonra razılaşmış məbləği, çəkini və şeyləri oğlan adamı qız adamına olduğu kimi verirdi. Bu mənzərə saatlarla hətta günlərlə də davam edirdi. Burda oturan adamlar isə çay içə-içə şirniyyat yeyə-yeyə bu mənzərəni müşahidə edirdilər.

# BAYATILAR

1. Gəl məni qoyub getmə,
Nar kimi oyub getmə.
Kəs mənim qollarımı,
Yarımçıq qoyub getmə.

2. Yaramı qurd apardı,
Çəkdi yaram qopardı.
Mənim anam olsaydı,
Mənə dərman tapardı.

3. Qoy məni el götürsün,
El yusun, el götürsün.
Qəbrimi qardaş qazsun,
Çiyninə bel götürsün.

4. Dağlarda dastan oldum,
Bağlarda bostan oldum.
Fələk bir iş işlədi,
Aşnadan dostdan oldum.

5. Çəkin halay düzülsün.
Xumar gözlər süzülsün.
Hər kim halaya gedir,
Bilsin bir-bir düzülsün.

6. Mixək əkdim bayıra,
Yel qanadın ayıra.
İkimizin sirr sözün,
Bəlkə fələk ayıra.

7. Dam üstə duz sərəllər,
Çıxma boyun görəllər.
Aralıqda çuğul var.
Səni məndən edərlər.

8. Kəmər bağla belinə,
Şərbət verək əlinə.
Sən gəlinim olanda,
Xına qoyum telinə.

9. Əziziyəm bar getdi,
Bağban getdi, bar getdi.
Etibarsız dünyadan,
Etibarlı yar getdi.

10. Mən aşiq sinə-sinə,
Ov ovla sinə-sinə.
Namərdliyə iş görən,
Baş əyər sinə-sinə.

11. O tay bu tay bir olsun,
Aralığı Kür olsun.
O tayın qız-gəlini,
Bu taya sürgün olsun.

12. Səmavarı çək düşüb,
Üstündə milçək durub.
Qurban olum qardaşa,
At üstə göyçək durub.

13. Səmavar qoşa gəldi,
Qaynadı coşa gəldi.
Bu mənim çətin işim,
Nə asand başa gəldi.

14. Sandıq üstə gücü var,
Kücünün qırx ucu var.
Biz sevdik, biz apardıq,
Bizdə bəylər gücü var.

15. Bu evlər uzun evlər,
İçində olsun toylar.
Tutulsun qardaş toyu.
Oynasın bəstəboylar.

16. O tayda ot işığı,
Oldum dildar işığı,
Oğlan, kəkil qoysana,
Kəkil tel yaraşığı.

17. Ərdəbil halalları,
Kəhliyin balaları.
Tutulsun qardaş toyu,
Oynasın ataları.

18. Ərdəbilin o üzü,
Yatışıb qoyun, quzu.
Qardaşa qurban verrəm,
Hər sürüdən bir quzu.

19. Şofer mindi maşına,
Sürdü dağın döşünə.
Oğlanlar əsgər gedti.
Kül qızların başına.

20. Ərdəbildə işim var,
İşim var, güşünüm var.
O, görükən binada,
Gözü bağlı quşum var.

21. Sən mənim Fatma anam,
Qaşları çatma anam.
Yarı yardan eyləmə,
Günaha batma, anam.

22. Dəyirman boş tovlanır,
Suyu sərxoş tovlanır,
Qurban olum qardaşa,
Əlində quş tovlanır.

23. Ay üzü xallı ceyran,
Ləbləri ballı ceyran,
Bir öpüş versənə,
Verrəm, yüz əlli ceyran.

24. Lənkəran hamı daşdı,
Bakı Tiflisdən başdı.
Qardaşım bir qız sevib,
Üç bacı, üç qardaşdı.

25. Qara atın yelini,
Basdı Muğan elini.
Qardaşa qurban olum,
Nə tez gətdi gəlini.

26. Aya bax, necə gedir?
Yorulub gecə gedir.
Qurban olsum qardaşa,
Geyinib haca gedir.

27. Ay oğlan, doxtur oğlan,
Dərmanın çoxdur, oğlan,
Adaxlın xəstələnib,
Xəbərin yoxdur, oğlan.

28. Bu yolun iki qatı,
Asta sürərlər atı.
Qurban olum qardaşa,
Oynadır səmənd atı.

29. Alarda girdim bağa,
Başım dəydi yarpağa.
Nə qız aldım, nə gəlin,
Necə girim torpağa.

30. Getmə, getmə gəlirəm,
Potikimi düymələyirəm.
Aç qoynunda yer elə,
Soyuq vurub ölürəm.

31. Qardaş oturan yerdə,
Dəsmal götürən yerdə.
Qurban olum qardaşa,
Toyu tutulan yerdə.

32. Mənim yarım hansıdı,
İgidlərin xasıdı.
Belində qara qayış,
Dörd yanı abasıdı.

33. Atma tüfəngi atma,
Barmaqlarını oynatma.
Məni sənə verməzlər,
Çox gedib borca batma.

34. İdarə daşındaydım,
Ay kimi parıldaydım.
Soruşdular hardaydın?
Qardaşın yanındaydım.

35. Narıncı doğradılar,
Dəsmala bağladılar.
Məni sənə vermirdilər.
Boynuma bağladılar.

36. Həyətdə cicim tavlar ,
Gözüm yar yolun ovlar.
Gəlirsən ertədən gəl,,
Qardaş adam buxovlar.

37. Dəsmal atdım söyüdə,
Söyüd onu böyüdə.
Dəsmal, səni saxlaram.
Bir ala göz igidə.

38. Bu meşə meşə deyil,
Güllü bənövşə deyil.
Burdan keçən oğlanın,
Saatı şüşə deyil.

39. Həyətdə ot otlaram,
Xəlçə kimi qatlaram.
Savadsız oğlanları,
Nöyüt vurub odlaram.

40. Bakı, Bakı bu imiş,
Bakı dolu su imiş.
İndiki cavanların,
Etibarı bu imiş.

41. Çay qırağı getmərəm,
Çadramı yellətmərəm.
Adımı qız qoymuşam,
Dul kişiyə getmərəm.

42. Aların öz adamı,
Bulayar toz adamı,
Geyibsən qara kostuyum,
Göz kəsər tez adamı.

43. İncidən üzülmüşəm,
Mərcana düzülmüşəm.
Bir alagöz oğlanın,
Alnına yazılmışam.

44. Su gəlir lil gətirir,
Bir dəstə gül gətirir.
Qardaşın toy paltarın,
Bu gələn el gətirir.

45. Əmim oğlu olasan,
Mənə yaylıq alasan.
Mənə yaylıq almasan,
Şah dustağı olasan.

46. Arpanı yapa bilmirəm,
Buğdanı tapa bilmirəm.
Alarda bir qız sevmişəm,
Evlərin tapa bilmirəm.

47. Xırdaca nar kolları,
Narın nə gözəldir?!
Qardaş qurbanın olum,
Yarın nə gözəldir.

48. Surəni çayda gördüm,
Əlində bayda gördüm.
Bir öpdüm, bir dişdədim,
Onnan nə fayda gördüm.

49. İdarə dalındasan,
Ay kimi parıldasan.
Surəynən yatan oğlan,
Hər gün kamın alısan.

50. Ağ çuxa, mahur çuxa,
Ürəyim olub yuxa.
Sən yadıma düşəndə,
Az qaley canım çıxa.

51. Boz at, nalın qurbanı,
Xətdi-xalın qurbanı.
Məni yara tez yetir,
Dırnaqların qurbanı.

52. Boz at biçində gəzər,
Cidar qıçında gəzər.
Boz ata qurban ollam,
Surəm çiynində gəzər.

53. Dərdlü var, yaralı var,
Dərdün də qərarı var.
Gedək dərdlü yaninə,
Dərdünün də dərdi var.

54. Bizim bağ almalıdı,
Dibində qalmalıdı.
Qardaş adaxlıy gördüm,
Qadasın almalıdı.

55. Samavarı qaynasın,
Qaynamasın neynəsin.
Qardaşım birdənədi,
Evlənməsin neyləsin.

56. Su gəlir pərri-pərri,
Qapısı qoşa narrı.
Girəydim yar qoynuna,
Çıxaydım tərri-tərri.

57. Çıxdım çəpər üstünə,
Baxdım yarın dəstinə.
Əlində ipək dəsmal,
Atdı sinəm üstünə.

58. Qara atın yülgəsi,
Düşdü çaya kölgəsi.
Desələr yar evlənib,
Viran qalsın ölkəsi.

59. Qardaşım Arazlıdı,
Yanı Quba qazlıdı.
Qardaş bir qız sevibdi,
Birçəyi qotazlıdı.

60. Mənim yarım hansıdı?
İgidlərin xasıdı.
Belində qara qayış,
Dörd yanı avasıdı.

61. Mənim yarım moltanı,
Asta vurar baltanı.
Özü hamıdan uşaq,
İgidlərin sultanı.

62. Ağac atdım ağaca,
Ağac gəldi balaca.
Qonşudan bir qız sevdim,
Boydan bir az balaca.

63. Atım otdadı mənim,
Gülüm çırtdadı mənim.
O qədər dərdim vardır,
Bağrım çatdadı mənim.

64. Dağları gəzdim gəldim,
Gülləri üzdüm gəldim.
Nə nənəm var, nə bacım,
Ümidimi üzdüm gəldim.

65. Qızıl gül oyun, oyun,
Dərim qoynuna qoyum.
Sən ordan baxmağılən,
Mən burdan necə doyum?

66. Günüm o gün olaydı,
Zülfüm düyün olaydı.
Keçirdiyim günlərin,
Biri bu gün olaydı.

67. Qaşların kimə gahdı,
Bəri baxma günahdı.
Dəryadan qalxan duman,
O da mən çəkən ahdı.

68. Dağlar səni endirim,
Meylin belə döndərim.
Müşgül işim düşübdü,
Sənə kimi göndərim?

69. Dəryada səmək olmaz,
Səməgi yemək olmaz.
Qəlbimdə çox qüssə var,
Heç yerdə demək olmaz.

70. Bu yol yolluğa gedir,
Ucu bolluğa gedir.
Qurban olum qardaşa,
Qardaş qulluğa gedir.

71. Mən aşıq, qıyhaqıydır,
Ərşə çay qıyhaqıydır.
Burda bir cavan ölüb,
Dalıycan qıyhaqıydır.

72. Evləri hazaranda,
Hazaran qızaranda.
Özüm bostançı ollam,
Şamama qızaranda.

73. Ərdəbil üz görünür,
Gecə-gündüz görünür.
Gəlin neylər güzgünü,
Üzündən üz görünür.

74. Bu dərə balıqlıdı,
Suları zalıqlıdı.
Kasıba qız verməyin,
Ayağı çarıqlıdır.

75. Evləri hazaranda,
Hazaran qızaranda.
Özüm bostançı ollam,
Şamama qızaranda.

76. Lampam, səni yandırım,
Məclisi dolandırım.
Yara işıq verməsən,
Yerə vurum sındırım.

77. Mən aşıq izlərimdən,
Yel tutub dizlərimdən.
Ayrılıq dəmi gəldi,
Gəl öpüm gözlərindən.

78. Mən aşığam belə yaz,
Al qələmi belə yaz,
Gəldin dərdim artırdın,
Gəlməyəydin belə yaz.

79. Qoyun gedir iziylə,
Dırnağının tozuyla.
Qardaş məni tulladı,
Yad qızının sözüylə.

80. Dəvələr düziminnən,
Düzülüb düzüminnən.
İstəkli qohum-qardaş,
Gəl gedək düzüminnən.

81. Mən aşiq taliş handə,
Tur handə, talış handə.
Qəmli könlüm şad olar,
Səninnən danişandə.

82. Yanan çıraq oleydim,
Yoldan iraq oleydim.
Yarım süva gələndə,
Sərin bulaq oleydim.

83. Dağlarda çən oleydim,
Yoldan keçən oleydim.
Sən əkdiyin gülləri,
Mən də biçən oleydim.

84. Fələyin dad əlindən,
Olmadım şad əlindən.
Gəl yığılaq bir yerə,
Çəkək fəryad əlindən.

85. Dağlara bax dağlara,
Bir qulaq ver ağlara .
Sənə yaxşı deməzlər,
Mən düşsəm ayaqlara.

86. Haray naşı əlindən,
Atdım daşı əlimdən.
Çaylara körpü düşər,
Gözüm yaşı əlindən.

87. Dərdim bir-iki deyil,
Yüküm qəm yükü deyil,
Hamının dərdi vardır,
Mənimki kimi deyil.

88. Dərdim birdir bilinmir,
Gözüm yaşdan silinmir.
O qədər dərd mənim var,
Örtülüdür görünmür.

89. Mən aşiqəm bağ sənə,
Bağça sənə, bağ sənə,
Bağbançı bağdan gedib,
Necə girim, bağ sənə?

90. Xoş gəldin, səfa ilə,
Əli Mustafa ilə.
Mən başına dolannam,
Bu səbri-cəfa ilə.

91. Mən aşiq sarı canım,
Saralıb sarı canım.
Səni yola salandan,
Qalmayıb yarı canım.

92. Mən aşiq kətan sarı,
Geyməyə kətan sarı.
Haçan vaxtın qurtarar,
Gələrsən Vətən sarı.

93. Məxmərəm xabım yoxdur,
Güləm, yarpağım çoxdur.
Allah səni saxlasın,
Qüssəyə tabım yoxdur.

94. Mən aşiq hüni də var,
Milçək var, hüni də var.
Ana ilə balanın
Ehtiyac güni də var.

95. Çapar mənəm çapar mən,
Bağrı qabar-qabar mən.
Yazmağa savadım yox,
Necə tutum xəbər mən?

96. Dağlar başı ala qar,
Ala duman, ala qar.
Çox zaman qar yağmışdı,
Yağmamışdı belə qar.

97. Sicimin ucun gördüm,
Çəkdikcə ucun gördüm.
Mən fələkdən qorxuram,
Fələyin gücün gördüm.

98. Düşmənəm çəndən ötrü,
Sünbüləm dəndən ötrü.
Mən buraya gəlməzdim,
Gəlmişəm səndən ötrü.

99. Köynəyin əsəllidi,
Geyməyə əsəllidi.
Anaya öz balası,
Özgələr təsəllidi.

100. Mən aşığın yası var,
Silinməmiş pası var.
Burda bir cavan ölüb,
Illərcən yası var.

101. Mən aşıq qara bağlar,
Ağ bağlar, qara bağlar.
Dərdinə mən ağlaram,
Özgələr xara ağlar.

102. Ördəyim gölə düşüb,
Ceyranım çölə düşüb.
Burda bir cavan ölüb,
Sadası elə düşüb.

103. Aşıq haradan gəldi,
Peykan yaradan gəldi.
Göydə ki su yox idi,
Bu sel haradan gəldi?

104. Bir yaralı laçın mən,
Yerim yoxdu qaçım mən,
Ürək belə şey deyil,
Hər yetənə acım mən.

105. Cabbarıyam, cabbarı,
Ürəyim hicran qabarı,
Nə gələn var, nə gedən,
Kimdən alım xəbəri?

106. Əzizim qara neynim,
Olmadı çara neynim?
Fələk bir iş eylədi,
Mən ona çarə neynim.

107. Ovçuyam-ovlamaram,
Ov görsəm-ovlamaram.
Ürəyim yaralıdı,
Yaralı qovlamaram.

108. Mən aşıqəm çal quzum,
Qara quzum, çal quzum.
Duman gəldi itirdim,
Duman keçdi gəl, quzum.

109. Mən aşıq lal meşələr,
Armudu kal meşələr.
Durram yola baxaram,
Ollam abdal, meşələr.

110. Dağlar başı ala qar,
Ala duman, ala qar.
Neçə qarlar yağmışdı,
Yağmamışdı belə qar.

111. Qəlyanı mən çəkərəm,
Doldurub mən çəkərəm.
Çatılar qəm karvanı,
Sarvanın mən çəkərəm.

112. Mən aşiqəm maya bozdar,
Nər bozdar, maya bozdar.
Açma mənim ağzımı,
Açarsam vaya bozdar.

113. Axan çaylar axmasın,
Quşlar qanad taxmasın.
Gedin anama deyin,
Daha yola baxmasın.

114. Dəvəçiyəm, gəzərəm,
Dəvəm itib gəzərəm.
Bir gözəl itirmişəm,
Sorağında gəzərəm.

115. Dağlara bax, dağlara,
Dağlar qalıb ağlara.
Dağlar da bizim kimi,
Düşübdür ayaqlara.

116. Mən aşiqəm qan olar,
Can cana qurban olar.
Kim ağlıyır ağlasın,
Sən ağlama, qan olar.

117. Çəpərə çəpər dara,
Çəpərə sərdim xara,
Hamı gedənlər gəldi,
Gəlmədi bəxti qara.

118. Əzizim gülə bəsdir,
Güllər bülbülə bəsdir.
Sağ gözüm sənə qurban,
Sol gözüm mənə bəsdir.

119. Corabın ağinə bax,
Dəstələ bağinə bax.
Mən yaduva düşəndə,
Üç təpə dəğinə bax.

120. Bazara keçi gəldi,
Sanadım üçü gəldi.
Yol verün, yol ötürün,
Sonsuzun köçi gəldi.

121. Mən aşiqəm geymərəm,
Geyməmişəm, geymərəm.
Gəldi əcəl xələti,
Mən cavanam geymərəm.

122. Dağda doli durupdu,
Doli məni vurupdu.
Ayilən xəstə dögürəm,
Kamil ovçi vurupdu.

123. Öldüm yola baxmaqdan,
Sağdan sola baxmaqdan.
Nə sən yoldan əskildin,
Nə mən yolə baxmaqdan.

124. Ərdəbilin o üzi,
Yayilib qoyin-quzi.
Qardaşə qurban olsun,
Hər süridən bir quzi.

125. Dağlar marala qaldi,
Güli sarala qaldı.
Mən çox zəhmət çəkdim,
......................................

126. Əzizinəm oyənnən,
Sən yuxudan oyənnən.
Quş gəlsə xəbər alləm,
İntizaram o yannən.

127. Ürəgimdə yarəm var,
Üstə xal-xal qərəm var.
Bəxdi qərə tək mənəm,
Yoxsa qeyri hələm var?

128. Sahilə gəmi gələr,
Əylənər gəmi gələr.
Gəl, doyincə söhbət eyliyək,
Ayrilik dəmi gələr.

129. Ayda qurbanınam mən,
Gündə qurbanınam mən.
İldə qurban bir olsa,
Gündə qurbanınam mən.

130. Mən aşıx sari qaldi,
Gün getdi sari qaldi.
Oxərtə yol gözlədim,
Gözim yol sari qaldi.

131. Mən aşux sarı bağlar,
Göy çəmən, sarı bağlar.
Dedim gölə qardaşım,
Tabutum sarıb ağlar.

132. Mən aşıq ağlağandır,
Gözlərim ağlağandır.
Mənə derlər ağlama,
Dərd özü ağlağandır.

133. Mən aşıq çayda mənə,
Çəmənə, çayda mənə.
Nə qədər haraylasam,
Heç verməz hay da mənə.

134. Paşa mənəm, paşa mən,
Belimi verdim daşa mən.
Mənzil uzaq, yük ağır,
Necə vurum başa mən.

135. Muğanın o gövşəni,
Top-top bitib yovşanı.
Əgər səni görməsəm,
Odlaram bu kövşəni.

136. Mən aşığam nədəndi,
Bağrım zədən-zədəndi.
Çağırsam hay da vermir,
Bilmirəm o nədəndi.

137. Dərdim daşa ağlaram,
Çaşa-çaşa ağlaram.
Dərdim qoyub üst-üstə,
Hamısın qoşa ağlaram.

138. Mən aşıq qaş qaraldı,
Gün keçdi qaş qaraldı.
Sizin ahü-zarızdan,
Dağ yandı, daş qaraldı.

139. Savalan xam yeridi,
Sərab sültan yeridi.
Yığılın bir ağlayaq,
Əcəb meydan yeridi.

140. Ərdəbil düz görünür,
Gecə-gündüz görünür.
Gözəl neynir güzgünü,
Üzündə üz görünür.

141. Ərdəbil hacıları,
Dəstədi keçiləri.
Tutulsun qardaş toyu,
Oynasın bacıları.

142. Ərdəbil halaları,
Kökliyin balaları.
Tutulsun qardaş toyu,
Oynasın xalaları.

143. Savalan dağ nöşündür,
Dörd yanı bağ nöşündür,
Şəhid qardaş bacısı,
Ölməyib sağ nöşündür.

144. Dağlar başi alar qar,
Alə duman, alə qar.
Necə qarrar yağmişdi,
Yağmamişdi belə qar.

145. Yeri-yeri xan yeri,
Sultan yeri, xan yeri.
Dünya aləm yerisin,
Qabağında sən yeri.

146. Nənəm oti yanimdə,
Bacim oti yanımda.
Sən di qoy mən ağlayim,
Kim qalmasun canimdə.

147. Mən aşuqəm çal quzi,
Qərə quzi, çal quzi.
Duman gəldi itirdim,
Duman getdi gəl quzum.

148. Köynəgin abi dökü,
Geyibsən abi dökü,
Sənin o gül bədənün,
Qara yer babi dögül.

149. Mən aşiq həyanəsən,
Dağlardan o yanəsən.
Belə uzun yuxi olmaz,
Yatibsən o yanəsən.

150. Gün çıxdı tutqun oldi,
Gün-günəş tutqun oldi.
Bilmədix yel apardı?
Görmədüx itkin oldi.

151. Nərgizdər, ay nərgizdər,
Top top çaxər nərgizdər,
Belə gözəl bədəni,
Torpaq örtər, yer gizdər.

152. Dərdim bir, iki deyil,
Şələm qəm yükü deyil.
Hamının dərdi vardır,
Mənimki kimi deyil.

153. Köynəyin micə-micə,
Qürbətdə halın necə?
Vallah qurban demişəm,
Sən evə gələn gecə.

154. Xəstə mənəm, xəstə mən,
Düşmüşəm şikəstə mən.
Çatalar qəm karvanın,
Çəkəm asta-asta mən.

155. Yel dəyər buğamaqdan,
Xəbər alın qolaqdan.
Dərd adamı öldürməz,
Keçirər doğanaqdan.

156. Yaralıyam yaralı,
İlan vuran saralı.
Mənə güllə dəymədi,
Nədən oldum yaralı?

157. Bu gələn çəkməlidi,
Qoy gəlsin çikməlidi.
Nə dərdim qurtarandı,
Nə də ki, çəkməlidi.

158. Mən aşıq qazançını,
Doldur ver qazançanı.
Çox əlləşdim, vuruşdum,
Bəs mənə qazanc hanı?

159. Məni vurdu haramı,
Sızıldatdı yaramı.
Gəl aç ürəyim başın,
Mən göstərim yaramı.

160. Getmə, getmə, qul ollam,
Qayıt, qurbanın ollam.
Hər yadıma düşəndə,
Yannam, yannam kül ollam.

161. Savalan buz bağladı,
Yanı yarpız bağladı.
On iki atasının,
Yarasın qız bağladı.

162. Getdi görə bilməzsən,
Zülfü hörə bilməzsən.
O bir ağır səfərdi,
Daha görə bilməzsən.

163. Mən aşıq ərəbəm mən,
Türkəm mən, ərəbəm mən.
Dərdimi xəbər alsan,
Bir evi xarabam mən.

164. Mən aşıq kalam səni,
Qoy tutsun nalam səni.
Bazarda satılmırsan,
Pul verib alam səni.

165. Aşıq ərəb evləri,
Yükü şərab elləri.
Fələyin qaydasıdı,
Qoyur xarab evləri.

166. Mən aşıq çala-çala,
Su dolub çala-çala.
Düşdüm qəm dəryasına,
Qaldım qol çala-çala.

167. Paşa mənəm, paşa mən,
Belimi verdim daşa mən.
Mənzil uzaq, yük ağır,
Necə vurum başa mən.

168. Mən aşıq sazım nədi,
Söhbətin, sazın nədi.
Gəldim səni görməyə,
Din görüm, sözün nədi?

169. Savalan dağ olaydı,
Dörd yanı bağ olaydı.
Neynirsən dünya malın,
Kaş canım sağ olaydı.

170. Savalan xam yeridi,
Sərab sultan yeridi,
Dərd deyib dərd axtarsan,
Əcəb meydan yeridi.

180. Bu bazar bazar imiş,
İçində məzar imiş.
Canıma dəyən azar,
Nə yaman azar imiş.

181. Mən aşıq lal meşələr,
Armudu kal meşələr.
Səsimə səs vermədi,
Oldum abdal meşələr.

182. Su gələr arxa haray,
Tökülər çarxa haray,
İgidə öz qardaşı,
Yada kim arxa-haray?!

184. Şəkilə bax, şəkilə,
Şəkil göyə çəkilə.
Qiyamət onda qopar,
İyin evdən çəkilə.

185. Mən aşiqəm bağ sənə,
Bağban sənə, bağ sənə.
Bağbanın bağda deyil,
Necə girim, bağ, sənə?

186. Quşlar cığa-cığ eylər,
Həyəti palçıq eylər.
Bizim bu təzə gəlin,
Hərdən bir acıq eylər.

187. Barama, ay barama,
Əl vurmaram harama.
Anam tutsun çırağı,
Bacım baxsın yarama.

188. Oba köçər yurd ağlar,
Sümükləri xurd ağlar.
Gəldim xəstə görməyə,
Xəstə köçüb yurd ağlar.

189. Axşamalar, ay axşamlar,
Şamlar yanar axşamlar.
Yandırram gözüm yağın,
Sən gələndə axşamlar.

190. Qara atın nalıyam,
Göyçək qızın xalıyam.
Çəkmə cəfamı, qardaş,
Mən özgələr malıyam.

191. Ay gülü xaş-xaş gəlin,
Əsli qızılbaş gəlin.
Evlisən, ev halı bil,
Ev sənə peşkəş gəlin.

192. Ovçuyam ovlamaram,
Ov görsəm ovlamaram.
Mən özüm yaralıyam,
Yaralı ovlamaram.

193. Mən aşiq oxusana,
Kitabı oxusana.
Nə duman var, nə çiskin,
Kim vurdu oxu sana?

194. Mən aşiq qarğa verər,
Qırıldar qarğa verər.
Qərib yerin xəbərin,
Bir atı yorğa verər.

195. Sən məni al eylədin,
Az dərdim bol eylədin.
Çəpərdən paya çəkdin,
Düşmənə yol eylədin.

196. Vurubdu təxə məni,
Sal suya, çalxa məni.
Belə götür, belə qoy,
Göstərmə xalxa məni.

197. Yanan çıraq olaydım,
Yoldan irsaq olaydım.
Yarım suya gələndə,
Sərin bulaq olaydım.

198. Dağlarda çən olaydım,
Yoldan keçən olaydım.
Sən əkdiyin gülləri,
Mən də biçən olaydım.

199. Köşdü ellər yeridi,
Başdə tellər yeridi.
Aləmə yağış yağsa,
Bizə sellər yeridi.

200. Göydən gedən quşa bax,
Qanadı sınmışa bax.
Sənə bir məktub yazdım,
Üstə qanlı yaşa bax.

201. Əzizinəm dağ da var,
Dərə də var, dağ da var.
Məcnunun ah-naləsi,
Neçə-neçə dağda var.

202. Dağ üzü o üzdədi,
Şad xəbəri bizdədi.
Yarnan hal-əhval tutdum,
Bir az hələ döz dedi.

203. Dağ üzü düzə həsrət,
Sayrı can gözə həsrət.
Yarnan görüşən vədə,
Qalmışam sözə həsrət.

204. Dağ üzü daşdı yolu,
Naşılar çaşdı yolu.
Duman gəldi, çən düşdü,
Şeh düşdü yaşdı yolu.

205. Perinbelin qozu var,
Düzlərində quzu var.
Sən qıydın, mən dişlədim,
Kimin buna sözü var?

206. Bu yol Alara gedə,
Yolu darala gedə.
Təşnə könlüm can ata,
Dağdan qar ala gedə.

207. Hamarkənd hamar-hamar,
Yolları damar-damar.
Mənim sərxoş maralım,
Uyumuş xumar-xumar.

208. Gen dərə gen olaydı,
Qibləyə yön olaydı.
Sevən can sevdiyiynən,
Sonacan tən olaydı.

209. Kürəkçidə Kürəm mən,
Zövqü-səfa sürəm mən.
Yarnan keçən günləri,
Geri dönə görəm mən.

210. Əzizim Perimbelə,
Yol gedir Perimbelə.
Bəxt döndü, qəza vurdu,
Əyildi pərim belə.

211. Mən aşiq Perim belə,
Sən də gəl Perimbelə.
Dərd üstümə şığıdı,
Getdi var-yox yelə.

212. Mən aşiqəm qələm vay,
Ərşə çıxıb naləm vay.
Sökülüb ev-eşiyim,
Tikilməyib qalam vay.

213. Getdi görə bilmirəm,
Zülfün hörə bilmirəm,
Yarım qürbətə köçüb,
Daha görə bilmərəm.

214. Alma bağı bizimdi,
Qol-budağı üzümdü.
Özgə bizə qız verməz,
Əmim qızı bizimdi.

215. Alma bağı həm-həmə,
Çayniki qoydum dəmə.
Çaynikim dəm almasa,
Qaldı qardaş gələnə.

216. Məni vurdu haramı,
Sızıldatdı yaramı.
Gəl aç, ürəyim başın,
Mən göstərim yaramı.

217. Mən aşıq xalı üstə,
Xalının xalı üstə.
Sonlular davalaşdı,
Sonsuzun malı üstə.

218. Dağların bu il qarı,
Əriməz bu il qarı.
Ananı atar gedər,
Oğulun beilqarı.

219. Yarımın xalı qara,
Başında şalı qara.
Neylədim nazlı yara,
Olubdur qanı qara.

220. Əzizim sarı canım,
Sarılıb solu canım.
O qədər dərd çəkməkdən,
Qalmayıb yarı canım.

221. Gəlir fermadan oğlan,
Yükü xurmadan oğlan.
Mənə bir çit tuman al,
Gülü solmadan oğlan.

222. Al şala bağladılar,
Gül şala bağladılar.
Qardaş alan yaylığı,
Nişana bağladılar.

223. Eyvanda gəzən gəlin,
Gülləri əzən gəlin.
Gəldi oğlan adamı,
Gir evdə bəzən gəlin.

224. Biz iki əmi qızı,
Köynəyimiz qırmızı.
Elə gəzək dolanaq,
Heç kəs bilməsin bizi.

225. Əzizim deşil dağlar,
Ömürdür beş il dağlar.
..................................
..................................

226. Evləri o taydadır,
Camışdarı çaydadır.
Sən ordan bax, mən burdan,
Yenə cana faydadır.

227. Birə birə nə birə,
Birə bir kotan öküzü.
Bu gecə sübhə kimi,
Zurnasız oynatdı bizi.

228. Bakılıyam, bakılı,
Dərəmişəm kəkili.
Burda bir qız sevmişəm,
Kimdi onun vəkili.

229. Təzə gəlmişəm ölüzə,
Xınanı yaxun ölüzə.
Mən də bir cavan oğlan,
Məni də alın yanıvuza.

230. Arxalıq altda çuxa,
Düş atı bağla mıxa.
Atam sənə qız verməz,
Qalarsan baxa-baxa.

231. Cəfər axsaq, yer yamac,
Öküz dəli, qarnı ac.
Mirzə də deyir:
Çap Cəfər, çap.

232. Dəyirman üstü göllər,
Görünən bizim ellər.
Gəlin getdim, qız gəldim,
Xarab qalsın bu ellər.

233. Aşıq sənəm oduna,
Səs ver sənəm oduna.
Yandım yandım kül oldum,
Öz kimsənəm oduna.

234. Naxırdan bir dana tutmuşam,
Üzümü yana tutmuşam.
Mənim xəbərim yoxdur,
Təzə meyxanə tutmuşam.

235. Gülmə gülünc olana,
Plovu linc olana.
Gülsən də sən gülgünən,
Qulağı dinc olana.

236. Ay nənə, qurbanın olum,
Qırmızı tumanın olum.
Axşama qoyun kababı,
Səhərə qonağın olum.

237. Ağ çuxa ağartmışam,
Qolların daraltmışam.
Özüm qara bir qızam,
Neçəsin saraltmışam.

238. Elləri taxtı damda,
Yer salım yatım onda.
Səyyad olum tor qurum,
Sonalar tutum onda.

239. Bu dərənin xanısan,
Sultanısan, xanısan.
Göz gəzdirdim görmədim,
Görünmürsən hanı sən?

240. Gəlin gəlir, haçan gəlir,
Sir sözümü açan gəlir.
Gecə yaza, gündüz poza,
Evimi yıxan gəlir.

241. Armud ağacı suda,
Birin qoy, birin buda.
Mən gəlinin olum,
Sən mənə qayın-quda.

242. Mən aşıq sulu dağlar,
Çeşməli, sulu dağlar.
Çayın, çeşmən qurusun,
Mənim tək quru, dağlar.

243. Yarim oturan yerdə,
Dəsmal götürən yerdə.
Mən yarə qurban olum,
Adı tutulan yerdə.

244. Nərgizdər, ay Nərgizdər,
Top-top bitər nərgizdər.
Hayıf gözəl bədənin,
Torpaq örtər, yer gizdər.

245. Getdi görə bilmədim,
Gəldi görə bilmdəim.
Qırx ildi ki, sinəmi,
Dəldi görə bilmədim...

246. Yarı yola saldım özüm,
Dalısıyca qaldı gözüm.
Gedənnərin çoxu gəldi,
Gəlmədi o, necə dözüm?

247. Evləri gün düşəndə,
Alma qoydum nişana.
Qərə yaylıq yaraşır,
Yardan ayrı düşənə.

248. Əzrayil, al eyləmə,
Az dərdim bol eyləmə.
Çəpərdən paya çəkib,
Düşmənə yol eyləmə.

250. Gəl məni qoyub getmə,
Nar kimi oyub getmə.
Çək qılıncın, vur boynum,
Yarımçıq qoyub getmə.

251. Gəlirsən arx ilə gəl,
Çiməni çarx ilə gəl.
Əgər məni sevibsən,
Danışma xalq ilə, gəl.

251. Bülbül qonar güllərə,
Qurban şirin dillərə,
Hamı əl-ələ versə,
Yağı neylər ellərə.

252. Deyin hansı ocaqdır,
Nə saralır, nə solur.
Qışda da bahar kimi,
Paltarı yaşıl olur.

253. Dolanar bütün ərzi,
Aşar dağı, dənizi.
Gəzib göydə gecələr,
Gəlib yerdə dincələr.

254. O tayda durar gedər,
Boynunu burar gedər.
Bir sürüyə girəndə,
Qırxını qırar gedər.

255. Mən aşiqəm, al indi,
Nağaranı çal indi.
İki arvadlı kişi,
Vay günüdür, qal indi.

256. Kağızdan gəmi olmaz,
Arsızın qəmi olmaz.
Çay dəmlər simic arvad,
Çayının dəmi olmaz.

257. Kişi evə xoş gəlib,
Heyif ki sərxoş gəlib.
Aləmçin gül aparar,
Evə əliboş gəlib.

258. Əzizinəm beşil dağlar,
Hündürdür başın dağlar.
Hallacın haxdan olsun,
Göz-göz ol deşil dağlar.

259. Mən aşiq dəm-dəm aya,
Oxuram dəm-dəm ayə.
Hüsnün yada düşəndə,
Baxıram dəm-dəm aya.

260.Mən aşiqəm qalxana,
Qılınc bağla qalxana.
Oğlun davadan gəldi,
Dur yerindən, qalx ana.

261. Mən aşıq yandı Kərəm,
Alışdı, yandı Kərəm.
Çatmadı Əslisinə.
Tutuşdu, yandı Kərəm.

262. Mən aşıq Nəsimini,
Soydular Nəsimini.
Aşıq saza əl atdı.
Tərpətdi nə simini?

263. Mən aşiq qara bağlar,
Yar başa xara bağlar.
Məhəbbət olan yerdə,
Yar qəlbin yara bağlar.

264. Mən aşiq yaralısan,
Bu dağlar maralısan.
Hansı ovçu ox vurub,
Nə yaman yaralısan.

265. Mən aşıq sular axdı,
Sel gəldi sular axdı.
Apardı sel Saranı,
Dalınca yarı baxdı.

266. Mən aşiq qalx ayağa,
Dur yeri, xalq ayağa.
Yar həsrətin çox çəkdim,
Yar gəldi, qalx ayağa.

267. Mən aşıq nələr oldu,
Sel gəldi, nələr oldu.
Özünə qoç deyənlər
Dağlarda mələr oldu.

268. Dəryada səməg olmaz,
Səməgi yemək olmaz.
O qədər dərdim var ki,
Heç yerdə demek olmaz.

269. Qərə atın sağrısı,
Tutub başım əğrisi.
Versin qardaş beşdiki,
Keçsin başım əğrisi.

270. Qara atin yelini,
Sürdi muğan elini.
Gedin deyin qardaşa,
Bərk bağlasun belini.

271. Balam ay xırdalama,
İri qoy, xırdalama.
O qədər dərdimiz var,
Kəsəvmizi qurdalama.

272. ..... doli qaldı,
Atmadım doli qaldi.
Nə sevindüz, nə güldüz,
Ürəyüz doli qaldi.

273. Yağış yağar qəm çilər,
Oğul atun qəmçilər.
Tutulsun qardaş toyi,
Dağılsun təvrikçilər.

274. İstikan nəlvəkisi,
Nə çox adamın pisi!
Allah nə yaxçi oley,
Söygülü istəklisi.

275. Simavari qurmişəm,
Daldasində durmişəm.
Yarim gedüb qürbətə,
Mən boynimi burmişəm.

276. Bu əvlər uzun əvlər,
İçində olsin toylər.
Tutulsin qardaş tovi,
Oynəsün ucə boylər.

277. Araz aşdı mən gördüm,
Kür qovişdi- mən gördüm.
Düşmən zülüm elədi,
Həddin aşdi mən gördüm.

278. Nəlbəkidə bal gördüm,
Ağ üzündə xal gördüm.
Biz gəldik danışmağa,
Dilman dili lal gördüm.

279. Oğlan, adın Məhəmməd,
Qaşin arasi cənnət.
Sözün ala bilmədim,
Görüm ölünə nəhlət.

280. Əzizim, üzə düşdü,
Yar şəkli gözə düşdü.
Ağrılar beldən gəldi,
Dərd gəldi dizə düşdü.

281. Mən aşiq, sel üstə,
Sel gəldi bu sel üstə.
Bir cüt gözə qul oldum,
Əsir düşdüm tel üstə.

282. Laylay dedim tez olar,
Çöllər dolu qaz olar.
Səyyad olan tor qursun,
Belə tərlan az olar.

283. Mən aşiq kalam səni,
Qoy tutsun nalam səni.
Bazarda satılmazsan,
Pul verib alam səni.

284. Mən aşiq, qara gözə,
Ağ buxaq, qara gözə.
Ara xəlvət, yar da tək,
Göz vurdum ara gözə.

285. Mahnı mahnının bəndi,
Mahnı götürüb kəndi.
Pul verib satın alan,
Oğlan oturan kəndi.

286. Xoş gəldi qonağımız,
Sizə qurban canımız.
Əgər əhval tutursuz,
Bu bizim əhvalımız.

287. Sandıq sandıq içində,
Sandıq pambıq içində.
Bakıya bir od düşdü,
Biz də yandıq içində.

288. Biçini biçər gələr,
Dağ suyu içər gələr.
Yar yadına düşəndə
Quş kimi uçar gələr.

289. Qardaş biçini biçər,
Dərzin yaxşısın seçər.
Qardaş bir qız seçibdi,
Qızıl camda su içər.

290. Qardaş qoyuna gedər,
Baxar boyuna gedər.
Qardaşın ağ toğlusu
Nişan toyuna gedər.

291. Qardaş ata gedibdi,
Yata-yata gedibdi.
Əlində gümüş qəlyan,
İxtilata gedibdi.

292. Mən aşiq oynamasın,
Qan qana qaynamasın.
Məni sənə verməzlər,
Ürəyin oynamasın.

293. Boz at biçindən gəlir,
Elat köçindən gəlir.
Mənim yarımın səsi,
Bəylər içindən gəlir.

294. Boz atım boza-boza,
Boynunda qızıl qoza.
Asta yeri, çər dəymiş,
Yarı buladın toza.

295. Günlərim günlər imiş,
Zülfün düyünlər imiş.
Sənlə olduğum günlər
Nə gözəl günlər imiş.

296. Aşiq küsüb, ağlaram,
Küsüb Yüsüb, ağlaram.
Gözləyərəm, gəlməsən,
Səndən küsüb ağlaram.

297. Gədikdə görünürsən,
Ağ dona bürünürsən.
Qürbət nə qədər yoldur.
Gəlməyə ərinirsən?!

298. Mən aşiqəm, əy mənəm,
Əlif qəddim əymənəm.
Gəlib əcəl, xələtin,
Mən cavanam, geymənəm.

299. Kəklik özü dağdadır,
Balaları koldadır.
Qabaqdan bayram gəlir,
Gözüm elə yoldadır.

300. Bu ay bayram ayıdır,
Qardaş-bacı payıdır.
Durun atını tutun,
Pay gətirən dayıdır.

301. Qarabağdan gələn var,
Dərd ürəyi alan var.
Əcəl, mənə möhlət ver,
Qəriblikdə balam var.

302. Dağlar başın aldı qar,
Aldı duman, aldı qar.
Elə köçhaköç düşdü,
Yollarımı aldı qar.

303. Pəncərədən daş gəlir,
Ala gözdən yaş gəlir.
Bir ucadan səs verin,
Səsiz mənə xoş gəlir.

# YOLOCAQ BAYATILARI

1. Aya baxdım, Ay bəyaz,
Qıza baxdım, qız bəyaz.
Rəhm eylə, yazı yazan,
Bu gözəli mənə yaz.

2. Aya baxdım, Ay göyçək,
Qıza baxdım, qız göyçək.
Gəl, dayanaq üz-üzə,
Eşqimizə and içək.

3. Aya baxdım, Ay batdı,
Qıza baxdım, qız getdi.
Zəhmət çəkib gül əkdim,
Yerində tikan bitdi.

4. Dağ aşdı, Leyli getdi,
Leylinin meyli getdi.
Nakam olan bu könlüm,
Səndən gileyli getdi.

5. Mən aşiq qazan ağlar,
Od yanar, qazan ağlar.
Qərib yerdə ölənin,
Qəbrini qazan ağlar.

6. Mən aşiq, Gəncə var,
Şəki, Şirvan, Gəncə var.
Gözəl Şuşa, Qarabağ,
Qəlbimdə ölüncə var.

## AĞILAR

1. Mən aşiq ağlamazdım,
Yada bel bağlamazdım.
Mən səni görməsəydim,
Mən belə ağlamazdım.

2. Mən aşiq, keçdi məndən,
Ox dəydi, keçdi məndən.
Bafalıya körpü oldum,
Yadlar da keçdi məndən.

3. Qaşların qibləgahdı,
Gözlərin qibləgahdı.
Dağlarda duman görsən,
Bil, o, mən çəkən ahdı.

4. Dağları qəcəl aldı,
Ovçular məcəl aldı.
Bir yanım qərib ölkə,
Bir yanım əcəl aldı.

5. Mən aşıq, qəzən ağlar,
Od yanar, qəzən ağlar.
Qəribin kimsəsi yox,
Qəbrini qazan ağlar.

6. Qərib öldü, götürün,
Küçələrdən ötürün.
Qəribin lo xəbərin,
Ölkəsinə yetirin.

7. Qəribəm ağrıyır başım,
Yastığa damar yaşım.
Nə ola bir kəs gələ,
Qərib gəlir qardaşım.

8. Mən aşiqəm ağrıdan,
Başım dolar ağrıdan.
Allah, bir zaman ola,
Azad olam ağrıdan.

9. Arazam, Kür üstünnən,
Qəfləni sür üstünnən.
Mənə dayaq olmazsan,
Dayağam, dur üstümnən.

10. Araz aşdı başımnan,
Kür qovuşdu döşümnən.
Hər yadıma düşəndə,
Ağlım çıxdı başımnan.

11. Mən aşiq, gedər qalmaz,
Su axar gedər, qalmaz.
Bafalıya can qurban,
Bibafa gedər, qalmaz.

12. Başıma zər bağlaram,
Zər üstə zər bağlaram.
Ya ölləm, ya qurtarram,
Ya biazar bağlaram.

13. Mən aşiq, binə qaldı,
El köçdü, binə qaldı.
Bir-birimizi görmək,
Qiyamət günə qaldı.

14. Dağda dolu durubdu,
Dolu boynun burubdu.
Mən doludan qorxuram,
Dolu bizi vurubdu.

15. Bu dağlar daşli dağlar,
Burdan yol aşdi dağlar.
Səyyad olan tor qursun,
Tərlanım qaçdi, dağlar.

16. Gedən yolun il oldu,
Bağ-baxçalar gül oldu.
Dedin, gedib tez gəlləm,
Nə yalancı dil oldu.

17. Sarığın başda durmaz,
Sarısan başda durmaz.
Vallah, bir ah çəkərəm,
Üstündə daş da durmaz.

18. Ceyraniım suya gələr,
Boynunda dua gələr.
O qədər dərdi olan
Başına hava gələr.

19. Burdan bir maya getdi,
Sallandı çaya getdi.
O qədər əmək etdim,
Əməyim zaya getdi.

20. Dəvələr qatar gedər,
Baş-başa çatar gedər.
İgidin biqeyrəti,
Əzizin atar gedər.

21. Dərdim coxdur bilinməz,
Gözüm yaşı silinməz.
Çəkərəm punhan-punhan,
Özgəsinə bilinməz.

22. Ay çıxa peşman-peşman,
Gün çıxar ona düşman.
Çəkirəm pünhan-pünhan,
Nə dost bilir, nə düşman.

23. Ovçu, ovun qurusun,
Çaxmar, qolun qurusun.
Sən necə qıydın mənə,
Görüm qolun qurusun.

24. Əzizinəm, yad ovçu,
Özgə ovçu, yad ovçu.
Bizim ovçu vurmadı,
Onu vurdu yad ovçu.

25. Bir dəstə qamışam mən,
Suda dayanmışam mən.
O qədər dərd çəkməkdən,
Durub dayanmışam mən.

26. Dağlardan lalə dərdim,
Gül dərdim, lalə dərdim.
Nə anam var, nə bacım,
Ağzımdan ala dərdım.

27. Ördək imiş, qaz imiş,
Yolunu azmış imiş.
Fələk mənim alnıma
Nə qara yazmış imiş.

28. Əlimə qaz verdilər,
Qazıma naz verdilər.
Getdim həkim yanına,
Dərmanı az verdilər.

29. Burdan bir atlı getdi,
Atın oynatdı getdi.
Gün kimi işıq saçdı,
Ay kimi batdı getdi.

30. Bağa gəldim bağbansız,
Dəvə gördüm sarvansız.
Hamıya dərman verdim,
Özüm öldüm dərmansız.

31. Qardaşıyam, qardaşı,
Get dağlardan qar daşı.
Məkkə gərəyi olmaz,
Bacı görsə qardaşı.

32. Dəryadan gəmi gəldi,
Səs verdim hamı gəldi.
O qədər ağlamadım,
Ayrılıq dəmi gəldi.

33. Bir at mindim başı yox,
Bir çay keçdim daşı yox.
Burda bir cavan ölüb,
Bacısı qardaşı yox.

34. Gedirdim qıraq ilə,
Ot biçdim oraq ilə.
İtirmişəm yarımı,
Gəzirəm soraq ilə.

35. Mən aşiq, başdan ağlar,
Kiprikdən, qaşdan ağlar.
Kimin əzizi ölsə,
Yatmaz, obaşdan ağlar.

36. Araz aşdı başımdan,
Kipriyimdən, qaşımdan.
Sən belə ağlayanda
Ağlım çıxır başımdan.

37. Mən aşiq, qaş altdadır,
Qara göz qaş altdadır.
İstərəm duram gələm,
Qollarım daş altdadır.

38. Mən aşiq, nəşin yerdə,
Gül bənövşəli yerdə.
Sənin o gül bədənin,
Qaldı döşəli yerdə.

39. Bənövşəyəm, bitərəm,
Kol dibində itərəm.
Gəlib səni görməsəm,
Boynum əyri tutaram.

40. Aşiq, sail deyiləm,
Ağlı zail deyiləm.
İstərəm ağsaqqalı,
Sənə qail deyiləm.

41. Mən aşiq, səran camı,
Doldur ver səran camı.
Fələk vurdu dağıtdı
Sən görən sərəncamı.

42. Mən aşiq, gül üzünə,
Gün düşüb gül üzünə.
Yalvarram çayanlara,
Dəyməsin gül üzünə.

43. Yeri müşgünüm, yeri,
Duman, çiskinim yeri.
Keçirtdim yaxşı günlər,
Bu da pis günüm, yeri.

44. Dağların qarı mənəm,
Gün dəyər, əriməərəm.
Məzarımı dərin qaz,
Cavanam, çürüməərəm.

45. Aşiq, naçar ağlama,
Günün keçər, ağlama.
Qapını bağlayan kəs,
Yenə açar ağlama.

46. Ceyran olan kol gəzər,
Ördək olan göl gəzər.
O qədər dərdi olan,
Abdal olar, el gəzər.

47. Yaram var ürəyimdə,
Arzusu kürəyimdə.
Mənə toxunma, fələk,
Arzum var ürəyimdə.

48. Çay qırağı hamardı,
Dərə-təpə, hamardı.
Qəlbimi yarıb getdin,
Sinəm damar-damardı..

49. Anam, otur yanımda,
Bacım, otur yanımda.
Birin sən de, birin mən,
Dərd qalmasın canımda.

50. Başıma iş açmışam,
Gor qazıb, iş açmışam.
Dərd qapısı nə çoxmuş,
Bir deyil, beş açmışam.

51. Mən aşiq, naşı əlindən,
Atmaz daşı əlindən.
Yastığım şikayətçi,
Gözüm yaşı əlindən.

52. Gülümü şaxta vurdu,
Nə yaman vaxta vurdu.
Məni Allah vurmuşdu,
Utanmaz xalx da vurdu.

53. Aşiq, Gəncəli dağlar,
Gülü pencəli dağlar.
O qədər dərdi olan,
Necə dincəli, dağlar?

54. Aşiq, illər ayrısı,
Şana tellər ayrısı.
Bir günə dözümüm yox,
Oldum illər ayrısı.

55. Mən aşiqəm, hər aylar,
Hər həftələr, hər aylar.
Başım yastıq əlində,
Dilim səni haraylar.

56. Hər ay aşıb gedənin,
Allah, günü çaşıb gedənin.
Bəxtəvər başına olsun,
Halallaşıb gedənin.

57. Bu dağlar daşdı dağlar,
Allah, dağdan yol aşdı dağlar.
Torçuya deyin, tor qursun,
Tərlanım qaçdı, dağlar.

58. Bu dağlar qoşa dağlar,
Allah, verib baş-başa dağlar.
Necəsüz, bir ah çəkim,
Qoy dönsün daşa dağlar.

59. Allah, dağlara bax, dağlara,
Qulaq verin ağlara.
Necəsüz, bir ah çəkim,
Duman dola dağlara.

60. Yağış yağır çöllərə,
Ördək uçur göllərə.
Allah, burda bir cavan ölüb,
Səda düşüb ellərə.

61. Dərdi tarda sim ağlar,
Sim sızıldar, sim ağlar.
Qəribi kim götürər,
Kim oxşayar, kim ağlar?

62. Qəribəm, ağrır başım,
Allah, yastığa damır yaşım.
Çıxalar çağıralar,
Deyələr, qərib, gəlir qardaşın.

63. Qəribəm, Allah, bu vətəndə,
Allah, gözüm yoldan ötəndə.
Allah, qərib kimisə istər
Başı yastığa yetəndə.

64.Çıxdım qələnin başına,ay hacı,
Əşrəfi dərdim xurcuna, ay hacı.
Bu nəvəmdi, başımın tacı,
O şirindi, mən acı.

65. O dağlar, bu dağlar,
Gəlinlər yaylığına
Allah,bənövşə bağlar.
Mən qərib ölsəm,
Mənə kim ağlar?

66. Əzizim şeşpəri var,
Əlində şeşpəri var.
Bir deyil, iki deyil,
Məndə qəm ləşkəri var.

67. Əzizinəm, bu dağlar,
Bu dərələr, bu dağlar.
Ölsəm, getməz sinəmdən
Bu düyünlər, bu dağlar.

68. Əzizinəm, yar qana,
Yad sözünü yar qana.
Bir yol baxdım üzünə,
Saldı məni yar qana.

69. Mən aşiq nə ilmədi,
Toxuyanı bilmədi.
Fələk sitəm elədi,
Heç üzümüz gülmədi.

70. Mənə fələk neylədi,
Daşa kələk eylədi.
Dədəm qapısı bağlı,
Arxam külək eylədi.

71. Gedeydim qırağinən,
Ot biçdim orağinən.
Üç igid yola saldım,
Gözliyəm sorağinən.

72. Yarı yolladım özüm,
Dalıyca qaldı gözüm.
Yolda yoldaşun qurban,
Evə gələndə özüm.

73. Sandıx üstə küci var,
Kücinin qırx üci var.
İstədim duram, gələm,
Kafirün çox güci var.

74. Otağa sərdim kilim,
Lal olasan mənim dilim.
Gedəndə küsüli getdi,
Gələndə necə dindirim.

75. Göynən gedən quşa bax,
Qanadı sınmişə bax.
Göz yaşıynan məktub yazdım,
Bəhram, oxi yaşə bax.

76. Göynən gedən alabaxta,
Məni vırdi, saldı taxtdan.
Sənə qıyan düşmənnərün,
Qan qussun laxta-laxta.

77. Bulaq, səndə daş oleydim,
Əriyeydim, yaş oleydim.
Bəhram, səni ötürəndə,
Kaş sənə yoldaş oleydim.

78. Sən məni qoydün getdün,
Göz kimi oydün getdün.
Dörd körpə ümidinə
Kimsəsiz qoydun getdün.

79. Evləri hərdə-hürdə,
Yük üstə sarı gərdə.
Odu ki, yarım gedib,
Düşmüşəm şirin dərdə.

80. Aşığam, yüki dögü,
Bir dögü, iki dögü.
Həminin dərdi vardu,
Mənimki təki dögü.

81. Əzizim, dəyməmişəm,
Baş yerə qoyməmişəm.
Yari gücnən ayiriblər,
Mən onnan doyməmişəm.

## AĞI-EPİTAFİYALAR
(Alar qəbristanlığı)

1.Üstündən yelmi əsdi?
Budağımı kim kəsdi?
Ölüm haqdı onsuz da,
Fələk niyə tələsdi?

2. Bəs niyə tez getdin sən aramızdan,
Ölüm heç bu yaşa yaraşan deyil.
Görkəmin getməyir xəyalımızdan,
Səni əzizlərin unudan deyil.

3. Anamızın matəmi, anamızın yası,
Ürəkdən asılan qəm daşımızdır.
Ana, qəbrin üstə düşən yağış damlası,
Yağış deyil, göz yaşımızdır.

4.Əzizləyər yaz səni,
Torpaq ovutmaz səni.
Övladların dünyada
Heç vaxt unutmaz səni.

5. Atamın ümmanca dərdsi-səri var,
Ata zəhmətindən ellər halidir.
Övlada verilən bütün medallar,
Ata sinəsindən asılmalıdır.

6. Bəy atına çatmamış,
Saatına çatmamış.
Murad ölümə çatdı,
Muradına çatmamış.

Köçlər yaylağa çatdı,
Doğma oylağa çatdı.
Biz Murada çatınca,
Murad Allaha çatdı.

7. Ey yoldan ötənlər, ayaq saxlayın,
Sanmayın bir məzar guşəsiyəm mən.
Həyatda bar verən səkkiz övladın,
Torpaqda uyuyan atasıyam mən.

8. Nə baxırsan mənim kimi,
Çox baxmışam sənin kimi.
Olacaqsan mənim kimi,
Baxacaqlar sənin kimi.

9. Qəlbimizə hakim idin,
Taxtını tərk etdin, ana.
Ömrümüzə bəzək vurub,
Ömrümüzdən getdin, ana.

10. Qəfildən ömrümə əsdi bir külək,
Yarıda söndürdü yanan şamımı.
Qıydı gənc ömrümə bu zalım fələk,
Qoydu ürəyimdə arzu-kamımı.

11. Öz qısa ömrünü həsr etdin bizə,
Hey vurdun özünü alova, közə.
Baş əyib qəbrinə can üzə-üzə,
Deyirik, ay ana, səsinə qurban,
Bizi əzizləyən dilinə qurban.

12. Zəhmət çəkdin, bəhrəsini görmədin,
Bizimlə doyunca deyib-gülmədin.
Həyatının çiçəklənən dövründə,
Nişanlandın, toy gününü görmədin.

**Ağı-epitafiyalar** Alar qəbiristanlığının başdaşı və sinədanlarından Bilal Alarlı (Hüseynov) tərəfindən 28 avqust 2013-cü ildə yazıya alınmışdır. Ağı-epitafiyaların aid olduğu şəxslər:

1. Əliyeva Tahirə Əməş qızı (1963-2000)
2. Əsgərov Ramin Şövkət oğlu (1978-2010)
3. Əliyeva Mahi Baxşıəli qızı (1928-2007)
4. Əliyev Ələkbər Kəlbi oğlu (1933-2007)
5. Əliyev Qasım Kəlbi oğlu (1934-2013)
6. Tahirov Murad Elbəyi oğlu (1992-2006)
7. Bayramov Babulla Yadulla oğlu (1961-2013)
8. Məlikova Gülsura Qara qızı (1940-2010)
9. Tahirov Bəylər Babaş oğlu (1925-2001)
10. Əməşova Siyarə Mehrəli qızı (1942-2009)
11. Rəhmanov Faiq İslamoğlu (1968-2011)
12. Şükürova Kifayət (Sara) Allahverən qızı (1950-2012)
13. Qulamov Yasər Abbas oğlu (1991-2011)
14. Hüsənov Dəyanət Dədəbəy oğlu (1990-2011)

# NƏĞMƏLƏR

## 1. Hey yar əli

Atdılar aldı yolların, ay gəlin,
Kağızdan ağdı qolların, ay gəlin,
Ay gülüyaylıq, gülü qırmızısan.
Top qara birçək oğlanın toyudu,
Gözləri göyçək oğlanın toyudu.

Hey yar əli iynə taxtım divarə,
Hey yar əli elçi göndərdim yarə.
Hey yar əli elçi becavab oldu.
Hey yar əli özüm elçiyəm yarə.

Hey yar əli o tayda qoç yatıbdır,
Hey yar əli buynuzların çatıbdır.
Hey yar əli heyif o qoça gəlsin,
Hey yar əli quru yerdə yatıbdır.

Hey yar əli sü üzündə milçəyəm,
Hey yar əli əl vurma köynəkçəyəm.
Hey yar əli özgəyə çirkin olsam,
Hey yar əli öz yarıma göyçəyəm.

## 2. Qoy məni

Ağ atımın nalı yoxdu,
Üstə ipək çulu yoxdu,
On beş gündü yemi yoxdu,
Qıza qoy məni, qoy məni,
Oğlan al məni, al məni.

Ürbəndimi çul eylərəm,
Təkbəndimi nal eylərəm,

On beş gün qonaq eylərəm.
Qıza qoy məni, qoy məni,
Oğlan al məni, al məni.

Mənim adım quru kişmiş,
Sapağım yollara düşmüş.
Öz yarım yengi yetişmiş,
Qıza qoy məni, qoy məni,
Oğlan al məni, al məni.

Mənim adım quru alma,
Sapağım yollara salma,
Öz yaruvi yada salma.
Qıza qoy məni, qoy məni,
Oğlan al məni, al məni.

## 3. Qadasın aldığım

Mən gələndə şamamalar gül idi.
Dört yanımı sarı saldat bürüdü.
Qazarmada cavan ömrüm çürüdü.
Oyan-oyan yar qadasın aldığım,
Içməmişəm çay qadasın aldığım.

Simavar almışam silənim yoxdur,
Bir dərdə düşmüşəm bilənim yoxdur.
Göz yola tikmişəm, gələnim yoxdur,
Oyan-oyan yar qadasın aldığım,
İçməmişəm çay qadasın aldığım.

## 4. Öyrən, gəlin

Gəlin dedi yoxdu bacım,
Başımdan götdülər tacım.

Filankəs də sənin bacun
Əylən gəlin, əylən gəlin,
Bizim dili öyrən gəlin, öyrən gəlin.

Gəlin dedi yoxdu,
Qoyunu quzuya qatam,
Filankəs də sənin atan,
Əylən gəlin, əylən gəlir,
Bizim dili öyrən gəlin, öyrən gəlin.

Eyvan altı yolun olsun,
Laləzar bazarın olsun.
Qayınların qulun olsun,
Əylən gəlin, əylən gəlin,
Bizim dili öyrən gəlin,
Öyrən gəlin.

**5. Can nənə**

Alma atdım nar gəldi, laylay,
Aman nənə, canım nənə, can nənə,
Kətan köynək dar gəldi,
Aman nənə, canım nənə, can nənə,
Elə bildim yar gəldi,
Aman nənə, canım nənə, can nənə.

Evləri Tərtər üstə,
Tər yorğan örtər üstə.
Yarın yorğanı bizdə,
Görən nə örtər üstə.
Aman nənə, canım nənə, can nənə,
Qəlyanı doldur dalbadal ver mənə.

## 6. Gəl bizə

Dam üstə yatan oğlan,
Köynəyi kətan oğlan.
Apardılar yaruvi,
Bixəbər yatan oğlan,
Nar, nar nar gilə,
Gedək- gedək yar gilə,
Yar bizə gəl,
Tehranə gəl,
Təbrizə gəl,
Yar mən ölüm,
Gəl bizə.

Su üstündə milçəyəm,
Əl vurma köynəkçəyəm.
Qardaşım köynəy alsa,
Həmi qızdan göyçəyəm.
Nar, nar, nar gilə.
Gedək, gedək yar gilə,
Yar bizə gəl,
Tehranə gəl,
Təbrizə gəl,
Yar mən ölüm,
Gəl bizə.

Evləri Tərtər üstə,
Tər yorğan örtər üstə.
Yarın yorğanı bizdə.
Görən nə örtər üstə?
Nar, nar, nar gilə,
Gedək, gedək yar gilə.
Yar bizə gəl,
Tehranə gəl,

Təbrizə gəl,
Yar mən ölüm.
Gəl bizə.

Su gəley lülə-lülə,
Yar gəley gülə-gülə,
Əlində güllü dəsmal,
Qan-tərin silə-silə,
Nar, nar, nar gilə,
Gedək, gedək, yar gilə.
Yar bizə gəl,
Tehrana gəl,
Təbrizə gəl,
Yar mən ölüm,
Gəl bizə.

Simavarı quroydım,
Daldasında duroydım,
Yolinən gedən oğlanın,
Adaxlısı olaydım.
Nar-nar, nar gilə.
Gedək-gedək yar gilə.
Yar bizə gəl,
Tehrana gəl,
Təbrizə gəl,
Yar mən ölüm,
Gəl bizə.

Ay qız, adın desənəm,
Şokolad verim yesənəm.
Anon səni dögəndə,
Gəlib bizə desənəm.
Nar-nar, nar gilə.
Gedək-gedək yar gilə.

Yar bizə gəl,
Tehrana gəl,
Təbrizə gəl,
Yar mən ölüm,
Gəl bizə.

### 7. Dəst eylə

O tayda quzu gördüm dəst eylə,
Tükün qırmızı gördüm dəst eylə, gülüm, dəst eylə.
Açdım cənnət qapusin dəst eylə, gülüm, dəst eylə.
Sevdiyim qızı gördüm dəst eylə, gülüm, dəst eylə.

O tayda boz alaçuq dəst eylə, gülüm,
Qıçı yox, yanı açıq.
Heyif o çoça açıq.
Yatıbdır üstü açıq.

Su üzündə nanəyəm,
Əl vurma pərvanəyəm.
Oğlan nəyə baxırsan?
Mən bu elin xanıyam.

Həyətdə sicim tovlar, hay yordi, yordi,
Gözüm yar yönün ovlar, hay yordi, yordi.
Oğlan nəyə baxırsan, hay yordi, yordi.
Qardaş adam buxovlar, hay yordi, yordi.

Su gəlir iki haça, hay yordi, yordi,
Yar gəlir qaça-qaça, hay yordi, yordi.
Əlində qızıl qayçı, hay yordi, yordi,
Yaxasın aça-aça, hay yordi, yordi.
Hay yordi, yordi ay,
Görək kim kimi yordi.

## 8. Gəlin, xoş gəldin

Gəlin deyər ana, ana,
Yaxşı tökər dənə, dənə.
Mən də olum sənə ana,
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin deyər bacı, bacı.
Yaşı tökər acı, acı.
Mən də olum sənə bacı,
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin deyər ata, ata,
Qoyunu quzuya qata.
Mən də olum sənə,
Gəlin, xoş gəldin, xoş gəldin.

## 9. Ağ almalı bağlarım qaldı

Ağ almali bağlarim qaldi,
Üstü dumanlı dağlarim qaldi.
Giləvər olum əsim.
Ağalmalı bağlarım qaldi,
Üsti dumanlı dağlarim qaldi.

Qardaş, atin beş olsun,
Ağ almalı bağlarim qaldı.
Əlin tərlan quş olsun,
Ağ almalı bağlarim qaldı.
Taleh yoldaşım olsun,
Ağ almalı bağlarim qaldı.
Üsti dumanlı dağlarım qaldi.
Qərə at qaşdi gəldi,
Ağ almalı bağlarim qaldı.
Yüyəni aşdi gəldi,

Ağ almalı bağlarim qaldı.
Xanımlara muşduluğ,
Ağ almalı bağlarim qaldı.
Bəylər barişdi gəldi,
Ağ almalı bağlarim qaldı.
Üst dumanlı dağlarım qaldi.
Qərə atin yelini,
Ağ almalı bağlarim qaldı.
Sürdü muğan elini,
Ağ almalı bağlarim qaldı.
Qurban olum qardaşa,
Ağ almalı bağlarim qaldı.
Nə tez getdi, gəlini,
Ağ almalı bağlarim qaldı.
Üstü dumanlı dağlarım qaldı.
Yeri-yeri mollam, yeri,
Ağ almalı bağlarim qaldı.
Yeriməsən ölləm yar.
Ağ almalı bağlarim qaldı.
Sən orda quran oxi,
Ağ almalı bağlarim qaldı.
Mən burda şad ollam, yar,
Ağ almalı bağlarim qaldı.
Üstü dumanlı dağlarım qaldı.

## 10. Əşrəfidən şanəsi var, gəlünün

Əşrəfidən şansi var, gəlünün.
İranda xan-daisi var gəlinün.
Bulaq ayaği xaş-xaş,
Əşrəfidən şanəsi var, gəlünün.
Xəbərin gəley xaş-xaş,
Əşrəfidən şanəsi var, gəlünün.
Bu xəbəri verənə,

Əşrəfidən şanəsi var, gəlünün.
Can qurban, mallar peşgən,
Əşrəfidən şanəsi var, gəlünün.
İranda xan-dayisi var gəlinün.

Evləri köndələn yar,
Əşrəfidən şanəsi var, gəlünün.
Bizə gül göndərən yar,
Əşrəfidən şanəsi var, gəlünün.
Gülün yarpuza dönsün,
Əşrəfidən şanəsi var, gəlünün.
Bizdən üz döndərən yar,
Əşrəfidən şanəsi var, gəlünün.
İranda xan-dayisi var gəlinün.

## 11. Gəlin, xoş gəldin (2)

Bacım gedey cilovdarı kim olsun?
Başi qızil, ətəyləri sim olsun.
Eyvan alti yolun olsun,
Lülə zərbaft donun olsun.
Qəyinnərim qulun olsun,
Bacim, get xoş getdin, xoş getdin.

Eyvan alti yol istəməz,
Lülə zərbaft don istəməz.
Bizim gəlin qul istəməz,
Gəlin xoş gəldin, xoş gəldin.

Alma üzlüm, a bizim gəlin,
Sürmə üzlüm a bizim gəlin.
Qonşilər çox söz deyər,
Alma özün, a bizim gəlin.

## 12. Ceyran çıxdı meşədən

Ceyran çıxdı meşədən,
Ay sarı yaylıq, sarı qofta badamı, çit tuman.
Buynuzları şüşədən,
Ay sarı yaylıq, sarı qofta badamı, çit tuman.
Yar üçün köynək biçdim,
Ay sarı yaylıq, sarı qofta badamı, çit tuman.
Yaxası bənövşədən,
Ay sarı yaylıq, sarı qofta badamı, çit tuman.
İstikanum qannıdu,
Ay sarı yaylıq, sarı qofta badam, çit tuman.
Əl vurma dərmanludu,
Ay sarı yaylıq, sarı qofta badamı, çit tuman.
Qardaşım bir qız sövub,
Ay sarı yaylıq, sarı qofta badamı, çit tuman.
Anası Səlyanludu,
Ay sarı yaylıq, sarı qofta badamı, çit tuman.

## 13. Bala Ceyran

Ay amən deyəllər,
Ha laylay bala ceyrən, bala ceyran.
Başməğ daban deyəllər,
Ha laylay bala ceyrən, bala ceyran.
Qiyamət ondə qopər,
Ha laylay bala ceyrən, bala ceyran.
Yerimə çoban deyəllər,
Ha laylay bala ceyrən, bala ceyran.

Aman-aman söz olmaz,
Aman ha balə ceyran.
Başmağ dabansız olmaz,
Amən hay balə ceyran, balə ceyran.

Bu necə insafdandu,
Ha laylay balə ceyran.
Ellər çobansız olmaz,
Hay balə ceyran, bala ceyran balə.

Bu dağin o üzündə,
Amən ay balə ceyran,
Qoyin otdar dizində,
Amən ay balə ceyran bala,
İki könül bir olsa,
Amən ay balə ceyran,
Kimin ona sözi var,
Amən a ceyran bala, ceyran.

Sandıx üstə güci var,
Aman, ay balə ceyran,
Gücünün qırx uci var,
Ceyran balə, ceyran balə.
Biz bəyəndik, biz aldıq,
Ceyran balə, ceyran balə.
Bizdə bəylər güci var,
Ceyran balə ceyran, bala ceyrən.

Sandıx üstə məfərə,
Amən ay bala ceyrən.
Gedin deyin Cəfərə,
Ceyran bala, ceyran bala,
Mənim yarim uşağdu,
Aman, ay bala ceyran,
Yollanmasun səfərə,
Ceyran balə, ceyran bala, ceyran.

Getməyini kəsərəm,
Amən, ay balə, ceyrən bala.
Yarpaq kimi əsərəm,

Amən, ay balə, ceyran balə,
Əgər uşəğ yollason,
Amən, ay balə, ceyran balə,
Mən də sənnən küsərəm,
Ceyran bala, ceyran bala, ceyran.

### 14. Yalvara-yalvara

Daşımı atdım dərinə,
Getdi ərinə-ərinə.
İki qıza-bir gəlinə,
Qaldım yalvara-yalvara.

Daşımi atdım qutana,
Getdi utana-utana.
Yengidə başmaq tutana,
Qaldım yalvara-yalvara.

### 15. Ağ almalı bağlarım qaldı

Ağ almalı bağlarım qaldı.
Üstü dumanlı dağlarım qaldı.
Atdan üzəngüy basım,
Ağ almalı bağlarım qaldı.
Ağ almalı bağlarım qaldı.
Girəvədə yolu kəsim,
Ağ almalı bağlarım qaldı.
Ağ almalı bağlarım qaldı.
Üstünə gün düşəndə,
Gilovar olum əsim.

Ağ almalı bağlarım qaldı.
Üstü dumanlı dağlarım qaldı.
Qardaş, atın beş olsun,

Ağ almalı bağlarım qaldı.
Əlin tərlan quş olsun.
Ağ almalı bağlarım qaldı.
Sən səfərə çıxanda,
Taleh yoldaşın olsun.
Ağ almalı bağlarım qaldı.
Üstü dumanlı dağlarım qaldı.
Qara at qaçdı gəldi,
Ağ almalı bağlarım qaldı.
Yüyəni açdı gəldi,
Ağ almalı bağlarım qaldı.
Xanımlara muştuluq,
Bəylər barışdı gəldi.
Ağ almalı bağlarım qaldı,
Üstü dumanlı dağlarım qaldı.
Qara atın yelini,
Ağ almalı bağlarım qaldı.
Basdı muğan elini,
Ağ almalı bağlarım qaldı.
Qurban olum qardaşa,
Nə tez getdi gəlini,
Ağ almalı bağlarım qaldı.
Üstü dumanlı dağlarım qaldı.

## 16. Ay Balam Ey!

Ay balam ey,
Yar düymələri mərcan,
Ay balam ey,
Xarmanda şəmə qaldı,
Ay balam ey,
Sancıldım şənə qaldı,
Ay balam ey.
Bu qızın əl dəsmalı,

Ay balam ey.
Oğlanda nişanə qaldı,
Ay balam ey.

Xırmanda yar yatıbdu,
Ay balam ey.
Üzü quma batubdu,
Ay balam ey.
Oyatdım oyanmadı,
Ay balam ey.
Mənim ahim tutubdu,
Ay balam ey, yar düymələri mərcan,
Ay balam ey, yar düymələri mərcan.

## 17. Altı qızın biri pəri

Altı qızın biri pəri,
Dəyirmanda ölsün əri.
Bir sümükdü, bir də dəri,
Altı qızlar, hey altı qızlar,
Altısı da yolumu gözlər.

Altı qızın biri Püstə,
Olmuşam dərdindən xəstə.
Altı qızın biri Püstə,
Olmuşam dərdindən xəstə.

Altı qızlar hey, altı qızlar,
Altısı da yolumu gözlər.
Qoy başını sinəm üstə,
Altı qızlar hey, altı qızlar.
Altısı da yolumu gözlər.

## 18. Yandı bağrım kabab oldu

Belə vurdi qolum şişdi,
Qolumnan qolbağım düşdi.
Fəl daşım davaya düşdi.
Aşkar, aşkar sabah oldi,
Yandi bağrım bağrım kabab oldi.

Göynən gedən bəhri-laçin,
Fələk qoymer qəddim açim.
Əlim çatmir sənnən qaçim,
Aşkar, aşkar sabah oldi,
Yandi bağrım bağrım kabab oldi.

Bulax, səndə daş olaydim,
Əriyeydim maş olaydim.
Keşgə yoldaşim gəleydi,
Mən ona yoldaş olaydim.

Bulax, səndə qum olaydım,
Əriyeydim, mum olaydim.
Bircə yarımı göreydim,
Ayağ alta şum olaydım.
Aşkar, aşkar sabah oldi,
Yandi bağrım kabab oldi.

## 19. Axşam oldu asdim aşi

Axşam oldu asdim aşi,
Daldaləndim tökdüm yaşı.
Cənabi-Qasim yoldaşi,
Həsən-Hüseyinnən istiyəm,
40 ildi yolun gözdiyəm.

Səhər-səhər asdım saci,
Yığıldı qonşunun aci,

Kor olasan nənə-baci,
Yarımi haxdan istərəm,
Nə müddətdi yol gözdərəm.

Mən aşuq məzə dərdə,
Can düşüb təzə dərdə.
Ona təbib deyərəm,
Dərman görkəzə dərdə.

Mən neynim, özüm neynim,
Bu dərdə dözüm neynim.
Hitler yarım öldürdi,
Mən buna dözüm neynim?

Gedeysen məni apar,
Getmə, qiyamət qopar,
Yarı itkin düşənnər,
Qiyamət güni tapar.

## 20. Getdi yar gəlmədi

Əyağinin alti kərmə qalaği,
Doğey comişdari, oyney balaği,
Mənəm yetim uşəx, ürəgi dağli,
Getdi yar, getdi yar, aldatdi məni,
Yarimin həsrəti saraltdı məni.

Ağalar ağasi, mollalar xasi,
Silinməz könlümün, alınmaz pası.
Allah xərab qalsın divanxanası,
Getdi, yar gəlmədi, aldatdı məni,
Yarımın həsrəti saraltdı məni.

## 21. Gəleysən, gedeysən, ay xəbərin olsun

Bakının yolların,
Bir-bir sanaram.
Sən yanan odlara,
Mən də yanaram.
Köynəyin yırtılsa,
Yolla, yamaram,
Alım mən qadayu,
Nə dedim sənə,
Anan mənə qurban,
Mən özüm sənə,

Gəleysən, gedeysən, ay xəbərin olsun,
Çini çayniklərin ay, qoy dəmin olsun.
Məni ota atan axrətin olsun,
Ot olub yorğanım ay yata bilmirəm.
Qırılıb qollarım yata bilmirəm.

## 22. Aç qulac qollaruy ay boynuma dola

Qapımın dalında bir para şüşə,
Mən necə dolanım ay yar başa düşə.
Yarımın telləri ay dəstə bənövşə,
Alım qadalaruy ay yola gəl, yola,
Aç qulac qollaruy ay boynuma dola.

Baküdən gəleydüm yüküm, ərikdü,
Bakünün yolları ay dəlik-dəlikdü.
Bir əmim oğlu var adı Məlikdü.
Alım qadalaruy ay yola gəl, yola.
Aç qulac qollarıy ay boynuma dola.

Nə durubsan dağ başında qar kimi,
Məmələrin heyva kimi, nar kimi,

Gəl soyun bir yerdə yataq bal kimi,
Alım qadalaruy ay yola gəl, yola,
Aç qulac qollaruy ay boynuma dola,
Alım qadalaruy ay yola gəl yola,
Aç qulac qollaruy ay boynuma dola.

## 23. Lalə

Ay çıxcaq bizə düşey, Lalə,
Sürmə də gecə düşey, Lalə.
Biz ayrıluğ bilməzdük, lalə,
Ayrılıq necə düşey, Lalə?

Ay döküləm ulduzam, Lalə,
Gəlin döküləm qızam, Lalə.
Gecələr gəl yanıma, Lalə,
Mən ki, evdə yalqızam, Lalə.

## 24. Ağçuxa, əylənmə bizim bağlara

Ağçuxa, əylənmə bizim bağlara,
Bülbül uçar, şoxu düşər dağlara.
Ülgüdən üzülmüşəm,
Ağçuxa, əylənmə bizim bağlara.
Mərcana düzülmüşəm,
Ağçuxa, əylənmə bizim bağlara,
Bülbül uçar, şoxu düşər dağlara.

## 25. Qardaş, atın beş olsun

Qardaş, atın beş olsun,
Əlin tərlan quş olsun.
Sən səfərə çıxanda
İmam yoldaşın olsun.

Qardaş, atın alaşa,
Atuva məxmər yaraşa.
Üstüvə gün düşəndə
Özüy ver gəndəlaşa.

Gəleysən oğru kimi,
Sallanbəy oğlu kimi.
Elə gəl, elə get ki,
Durum başına tovlanım
Qurbannıq toğlu kimi.

## 26. Nar-nar

İncidən üzülmüşəm, nar-nar,
Mərcana düzülmüşəm, yar, hey.
Dünən keçən oğlanın, nar-nar,
Alnına yazılmışam, yar, hey.
Əlin uzatdı ləmnən, nar-nar,
Dəsmalın aldı məndən, yar, hey.
Ağ üzlüm, ala gözlüm, nar-nar,
Nə tez ayrıldı məndən, yar, hey.
Boz atın boylanmasın, nar-nar,
Çək, cilov oynamasın, yar, hey.
Məni sənə verməzlər, nar-nar,
Ürəyin oynamasın, yar, hey.

## 27. Anam, mənə bir alma şal al

Anam, mənə bir alma şal al, belimə bağla.
Alma versəm almazsan,
Sen almadan qalmazsan.
Hansı bağın gülüsən,
İylədikcə solmazsan.
Anam, mənə bir alma şal al, belimə bağla.

Dağdan gəlin gələsən,
Duvağuy yelləyəsən.
Qurban olum o günə,
Qardaş ücün gələsən.
Anam, mənə bir alma şal al, belimə bağla.

Anam, mənə bir alma şal al, belimə bağla.
Alma qoydum nişana,
Qapımız gün düşənə.
Qara yaylıq yaraşır
Yardan ayrı düşənə.
Anam, mənə bir alma şal al, belimə bağla.

Anam, mənə bir alma şal al, belimə bağla.
Qardaşım Arazlıdır,
Yanı quba qazlıdır.
Qardaşım bir qız sevib,
Birçəyi qotazlıdır.
Anam, mənə bir alma şal al, belimə bağla.

Anam, mənə bir alma şal al, belimə bağla.
Dəsmalın yudum apar,
İtirmə, düşmən tapar.
Arxalığın şaldı, yar,
Dərdin məni aldı, yar.
İkimizin sirr sözü
Qiyamətə qaldı, yar.
Anam, mənə bir alma şal al, belimə bağla.

Anam, mənə bir alma şal al, belimə bağla.
Əmim oğlu olasan,
Mənə yaylıq alasan.

Mənə yaylıq almasan,
Şah dustağı olasan.

Əmim oğlu olarsan,
Qulluğumda qalarsan.
Eləsinə gedərəm,
Cilovdarım olarsan.

Bu dərə uzun dərə,
Baxdıqca uzun dərə
Bu dərədə bağ saldım,
Yar gələ üzüm dərə.

## 28. Ağ almalı bağlarım qaldı (2)

Ağ almalı bağlarım qaldı,
Üstü dumanlı dağlarım qaldı.
Qara at qaçdı gəldi,
Ağ almalı bağlarım qaldı.
Yüyənin açdı gəldi,
Ağ almalı bağlarım qaldı.
Xanımlara muştuluq,
Ağ almalı bağlarım qaldı.
Bəylər barışdı gəldi,
Ağ almalı bağlarım qaldı.
Üstü dumanlı dağlarım qaldı.

Qardaşım Arazdıdı,
Ağ almalı bağlarım qaldı.
Yanı quba qazdıdı,
Ağ almalı bağlarım qaldı.
Qardaşım bir qız sevib,
Ağ almalı bağlarım qaldı.
Birçəyi qotazdıdı,

Ağ almalı bağlarım qaldı,
Üstü dumanlı dağlarım qaldı.

Gedirsən, orda durma,
Ağ almalı bağlarım qaldı.
Sağda dur, solda durma,
Ağ almalı bağlarım qaldı.
Məni sənə verməzlər,
Ağ almalı bağlarım qaldı.
Gəl, bizim yolda durma,
Ağ almalı bağlarım qaldı.
Üstü dumanlı dağlarım qaldı.

Atda üzəngüy basdım,
Ağ almalı bağlarım qaldı.
Zirvədə yoluy kəsdim,
Ağ almalı bağlarım qaldı.
Üstüvə gün düşəndə,
Ağ almalı bağlarım qaldı.
Belə yel olub əsdim.
Ağ almalı bağlarım qaldı,
Üstü dumanlı dağlarım qaldı.
Qardaşım at oynadır,
Ağ almalı bağlarım qaldı.
Meydanda top oynadır,
Ağ almalı bağlarım qaldı.
Burdan gedən oğlanın,
Ağ almalı bağlarım qaldı.
Alnına yazılmışam,
Ağ almalı bağlarım qaldı,
Üstü dumanlı dağlarım qaldı.

# KÜRDÜLƏR

## 1. Keşkə bi quş olaydım

Araz aşdı başemdən, başemdən,
Kür qovuşdu döşümdən
Aman fələk, ay fələk,
Ağlım çıxdı başımdan.

Ölüyəm molla gəlsin, ey,
Mollanı yolla gəlsün, ey
Bari özün gələ bilməzdün, ey
Atam oğlu, kəfənim yolla gəlsün, ey.

Keşgə bi quş olaydım, quş olaydım, ey
Qanadı gümüş olaydım, ey
Görəydim hanki vilayətdəsən, ey
Atam qurban qardaş, ey
Yanını almış olaydım, oy.

Qoy sənə mən ağliyəm,
Mən diyəm, mən ağliyəm
Hicran mənimnən aşla,
Gəldükcən qan ağlayam, oy

Əlimdə nar dilimi, nar dilimi,
Ay allah, tutmuşam nar dilimi, oy
Der özgələr nə bilər, oy
Aman fələk, ay fələk,
Yar bilər, yar dilini, oy.

## 2. İkimiz əmiqızı

İkimiz əmiqızı,
Köynəyimiz qırmızı.
Ay Allah, elə gəzək, dolanaq,
Heç kəs görməsin bizi.

Gəlin gəlir, haçan gəlir?
Sirr sözümü açan gəlir.
Gecə oğlumun mollası,
Gündüz yazı yazan gəlir,
Ay Allah, pərgarımı pozan gəlir.

Qapuzda hovuz,
Tuman al mənə.
Yaşıl qanovuz,
Tuman al mənə.
Geyim sallanım,
Sən də bax mənə.

Bazarda maşa,
Bəg oğlu Paşa.
Bazara bir çit gəlib,
Gülləri qoşa.
Onnan mənə almason,
Gəl, məni boşa.

## 3. Ay lalazardı bu gecə

Ay lalazardı bu gecə,
Bəg intizardı bu gecə.
Yığılın, tez dağılın,
Bəg intizardı bu gecə.

Ay lala, xaşxaşdı gəlin,
Əsli Qızılbaşdı gəlin.
Bala evlisən, ev qədri bil,
Ev sənə peşkəşdi, gəlin.

## 4. Gəlib burdan yar gedə

Əzizim, yayına sən,
Oxu qoy yayına sən.
Qorxuram kirpik çalam,
Gözümdən yayınasan.

Mən aşiqəm, qar gedə,
Yazda sına, tar gedə.
Bitə bənövşə, nərgiz,
Gəlib burdan yar gedə.

## 5. Armud ağacı

Armud ağacı haça,
Əlim dolaşdı saça.
Sağ olsun o oğlanı
Sevdiyin götürüb qaça.

Armud ağacı suda,
Birin dər, birin buda.
Heyf ki, düşmən olduq,
Olmadıq qohum-quda.

Gəzirdim kənd arası,
Tapdım məxmər parası.
Nuşanda qızuy gördüm,
Əlində əl yarası.

Çörəyimin duzu var,
Süd sərmişəm, üzü var.
Qızuva fikir verdim,
Əlində əl izi var.

Qırmızını kim boyar,
Kim götürüb, kim deyər?
Nəhlət olsun o kəsə,
Sevdiyin əldən qoyar.

Toxudum çarıq bağı,
Gözümə saldım ağı.
Götürüb apardılar,
Sinəmdə qaldı dağı.

Bağça bar üçün ağlar,
Heyva, nar üçün ağlar.
Deyib-gülməyə baxma,
Verər özün dağlara,
O da yar üçün ağlar.

Qarpızı bıçaqladım,
Dörd yanın saçaqladım.
Səni özüm qovdurdum,
Ha gözlədim gəlmədin,
Yastığı qucaqladım.

### 6. Ay torpaq, ay ağaclar

Qaşların ilməgahdı,
Yarmalasam günahdı.
Ay torpaq, ay ağaclar,
Məndən sonra barsız olsaz-
Bilin çəkdiyim ahdı.

Qaşların arasından,
Yol saldım arasından.
Ay torpaq, ay ağaclar,
Öpəydim alnınızdan,
Ayrılıq barasından.

Qaşların aldı məni,
Yollara saldı məni.
Ay torpaq, ay ağaclar,
Zülflərin kənar eylə,
İlandı, çaldı məni.

## 7. Gəlinlər üçün kürdülər

Xara tuman səkkiz qat,
Dördün saxla, dördün sat.
On iki uşaq anasıyam,
Ey üç uşaq anası,
Nədən oldun ikiqat?!

Dərya qırağında bir fanaram mən,
Toxunma, hirsimdən, bax, yanaram mən.
Düzdür, qocalmışam, düşmüşəm əldən,
Bircə işarədən söz qanaram mən.

## 8. Toy xeyir-duası

Kərbəla yolunda saldırdım günbəz,
Dərsimi oxudum, dedilər, bilməz.
Kəmərüy qurşasın Gözəgörünməz,
Bala, mən xeyrüy verdim, Allah da versin!

Kərbəla yolunda saldırdım hamam,
Dərsimi oxuyub eylədim tamam.
Kəmərüy qurşasın on iki imam,
Bala, mən xeyrüy verdim, Allah da versin!

# QIYHALAR

## 1. Getdi, yarım qəyitmədi

Belə vurdu qolum şişdi,
Qolumnan qolbağım düşdü.
Yoldaşım fronta düşdü,
Getdi, yarım qəyitmədi.

Paltarın geydi əyninə,
Məni yandırdı odinə.
Dörd körpə ümidinə
Qoydi, yarım qəyitmədi.

İrəflərə düzdüm kasa,
Balalarım batdı yasa.
Bəhram, oldu ömrüm qısa,
Getdi, yarım qəyitmədi.

Alnımda teli büzümdə,
Heç kim olmaz mən dözümdə.
Arzumu qoydi gözümdə,
Getdi, yarım qəyitmədi.

## 2. Qar gəley

Ha baxiyəm birər-birər qar gəley,
Kətan köynək ağ bədənə dar gəley.
Aləm üçün qış günü də gülüstan,
Mən fağıra yay günü də qar gəley.

# CIRNATMALAR

## 1. Ağaverdinin hisli damı

Ağaverdinin hisli damı,
Tökülsün əti-əndamı.
Bizə plov da vermədi,
Yağlı çilov da vermədi.

## 2. Sahib ilə dananın deyişməsi

*Sahib deyir:*
Ay danə-danə dur yeri,
Başivə dönüm dur yeri.
Toximi çüldə gizlərəm,
Zəmin şum edib güzdərəm.
Yeriməsən bizdərəm.
Ay danə, danə dur yeri,
Xəbəri evə yollaram,
Başun kəsib gönün zollarəm,
Ay danə-danə, dur yeri,
Başuvə dönüm, dur yeri.

*Dana deyir:*
Az veribsən samani,
Kökəldibsən qabirqami,
Öləsən də durmarəm,
Yanasən də durmaram.

*Sahib deyir:*
Ay dana-dana dur yeri,
Başivə dönüm, dur yeri.

## 3. Lotu Hazarxanın deyimləri

1. Qar yağıbdı, dərə-təpə düzdənib,
Mahud çuxa astarranıb, üzdənib.
Baxın, görün, Hitler harda gizdənib,
Bax fələyin gərdişi-dövranına,
Gahi xəzəl, gahi gülüstanına.

2. Pəyədə külək tərpənər,
Damda dirək tərpənər.
Dildə zirək tərpənər,
Diniəminin arvadı.

3. At minər, sapand atar,
Namaz qılana Bəstiqız.
Könlü balıq istəsə,
Gedər Gilana Bəstiqız.

Əgər onu kətda qoysan
Bürzünbül sovetdiginə,
Vurar, yıxar, baxmaz
Ölən-qalana Bəstiqız.

4. Yel vurar, yengələr oynar, a y balam,
Dügələr əl çalar, cöngələr oynar, ay balam.

5. Müdirə bax, gör necə cövlan edir,
Müftə ətə canını qurban edir.

## 4. Ərdəbil
## (Sicilləmə)

Biçinçilər biçdi qoydu xalvara,
Canım sənə burda deyir yalvara.

Bax fələgin gərdişi-dövraninə,
Gah yıxasan gahi gülüsdaninə.

Daha bizdə can qalmadi Ərdəbil,
Sərabda sultan qalmadi Ərdəbil.
Ərdəbildən at götürdük kirayə,
Yükümüzü çəkək tökək sarayə.
Hökm olundu atı bizdən.
Aldılar yükümüzü palçıq üsdə saldılar.

Xəbər alduq Fərzəli bəy hardadu,
Şirdani boğarsuğundan xırdadu.
Eyşini-şanın yeridir, Ərdəbil.
Xoş ixtilatın yeridir, Ərdəbil.

Getdim gördüm neçə bəylər düzülüb,
Mənim əlim katdalardan üzülüb.
Mən bulara bir ixtilat söylədim.
Bular getdi mənə verdi bir yabu,
Minmiş idim asda-asda süreydim,
Bizim yabu burda gəldi aşirdi,
Dedim, yabu bu səndə nə qaydədü,
Dedi, düşüb yerisən bunnan faydədü.

İlk axşamdan məni verdün soyuğa,
Arpa samani apar tök toyuğa.
Ölsən də dab gəlmərəm yovuğa.
Dedim, yabu təzə tövlə tikmişəm,
Axur çəkib arpa, saman tökmüşəm.
Qırx mehdəri sənə peşkəş seçmişəm.
Əzab çəkib təzə tövlə tikmişəm.
Yabını verdim verdi mənə bir şutur,
Dedim qardaş gəl məni Şamdan ötür.
Şamnan ötdüm aldım ələ ovsarı,

Yavaş-yavaş cəhd eylədim ev sarı.
Dedim, şutur, zəhmət çəkib çıxsan.
Xaiş eliyəm, çülümü alıb dalıma bir baxasan.
Çülün aldım gördüm şütür qurib,
Yatmaqdan yannarı çütüyüb,
Mən ha dedim ağa şütül getmədi.
Hər nə dedim ağa şütür getmədi.
Hər nə dedim şütül baxmaz sözümə.
Dedim, şütür, qabağımız Gəncədi.
Dedi, çəkmə ovsar məni incidi.
Şirvan dağı çoxlu qar olur.
Seyid-molla çox artuğ tamahgar olur,
Tapmağ olmaz mollanın axmağını,
Molla özü artığ tamahgir olur.

## MEYXANƏ

### 1. Çəkürtkə

Gəldi qara çəkürtkə,
Doldu bərə çəkürtkə.
Üç yaşında qızları,
Verdi ərə çəkürtkə.
Hırıltısı gəley proxot kimi,
Zəmilərə daraşmışdı qurt kimi,
Sərnüdükcə gərüreydi ot kimi,
Bizdə qoymadın tufana çəkürtgə.
Ajdarı yedi didvanə çəkürtgə,
Qarğulunun başındaydı köçdəri.
Sütül zəmiyə olmuşdu müştəri,
Kəlbətindən də itiydi dişdəri,
Qoymadın bizdə tufana çəgürtgə,
Yedun qayutdun Muğana çəkürtgə.
Balhorudə qaynar sudan içdilər.
Qaynar sudan içdilər,
Üç gün qalıb sabahısı köçdülər.
Aman vermədi zəmiləri göy biçdilər,
Bizdə qoymadın tufana çəgürtkə,
Yedun qayutdun Muğana çəkütgə.
Ajdarı yedi divanə çəkürtgə,
Xannuları fağır adam bilirsən,
Zəmisin yeyib, bostanın süpürübsən.
Fağırrarın boranısın yeyibsən,
Qoymadın bizdə bir tufana çəgürtgə.
Yedun qayutdun Muğana çəkürtgə,
Aldarı yedi didivana çəkürtgə.
Tapduğumizi çəkeydük əl daşında.
Həsrət olduq dəgirmanə çəkürtgə.
Dedim dögməginən bular xannudu.

Göycəleyə aş ola heyvannüdü,
Mən nə bilim xannüyüni qannudu.
Həsrət olduq dəgirmanə çəkürtgə,
Ajdari yedi didivanə çəgürtgə.
Mırıltısı gəlür pirixot kimi,
Zəmilərə daraşmışdı qurt kimi,
Yaxşı isbatın sateydi at kimi.

# TÜRKƏÇARƏLƏR

## 1. Həyat içkiləri və gənclik məlhəmləri

* Bədəndən ağrı-acıları çəkən, gümrahlıq və cavanlıq gətirən məlhəm 2 stəkan bala bir stəkan üyüdülmüş qovurğa, bir stəkan qoz ləpəsi, yarım stəkan sarıkök, armudu stəkanın üçdə biri qədər zəncəfil, armudu stəkanın dörddə biri qədər hil və bir çay qaşığı qara istiot qatmaqla hazırlanır və bir müddət soyuq yerdə saxlanır . Bu məlhəm qurtarana qədər gündə üç dəfə yeməkdən yarım saat sonra bir qaşıq qəbul edilir.

* Kürək ağrılarını, əzələ boşalmasını, oynaq ağrılarını və damar xəstəliklərini aradan götürən, üzə gənclik təravəti gətirən, dərini hamar eləyən həyat içkisi iki yüz qram sarımsağı dəmirə toxundurmadan əzib on iki ədəd limonun şirəsinə qatır və bir müddət sərin yerdə saxladıqdan sonra qurtaranadək qəbul edilir. İçkini gündə iki dəfə bir çay qaşığı götürüb bir stəkan ılıq suya qatmaqla yeməkdən sonra qəbul edirlər.

* Allergiyanı, dəri büzüşmələrini, mədə xoralarını, bağırsaq sızanaqlarını aradan qaldıran və dəriyə xüsusi gözəllik verən içki bir stəkan bala bir stəkan qırmızı çuğundur, bir stəkan yerkökü şirəsini və bir stəkan qara turp şirəsini qatmaqla hazırlanır. Qəbul qaydası: Bir yemək qaşığı içkini yarım stəkan ılıq suya qatıb gündə üç dəfə yeməkdən bir qədər əvvəl qəbul edilir.

* Mədə xorası üçün ən yaxşı dərman əncirin südlə yeyilməsidir. Bir neçə əncini yeyəndən sonra üstündən süd içmək daha faydalıdır.

* Ürəyi zəif olan adamlara yeməyinin tərkibində və ayrıca göyərti kimi nanə qəbul etmək məsləhətdir. Nanə ürəyi möhkəmlədir, qanın damarlarda dövriyyəsini asanlaşdırır.

* Təzyiqi olan adamlara itburnu bitkisinin toxumlarını (gilliyi) dəmləyib çay yerinə içmək məsləhət görülür. Gillik həm

də sidikqovucu təsirə malikdir və qanı duraldır. Buna görə də böyrəkdən daşı hissə-hissə salır. Gillik yeganə dərman bitkisidir ki, eyni vaxtda həm təzyiqi aşağı salır, həm də böyrəyi təmizləyir. İtburnu çiçəyini dəmləyib içdikdə qızmanı salır. Buna görə də, itburnu bitkisi təbabətdə "min bir dərdin dərmanı" adlanır.

* Sarı boranı qida, ağ boranı məcundur. Ağ boranını qaynadıb yedikdə və suyunu içdikdə ölmüş cinsi fəaliyyət qismən bərpa olunur. Cinsi fəaliyyəti bərpa etmək üçün daha bir məlhəm: ağ boranını oyub, bu oyuğa bir neçə qaşıq arı balı töküb soyuq yerdə saxlayırlar. Sonra boranını götürüb, oyuqdakı məlhəmi qarışdırırlar. Hazır məhlul çay qaşığı ilə gündə bir neçə dəfə qəbul edilir.

* Mədə ilə bağlı narahatlığı aradan qaldırmaq üçün ağ turpdan da istifadə olunur. Belə ki, tər ağ turp təmizləndikdən sonra onun ortası oyulur və arı balı ilə doldurulur. Bir müddət saxladıqdan sonra məhlul qəbul edilir və turp yeyilir. Bu məlhəm bağırsaq yaralarını da sağaldır.

* Qarın ağrısı zamanı mərzədən giləmərzdən) istifadə olunur. Mərzə həm həm də qurudularaq bişirilən ətə vurulur. Bu məqsədlə aybadan (çöl soğanından) da istifadə olunur. Aybanın qurudulmuşu kababa və bişirilmiş kartofa vurularaq qida kimi qəbul edilir.

* Əlövi bitkisinin dişisini (erkəyi də olur) toplayıb qurudurlar və bundan müxtəlif xəstəliklərin müalicəsi zamanı istifadə olunur.

## 2. Min bir dərdin dərmanı bitkilər

* Babasilin ən yaxşı dərmanı sarımsaqdır. Sarımsaq dilimlənir, özü böyüklükdə çörək tikəsi ilə qəbul edilir. Gündə bir neçə dəfə bu qidalanma təkrar olunur və nəticədə hətta qanaxmalar dayanır, bağırsaqlardakı çatlar bitişir və yaralar sağalır.

* Nanə ilə dəmlənən çay qripi aradan qaldırır. Nanə yağı burxulmalarda sürtkü kimi istifadə olunur. Nanə mədə və öd ifrazatını artırır, həzmi asanlaşdırır, ürəyi möhkəmlədir. Nanə həmçinin pis ağız qoxusunu aradan götürür. Buna görə də keçmişdə gəlin köçən qızlar əl kisəsində özləri ilə nanə tozu aparır, tez-tez ağızlarını nanəli suyla yaxalayırdılar. Nanə qaraciyər ağrısını kəsir, öd daşını salır. Mədə və bağırsağa rahatlıq gətirir, qazqovucudur, ishalı kəsir. Öskürək zamanı nanənin xeyiri çox olur, nəfəs almanı asanlaşdırır, bəlğəmgətiricidir. Qadınlarda aybaşının vaxtında və ağrısız olmasını təmin edir. Nanə dəri qırışlarını da aradan qaldırır. Göyərti kimi süfrəyə qoyulur, tozundan sulu və quru yeməklərə səpilir, suyu içilir, yağı sürtkü kimi faydalıdır.

* Bal yatmazdan əvvəl qəbul edilərsə, mədə göynərtisini kəsir. Sümük sınıqlarında və əzələ ağrılarında sürtküsündən istifadə olunur.

* Solmazçiçəyini dəmləyib içdikdə qaraciyərə bə böyrəyə faydalı təsir göstərir.

* Böyrəkgülünü dəmləyib içdikdə daşı tökür. Böyrəkgülü Yardımlının Dərəkeçməz deyilən yerində daha çox bitir.

* Quqlunu (qantəpərin növüdür) əzib, suyundan açıq yaraya vururlar, qanı kəsir.

* Sancıgülü (kəlikotunun bir növüdür) qarın boşluğundakı kəskin sancıları kəsir.

* Ardıc dənəsini dəmləyib içdikdə böyrəkdən və öd kisəsindən daşı salır.

* Bağayarpağının dəmləməsi mədə xorası üçün faydalıdır. Sürtkü kimi istifadə olunduqda çibanı yumşaldır və yaranı bitişdirir.

* Xətmgülü tənəffüs yollarını müalicə edir. Qurudub dəmlədikdə faydalı təsir göstərir. Kəskin öskürəyi aradan qaldırmaq üçün südlə qaynadılıb içilir.

# YARDIMLI LƏTİFƏLƏRİ

## 1. Təzə gəlin

Bir qız ərə gedir. Sən demə, qabaqdan işləri korlayıbmış, üç aylıq uşağı var imiş. Ər evində ona bir söz demirlər. Qız deyir:

- Bura nə yaxşı yer imiş. Adam lap altı aya da doğa bilər.

Qayınatası deyir:

- Sən bu dəfə doqquz aya doğ, gələn dəfə lap üç aydan bir də doğa bilərsən.

## 2. Əhvalat

Bir Alarlı atını nallatmaq üçün nalbəndin yanına gedir. Atı nalladandan sonra ona haqqını xeyli artıq - bir onluq qızıl verir. Evə gedəndə iki-üç ədəd mıx oğurlayıb cibinə qoyur. Nalbənd bu işə məətəl qalır. Səbəbini soruşanda deyir ki, bəs sən bilmirsən biz Alarlıyıq. Bizim mərdliyimiz olsa da, oğurluqsuz da bizim üçün çətindir.

## 3. Qurban kəsdim

Alardan bir nəfər oğlunu inistuta aparır. Nəzir boyun olur ki, əgər uşaq qəbul olarsa ala cəngəni qurban kəsər. Uşaq şəhərə çatır və şəhərin sıxlığı ona ağır gəlir və deyir ki, qara şişqa cəngəni qurban kəsərəm inistuta girməyim. Uşaq kəsilir. Ata və oğul evə gəlirlər. Ata çox pərt olur. Oğul isə qara şışqa cəngəni gətirib kəsir... Ata bundan xəbər tutur, əsəbləşir. Oğul deyir ki, sənin nəzirin qəbul olmadı, mənimki oldu. Mən də ona görə qurban kəsdim.

## 4. Bakıyacan qaçacaq

Bu kəndlərin birində bir loti Həsən olub. Moskva şəhərində qulluğ elermiş. Əsgər imiş. Bir gün nə üçünsə komandir

ona der ki, “malçi”. Belə deyəndə lotu Həsən urusiyyətdən bilməzdi, sözü başqa sayaq başa düşey dey mən “malçi” doyləm “qoyunçiyəm”. Doğrudan da, dədə-babadan bulər qoyinçi olub-lar. Sora buni başa saliblər ki, komandir der, malçi, yəni kəs səsinü, çox danışma.

Bir gün də komandir Loti Həsənə der ki, “beqom”. Bu, genə başa düşmer. Odi ki, genə tərcüməçi başa salır ki, komandir dey qaç. Loti Həsən tüpürdü dabanə. Qaçhaqaç dayanmaq bilməy. Dalısiycən atdi saleylər qaytareylər. Derlər, hara qaçeysən, zalim oğlu, bu qədər? Der, komandir əmr verib, saxlamasoz, düz Bakiyəcən qaçaceydim.

## 5. Bəxt bizdə hardeydi

Bir gün Tairxan adində bir həmyerlimiz özünü sığortalat-dırır, kağazi aparır verir arvada. Arvad der ki, nə kağızıdı? Der ki, bu sığorta kağızı da mən öləndə sənə 25000 pul verecek dövlət. Qayadir arvad der ki, o bəxt hardeydi.

## 6. Aşıq Şikarla bağlı lətifə

Günlələrin bir günündə Aşıq Şikarın iti ölür. Kəndin ca-vanları məsləhətləşirlər ki, ələ salmaq niyyətilə gedib Şikarə başsağlığı versinlər. Lakin kəndin ağsaqqallarından biri onları bu işdən çəkindirmək üçün deyir:

- Ay cavanlar, gəlin bu fikri başınızdan çıxarın. Şikar sizi pərt edər.

Cavanlar onun sözünə baxmırlar, yığılıb gedirlər. Şikar necə lazımdırsa onları qarşılayır. Qonaqlar yeyib-içdikdən sonra qayıdırlar ki, Şikar əmi, elə dünya belədir, bu gün bu tərəfə, sabah o tərəfə. Təki öz canın sağ olsun.

Aşıq Şakir məsələni başa düşüb:

- A bala, sizin ölənlərinizdən artıq deyil ki.

- Cavanlar pərt olub geri qayıdırlar

### 7. Dayçalı dəmir at

Kəndimizdə bir usta olur. Der günlərin biri günü qonşu kəndərin birində işdərdim. Yanımda bir nəfər də köməkçim vardı. Birdən dedi, dayı ey, dayi, bizim kənd haqqında çox danışırlar, görən mənim haqqımda da bir şey danışan olmayıb? Der, dedim, sənin haqqında diyə bilmərəm, bizim kənddən bir nəfər cavan oğlan minib bir dəmir kəhərə. Gəlhagəl-gəlhagəl "Şəfəqli kəndinə" mağazanın yanına çatanda Şəfəqlinin cavanları bunu dolamaqçun deyiblər ki, ay oğlan, ata minib gedirsən, dayça qalıb dalda. Oğlan özünü elə unudur ki, bunların bir atdarı varmış dalı dayçalı, elə bilir mindiyi həmin öz atlarıdı, doğurdan da dayça dalda qalıb, dolandığını başa düşmür, qanrılıb dala qışqırır " kro-kro". Cavannar da başdiyillər gülüşməyə. Oğlan baxır görür bunu doliyiblər der ey, mənə bax, gör ey mindiyim erkəy atdı, dalınca dayça səsdiyirəm.

Ustanın köməkçisi der, ay usta, mən elə bilirdim camaat mənnən heç nə danışmır o kəhər ata minən mən özüm olmuşam.

### 8. Mənə verərsən

Bir dəfə kəndə təzə traktor gələndə bir qoca kişi görür ki, traktor əməlli-başlı yeri qazır, sonra yer əkir, yer şumluyur. Traxtiristi saxlatdırır der bala, bu nə yeyir, nə içir?

Derlər heç nə. Der bə bu yeri nətər şumluyur, əkir? Acsusuz belə bu yeri cırıb-dağıdır? Der hə!

Kişi der, bala, başuva dönüm, onun nübar balasını mənə verərsən.

### 9. Bilməzdim

Birinin evinə bir eşşəyli qonaq gəlir. Gecə qalır. Sabahısı ev yiyəsi deyir, qardaş, icazə ver, bir az otum-ələfim var, eşşəynən daşıyım yığım həyətə. Kişi razılıq verir. Ev yiyəsi eşşəyi

götürüb dərədə-təpədə nə qədər oti-odini varmış hamısını daşiyib gətirir yığır həyətə. Axşam qonax gəlir der necə oldu eşşək sənə yaradımı?

- Der başuva dönüm, qohum, eşşəgin bu gün mənə dədəlik eləyib. Bütün ot-ələfimi, odunimi çəkib gətirib. Yoxsa mən bir belə işin öhdəsinnən gələ bilməzdim.

## 10. Gözün götürmür

İki kişi dəyirmançı işdiyirmiş. Prokurorluğa xəbər çatır ki, bu kişilərdən biri oğurluq eliyir. Prokuror o vaxt maşın olmadığından ata minir gedir həmin dəyirmana. Kişi ilə görüşür. Dəyirmançı onuynan danışan adamın kimliyini soruşur.

Prokuror der ki, mən bu rayonun prokuroruyam. Dəyirmançı der, başuva dönüm, xoş gəlmisən, həmişə sən gələsən. Dəyirmançı xəbər alır der nə işdi belə, xeyir ola, təşrif gətirmisən? Prokuror der, mən dəyirmani yoxlamağa gəlmişəm, sən burda oğurluq eləyirsən.

Der, bala, nə oğurluq, mən sənin prokroruğunan fəxr elerem, sənin gözün mənim dəyirmançılığımı da götürmür, yoxlama aparırsan?

## 11. Mollanın oğurluğu

Günlərin bir günü Hüseyn adında bir kişi kəndin mollasınnan xəbər aldı, molla, namaz qılan adam oğurluq eliyər, ya yox?

Molla der, əstəğfürüllah, küfr danışma, namaz qılan oğurluq eləməz.

Bu Hüseyn kişi yaxşı savadlı adam idi, qurannan, şəriətdən, namazdan doğru-dürüst başı çıxırdı. Dedi:

- Molla, onda zəhmət olmasa, sən namaz qılan adamsan, namazun qıl görüm oğurluq eləyirsən ya yox.

Molla namazın qıldı. Hüseyn baxdı gördü ki, molla bütün sözdəri təhrif elədi. Odu ki, dedi:

- Molla, bağışda, bu namaznan da oğurluq eləmək olar.

## 12. Çıxa bilməz

Bir kişi uşağiynən cüt əkirmiş. Qonşular da onlardan bir az aralı əkillərmiş. Uşaq deyir, ay dədə, olar bizdən çox əkib. Gəl biz də tez-tez işləyək olarə çatək. Ata deyir: ay oğul, mən qoca, sən də uşax, olar əlbəttə bizdən çox əkəcək. Bir azdan yemək gətirillər. Yeyəndə uşağ görür bunlar o qonşulardan çox yeyillər. Deyir, ata, necə olur ki, biz işləyəndə olardan az iş görürük, amma yeyəndə onnardan çox yeyirik. Kişi deyir oğul, biz çox yeməliyik, mən aslan, sən də aslan balası bizim qabağımıza onnar çıxa bilməz.

## 13. İki lotu

Tülkünən canavar gəleydi, gördülər bir kişi xışi asıb, kücacağini, kürəgi də qoyub yaninə özü iki öküznən cüt əkey. Tülki canavara dedi gəl bunun bu şeylərin əğirliyək. Raziləşdilər. Tülki canavarə dedi sən xışılat götüreysən, yoxsa həngəhəngəculani? Tülki çox bilmiş idi. Canavara dedi xışxışalatinü götüreyəm, həngəculani ağirdu. Tülki xışçubiği götürdü, kücmaği, kürəyi gətirdi yığdı ağzinə. Canavar getdi xışi götürsün bu yandan qovzadi o yandən düşdi, o yandan qovzadi bu yandən düşdi. Bacarmadi götürə bilmədi. Bu yandaxi iki lotu gəleydi. Gördülər bir kişi cüt əkey. Öz yoldaşinə dedi də bunun öküzünün birin oğurluyarduq. O biri loti dedi necə oğirliyək. Bu birisi cavab verdi ki, mən götürüm dümbəki başliyim çala-çala ona tərəf getməyə. O mənim gəlməyimi görüb öküzdəri burəxər mənə səmtə gələr, sən də öküzün birin açıb gedərsən meşəyə. Elə də elədilər, loti gətirdi dümbəgi başdadi çalib oximağa “mən bu işə mat qalmışam, mən bu işə mat qalmişəm.” – deyə-deyə cütcüyə tərəf hərəkət elədi, cütcü də öküzdərə “ho” deyib buna tərəf gəldi başdadi tamaşə eləməgə. O yandən də o birisi loti gəldi öküzin birin aparib meşəyə girdi. Cütcünün də gözü qalib bu biri dümbək vuran lotidə. Cütci lotiyə üz tutub dedi.

Nədi elə bayaqdan başqa sözün yoxdu oxuyasan elə bir söz bilirsən “mən bu işə mat qalmışam”, axı de görüm, o hansı işdir ki, sən mat qalmisən, sən tək öküznən necə cüt əkeysən? Bir öküznən cüt əkmək olar? Cütci qəyitdi baxdi gördi ki, öküzin biri yoxdu.

Öz-özünə mətəl qaldi ki, bu nə olan işdi, bayaq axı ikisi də burda idi. Bəli, tülkiynən qurd biləşdi cütcüdən bir şey apara bilmədi, amma iki loti görün nələr elədi?

## 14. İmamın xeyri

Bir bastançi vardi, əlində də bir lapakəsi. Gecə-gündüz yalvareydi, ay Allah, bircə imami göreydim. Hər gün arzula-yeydi. Bir gün imam gəldi gərikdi bunin gözünə. Dedi, əşi, məni hər gün arzuleysən, nə isteysən mənə de. Kişi inanmadi. Dedi, əgəm sən imamsan, onda mənim bu lapatkəm olsun bir kürək. İmam da yox oldu. Kişiyə bu çox qəribə gəldi. Dedi, mən arzu-ladım ki, imam gəlsin. İmam gəldi otuz kəpiklik lapatkəmi elədi on köpüklük kürək.

## 15. Hökumətnən hökumətlik etmək olmaz

Arvadlar həmişə Qəmbərə sataşarmışlar. Bir gün Qəmbər rayon mərkəzindən qayıdanda ona söz atırlar:

- Qəmbər, rayonda nə var, nə yox?

Qəmbər kefikök dillənir:

- Danışırlar ki, hökumət bir kişiyə beş arvad almağa icazə verib.

Arvadlar qışqırırlar:

- Külü qoyum elə hökumətin başına.

Səhərisi Qəmbər yenə də rayon mərkəzindən gələndə arvadlar düşürlər üstünə:

- Qəmbər, rayonda nə var, nə yox?

Qəmbər yavaşca yerə oturur:

- Deyirlər ki, hökumət bu axşam hər arvada beş kişiyə ərə getməyə icazə verib.

Arvadlar yenə də qışqırışırlar:

- A kişi, hökumət olar belə. Hökumətnən hökumətlik etmək olmaz.

## 16. Nehrənin andını verme

Cerimbelli İman kişi həmişə hirslənəndə evdəki qab-qacağı sındırarmış. Bir gün yenə hirslənib taxçaya tərəf cumanda arvadı qabağını kəsib qoymur. Birdən kişinin gözləri küncdə qoyulmuş nehrəyə sataşır. Onun niyyətini tez başa düşən arvad istəyir ki, yalvarıb kişini fikrindən daşındırsın. İman kişinin ağzı açılır:

- Arvad, nə deyirsən, de, təkcə nehrənin adını vermə.

## 17. Sənin işin düzəlib, qardaş

Santexnik işləyəndə Şəfəqli Mirməhəmməd bir nəfərdən əlli manat pul borc alır. Verdiyi vədə tamam olanda borc yiyəsi pulunu istəyir. Miri onu birtəhər dilə tutub boş yola salır. Lakin borc yiyəsi Miriyə göz verir, işıq vermir, hər gün kino başlanan vaxtı gəlib başının üstünü kəsdirir, adamlarına Miridən şikayət edir. Onu sakitləşdirmək üçün Miri bilmir nə etsin, axır bir bəhanə fikirləşib tapır. Bir gün yenə borc yiyəsi gələndə gülə-gülə qabağına çıxır:

- Bilirsən də, hökumət canavar dərisini əlli manata götürür. Uşaqlara tapşırmışam, canavar axtarırlar, vuran kimi təhvil verib pulunu alacam, sənin də borcunu qaytaracam.

Borc yiyəsini gülmək tutur, ona baxıb Miri də gülür:

- İşin düzəlib deyə, gülürsən ha.

## 18. Məsləhət

Dükanda işləyəndə Qəmbər kişinin acığı gedən birisi gözü-başı sarınmış halda alver eləməyə gəlir. Qəmbər kişi soruşur:

- A kişi, bu nədir, baş-gözünü niyə sarıyıbsan?

Müştəri zarıyır:

- Ay Qəmbər, sağ gözüm öldürür məni, bu gecə səhərəcən yatmamışam.

Qəmbər kişi əlini onun çiyninə qoyur:

- Rəhmətliyin oğlu, az qala, ürəyimi üzmüşdün. Mən də deyirəm, nə olub görəsən?! Bundan asan nə var ki? Srağagün mənim də dişlərimdən biri ağrıyırdı, çəkdirdim getdi.

## 19. Nə vaxt ölüb?

İş yoldaşı Arif həkimə yaxınlaşır:

- Doktor, həmkarımızın yetmiş illik yubileyinə gedəcəksiniz?

Arif həkim təəccüblə onun üzünə baxır:

- Ölüb?

## 20. Belə hava ələ düşməz

Qış vaxtı olmasına baxmayaraq havaların yaxşı keçdiyi günlərin birində cerinbelli Əminağanın doxsan yaşlı anası bərk xəstələnir. Diqqəti çəkmək üçün tez-tez “Yox, daha ölürəm” ifadəsini işlədir.

Anası ilə həmişə zarafat edən Əminağa bu dəfə də xasiyyətindən qalmır:

- Ay nənə, qışda bizdə belə hava ola bilməz, qar-zad yağsa bizi zibilə salarsan, ölürsənsə indi öl.

## 21. Çerez Axan şot Musa

Sovetlər vaxtı dörd dağüzlü bir restorana gedir. Yeyib-içəndən sonra dostlar özünü rus dilini bilən kimi qələmə verən Axana deyirlər ki, ofisiantı çağırıb haqq-hesabı elətdirsin.

Axan özünü yerə vurmur. Hiylənin Musa tərəfindən qurulduğunu bildiyi üçün stolun haqq-hesabını ona ödətdirmək qərarına gəlir. Ofisiantı çağırıb əl-qolu ilə başa sala-sala deyir:

- Devuşka, çerez Axan şot Musa.

## 22. Pravanı sənə verincə elə aparıb QAİ-yə verərəm

Cerinbelli Qəmbər kişinin ekiz oğlanları Nəsiblə Nəcibi bir-birindən ayırmaq çətindir. Əkizlərin ikisi də sürücüdür. Bir dəfə Bakıdan rayon təhsil şöbəsi üçün inventar gətirən Nəsibin yol hərəkəti qaydalarını pozduğu üçün müfəttişlər tutub sürücülük vəsiqəsini alırlar.

Gələn dəfə idarədən yenə Bakıya yük dalınca göndəriləndə Nəsibin yadına düşür ki, sürücülük vəsiqəsi yoxdur, müvəqqəti istifadə üçün verilən sənədin də ki, vaxtı keçib. Yadına düşür ki, qardaşı Nəcibin sürücülük vəsiqəsini alıb götürsün. Qardaşının sürücülükdə hələ naşı olduğunu bilən Nəcib deyir:

- Pravanı sənə verincə elə aparıb QAİ-yə verərəm də.

## 23. Onda bəs Amerika hardadır?

Gilarlı Məcid kişinin oğlu Aqil hərbi xidmətdən qayıdır. Bir gün dostlarını başına yığıb əsgərlik həyatından, başına gələn maraqlı əhvalatlardan danışmağa başlayır. Yaxın qonşusu Əzizağa rus qızları ilə maraqlanır. Aqil dərhal cavab verir:

- Əzi, qardaş, Murmanskda bir təpə vardı, təpənin o üzündə Amerika kəndləri. Qızlar, nə qızlar...

Əzizağa təəccüblənir:

- Ə, Murmansk hara, Amerika hara?

Aqil də özünü itirmir:

- Yaxşı, bəs onda Amerika hardadır?

## 24. Bu çaynik mənə çatır

Cerinbelli bir kişi bir dəfə Dərnəgüldəki çayxanaların birinə həmkəndliləri ilə çay içməyə gedir. Durmaq vaxtı gələndə çayçını çağırıb bir çaynik çay üçün nə qədər ödəyəcəyini soruşur. Acgöz çayçı 10 qəpik əvəzinə bir manat deyir. Pulu verib gedəndə cerinbelli çayxananın çaynikini də özü ilə götürür. Çayçı qışqırır:

- A kişi, çayniki hara aparırsan?

Cerinbelli deyir:

- Sən çayın yox, çaynikin pulunu çıxmısan, ona görə də bu çaynik mənə çatır.

## 25. Onda gərək hamı ölsün

Cavan usta eşidir ki, yaşlı usta xəstələnib. Zəng edib onun kefini xəbər alır:

- Ay usta, nə təhərsən?

Yaşlı usta cavab verir ki, soruşma, qardaş, ölürəm.

- Ay usta, elə demə, qoy səni istəməyənlər ölsün.

Yaşlı usta deyir:

- Deyirsən, bütün kənddəkilər qırılsınlar?!

## 26. İpin ucu hələ əlimizdədir

Cerinbelli Eli kişinin qızı Gülzara elçi gəlir. Şirin süfrə açılır. Sonra toy xərci haqqında kəsmət başlayır. Qız evinin ağsaqqalı deyir:

- İki kisə düyü.

Oğlan evinin ağsaqqalı deyir:

- Birini çıx.
- Çıxdım. Əlli kiloqram qənd.
- İyirmi beşini çıx.
- Çıxdım. Səksən kiloqram mal əti.

Belə-belə, ağsaqqalların hər şeyin yarısını çıxdıqlarını görən Eli kişinin arvadı dözə bilmir:

- Ay kişi, daha bizə nə qaldı?

Eli kişi tövrünü pozmur:

- İpin ucu əlimizdədir, bizə də qaldı Gülzar.

## 27. Sən getmirsən, mən göndərirəm

Cerinbelli Eli kişi nəvəsini Mamulğana yük dalınca göndərmək istəyir. Nəvəsi deyir:

- Mən getmirəm.

Eli kişi sakitcə demisini tüstüləndirir:

- Sən getmirsən, bala, mən göndərirəm.

## 28. Mən vərdişimi poza bilmərəm

Yardımlıda Adı kişi kiçik qəsəbədə sərrast cavabları ilə tanınırmış. Çox asta yerişi varmış. Bir gün bərk yağış yağırmış. Həmyerliləri görürlər ki, bərk islanmasına baxmayaraq Adı kişi küçədə yavaş-yavaş gedir. Birisi deyir:

- Adı əmi, görmürsən, göydən necə leysan tökür?! Bir az sürətini artırsana.

Adı kişi sakitcə deyir:

- Bir leysandan ötrü mən əlli illik vərdişimi poza bilmərəm.

## 29. Bu gün ayın neçəsidir

Birisi cerinbelli Qəmbər kişidən soruşur:

- Qəmbər əmi, bu gün ayın neçəsidir?

Qəmbər kişi deyir:

- Vallah, dünən ayın on səkkizi idi, bu gün neçəsidir, deyə bilmərəm.

### 30. Məsləhət

Daşkəndli Tairxan kişi mağazada işləyərkən gətirdiyi unun keyfiyyətsizliyindən şikayətlənirlər:

- Ay Tairxan, unun kündəsi təndirdə qalmır, axıb gedir.

Tairxan kişi tez-tələsik cavab verir:

- Hökumətdə günah yoxdur, günahın hamısı sizdədir. Təndirlərinizi dikinə yox, köndələninə qoysanız, kündəniz də kütə getməz.

### 31. Hamını razı salmaq çətin məsələdir

Qəmbər kişi qonşu kəndlərin birində dükanda işləyərkən dostlarından biri ona söz atır:

- Ay Qəmbər, barı bu kəndin arvadları səndən razıdır?

Qəmbər daşın haraya atıldığını bilir:

- Ay səni sağ olmuş, razı olanı da var, olmayanı da. Hamını razı salmaq çətin məsələdir.

### 32. Deyirsən danalarım da ölsün?

Aşura günü Cerinbeldə bir seyid nohə deyib məclisdəkiləri ağlatmağa çalışır. Özü də bərkdən ağlayır. Həmişə seyidə, mollalara sataşanlardan biri deyir:

- Ə, vallah, bu seyid imam üçün ağlamır, mallarının yemi yoxdur, onun üçün ağlayır.

Seyid bunu eşidir:

- Ə, babalarım ölüb, deyirsən ki, danalarım da ölsün?!

### 33. Gedəm-görəm

Bir sivdaşlının danası itir. Çox axtardıqdan sonra dananın leşini tapır. Kor-peşman evə qayıdarkən arvadının yaxıq sifəti gözləri önündə canlanır. Özünə ürək-dirək verməyə başlayır:

- Ay Allah, gedəm görəm, ala dana mıxa bağlanıb, arvad da inəyi sağıb qurtarıb.

## 34. Bədəni jaketə çıxdı

Həkim İdris Şabıyev qocaman həmkarı ilə Bakı mehmanxanalarından birində gecələməli olur. yatmaq vaxtı gələndə həmkarının üst paltarını soyunmamasına maraqla tamaşa edir. Həmkarı kostyumunu çıxarandan sonra üst-üstə geyindiyi jaketləri soyunmağa başlayır. Üçüncü jaketi stolun üstünə qoyub dördüncüyə əl atanda İdris həkim daha dözə bilmir:

- Doxtur, amandı, daha bəsdi. Belə getsə, deyəsən, sənin bədənində jaketdən başqa heç nə qalmayacaq, qorxuram bədənin də jaketə çıxa.

## 35. Taxta-şalban çıxmayacaq ki?

Daşkəndli Tahirxan yeməkxanada işləyəndə müştərilərdən birinin qabından kiçik bir çöp çıxır.

Müştəri Tahirxanı çağırır:

- Bax gör, xörəyin içindən nə çıxır?!

- Yerri, 30 qəpiklik borşun içindən çöp çıxar da, deyirsən, taxta-şalban çıxsın, aparıb ev tikəsən?

## 36. Dədəmin böyük oğlu

Bir müəllim çayüzülü Bilal Cəbiyevə sual verir:

- Bilal əmi, Alıbəy sənin qardaşındır?

Bilal onun üzünə baxmadan cavab verir:

- Yox, dədəmin böyük oğludur.

## 37. Dədə vay ondan sonradı

Bir sivdaşlının danası itir. Başlayır fit çala-çala axtarmağa. Dərələrin birində həmkəndlisi qabağına çıxır:

- Qardaş, nə axtarırsan?
- Dünən gecə danam örüşdən qayıtmayıb, onu gəzirəm.
Həmkəndlisi təəccüblənir:
- Dünəndən dana itib, sən də fit çala-çala axtarırsan?
Sivdaşlı doluxsunur:
- Day demə, qardaş, qabaqdakı dərədə şəkkim var, orada oldu-oldu, olmasa, dədə vaya baxarsan.

## 38. Hünərin oleydi, danışeydin

Mərdalı xəstə yatırmış, Rəhim onun kefini öyrənmək üçün zəng edir. Telefona nəzarət edən Qəmbər onu dolayır. Rəhim soruşur:
- Haradı?
Qəmbər deyir:
- Çayüzü.
Rəhim deyir:
- Yardımlını ver.
Rəhim sonra xəstəxananı istəyir. Qəmbər deyəndə ki, xəstəxanadı, Rəhim deyir ki, Mərdalını ver. O biri otaqda özünü saxlaya bilməyən Qəmbər pıqqıldayır. Rəhim başa düşür ki, Qəmbər onu dolayırmış. Gileylənir. Qəmbər ona deyir:
- Haranı istədin, verdim, hünərin vardı, danışeydin."

## 39. O qədər savadsızsan

Yardımlıda biri iki institut bitirir, döşündə iki nişan gəzdirir. Anası soruşur:
- Bala, o ikinci nişan nə üçündür.
Oğlu deyir:
- Ana, mən iki institut bitirmişəm, bu da ikinci institutun nişanıdı.
Anası deyir:
- Bala, başıma xeyir, o qədər savadsızsan ki, sənə bir institut bəs eləmədi?

## 40. Day sözüm yoxdu

Cerinbelli Axund Məcid ali dini təhsil alıb qayıdandan sonra adamlar ziyarətinə gəlirlər. Gələnlərin arasında qonşu kənddən də biri olur. Söhbət zamanı Axundun biliyini yoxlamaq istəyən qonşu kəndli soruşur:

- Axund, əgər əsl alimsənsə, de görüm, mən bura gələndə nə yemişəm?

Axund Məcid əvvəlcə təəccüblənir. Sonra baxıb görür ki, qonağın yaxasında qatıq ləkəsi var. Qımışır:

- Olmasaydı ağzın bu qədər yırtıq,
Dağılmazdı yaxana o qədər qatıq.

"Qatıq" sözünü eşidən qonşu kəndli əlini əlinə çırpır:

- Day sənə sözüm yoxdu, alimsən ki, alim.

## 41. Amandı, qoyma asfalta çıxsın

İki sivdaşlı Bakıya gedirmiş. Yolda avtobus xarab olur. biri baxıb görür ki, qıç-qıça bağladığı toyuqlardan birinin ipi açılıb. İstəyir ki, götürüb qışlarını yenidən bağlasın, toyuq əlindən çıxıb meşəyə tərəf qaçır. Dostu tez qışqırır:

- Aya, qoyma asfalta çıxsın, asfalta çıxsa, day çatmaq olmaz.

## 42. Daje yayitsa ne znaet

Sovet ordusu sıralarından tərxis olunan bir sivdaşlı gənc özünü elə göstərir ki, guya iki ildə ana dilini tamam unudub:

- Mama, pajaluyusta, moe yayitsa pojari.

Anası çaşıb qalır. Fikirləşir ki, oğlu yol gəlib yorulub, yəqin yatmaq istəyir. Tez onun üçün yer salır. Oğlan hirslənir:

- Mama, yatmaq yok, yayitsa, yayitsa...

Arvad bu dəfə gedib aftova-ləyən gətirir ki, bəlkə ayaqlarını yumaq istəyir. Oğlan yenə hirslənir:

- Mama, ni aftova, a yayitsa. Neujeli, ti ne ponimayeş?

Yazıq arvad fikirləşir ki, yəqin uşağın başına hava gəlib. Tez qaçır məktəbə, müəllimlərdən birini görüb evə gətirir. Müəllimi görən gənc deyir:

- Çto takoy narod, daje yayitsa ne znaet. Ya skazal, mama, mne yayitsa pojari, ona avtova-ləyən prinisyot.

Müəllim başını bulayır:

- İki yumurta qayğanaq elə, qoy yesin.

## 43. Mənnən yaxşı çuşka?

Sədrəddinlə Bədrəddin Bakıya gedir. Bədrəddin rus dilini bilmədiyi üçün Sədrəddindən əl çəkmir.

Dostlar bir gün restorana gedirlər. onlara döşü-başı açıq, mini yubkalı bir ofisiant qız qulluq edir. Ofisiant qız onların oturduqları stola yaxınlaşanda Bədrəddin, az qalır, qızın gözünə girsin. Ofisiant qız Bədrəddinə “çuşka” deyir. Bu sözün mənasını başa düşməyən Bədrəddin Sədrəddindən soruşur:

- Deyir ki, mənə çuşka kimi bir oğlan lazımdı.

Bədrəddin incimiş halda dostuna baxır:

- Ə, onu başa sal ki, mənnən yaxşı çuşka?!

## 44. Cəddimi naqruzkaya salma

Zarafatcıl bir seyid xaltura edən UAZ sürücüsünə onu Pornayım tərəfə aparmağı xahiş edir. Seyiddən yaxşı pul qoparacağını fikirləşən sürücü maşının nasazlığına baxmayaraq razılaşır. Palçıqlı bir dərədən keçəndə maşın batır. Əlacı kəsilən sürücü seyidə tərəf dönür:

- Ağa, cəddini çağır, qoy maşın çıxsın.

Seyid qapını açıb düşə-düşə gülür:

- A bala, o maşın buradan çıxan deyil, yalannan mənim cəddimi naqruzkaya salma.

## 45. Başa düşsəydi, eşşək olmazdı

Birinci katib maşınla Cerinbelə gedəndə görür ki, Qəmbər yolun kənarındakı otluqda oturub, bir az aralıqda isə eşşəyi zəmiyə girib. Sürücünün "Bu, Qəmbərdir" deməsinə baxmayaraq, maşını saxlatdırır:

- A kişi, saçın-saqqalın ağarıb, bilmirsən, zəmini otarmaq olmaz?!

- Niyə bilmirəm, yoldaş katib? – Qəmbər tez dillənir.

- Bəs bu nədir? – deyə katib əlilə eşşəyi göstərir.

- Eşşəkdir də, yoldaş katib, başa düşsəydi, day ona eşşək niyə deyirdilər?!

## 46. Şotu kim verib, qoy o danışsın

İki bozayranlı dost qəsəbədəki yeməkxanalardan birində yeyib-içirlər. Kəndə gedəndə onlardan biri dil boğaza qoymur, gah dağdan danışır, gah arandan. O birisi dözmür:

- Qardaş, bir az dayan, qoy görüm şotu kim verib?!

Heç nə başa düşməyən dostu çiyinlərini çəkir:

- Əlbəttə, sən.

- Onda sən sus. Şotu kim verib, qoy o danışsın.

## 47. Adi nə? – Adinə

Kənddən xeyli aralı, sərhəd tellərinin ətrafında heyvan axtaran pornayimli Adinə zastavanın rəisi üz-üzə gəlir. Rusca heç nə başa düşməyən nabələd qocadan rəis bir-iki kəlmə öyrəndiyi azərbaycan sözlərini sındıra-sındıra soruşur:

- Sənin adın nədi:

- Mənim adım Adinədi.

Rəis yenidən təkrarlayır:

- Adin nə?

- Adinə.

Eyni sorğu-sual xeyli davam edir:

O soruşur: “Adin nə?”, bu cavab verir: “Adinə”. O deyir: “Adin nədi? Bu deyir “Adinədi”...

Möhkəm hirslənib rəis elə başa düşür ki, qoca onu ələ salır. Əlindəki qırmancla Adinə kişinin baş-gözünü budamağa başlayır. Qırmancı hər dəfə onun başına endirdikcə hirsli-hirsli xəbər alır:

- Adin nədi?.. Adin nədi?

Əlləri ilə başını qorumağa çalışan qoca hər zərbə dəydikcə bağırır və atılıb düşə-düşə:

- Adım mənim Adinədir. Adım mənim Adinədi, -deyərək adamları haraya çağırır.

Hay-küyə gələnlər nə baş verdiyini aydınlaşdırmaq üçün əvvəlcə qocaya üz tuturlar. Qoca ufuldaya-ufuldaya göyərmiş yerlərini gələnlərə göstərib deyir:

- Ay başınıza dönüm, bu kafər məndən xəbər aldı ki, adın nədir, mən də deyirəm, adım mənim Adinədir. Başlayır məni qırmaclamağa. İndi siz deyin, mənim təqsirim nədir?

Rəisdən soruşanda ki, bəs sən niyə qocanı belə hala salıbsan, qayıdıb deyir ki, mən ondan öz dilində adını soruşuram, bu axmaq da məni yamsılaya-yamsılaya deyir: Adın nədi, adın nədi...”

## 48. Danışan yoldaş Bağırovdur!

Müharibə vaxtı vərgədüzlü Ağalar kişi kolxozda briqadir işləyirmiş. Bir gün o, sahəyə çıxdığı vaxt görür ki, qoca, uşaq, bir sözlə, müharibədə əziyyət çəkən ac, çılpaq adamların hamısı kolxozun tarlasındakı taxılı daşıyıb evlərinə aparır. Ağalar kişi nə qədər eləyirsə, heç kəsi sahədən çıxara bilmir. Axır məcbur olub kənddəki telefonla birbaşa rayon başçısı Sadiq Məmmədzadəyə zəng vurur. Dəstəyi onun katibəsi götürür. Ağalar kişi telefonda qızdan xahiş edir ki, onu tezliklə raykom katibi ilə calaşdırsın.

Telefonda Məmmedzadənin səsi cingildəyir:

- Allo, kto qovorit? Sluşayu!

Hirsi hələ soyumayan Ağalar kişi qeyri-adi, özündən aslı olmayacaq bir tərzdə, həm də rus dilində də cavab qaytararaq gur bir səslə telefonda qışqırır:

- Svami tavariş Baqirov qavarit!

Bir ara dəstəkdən səs gəlmir. Sonra bayaqkı ötkəm, gur səs həyəcanlı və titrək bir səslə əvəz olunur:

- Tavariş Baqirov, sluşayu.

Aydın olanda ki, danışan respublikanın başçısı Mir Cəfər Bağırov yox, vərgəduzlu briqadir Ağalar Bagırovdur, raykom katibi Sadiq Məmmədzadə handan-hana özünə gələrək deyir:

- Allah sənin evini yıxsın. Buğda cəhənnəm. Adə, zalım oğlu, sən məndə ürək-göbək qoymadın ki!..

## 49. Kəndə katib gəlib

Bərkədüzün sayıb-seçilən şəxslərindən olan Duman kişi bir gün evdə oturub istirahət elədiyi vaxt qardaşı qızı onlara gəlib borc çörək aparır: "Qonağımız var ona görə lazımdır". Soruşurlar ki, kimdir qonaq. Qız deyir:

- Katib.

- Katibin adı çəkilən kimi ər-arvad - hər ikisi ayağa durur ki, bu necə ola bilər, başqa yerdən Vərgədüzə gələn bütün bütün hörmətli qonaqlar, elə lap bu katibin özü belə neçə dəfə bizə gələrdi. Bəs, indi, görəsən, daha nə olub ki, rayon başçısı bizə yox, qardaşımgilə düşür.

Duman kişi şəkk-şübhə içində durub qardaşıgilə tərəf gedir. Həyətə çatanda görür ki, qardaşı ilə qonşu kənddə yaşayan Katib adlı traktorçu ağacın altında oturub ayran aşı içirlər.

## 50. Hacı, su buyur

Gəncliyində Oruc Moranlı bir müddət şəhərdə fəhləlik edir. Təzə-təzə işlədiyi vaxtlarda bir gecə yarısı yuxudan oyanıb

su içmək üçün ayağa durur. Stəkanı su ilə doldurub başına çəkəndə fikirləşir ki, bura axı kənd deyil, şəhər yeridir. Gərək adam mədəni olsun.

Bu məqsədlə o, yanındakı çarpayıda uzanmış nisbətən yaşlı sayılan muğanlı Hacı kişini səsləyir:

- Hacı kişi, hacı kişi!

Şirin yuxuda məsti-xumar olan Hacı kişi gözlərini açmadan “hmmm-m” eliyib cavab verir.

- Hacı əmi, Hacı əmi, - deyə Oruc dürtmələyib güclə yuxudan oyatdığı Hacı kişinin qolundan yapışaraq ayağa qaldırır.

- Nə deyirsən, bala? Nə hadisə baş verib? – gözlərini ovuşdura-ovuşdura Hacı kişi ondan soruşur.

- Su içmək istəyirdim, dedim bəlkə Sizin də meylinizdən keçə. Oyatdımki su buyurun.

Hacı kişi əvvəlcə bir söz demir. Dönüb divardan asılmış fosforlu saatın rəqəmlərini nəzərdən keçirir. Görür ki, gecə saat ikini çoxdan ötüb. Qayıdır Oruca asta və təmkinli bir səslə bildirir:

- Sağ ol ki, məni yuxudan oyadıb su buyurursan, bu əla. Ancaq, öz aramızdır, bir şeyi düz elməyibsən, ha!

- Nəyi, Hacı əmi? -əlində su dolu qabı hazır tutmuş Oruc cəld dillənir.

- Rəhmətlik babanı deyirəm. Gərək əvvəlcə onu dirildib su buyurardın, sonra da məni. Çünki növbə onunki idi, -deyə yuxudan kal oyanmış Hacı kişi yorğanı başına çəkib yerinə uzanır.

## 51. Uje meyid qatov!

Oruc ordudan təzəcə gəldiyi günlərdə qoca nənəsi rəhmətə gedir. Molla cənazə üstündə lazım olan dini ayinləri tamamlayıb ayağa durur, yanında hazır dayanmış Oruca başa salır ki, atana xəbər eylə, qoy gəlib meyiti evdən qaldırsınlar.

Oruc cəld eyvana çıxır. Həyətdə dəfn işlərinə başı qarışmış atasını ucadan səsləyib çağırır:

- Papa, papa. Uje meyit qatov!

## 52. Küsməklik var, bələ də yox

Orucun cavanlıq vaxtlarında arada bir heç nədən möhkəm bir küsməyi də varmış. Bir dəfə necə olursa hətta bütöv el-obadan inciyib, acığından qonşu Sivdaş mahalına köçüb burada yaşamağa başlayır. Təzə yurdda ona varlı bir adam əkib-becərmək üçün sahə də ayırtdırır.

Bir gün Oruc xışla yer sürürmüş. İşin axırı olduğu üçün qərara gəlir ki, gec də olsa bu gün sahəni tamamlayıb qurtarsın.

Getdikcə hava qaralır. Oruc isə öküz sürməyində olur.

Birdən arxadan elə bil Orucun pencəyindən tutub dartırlar. İki-üç yerdən möhkəm yapışdığına görə geri baxıb dönməyə də imkanı olmur. Çox dartınıb güc vursa da, pencəyini buraxmırlar. Oruc yaman dilxor olur. Fikirləşir ki, yəqin, yer sahibidir, onu əkməyə qoymur. Ha dartınır, bir şey olmur, az qalır pencəyi əynindən çıxarsın. Axır Oruc pencəkdən yapışana eşitdirmək üçün hirslə qışqırır:

- Yaxşı e, yaxşı, lazım deyil, sənin bir parça torpağın da, dəysin başına. Al, pencək də sənin olsun, mən sabah baş götürüb bu xarabadan da uzaqlaşaram, -deyə o arxadan dartılıb onsuz da az qala əynindən çıxmağa hazır olan pencəyini soyunur. Dönüb dala baxanda görür ki, pencəyini iki-üç yerdən ilişib dartan böyürtikan kollarıdır. Ancaq özünü sındırmamaq üçün:

- Sözüm sözdür, getməliyəm, - deyə öküzləri qabağına qatıb evə gəlir. Səhərisi Sivdaşdan da köçüb yaşamaq üçün başqa yerə gedir.

## 53. Əşi, heç e, dədəm ölüb

Oruc kişinin tələsik addımlarla kəndaşağı ötüb getdiyini görənlər ondan nə hadisə baş verdiyini xəbər alırlar. Oruc hüzünlü və qəmli bir səslə cavab verir:

- Əşi, heç e, dədəm ölüb. Molla gətirməyə gedirəm.

## 54. Arvad, tez elə halvanı bişir

Oruc Moranlı təzə-təzə evlənən vaxtı arvadı ilk dəfə imiş ki, halva bişirirmiş. Elə tavanı sobanın üstünə qoyub hazırlıq görmək istəyəndə, birdən yadına düşür ki, görəsən, halvaya duz atarlar, ya yox.

Tez ərindən xəbər alır. Oruc da çaşıb qalır. Çox baş sındırır, ancaq yenə də yəqinləşdirə bilmir ki, halvaya duz atarlar, ya yox. Ər-arvad qalırlar mat-məttəl, bilmirlər nə eləsinlər. Qonşudan soruşmağa da utanırlar. Bilirlər ki, hər şeyi məsxərəyə qoyan, söz oynadan qonşular gələcəkdə onlara lağ eləyər. Bir az fikirləşəndən sonra Oruc arvadına məsləhət görür ki, necə olursa-olsun qonşu qadını ilə sözləşsinlər. Bu vaxt imkan tapıb onu halvaya duz atıb-atmamağı bilməkdə təqsirləndirsinlər.

Savaşmaq üçün bəhanə lazım idi. Tava da sobanın üstündə hazır qoyulmuşdu. Vaxt keçirdi. Bəs nə eləsinlər?

Oruc nə fikirləşdisə, tez yerdən əlinə iri bir daş götürüb qonşunun evinin üstünə tulladı. Sınmış kirəmidin səsinə ev sahibi bayıra çıxıb, daşatanı söyməyə başladı:

- Qolun qurusun, ay daş atan, sındırdın kirəmidləri!

Savaşmaq üçün hazır dayanmış Orucun arvadı da bayaq bu yandan çıxıb deyir:

- Dilin lal olsun. Gör necə də kişini qarğıyır ha.

Nə isə, qadınlar arasında bərk mübahisə düşür. Bir-birini çox təhqir etdikdən sonra Orucun arvadı görür, day fürsətdir, deyir:

- Bəs sən nəsən, ay pinti-panış. Hələ bir utanmaz-uyanmaz danışmağa dili də var. Qocaldın bu yaşla da bilmədin halvaya duz atırlar, ya yox.

Qonşu qadın belə əcayib, gözlənilməz böhtandan əvvəlcə çaşıb özünü itirir. Sonra da qayıdıb Orucun arvadına deyir:

- Söz danışırsan ay hayasız, söz danış. Bu nədir. Halvaya da məgər duz atarlar?

Elə bu an tez Oruc özünü evdən bayıra tullayıb arvadların hər ikisinə acıqlanır:

- Qonşu, day bəsdir. Bizimki buracan idi. Söysən də, onsuz cavab verəsi deyilük... Arvad, sən Allah tez elə, sən də keç evə, halvanı bişir. Yoxsa, yenə yadımızdan çıxar.

## 55. Öküz cəhənnəm, keyvənd çıxdı əldən...

Orucun yük daşımaq üçün iri bir öküzü var idi. Ağır yükləri çox asanlıqla belində daşıyıb aparan öküzün palanı üstə qoymq üçün Oruc ona təzəlikcə meşə ağacından yaxşı bir keyvənd düzəltdirmişdi.

Bir gün dağ yolları ilə kəndə yük gətirən öküz qayalardan üçüb dərin bir dərənin dibinə yuvarlanır. Oruc özünü yetirəndə görür öküz də ölüb, təzə düzəltdirdiyi keyvəndin də bir qanadı qopub. Arvadı da ölmüş öküzün başı üstündə durub vay-şivən qoparır. Oruc baxır ki, arvad elə hey öküz üçün ağlayır, bircə dəfə də olsun keyvəndin adını tutmur. Bərk hirslənib arvadına deyir:

- Ay arvad, sən nə öküz-öküz deyib baş-beynimi aparırsan. Öküz cəhənnəm, keyvənd təzə idi, o çıxdı əlimizdən.

## 56. Mən evi yıxılan!

Ahıl çağında Oruc kişinin könlünə mollalıq eləmək düşür. Odur ki, hər gün axşamlar kənddəki axundun yanına gedib başlayır ondan dərs almağa. Çox sözlərə dili yatmasa da, hələlik səbrini basıb oxumağda davam edir.

Bir gün axund ona ərəbcə dini kəlmələri oxutdurub təkrarlayırmış. "La mənə filan! Kəlməsini neçə dəfə dedirsə də, Oruc kişinin dili bu sözlərə heç vəhclə yatmır ki, yatmır. Axund çox təkrarlayır, Oruc nə billah eləyirsə deyə bilmir. Axund hirslənib deyir ki, a kişi, axı burda nə var, e... Deynən, la mənə filan, la mənə filan...

Oruc kişi daha dözə bilmir. Bu yaşda mollalıq eşqinə düşməsi ona çox ağır gəlir, cəld ayağa durub, axundun söylədiyi ifadəyə uyğun yaraşdıraraq dalbadal iki dəfə deyir:

- "Mən evi yıxılmış!", "Mən evi yıxılmış!"

## 57. Su içim, ya içməyim?

Oruc Moranlı şəhərə təzə getdiyi vaxtlarda yolu bir dəfə hamama düşür. Çimib bayıra çıxanda tərli olduğu üçün möhkəm susayır. Ancaq yadına düşür ki, tərli-tərli su içmək ona ziyan ola bilər. Kənddə axı belə deyirdilər. Görəsən, şəhərin dəbi nədir? Başqa adamlardan da soruşmağa üzü gəlmir. Fikirləşir ki, eləməsin tənbəllik, elə kənddə qoyub gəldiyi anasına zəng vursun. Düzünü bilsə, elə o deyər.

Oruc çox əzab-əziyyət çəkib, nəhayət telefonda anası ilə danışır, deyir:

- Ay ana, hamamdan təzə çıxmışam. Bir az da tərliyəm. Genə sən yaxşı bilərsən, su içim, ya içməyim?

## 58. Bəs sən harda idin?

Oruc Moranlı Bakıda qaldığı illərdə qonşularından birinin arvadı şəhərdəki dəlixanada aşpaz işləyirmiş. Bir axşam televizorda şəhər dəlixanasından bəhs edən veriliş göstərirmişlər. Oruc da oturub maraqla verilişə baxır.

Səhərisi gün o, qonşu qadını ilə küçədə rastlaşıb deyir:

- Axşam televizorda dəlilər hamı meymun kimi nə oyun çıxardırdılar. Gülməkdən, az qalırdı, qarnım cırılsın. Sənin üçün də çox baxdım, ancaq görə bilmədim.

## 59. Yaxşı bə mən nə deyim?

Oruc Moranlı ilk əvvəllər başqası ilə rastlaşıb görüşəndə ancaq "salam", "əleyk-salam" sözlərini işlədər, əlavə cür salamlaşmaq qaydasını qətiyyən bilməzdi.

Bir dəfə qonşu kəndə, qohumlarıgilə gedən Orucu tanımadığı bir adam salamlayıb "sabahın xeyir olsun!" – deyir.

Oruc istəyir "əleykəsalam" desin, görür, düzgün səslənmir, istəyir "sağ ol" desin, yenə alınmır. Qayıdır kişiyə deyir:

- Yaxşı, ay əmi, indi bə mən sənə nə deyim?

## 60. Verəndə Qızıl bağında da verir

Bir kişi özünü tənbəlliyə qoyub evdən bayıra çıxmır. Arvadı nə qədər eləyirsə, kişi inada düşüb yerindən heç yerə tərpənmir. Bir müddət belə keçir. Görürlər, belə getsə, acından öləcəklər. Genə arvad qeyrətə gəlib deyir:

- A kişi, heç olmasa, evdəki o tək qoyunu qat qabağına, apar bazara, sat, pulunu gətir.

Canı-boğazına yığılan kişi naçar qalıb aclığın qorxusundan bu dəfə heç nə demir. Hıqqana-hıqqana ayağa durur. Evdə qalan sonuncu qoyunun başına bir ip kecirdir, uzaqda yerləşən bazara tərəf dartıb aparır.

Kişi elə təzəcə öz kəndlərinin altında yerləşən Qazı bağından keçirdi ki, irəlidə bir şeyin ağardağını hiss edir. Yaxınlaşıb görür ki, axşam yarğan yeriyib, nə vaxtsa burda gizlədilmiş çoxlu qızıllar da üzə çıxıb, ətrafa səpələnmişdir. Kişi cəld əyilib qızılları heybəsinə doldurur, sevinə-sevinə evlərinə qayıdır. Arvad kişisini görən kimi deyirən-deyinə xəbər alır.

-A kişi, bəs niyə qayıtdın?

- Ay arvad, mən bazarlığımı elədim? Apardığın qoyun ki yanındadır!..

- Ay arvad, belə mənimkin Allah özü yolda verdi.

- Başa düşmədim, a kişi, hələ bir mənə qandır görüm yolda Allah sənə nəyi verdi?

- Qurban olum Allaha. Ruzi verən odur. İstəyir evdə otur, istəyir dağları parçala. Fərqi yoxdur. Kefi gəlib verəndə adama hər yerdə, lap bizim elə bu kəndin altında yerləşən Qızıl bağında da verir, - deyə kişi qızılla dolu heyvəni çiynindən çıxarıb, arvadının qarşısına qoyur: - Buyur, bu da sənin bazarlığın.

## 61. Torpaq vannası

Turan Nəzərli bu gün bir maraqlı anekdot danışdı:

Bir qoca həkimə gəlib ağrıyan yerlərini sadalayır.

Həkim ona palçıq vannası məsləhət görür. Qoca cavab verir:

- Bəs niyə məhz palçıq vannası?

Həkim deyir:

- İndidən torpağa öyrəşməyiniz məsləhətdir!

## 62. Noxud və sülh

Həmişə belə məzəli əhvalatlar yazanda düsünürdüm və ürəkdən gülürdüm. Bu dəfə nə isə fikrə getdim və bir az kövrəldim. Ümumdünya sülh şurasinin müraciətini xalqa catdirmaq ücün bir raykom isçisi Yardımlı rayonunun Hamarkənd kəndinə gəlir. Çıxışını qurtardıqdan sonra nümayəndə qovluğundan bir sənəd çıxarıb, “Kim sülh istəyirsə, bu sənədə qol cəksin”, deyir. Adamlara imza atdırmaq ücün sənəd anbardara verilir, anbardar da eləmir tənbəllik, kolxozçulara veriləcək noxudun cədvəlini də sənədin böyrünə sürüşdürüb savadsız Qiyasxan kisiyə qol cəkdirir. İki gündən sonra noxud payını almaq ücün kolxoz idarəsinə gələn Qiyasxana: “Sən alıbsan”, deyirlər. Qiyasxan kisi o saat barmagını disləyir.

Təsadüfən yenə Hamarkəndə yolu düşən həmin raykom isçisi iclasda sülhdən danışanda Qiyasxan kisi ayağa qalxıb üzünü turşudur:

- A yoldaş, sənin sülhün mənə lazım deyil, kecən dəfə qol çəkdim, 50 kiloqram noxudum getdi.

## 63. Torpaq və güzgü

Torpaq bir gün güzgüyə deyir:

- Ey güzgü, sənə həsəd aparıram. Çünki kim sənə baxsa, özünü görür, amma mənə baxan ancaq məni görür.

Güzgü torpağa cavab verir:

- Bu nə dərddir çəkirsən? Bəs bilmirsən ki, mən mənə baxanların bu gününü göstərirəm, amma sən sənə baxanların sabahından xəbər verirsən?

Bu cavab torpağın xoşuna gəlsə də, yenə deyir:

- Bəllidir ki, sözlərin məni rahatlatmaq üçündür. Bəs deyə bilərsənmi, sənə baxanlar heç dönüb mənə baxar?

Güzgü gülərək cavab verir:

- Narahat olma, mənə baxmağa üzü olmayanlar həmişə dönüb sənə baxacaq.

## 64. Ölü maşını

Biri cənazə maşını sürürmüş, küçədə qıza həmin maşınla yaxınlaşıb deyir:

- Qəşəy qız, gəl, səni şəhəri gəzdirim.

Qız cavab verir:

- Bir maşınına bax, bir də özünə!

Oğlan deyir:

- Bilirsiz, bu maşına minməkdən ötrü ölürlər e.

# YOLOCAQ LƏTİFƏLƏRİ

## 1. Salam deyərsən

Gülməli idarəyə gəlib sədrə dedi:

- Mənə arayış ver.

Sədr dedi:

- Tələsirəm, qonşu kəndə gedirəm.

Daha sonra sözünə, -qonşu kənddəkilərə sözün varsa, deyə bilərəm, - deyə sədr əlavə etdi.

Gülməli işin nə yerdə olduğunu anlayıb, heç nə bilmirmiş kimi sədrə cavb verdi:

- Orada kimi görsən, məndən ona salam deyərsən.

## 2. Kök eşşək

Bir neçə kolxoz işçisi, o cümlədən, Gülməli də bunlarla birlikdə idarəyə odun gətirmək üçün meşəyə gedirdilər. yolda kolxoz sədri bilərəkdən Gülməliyə söz ataraq dedi:

- Gülməli, niyə özün kimi arıq eşşəklə meşəyə gedirsən?

Gülməli özün itirməyərək üzünü sədrə tutub gülə-gülə dedi:

- Düz deyirsən, fermada sənin kimi o qədər kök eşşək var. Amma nə edim, ferma müdiri onlardan birini mənə vermədi ki, gətirim. Bu arıq eşşəyi verdi.

## 3. Özün eşşəksən də

Qaranlıq düşmüşdü. Sədr Gülməligilin evinin yanından keçirdi. Gülməlini həyətdə görüb ayaq saxladı. Sonra salamlaşdı. Daha sonra Gülməliyə mənim üçün yaxşı zirək bir eşşək al, deyərək çıxıb getdi.

Səhəri gün kolxoz idarəsinin qabağında xeyli adam var idi. Sədr onlarla söhbət edirdi. Bu vaxt Gülməli də gəldi. Sədr Gülməlini görən kimi qəh-qəhə çəkib gülə-gülə dedi:

- Gülməli, axşam sənə eşşək demişdim.

Gülməli işin nə yerdə olduğunu bilib cavab verdi:

- Sədr, sən elə özün eşşəksən də, bir eşşək varsa, ikincisini neyləyirsən!

## 4. Arvad kimi geyərsən

Sədrin siyahisi əsasında kolxozçulara çit parça verirdilər. Gülməli mağazaya gəlib mağaza müdirinə dedi:

- Mənə çatacaq çiti ver.

Mağaza müdiri siyahiyə baxıb Gülməliyə bildirdi ki, adın siyahidə yoxdur. Gülməli idarəyə gəlib, sədrə siyahidə adının olmamasını çatdırdı. Sədr dedi:

- Adın siyahidə var, get çitini al.

Amma sədr bilərəkdən onun adını siyahiyə yazmamışdı. Güllməli mağazaya gəlib mağaza müdirinə dedi:

- Sədr deyir ki siyahidə adın var.

- Adın siyahidə yoxdur, get sədrin yanına.

Beləcə Gülməli bir neçə dəfə gah idarəyə, gah mağazaya get-gəl etdi. Mağaza müdiri cana gəlib siyahını Gülməliyə uzatdı. Gülməli siyahini aldı. Oxuyub, gördü ki, doğrudanda adı siyahidə yoxdur.

O, yenə idarəyə gəldi. Sədr Gülməlini görən kimi gülə-gülə dedi:

- Aldın çitini?

Gülməli cavabında:

- Yox, sədr! Artıq o çit mənə lazım deyil. Mənə çatan çiti tuman-köynək tikdirib arvad kimi geyərsən... nə fərqi, sən də olarsan mənim arvadım.

## 5. Boynun yoğundur

Sədr Gülməliyə dedi:

- Get, evdən givi götür, gəl. Kəllərin boynuna bağlayıb, kotanı sahəyə apar.

Gülməli giv üçün evə getdi. Sədr briqadiri idarəyə çağırıb, ona tapşırdı ki, kəllərin birini açıb tez sahəyə burax. Briqadir belə də etdi.

Gülməli givi götürüb, tövləyə gəldi. Baxıb gördü ki, kəlin biri yoxdur. İdarəyə gəlib sədrə dedi:

- Tövlədə bir dənə kəl var, biri yoxdur. İndi mən nə edim?

Sədr dedi:

- Çox asan, burda nə var ki, heç bir çətin iş yoxdur. Givin bir tərəfin öz boynuna, bir tərəfin də kəlin boynuna bağla, kotanı sahəyə apar.

Gülməli işin nə yerdə olduğunu başa düşüb, sakitcə dilləndi:

- Yox, sədr, mənim başım çox balacadır, boynum da nazikdir, giv boynumdan çıxar. Sənin başın yekədir, boynun da yoğundur. Elə giv sənin boynunun ölçüsündədir. Gəl, givi qoşum sənin boynuna, kotanı sahəyə aparım.

## 6. Sən də onu geyinərsən

Sədrin oğlu əsgərlikdən gəlmişdi. Adamlar sədrə gözaydınlığı vermək üçün sədrgilə gəldilər. Gülməli də burda idi. Sədr bilərəkdən Gülməli evə girəndən sonra onun ayaqqabısını gizlədib yerinə köhnə ayaqqabı qoydurdu. Gülməli evlərinə gedəndə baxıb gördü ki, ayaqqabısı yoxdur. Nə qədər Gülməlinin ayaqqabısını axtardılar ayaqqabı tapılmadı. Sədr soruşdu:

- Gülməli nə olub?
- Sədr, ayaqqabım yoxdur.

Sədr gülə-gülə:

- Eybi yoxdur, ayaqqabın tapılanda göndərərəm.

Gülməli işin nə yerdə olduğunu başa düşüb, sakitcə gözlədi. Sədr evə qonaqların yanına keçən kimi Gülməli öz ayaqqabısından da bahalı sədrin ayaqqabısını geyib yavaş-yavaş yola düzəldi. Adamlar sədrə bunu xəbər verdilər. Sədr eyvana çıxıb Gülməlinin dalınca səsləndi:

- O ayaqqabılar mənimdir hara aparırsan?

Gülməli dedi:

- Eybi yox, sədr, mənim ayaqqabılarım tapılmadı, tapılanda sən də onu geyinərsən.

## 7. **Canına dua edirəm**

Kolxoş işçiləri, kolxoz sədri, o cümlədən, Gülməli də bunlarla bərabər sahədə ot toplayırdılar. Gülməli bunlardan ayrılıb dərəyə getdi. Bunu görən sədr, briqadir və bir neçə adamlar gəlib dərənin yuxarısında Gülməlini səslədi:

- İşin bu qızğın vaxtında dərədə neyləyirsən?

Gülməli dedi:

- Heç ayaqyolundayam, canına dua edirəm, qurtaran kimi gələcəm.

## 8. **Böyük boşqab**

Toy məclisi idi. Kolxoz sədri, müxtəlif adamlar və o cümlədən Gülməli yeməyə oturmuşdular. Sədr əvvəlcədən yemək paylayanlara tapşırmışdı ki, böyük boşqabı plovla doldurub, üstünə də iki tikə xırda sümüylü ət qoyub Gülməli üçün gətirərsiz. Yemək paylayanlar belə də etdilər.

Gülməli işin nə yerdə olduğunu bilib öz qabağına qoyulmuş böyük boşqabı sədrin, sədrin qabağındakı üstü ətlə dolu boşqabı isə öz qabağına qoydu. Sonra paylayanları danlayaraq dedi:

- Burda böyük sədrdir. Ona görə də böyük boşqabı sədrin qabağına qoymaq lazımdır, mənim yox.

## 9. Nal vurdur

Kəndə başqa kənddən nalçı gəlmişdi. Ehtiyacı olanların atını, eşşəyini nallayırdı. Kolxoz sədri kolxozun at və eşşəklərini nallatdırdı. Gülməli eşşəyini nallatdırmağa getmişdi. Nalçı Gülməlinin eşşəyin nalladı. Sədr Gülməliyə dedi:

- Eşşəyini nallatdırdın, öz çəkmələrin isə qaldı. Onları da nallatdır, qoy ayağın sürüşməsin.

Gülməli sakitcə cavab verdi:

- Yox, sədr, mənim ayağımda rezin çəkmədir, o nal saxlamaz. Sənin ayağında isə dəri, altı padoş xrom çəkmədir. Yaxşı nal tutar, gəl eşşəyin nalından vurdur ki, ayağın sürüşməsin. Özün də kök adamsan.

## 10. Eşşəyin kefi yaxşılaşdı

Gülməli meşədən gəlib eşşəyin odunla dolu yükünü açıb, eşşəyi örüşə ötürdü. Bu vaxt kolxoz sədri yoldan keçirdi. Gülməliyə dedi:

- Ay Gülməli, bu nədir, eşşəyin qulaqların sallayıb, görəsən kimin fikrin edir, elə bil qəm dəryasına batıb, bikefdir.

Birdən eşşək yolun tozunda ağnadı, durub ayağa qulaqların şax tutub anqırdı. Gülməli sədrə dedi:

- Sədr, neçə gündür burdan keçmirdin, eşşək də elə bilirdi ki, sən xəstələnmisən. Ona görə qəmli və bikef idi. Yenə sağ ol gəldin, eşşəyin həsrətinə son qoydun. Səni görən kimi toza ağnadı, qulqalarını şıx tutub anqırdı. Eşşəyin kefi yaxşılaşdı.

## 11. Özgəyə quyu qazan özü düşər

Rayonda tədbir vardı. Kolxoz sədri, Gülməli və başqa işçilər tədbirdə iştirak etmək üçün rayona getdilər. Yağış yağdığına görə onların ayaqqabıları bulaşmışdı. Onlar ayaqqabı silən, mazlayan yanına getdilər. Gülməli ayaqqabıların sildirib, mazlatdır-

dı, stuldan durdu. Elə bu vaxt sədr gəldi. Stula oturub, ayaqqabılarını silib, mazlatdıran zaman Gülməliyə dedi:

- Gülməli ayaqqabıların nə yaxşı parıldayır, gəlsənə papağınıda sildir, qoy papağın da parıldasın.

Gülməli dedi:

- Yoldaş sədr, mənim başımda yun papaqdır, maz götürməz. Sənin başındakı isə dəri kepkadır, yaxşı maz götürər, həm də ki, parıldayar. On dörd-on beş yaşlı ayaqqabı silən uşaq cəld sədrin başındakı kepkasını götürüb mazladı. Sədr uşağın üstünə qışqırdı:

- Sən nə etdin!?

Gülməli dedi:

- Sədr, artıq gecdir, iş-işdən keçdi. Atalar yaxşı deyib ki, "özgəyə quyu qazan özü düşər".

## 12. Kişinin başında papaq olar

Yaz vaxtı idi. Kolxoz idarəsinin qabağında xeyli adam vardı. Gülməli də orada idi. Kolxoz sədri Gülməlinin başındakı buxara papağı görüb dedi:

- Gülməli, bu yaz vaxtı istidə başına papaq qoymusan, bax mənim kimi kepka (şlyapa) qoy başına, -deyib qəh-qəhə çəkib güldü.

Adamlar da sədrə qoşulub güldülər. Gülməli sədrə dedi:

- Ata-babalarımız həmişə başına papaq qoyub. Mən də onlar kimi papaq qoyuram. Sən amma Avropasayağı kepka (şlyapa) qoyursan...

Gülməli papağın qaldırıb havada yellədi. Sonra başına qoyub dedi:

- Kişinin başında papaq olar.

## 13. Qadın sədr

Payızın axırıncı ayı idi. Hava çox soyuq idi. İdarənin qabağında xeyli adam vardı. Gülməli də orada idi. Kolxoz sədri Gülməliyə dedi:

- Nə yaxşı paltonun var. Mübarəkdir, neçəyə almısan?

Sonra sədr qəh-qəhə çəkib gülməyə başladı.

Gülməlinin əynindəki palton köhnə və nimdaş idi. Gülməli işin nə yerdə olduğunu bilib sədrə dedi:

- Biləsuvar rayonuna pambıq yığmağa fəhlə aparmışdım. Axşam çağı idi. Hava soyuqdu. Xırmanda oturmuşdum, çox üşüyürdüm. Sağ olsun sənin kimi matişkə bir qadın sədr bu paltonu mənə verdi.

## 14. Mən getdim

Mağaza müdiri kolxozçular üçün un gətirmişdi. Unun hamısı gəlməmişdi, yarsını şose yolunda boşaltmışdılar. Un az olduğundan mağazanın qabağında xeyli adam var idi. Hamı istəyirdi ki, burdan un alsın. Sədr Gülməliyə dedi:

- Sən ağıllı adamsan, unun hamısı burda deyil, yarısı yoldadır. Al bu dəftər-qələmi, unu elə böl ki, müəyyən adamlar burdan alsın, çatmayanlar isə gedib 7 km kənddən aralı şose yoldan gətirsinlər.

Gülməli dəftər-qələmi əlinə alan kimi oğlu Gülbalanı yanına çığırıb eşşəyin üstünə bir kisə un qoyub evə göndərdi. Sonra adamlara dedi:

- Növbəyə duran, ya da yaşlı adamlar burdan un alsın, cavanlarsa gedib şose yoldan gətirsin.

Adamlar heç bir şərtlə razılaşmadı. Gülməli çox dedi, bunlar az eşitdi. Gülməli baxıb gördü ki, Gülbala həyətə çatdı. Necə ki, açıb unu evə qoydu, sonra sədrə dedi:

- Sədr, bu adamlarla işləmək çox çətin imiş. Mənə bir kisə un lazım idi. Onu da göndərdim. Al bu dəftər-qələmi, mən getdim.

## 15. Basabas düşdü

Növbəti ay idi. Yenə mağazaya un gəlmişdi. Kolxoz sədri Gülməlini çağırıb dedi:

- O dəfəki deyil, unu götürüb aradan çıxdın. İndi unu yenə sən böləcəksən, amma axıracan.

Gülməli dəftər-qələmi əlinə alıb, adamlara dedi:

- Ay camaat, növbəyə durun, ya da yaşlı adamlar burdan un alsın, cavanlar şose yoluna getsinlər.

Bu çox dedi, adamlar az eşitdi. Gülməli bir un kisəsini ayırıb oğlu Gülbalaya verib dedi ki, -saxla bunu. Özü isə qayıdıb yığılmış un kisələrinin yanına gəldi. Adamlara dedi:

- Bir az aralı dayanın.

Camaat aralı durandan sonra, Gülməli qışqırdı:

- Kim un götürə bilər, götürsün.

Adamlar töküldü un kisələrinin üstünə. Bu vaxt basabas düşdü, kimisinin əli kimisinin qolu, kimisinin bədəni əzildi. Sədr Gülməliyə dedi:

- Allah evini yıxsın, sən nə etdin? Adamlar basabas salıb bir-birini əzdilər.

Gülməli un götürənlərin siyahisini sədrə verib dedi:

- Kimə un çatmayıb, göndər gedib şose yoldan gətirsin.

## 16. Siqaret istəmə

Kolxoz sədri adamlar çox olan vaxtı həmişə Gülməlidən bir gilə siqaret alıb, bir-iki qullab vurub yerə atırdı. Sonra cibindən filtirli siqaret çıxarıb deyirdi:

- Adam belə siqaret çəkər, sənin siqaretin zəhər kimidir.

Daha sonra qəh-qəhə çəkib gülürdü. Bu hadisəni sədr bir neçə dəfə təkrar etmişdi.

Gülməli sədrdən heyifini çıxmaq üçün evdə siqaret giləsinin tütününü boşaldıb ona barıt qarışdırıb təzədən yığdı. Nişan vurub siqaret qutusuna qoydu. Günlərin birində adamların çox olan vaxtı sədr yenə Gülməliyə dedi:

- Bir gilə siqaret ver.

Gülməli siqaret qutusunu cibindən çıxarıb nişan vurduğu giləni sədrə verdi. Sədr siqareti damağına qoyub alışqanla yandırdı. Bu vaxt alışıb sədrin əlin, ağzın, bığların yandırdı. Adamlar qəh-qəh çəkib güldülər. Sədr özünə gəlib Gülməlidən soruşdu:

- Allah evini yıxsın, bu nə idi mənə verdin?

Gülməli dedi:

- Demədin ki, mənə bir gilə siqaret ver, mən də verdim. Yaxşı olar ki, birdə məndən siqaret istəmə.

## 17. Özüm qorxdum

Kolxoz sədri idarədə öz otağına girəndə gördü ki, otaqda kərtənkələ gəzir. İşçilərin çağırıb dedi:

- Burda kərtənkələ var, tutun onu.

İşçilər kərtənkələni tutdu. Sədr siqaret qutusundan siqaret gilələrin şkafa boşaldıb, kərtənkələni siqaret qutusuna qoyub, ağzın bağlayıb cibinə qoydu. İdarənin həyətinə gəldi. Burda xeyli adam ver idi. Eləcə də Gülməli də burda idi. Sədr Gülməlini yanına çığırıb, içərisində kərtənkələ olan siqaret qutusunu ona verib dedi:

- Haçanacan ucuz siqaret çəkəcəksən. Al bu filtirli siqareti çəkərsən.

Gülməli siqareti əlinə alanda hiss etdi ki, siqaret qutusunda nə isə tərpənirdi. Ancaq bir söz demədən siqaret qutusun cibinə qoydu.

Sədrin başı adamlarla söhbətə qarışdı. Xeyli söhbət etmişdi ki, əlin saldı cibinə siqaret çəksin gördü ki, siqaret yoxdur. İşçilərdən birinə dedi:

- Al bu pulu get mağazadan mənə bir qutu siqaret al gətir.

Gülməli idarənin böyrünə keçib siqaret almağa gedən adama dedi:

- Dayan, indicə siqaret almışam. Mənə pulu, bir də maqazinə getmə, apar bu siqareti sədrə ver.

O adam da elə də etdi. Gətirib siqaretin qutusunu sədrə verdi. Sədrin kefi saz idi. Danışa-danışa siqaret qutusunu açıb bir gilə götürmək istəyərkən kərtənkələ əllərinə yapışdı. Sədr bərk qışqırdı. Qorxub kərtənkələni yerə atdı. Adamlar qəh-qəhə çəkib güldülər. Sədr dedi:

- İstədim Gülməlini qorxudum, ancaq özüm qorxdum.

## 18. Ağsaqqallığı verdim sənə

Kolxoz sədrinin qızının nişan (kəsmət) məclisi idi. Çoxlu qonaq dəvət olunmuşdu. Oğlan tərəfdən ağsaqqal Gülməli, qız tərəfdən isə qızın dayısı idi. Ağsaqqallar hər iki tərəfin marağına uyğun olaraq alacaqları və verəcəkləri haqda razılaşdılar. Hamı bir ağızdan ağsaqqalarla bərabər, - Allah mübarək etsin, xoşbəxt olsun, -dedilər. Sonda sədr dedi:

- Gülməli, indi oğlan tərəfin ağsaqqalı sən oldun, bəs bundan sonra oğlan tərəfdən ağsaqqal kim olacaq?

Gülməli gülə-gülə cavab verdi:

- Mənim ağsaqqallığım bura qədər idi. Bundan sonrakı ağsaqqalığı verdim sənə.

## 19. Bölgü xoşuna gəldi

Kolxoz sədri, Gülməli və əlavə üç nəfər işçi yeməkxanaya gəldilər. Sədr xidmətçiyə dedi:

- Dörd ədəd qızardılmış toyuq, bir ədəd boş nimçə və bir ədəd kəsilməmiş qarpız gətir.

- Axı siz beş nəfərsiniz?

- Sənə nə deyirəm onu gətir.

Xidmətçi deyilənləri gətirdi. Sədr Gülməliyə dedi:

- Bu toyuqlar dörtdülər, elə böl kü beşimizə də çatsın.

Gülməli hər toyuğun bir budun ayırıb öz nimçəsinə qoydu. Budu ayrılmış toyuqları isə hərəsinə biri olmaqla onların qabağına qoydu.

Bunlar yeyib qutardığdan sonra sədr Gülməliyə dedi:

- Bu sənin üçün toyuq deyil, qarpızı dörd hissəyə elə böl ki, beşimizədə çatsın.

Gülməli yaxşı başa düşdü ki, sədr elə etmək istəyir ki, ona qarpız çatmasın. Çünki sədr elə fikirləşir ki, Gülməli bu bölgünü heç cür bölə bilməyəcək.

Gülməli bıçağı götürüb, qarpızı dörd yerə böldü. Hər dilimin özəyin özü üçün götürüb, dilimləri onlara verdi. Qarpızı yeyib qurtardıqdan sonra Gülməli ayağa durub əlin qarnına çəkib gülə-gülə dedi:

- Sədr, bölgü xoşuna gəldi?

Sədr baxıb gördü ki, xidmətçi və ətrafdakı adamlar bunlara diqqətlə baxır. Pərt olub, utana-utana cavab verdi:

Əlbəttə ki, gəldi.

## 20. Belə də olmalı idi

Kolxoz sədri, Gülməli və bir neçə işçi yeməkxanaya gəldilər. sədr hələ yemək gəlməmiş onlara dedi:

- Püşk atacağıq, püşk kimə düşsə, yeməyin pulunu o da verəcək.

Sədr cibindən bloknot çıxardıb püşkü yazmaq istəyəndə Gülməli sədrə dedi ki, püşkü mən yazacağam. Bloknotu alıb, onlar görmədən püşkin hamısına sədrin adını yazdı və dedi

yazılmış bu püşkə şərt budur ki, kimin adı özünə düşsə yeməyin plunu o verəcək.

Gülməli püşkləri masanın üstünə qoydu. Sonra qarışdırdı. Hərəsi birini masa üzərindən götürdü. Bu vaxt Gülməli sədrə dedi:

- Burda böyük sənsən, ona görə də birinci püşkü sən aç.

Sədr püşki açdı. Baxıb gördü ki, öz adıdır. Sanki heç nə olmamış kimi gülə-gülə dedi:

- Bu belə də olmalı idi. Mən sədr olduğum üçün püşk də mənə düşdü.

## 21. Elə həmin gün aktı sənə verəcəm

Kolxoz idarəsində partiya yığıncağı idi. Bütün partiya üzvləri, o cümlədən, Gülməli də orada idi. Kolxoz sədri iclası açıq elan elədi. Birinci məsələ kimi Gülməlinin işində nöqsanlara yol verdiyinə görə onun partiyadan azad olunması oldu. Gülməli bu fikirlə razılaşmayıb dedi:

- Sədrin mənimlə şəxsi narazılığı var, mənim heç bir günahım yoxdur.

Sədr dedi:

- Nöqsanın var, cəzanı da alacaqsan. Kim Gülməlinin partiyadan çıxmasına razıdır, əl qaldırsın.

Partiya üzvləri üçdə ikisi Gülməlinin partiyadan çıxmasına səs verdi. Sədr dedi:

- Gülməli, partiya bletini ver!

Gülməli cavab verdi ki, -əvvəlcə yeddi nəfərin iştirakı ilə akt yazın ki, həqiqətən partiya biletini aldınız. Ondan sonra partiya bletini verim. Elə də etdilər. Gülməli aktı alıb cibinə qoyduqdan sonra partiya bletini sədrə verdi. Sədr bleti seyfə qoyub, seyfin qapısını bağladı. Gülməli isə yığıncağı tərk edib evinə getdi. Sədr bir neçə məsələni də müzakirə edib yığıncağı bağlı elan etdi. Partiya təşkilatı katibinə isə tapşırdı ki, sən qal, üzvlər isə getsin. Sədr sonra seyfi açıb bileti partiya təşkilatı katibinə

verdi. O, bileti açıb baxıb gördü ki, bu ki, biletin özü yox onu qoruyan üzlükdür. Tez sədrə bildirdi. Sədr dedi:

- Elə bu dəqiqə üzvləri də, Gülməlini də bura çağır.

Partiya təşkilatı katibi təcili üzvləri və Gülməlini çağırdı. Gülməli işin nə yerdə olduğunu bilib, partiya biletini də aktı da evdə gizlədib idarəyə gəldi. Sədr dedi:

- Mənə səhv məlumat veriblər. Gülməlinin heç bir günahı yoxdur. Əksinə ona təşəkkür və mükafat verilməlidir. Kim mənim bu fikrimlə razıdır, əl qaldırsın!

Hamı lehinə səs verdi. Sədr bildirdi ki partiya təşkilat katibi və Gülməli qalsın, qalanlar getsin. Onlar getdikdən sonra sədr dedi:

- Başına dönüm, Gülməli, balalarımı yetim qoyma, bundan ötəri məni həbs edərlər. Oğlum Əlinin canına and olsun, bundan sonra səninlə dost olacağam. Bircə aktı mənə ver.

Gülməli dedi:

- Oğlum Gülbalanın canına and olsun, sən sədirliydən çıxanda elə həmin gün aktı sənə verəcəm.

## 22. Sən demə, Xəzər dənizi iki imiş

Gülbala Sumqayıt şəhərində ev almışdı. Bir neçə gün idi kəndə gəlmişdi. Atasına dedi:

- Ata, gedək şəhərə 5-10 gün bizdə qal, istirahət et.

Bir neçə gündən sonra Gülməli oğlu Gülbala ilə Sumqayıt şəhərinə gedirdilər. Yolda Gülməli dənizi gördü. Gülbaladan soruşdu:

- Oğlum, bu Xəzər dənizidir?

Gülbala, -bəli, ata, Xəzər dənizidir, -deyə cavab verdi.

Onlar Sumqayıt şəhərinə gəldilər. gülməli evləri gəzib balkona çıxdı. Bu vaxt dənizi gördü. Gülbaladan soruşdu:

- Oğlum, bu dəniz hansı dənizdir?

Gülbala, -Xəzər dənizidir, ata, -deyı cavab verdi. Gülməli dedi:

- Bəs, mən kitablarda oxumuşdun Xəzər dənizi bir dənədir. Sən demə, Xəzər dənizi iki imiş!

## 23. Heyif o puldan

Gülməli oğlu Gülbala ilə Masallı rayonuna getmişdi. İşlərini qutarıb avtobus dayanacağına gəldilər. Gülməli ayaq yoluna getdi. Ayaqyolundan çıxanda gördü ki, Gülbala bir adama pul verdi. Soruşdu ki, -oğul, o pulu nə üçün ona verdin?

Gülbala cavab verdi:

- Ata, ayaqyolu pulnandır.

Gülməli dedi:

- Heyif o puldan, gedib kənddə ayaqyoluna gedərdim.

## 24. Dörd nəvəm olub

Gülməli gözlərindən xəstəxanda əməliyyat olunub, evə gəlmişdi. Onun qız nəvələrinin birinin səkkiz, o birinin isə on yaşı vardı. Onlar babalarının yanına gəldilər. Gülməlinin gözləri sarğılı idi. Nəvələri babasıyla görüşdü.

- Necəsən, baba. Təzədən bir də görüşdülər, -necəsən, baba?

Gülməli işin nə yerdə olduğunu bilib dedi:

- Mən xəstəxanaya gedəndə iki nəvəm var idi. On günün ərzində dörd nəvəm olub.

## 25. Yoxsa pulum çıxacaqdı

Gülməli qonşudan evə gəlib dedi:

- Arvad, mən bildim bizim ev niyə soyuq olur. Qonşunun pəncərəsinin şüşəsi qalındı. Çöl də görünmürdü, ona görə də evləri isti idi. Bizim evin pəncərəsinin şüşəsi nazik, çöl də aydın görünür. Deməli, ona görə də bizim ev soyuq olur. Mən də qalın şüşə alacağam.

Arvad cavab verdi:

- Kişi, ağlın olsun, şüşə şüşədir, istəyir qalın, istəyir nazik.

Gülməli dedi:

- Əhsən, sənə, arvad, heç bu ağlıma da gəlməzdi. Yaxşı ki, sən dedin. Yoxsa pulum çıxacaqdı.

## 26. Sən demə, həm də tərləyirmiş

Gülməlinin arvadı öz-özünə dedi:

- Görəsən, kişi doğrudan da məni çox istəyir, yoxsa elə dildə deyir. Gərək bunu sınaqdan çıxardım.

Bir gün kişi evdə olanda arvad ikinci mərtəbədən pilləkənlari düşərkən yalandan ayaqları ilə pilləkənləri döyə-döyə guya birinci mərtəbənin eyvanına yıxıldı. Özü də qışqıraraq, -ay öldüm, ay öldüm.

Kişi üst evdən səsə qaçdı, gəlib gördü ki, arvadın ürəyi gedib uzanıb. Gülməli eşitmişdi ki, adamın ürəyi gedəndə soyuq su tökürlər, ayılır. Yarım vedrə soyuq suyu başdan-ayağa arvadın üstünə tökdü. Payız ayı olduğuna görə arvad soyuq suya dözməyib, titrədi. Gözlərini açıb, durub oturdu. Gülməlidən soruşdu:

- Kişi, mənə nə olub, paltarlarım, bədənim yaşdır.

- Heç, arvad, tərləyibsən, paltarlarını dəyiş.

Sonra Gülməli öz-özünə dedi:

- Doğrudan da ürəyi gedən adamın üstünə soyuq su tökəndə ayılirmış. Sən demə həm də tərləyirmiş.

## 27. Mənim boyum eynidir

Gülməli evə gəlib arvadına dedi:

Arvad, mənim səhərlər və axşamçağı boyum uzun, günortaçağı isə boyum qısa olur.

Arvad soruşdu ki, -kişi, nədən bilirsən?

Gülməli dedi:

- Neçə gündür müşahidə edirəm ki, səhər gün çıxanda və axşamçağı gün batana yaxın kölgəm uzun, günorta çağı isə kölgəm qısa olur.

Arvad gülə-gülə dedi:

- Ay kişi, səhərsəhəri və axşamçağı gün sənə böyürdən düşür, ona görə gölgən uzun olur. Günortaçağı isə sənə gün üstdən düşür, ona görə də kölgən qısa olur.

Gülməli dedi:

- Düz deyirsən, arvad, heç buna şəkim ötməyib, mənim boyum eynidir.

## 28. Sağla solu dəyişik salmısan

Gülməli gunorta yeməyini yeyib eyvanda yatdı. Yuxudan ayılıb gördü ki, həyətdəki tutun kölgəsi sola uzanıb. O qışqırdı:

- Ay arvad, ay arvad, sən məni dünəndən yatmışam niyə oyatmırsan? Odur ki, de gün çıxıb.

- Sən nə danışırsan, ay kişi gün çıxmır, artıq gün batmağa az qalır.

- Bəs tutun kölgəsi nə üçün sola uzanıyıb?

Arvad gülə-gülə cavab verdi:

- Ay kişi gün çıxanda kölgə sağa, batanda isə sola uzanır. Sən sağla solu dəyişik salmısan.

## 29. Gəlib pulunu alarsan

Gülməli Bakı şəhərində Göygöl restaranına gedir. Menyuya baxıb istədiyi yeməyi sifariş edir. Xidmətçi də onun istədiklərini yerinə yetirir. Gülməli yeməyini yeyib, meyvə şirələrindən, mineral sulardan içir. Sonra xidmətçini çağırıb deyir:

- Get mənə bir çaynik çay gətir.

Xidmətçi cavab verir ki, əmi bura restarandır, burda çay verilmir. Get parkın o tərəfində çayxanada çay iç.

Gülməli xidmətçinin pulunu verməyib, gedə-gedə deyir:

- Mən çayxanda çay içdikdən sonra gəlib pulunu alarsan.

## 30. Dovğaya da ət atırlar

Güləmli oğlu Gülbala ilə şəhərə getmişdilər. İşlərini qurtardıqdan sonra gunorta vaxtı olduğu üçün yemək yeməyə restorana gedirlər. Gülməli dedi:

- Oğul, bilirsən də mən ətli yemək yemirəm.

Gülbala menyuya baxıb plov (aş) və dovğa (ayran aşı) sifariş verir. Gülməli plovdan bir-iki qaşıq yemişdi ki, gördü plovun içində xırda-xırda ət var. Ona görə də daha plov yeməyib dovğadan içməyə başladı. Bir neçə qaşıq içmişdi ki, qaşığında dovğadan ət çıxdı. Gülməli dovğanı da içmədi. Gülbala soruşdu:

- Ata, bəs dovğanı niyə içirsən?

- Axı sənə demişdim ətli yemək olmasın.

- Ata, dovğanın içində ət olmaz ki?

Gülməli dovğanın içindəki əti oğluna göstərib dedi:

- Bala, yəqin sən bilmirsən. Şəhərdə dovğaya da ət atırlar.

## 31. Rezin top

Gülməli qardaşının yanına şəhərə getmişdi. Axşamçağı idi. O qardaşıyla birgə küçə ilə gedəndə gördü ki, piyada yolunda rezin bir top var. Gülməli dedi:

- Topa bir zərbə endirəcəyəm.

Qardaşı dedi ki, -gəl bu yana, öz yolunu sakit keç, nə işin var topda. Gülməli isə qardaşına əhəmiyyət verməyib, qaçıb topa bir zərbə endirdi. Bu vaxt Gülməlinin ayaqabısının burnu qopdu. Ayaq barmaqları əzildi. Onlardan aralı ağacların arasında 3-4 uşaq qəh-qəhə çəkib güldülər.

Qardaşı soruşdu ki:

- Gülməli nə olub?

Gülməli dedi:

- Uşaqlar sən demə, rezin topun içərisinə çay daşı qoymuşlar.

## 32. Sən demə, pulum cibimdəymiş

Gülməli həmkəndlisi ilə şəhərin parklarının birində gəzirdi. Gördü ki, ondan 5-6 m aralı 5 manat pul yerə düşüb. Külək də asta-asta əsirdi. Gülməli yaxınlaşaraq əyilib pulu götürmək istəyəndə pul qabağa sürüşdü. O, elə bilirdi pulu külək aparır. Gülməli beləcə pulun dalınca 5-10 m getdi. Pul iri bir ağacın arxasında düşdü. Gülməli ağacın arxasına gəlib gördü ki, iki uşağın əlində bir sap var. Onlar sapın bir ucunu əllərində tutub, o biri ucunu isə həmin beş manata bağlayıblar. Uşaqlar gülə-gülə soruşdu:

Əmi nə axtarırsınız?

Gülməli uşaqlar tərəfdən aldadıldığını bilib, amma bunu guya hiss etdirmədən özünü o yerə qoymayaraq dedi:

- Elə bildim o pul mənimdir, sən demə (əlini cibinə salıb) pulum cibimdəymiş.

## 33. Qarğa yuvası

Gülməlinin evinin yaxınlığında qoz ağacının ən hündür budağında qarğa yuvası vardı. Gülməli həyətdə arvad ilə oturan zaman, qarğalar yuvanın ətrafında fırlanıb qırıldamağa başladılar. Gülməli dedi:

- Arvad, keçən il də o qarğalar bizdə bir dənə cücə qoymadı. Hamısını daşıyıb apardılar. Gedib onların o yuvasın dağıdacağam.

Arvad dedi:

- Yox, ay kişi, getmə ora. Sən o ağırlıqda adam ora necə çıxacaqdan! Qoz ağacı kövrək olur. Budaq qırılar, düşüb ordan ölərsən.

Arvad çox dedi, Gülməli az eşitdi. Gedib qarğanın yuvasını dağıdarkən, budaq ağırlığa tab gətirməyib, qırıldı. Gülməli qırılmış budaqlara dəyə-dəyə gedib yerə düşdü. Arvad qışqırdı:

- Ay aman, kişi öldü. Ay aman, kişi öldü.

Qaçıb kişinin yanına gəldi. Gülməli dedi:

- Ay arvad, qorxub qışqırma, mənə heç nə olmayıb, balaca ayağım əzilib, o da sağalacaq. Əsas odur ki, arzuma çatdım. Qarğanın yuvasını dağıdıb darmadağın etdim.

## 34. Su qabı

Gülməli qırx litirlik iki su qabını eşşəyin üstünə asıb, bulağa getdi. O, bulaqdan suyu götürüb vedrə ilə su qablarından ancaq birinə tökürdü. Ona görə də su qablarından biri digərini ağırlayıb, eşşəyin üstündən aşaraq yerə düşürdü. Gülməli isə hər dəfə dolu su qabını boşaldıb yenidən su qablarını eşşəyin üstünə asaraq yenidən doldururdu. Bir saata yaxın idi ki, su qabını doldurmaq istəsə də qab eşşəyin üstə qalmayıb yerə düşürdü.

Bulağa gələn həmkəndlisi bu vəziyyəti görüb, qəh-qəhə çəkib Gülməliyə gülməyə başladı. Gülməli isə sevinclə dedi:

- Yaxşı gəlmisən. Gəl su qabının birini tut, o birisini doldurum. Sonra isə sən tutanı dolduraram.

Həmkəndlisi dedi:

Olmaz ki, bir vedrə birinə, bir vedrə o birisinə töküb, tarazlığın saxlaya-saxlaya su qablarını doldurasan.

Gülməli elə də etdi. O, su qablarını doldurub yol da düşəndə həmkəndlisinə dedi:

- Bir saatdı girinc olmuşdum, su qabların doldura bilmirdim. Yaxşı ki, sən gəldin, heç bu ağlıma da gəlməzdi.

## 35. Baxa bilirmiş

Gülməli şəhərə getmişdi. Həmin vaxt televizor hələ təzə çıxmışdı. O, birinci dəfə idi ki, ev yiyəsi ilə birlikdə televizora baxırdı. Ekranda bir qadın xəbərləri deyirdi. Gülməli ev yiyəsinə dedi:

- O qadın hey mənə baxır. Bilmirəm kəndçi olduğuma görə, ya da ki paltarımda bir qüsur var. Ev yiyəsi qəh-qəhə çəkib gülərək dedi:

- O, elə mənə də baxır. Ekranda elə görünür.

- Yox, o mənə baxır.

- Gəl keç məndən arxaya, başımın yanından televizora bax.

Gülməli elə də etdi. Gördü ki, o doğrudan da həm sənə həm də mənə baxır. On adam da yan-yana otursa, onlar hamısı elə hiss edəcəklər ki, mənə baxır. Gülməli gülə-gülə keçib yerində oturaraq dedi:

- Pay atoynan, elmin gücünə bax e, möcüzədir. Bir adam eyni anda bir neçə adama baxa bilirimiş.

## 36. Gülməlinin kukruz yeməsi

Gülməli rayonda işin qurtardıqdan sonra mağazaya gedib üç-dörd ədəd kukruz (şişirdilmiş qarğıdalı) paçkası (qutusu) aldı. Fikirləşdi ki, günortaya az qalır, bunları günorta əvəzi yolda yeyərəm. O yolda avtomobildən düşüb gəlib çayda əllərini yudu. Aldığı kukruzlardan yeməyə başladı. Kükruzların hamısını yedi, ancaq elə bil heç nə yeməmiş kimi öz-özünə dedi:

- Bu qədər noxud, buğda qorğası yesəydim axşam yeməyinə də ehtiyac olmazdı. Bu nə işdi başıma gəldi, acqarına evə necə gedib çıxacam.

Gülməli yeddi, səkkiz yoqquş yolu piyada bicür-bitəhər evə gəlib çıxdı. Arvadına dedi:

- Arvad tez yemək gətir, acımdan ölürəm.

O, yeməyin yeyə-yeyə başına gələn işi arvadına danışdı. Arvad qəh-qəhə çəkib, gülə-gülə dei:

- Kişi, o qarın doyduran deyil, uşaqlar üçün yeməkdən qabaq məşğuliyətdir.

## 37. Avtobus məni gözləməyib getdi

Gülməli həmkəndliləri ilə şəhərə gəlmişdi. Şəhərdə işlərini qurtardıqdan sonra Sumqayıt şəhərinə getmək üçün avtovağzala gəldilər. Gülməli həmkəndlilərinə dedi:

- Siz burda gözləyin, mən kassadan bilet alıb gəlim.

Gülməli bilet alıb qayıdanda, bir dostuna rast gəldi. Dostu ilə söhbəti yarım saat çəkdi. Sağollaşıb həmkəndlilərinin yanına gəldi. Onlara dedi ki, bileti almışam gedək avtobusa minək.

Gülməli qabaqda, həmkəndliləri arxasınca avtobusa mindilər. Sürücü Gülməlidən biletləri alıb baxdıqdan sonra qəhqəhə çəkib gülərək dedi:

- Burdan hər iyirmi dəqiqədən bir bir avtobus gedir. Hər avtobusun da öz xüsusi bileti olur. Sizin aldığınız biletin avtobusu iyirmi dəqiqə bundan qabaq gedib, get təzədən bilet al.

Gülməli ucadan dedi:

- Belə iş olar, bilet məndə qala-qala avtobus məni gözləməyib çıxıb gedib.

## 38. Bunun nəyi pisdir?

Gülməli və həmkəndliləri mağazadan hər biri yarım kiloqram kişmiş alıb, Sahil bağına gəldilər. Orada xeyli adam var idi. Onlar oturacaqlarda əyləşdilər. Kağız torbanı açıb dənizə baxa-baxa kişmişi ləzzətlə yeyirdilər. Orada olan adamlar bunlara baxıb gülürdülər. Polis adamların nəyə güldüyünü bilmək üçün onlara yaxınlşadı. Adamlar polisə kişmiş yeyənləri işarə edərək göstərdi. Polis bunların yanına gəlib, özünü təqdim edərək dedi:

- Vətəndaşlar, mən bu sahənin müfəttişiyəm. Siz burda kişmiş yeyib adamların fikrin yayındırırsınız, istirahətini pozursunuz. Burda kişmiş yemək olmaz! Gülməli gülə-gülə dedi:

- Yoldaş, müfəttiş biz rayondan-kənddən gəlmişik. Bu şəhər adamları günabaxan tumunu çırtlayıb, qabığını yerə atırlar. Bu gözəl bağı zibilləyirlər. Biz isə kişmiş yeyib, istirahət edirik. Bunun nəyi pisdir?!

## 39. Bir də boynun qoltuqaltı görməsin

Gülməli və həmkəndliləri vağzalda ümumi vaqona bilet aldılar. Sonra qatara mindilər. Qatarda çoxlu adam vardı. Gülməli həmkəndlilərə dedi:

- Mənim yuxum gəlir, yatmaq istəyirəm. Yuxarı mərtəbədə yatsam birdən yıxılaram, aşağı mərtəbə də oturmaq üçündür. Mən yalandan hay-küy salacam siz də deyərsiz bu dəlidir.

Gülməli vaqonun birinci mərtəbəsində uzanıb yatdı. Vaqon bələdçisi Gülməlini görüb dedi:

- Ay vətəndaş, bura yatmaq üçün deyil, oturmaq üçündür. Gülməli isə bunun sözünə əhəmiyyət vermədi. Bələdçi çox dedi, Gülməli az eşitdi. Bələdçi onun ayaqlarından tutub yerə saldı. Gülməli qışqırdı:

- Bu kimdir, məni yerə salıb, yuxumu qaçırtdı.

Yerindən qalxıb bələdçinin boynunu qoltuğunun altına salıb sıxdı. Bələdçı qışqırdı:

- Ay öldüm, ay öldüm.

Gülməlinin həmkəndliləri bələdçini onun əlindən aldılar. Bələdçi bərkdən qışqırdı:

- Səni polisə verəcəm.

Həmkəndliləri dedi:

- Bu dəlidir, çıx get.

Bələdçi hərdən gəlib Gülməlinin yanından qaçaraq keçirdi və deyirdi:

- Vətəndaş səni qoymayacağam yatmağa, dur otur.

Bir neçə dəfə bu sözləri beləcə təkrar etdi. Amma qorxusundan bir dəfə də ona yaxın gəlmədi.

Gülməli qatardan düşəndə bələdçiyə gülə-gülə dedi:

- Deyəsən, bu günəcən boynun qoltuqaltı görməmişdi. Başını bədənin üstə elə apar ki, bir də boynun qoltuqaltı görməsin.

## 40. Sənə deyərəm

Gülməli şəhəri tanımırdı. Dayanacaqda avtobusun birinə mindi ki, guya şəhəri tanısın. Fikirləşdi ki, hara getsə, avtobus yenə bu dayanacağa gələcək. O, belə də etdi. Dayanacaqlar bir-birinə oxşadığına görə Gülməli avtobusa hansı dayanacaqdan mindiyini unutdu. O, avtobusla şəhəri hey fırlandı. Bunu görən sürücü Gülməlidən soruşdu:

- Bala, hamı minir-düşür, ancaq sən düşmürsən?

Gülməli cavab verdi ki, dayı sən düz deyirsən avtobusa mindim şəhəri tanıyım. Ancaq hansı dayanacaqda mindiyimi unutmuşam. Sürücü gülə-gülə soruşdu:

- Sən hansı küçədə minmisən?
- Azneft dairəsində.
- Ora çatanda sənə deyərəm.

## 41. Çox pula satdım

Gülməli bazarda satmağa kök bir qoyun aparmışdı. Müştərilər Gülməlidən soruşdu:

- Qoyunu neçəyə satırsan?

Gülməli cavab verdi:

- Yüz manata.

Müştərilərdən biri cibindən diri yüzlük çıxardıb Gülməliyə uzatdı. Gülməli pulu almayıb dedi:

Bu nədir mənə bir dənə pul verirsən, mən çox pula satıram.

Başqa bir müştəri Gülməlidən soruşdu:

- Qoyunu neçəyə satırsan?
- Yüz manata

Müştəri cibindən iki dənə əlli manat çıxardıb Gülməliyə uzatdı. Gülməli pulu almayıb dedi:

- Yox azdır. Mən çox pula satıram.

Daha bir müştəri Gülməliyə yaxınlaşıb soruşdu.

- Qoyunu neçəyə satırsan?

- Yüz manata.

Müştəri cibindən beş dənə iyirmi manat çıxardıb Gülməliyə uzatdı. Güləmli pulu almayıb dedi:

- Yox azdır. Sənə də satmıram, sən də az pul verirsən. Mən çox pula satıram.

Birinci müştəri işin nə yerdə olduğunu başa düşüb, Gülməliyə yaxınlşadı. Cibindən bir paçka manat, yəni yüz dənə manat (yüz manat) çıxardıb Gülməliyə uzatdı. Gülməli cəld pulu alıb, cibinə qoydu. Qoyunu verib dedi:

- Bu başqa məsələ. Allah evini tiksin, bunu əvvəlcədən verə bilməzdin. Səhərsəridən başıma gün döyüb.

Müştəri soruşdu:

- Mən axı hələ də tam anlaya bilmirəm ki, sənin üçün nə fərqi var, pul puldur da, istər 100 dənə manat olsun, istər bir dənə yüz manat olsun.

Gülməli dedi:

- Burda anlaşılmaz nə var ki, özün də gördün ki, mən qoyunu çox pula satdım.

## 43. Gülməlinin düyməli termus alması

Kəndə alverçi gəlmişdi. Termus satırdı. Alıcılara deyirdi:

- Çox yaxşı termusdur. Bu çıxıntı düyməni basanda luluyündən çay tökülür.

Gülməli də bir termus alıb evə gəldi. Arvadına dedi:

- Arvad boş bir stəkan gətir.

Arvad stəkanı gətirdi. Gülməli düyməni basdı, çay tökülmədi. Tez termusu qutusuna qoyub dedi:

- Arvad, alverçi mənə xarab termus verib, birdən çıxıb gedər aparım qaytarım.

Gülməli qapıdan çıxanda arvadı qəh-qəhə çəkib gülərək dedi:

- Ay kişi, bir dayan, termusu mənə ver.

Arvad termusu alaraq qapağını fırladıb açdı. İçinə çay töküb qapağını bağladı. Gülməliyə uzadıb dedi:

- Al, yoxla.

Gülməli termusu alıb düyməni basdı. Stəkana çay töküldü. Çay tökülən kimi dedi:

- Əhsən sənə, arvad. Gedib alverçinin, kənd camaatının yanında rüsvay olacaqdım. Yaxşı ki, sən varsan.

## 44. Bu ki parça bozbaşdır

Günorta vaxtı Gülməli işdən evə gəlib dedi:

- Arvad, çox acmışam, günortaya nə bişirmisən?

Arvad cavab verdi ki, souz bişirmişəm. Gülməli dedi:

İndiyə qədər souz yeməmişəm. Gətir görüm necə yeməkdir.

Arvad yeməyi gətirdi. Gülməli yeməyə baxıb soruşdu:

- Souz budur?

Arvad cavab cerdi:

- Bəli, budur. Ye, gör nə ləzzətlidir.

Gülməli gülə-gülə dedi:

- Əvvəllər kasaya tökərdilər. İndi isə boşqaba töküb, adını da qoymusan souz. Bu ki parça bozbaşdır.

## 45. Bu çəkmələr mənimdir

Payız vaxtı idi. Gülməlinin həmkəndlisinin oğlu hərbi xidməti bitirib evə gəlmişdi. Gülməli gözaydınlığı vermək üçün onlara getdi. Yeyib-içərək adamlarla o ki var söhbət etdi. Evə gələndə gördü ki, çəkməsinin yanında bir cüt də eyni o çəkmədən var. Gülməli nə qədər çəkmələrin o yanına, bu yanına baxdısa, öz çəkməsini tanımadı. Gülməli ev yiyəsini çağırıb dedi:

- Budur, mənim çəkməm kimi başqa bir çəkmə də var. Bilmirəm hansı mənimdir. Mənə bir zənbil ver, çəkmənin bir cütün zənbilə qoyum, bir cütün də geyib evə aparım. Evdə arvad baxıb görsün ki, hansı mənimdir.

Ey yiyəsi dedi:

- Çəkmənin sahibi evdədir. Çağırım, gəlib öz çəkməsini tanısın.

O, elə də etdi. Çəkmə yiyəsi çəkməyə baxıb dedi:

- Bu çəkmələr mənimdir, astarında sökük var. Gülməli razılaşmayıb dedi:

- Yox, aparım çəkmələri arvad tanısın, gətirim. Çəkmə yiyəsi dedi:

- Mənim çəkmələrim qalsın geyindiyin o çəkmələrlə get. Arvadın baxsın, mən də burdayam, sənin olmasa, qaytarıb gətirərsən. Bunları geyib gedərsən.

Gülməli bunların sözünə əhəmiyyət verməyərək, o biri çəkmələri də götürüb evə apardı. Arvad evdə çəkmələrə baxdıqdan sonra o biri çəkmələri gətirərək dedi:

- İndi bildim ki bu çəkmələr mənimdir.

## 46. Sən nə çox bilirmişsən

Gülməli işdən evə gəldi. Çox bikef idi. Arvadı soruşdu.

- Kişi, sənə nə olub, niyə bikefsən?

Gülməli dedi:

- Sərxoş idim, borc istədilər, mən də əmək haqqının hamısını verdim. Amma yadımda yoxdur ki, kimlərə vermişəm.

Arvad bir az fikirləşib dedi:

Kişi, gəlsənə belə et, gələn ay pul verilən vaxt hamıdan qabaq get orada dayan. Gələn adamlarla bir-bir salamlaş. Səndən pul alan adamlar səni görəndə yəqin ki, pulunu verəcəklər.

Növbəti ay pul verilən vaxt Gülməli elə də etdi. Adamlar əmək haqqını alıb, kim Gülməlidən pul almışdı qaytarıb verdilər.

Gülməli sevinə-sevinə evə gəlib arvadına dedi:

- Əhsən sənə, arvad. Sən nə çox bilirmişsən. Verdiyim pulların hamısını qaytardılar.

## 47. Ev paltarı ilə işə gedibsən

Gülməli səhər-səhər paltosunu geyinib idarəyə getdi. Yenicə oturmuşdu ki, zəng gəldi. Gülməli dəstəyi götürüb cavab verdi. Arvadı dedi:

- Ay kişi, sən ev paltarının üstündən paltonu geyinib işə gedibsən. Şalvar-pencəyin evdə qalıb.

Gülməli baxıb gördü ki, doğrudan da ev paltarı ilə gəlib. Tez-tələsik evə getdi. Arvadına dedi:

- Deyirəm axı yolda adamlar, işçilər, hətta katibəm də mənlə salamlaşıb baxıb gülürdülər. Bəs işə gedəndə mənə niyə demədin?

Arvad cavab verdi:

- Sən işə gedəndə mən mətbəxdə idim. Evi yığışdıranda gördüm ki, şalvarın, pencəyin burdadır. Sən də yaşa dolduqca ağlını itirirsən.

Hər ikisi bir-birinə qoşulub qəh-qəhə çəkib güldülər.

## 48. Yaxşı olacaqdım

Gülməli usta gətirmişdi. Tövlənin (damın) üstünə şifer vurdururdu. Fəhlə olmadığına görə arvad yerdən verirdi, Gülməli şiferi alıb tirə aparırdı, usta isə vururdu. Gülməli növbəti dəfə şiferi apararkən tirə ayağı sürüşdü. Usta qışqırdı:

- Yıxıldın, şiferi burax, yapış reykədən.

Gülməli isə şiferi buraxmayıb şiferqarışıq sürüşdü. Usta son anda özünü yetirib Gülməlidən yapışaraq onu saxladı.

Arvad soruşdu:

- Ay kişi, şiferi niyə buraxmırdın? Birdən özün də yıxılardın, bədənin əzilərdi.

Gülməli dedi:

- Şifer sınsaydı mənə ziyan olacaqdı. Hardan pul tapıb şifer alacaqdım. Özüm əzilsəm isə yaxşı olacaqdım.

## 49. Şampun şampundur

Gülməli bazara gedirdi. Arvadı ona dedi ki, qab şamponu alarsan. Gülməli bazarlıq edib evə qayıtdı. Arvad Gülməlinin bazardan aldığı şeyləri yerbəyer edirdi. Birdən dedi:

- Ay kişi, sənə qab şampunu tapşırmışdım sən yenə gedib baş şampunu almısan, evdə ola-ola.

Gülməli dedi:

- Başın kirin aparan, qabın yağın da aparacaq. Sənin üçün nə fərqi var ki, baş şampunu ya qab şampunu. Şampun şampundur.

## 50. Vurançı öküz

Gülməli pilləkəndən düşəndə ayağı sürüşüb yerə yıxıldı.

- Ay arvad, ayağım burxuldu, -deyə qışqırdı. Arvad gəlib Gülməliyə kömək edib, yerdən qaldırdı. Ayağna baxıb dedi:

- Ay kişi heç yerin əzilməyib dur ayağa.

Gülməli bilərəkdən axsaya-axsaya yeriməyə başladı. Arvadına da dedi ki, -sən bilmirsən ayağım əzilib.

O, bilərəkdən işin qızğın vaxtı olduğu üçün əlinə bir çəling götürüb, gah həyətdə tutun dibində, gah da xırmanda qoz ağacının dibində otururdu. Arvad dedi:

- Ay kişi, sənin ayağında nə şiş, nə də qızartı var. İşdən yayınma, gəl, mənə kömək et. Bütün iş mənim üstümə düşüb.

Gülməli dedi:

- Yox, arvad, ayağım ağrıyır. Yaxşı olsun işləyəcəm. Beləcə günlər bir birini əzəv etdi. Yenə də Gülməli qozun dibində oturmuşdu. Naxırçı öküzləri yol ilə sahəyə aparırdı. Öküzlərdən biri Gülməliyə sarı gəldi. Naxırçı qışqırdı:

- Gülməli, qaç, o vurançı öküzdür.

Gülməli öküzü görən kimi çəlingi də yaddan çıxarıb sürətlə həyətə qaçdı. Bunu görən arvad gülə-gülə dedi:

- Deyəsən, ayağın yaxşı oldu. Allah o naxırçının köməyi olsun, öküzü sənin yalanını üzə çıxardı.

## 51. Get, nə alırsan, al

Gülməli yəhəri, yüyəni tutun dibinə gətirdi ki, tutun kölgəsində onların söküklərini tiksin. İynəqıyığı saplayıb yerə qoydu. Bizi götürüb atın yüyənini deşib sonra iynəqıyıqla tiksin. Bizlə deşdikdən sonra istədi iynəqıyığı götürüb tiksin gördü ki, iynəqıyıq yoxdur. Yəhərin arasın, üst-başın, yeri gəzdi, ancaq iynəqıyığı tapa bilmədi. Bu vaxt arvad gəldi.

- Ay kişi, Fatı arvad küçədə şey satır, icazə ver gedim, mən də baxım.

- Ay arvad, bir saatdır iynəqıyığı itirmişəm, tapa bilmirəm. Sən də qanımın qara vaxtı Fatı arvad, Fatı arvad deyirsən.

Arvad da xeyli gəzdi, ancaq iynəqıyığı tapa bilmədilər. sonra arvad vedrədəki suyu götürüb dananı suvarmağa getdi. Tövləyə gəlib çatdı. Sərçələr tirdə civildəşirdilər. İlan olar deyə arvad yuxarı baxdı. Gördü ki, sərçələr ipdən tutub dartır, iynəqıyıq şifirə ilişib qalıb. Arvad qışqırdı:

- Ay kişi, multuluğumu ver, iynəqıyıq budur tirdən sallanır. Gülməli gəlib gördü ki doğrudan da iynəqıyıq ordadır. Nərdivanı gətirib, iynəqıyığı götürdü. Sonra arvadına dedi:

- Deyirəm axı, o sərçələr yanımda civildəşib uçurdu. Əhsən sənə, arvad, o Fatı arvad, o da sən. Get, nə alırsan al.

## 52. Düyü

Gülməli işdən axşamçağı evə gəlirdi. Qonşu Gülməli ilə salamlaşıb dedi:

- Axşam qonağım gələcək mənə düyü lazımdır.

Gülməli dedi:

- Bizdə düyü var, ancaq mənim arvadımla sənin arvadının arası sərindir, gəl gedək evə görək nə edəcəyəm.

Onlar gəldilər, eyvanda oturdular. Gülməli dedi:

- Arvad çay gətir.

Nərd oynamağa başladılar. Arvad çay gətirdi. Gülməli soruşdu:

- Arvad düyümüz var?

Arvad soruşdu:

- Neyləyirsən?

Gülməli dedi:

- Qonşu kənddə yaxşı düyü satırlar gedim 5-10 kq alım.

Arvad dedi:

- Rayondan aldığın 10 kq düyü qalır. Hələ işlətməmişəm.

Gülməli dedi:

- Qonşu, mən getmirəm, daha sən də getmə, nərd oynayaq. Arvad, sən də 5 kq düyü gətir, ver qonşuya sabah alıb qaytarar.

Arvad elə də etdi. Qonşu dedi:

- Gülməli, sən nə çox bilirsən.

## 53. İndi bildim də pulunu kim verəcək!..

Gülməli traktorla odun gətirməyə meşəyə getdi. Qonşu kənddən gedəndə traktorçu dedi:

- Meşəyə gedənin çörəyi, baltası olar.

Gülməli dedi:

- O çətin bir iş deyil, düzələr.

Qonşu kənddən dostun çağırıb dedi:

- İş yerindən gəlirəm, çörək-yavanlıq və bir balta gətir, meşəyə gedirəm.

Dostu zənbilə isti çörək və pendir qoyub gətirdi. O cümlədən baltanı da verdi.

Onlar meşəyə gəldilər. Meşəbəyi deyən yerdə külək ağacı aşırmışdı. Köklü-budağlı bir ağac idi, amma dallanmamışdı. Gülməli traktorçuya dedi:

- Bu ağacı dallamaq mənlik deyil. Gəl gedib çayda çimib sərinlənək. Soyuq bulaqda pendir-çörəyi yeyib isdirahət edək.

Traktorçu dedi:

- Sən nə danışırsan, bu nəhəng ağacı ancaq axşama kimi dallayıb qutararıq.

Gülməli dedi:

- Özün bilərsən mən getdim çayda çimməyə.

Traktorçu dedi:

- Bəs, mənim pulumu kim verəcək?

Gülməli ona tərs-tərs baxdı. Traktorçu ondan qorxurdu. Gülməliyə bir söz deməyib, gedib traktorun yanında oturdu. Gülməli isə çaya gəlib çimib sərinləndi. Gedib bulağın yanında pendirlə isti çörəyi doyunca yeyib, bulağın yanında yatdı. Birdən ayılıb gördü ki, gün batır, hava qaralır. Durub gəlib traktorçuya dedi:

- Gəl gedək. Onlar gəlib çayı keçdilər. Körpünün yanındakı dallanmış nəhəng ağacın yanında Gülməli traktoru saxlatdırdı. Traktorçuya dedi:

- Meşəbəyi mənə deyib hansı ağacı bəyənsən onu da aparrsan. Qoş bu ağacı aparaq.

Elə də etdilər. qonşu kəndin içərisinə girmişdilər ki, traktoru saxlatdırdı. Baltayla zənbili dostuna verib dedi:

- Gör, bu ağac kimindir öyrən.

Dostu kəndə səda saldı. Ağacın yiyəsi gəlib dedi ki, bu ağac mənimdir. Gülməli ona dedi:

- Traktorun haqqını artıqlamasıycan verərsən. Bir beçə də qızart yesin, günortasızdır.

Traktorçuya isə üzünü tutaraq gülə-gülə dedi:

- İndi bildin də, pulunu kim verəcək!..

## 54. Açıl, qapılarım, açıl

Gülməli şam yeməyi yedikdən sonra arvadına dedi:

- Qonşuyla nərd oynamağa gedirəm.

Arvad dedi:

- A kişi, gündə payız axşamı gedirsən, bir də gecə yarısı gəlirsən. Bizi də narahat edirsən. Uşaq da xəstədir. Televizora

bax, radioya qulaq as, uşaqlara nağıl danış, başın qarışsın. Getsən qapını açarlayacağam. Gedib soyuq evdə yatarsan. Sənin əlindən uşaqlar da, mən də cana gəlmişik.

Gülməli dedi:

- Özün bilərsən, get ayaqqabılarımı sil, gedəcəyəm.

Arvad deyinə-deyinə ayaqqabıları silməyə getdi. Bu vaxt Gülməli durub, qapı iki laydı, qapının kilidini açdı. Sonra çıxıb getdi. Arvad isə içəridən qapını daxili açarla bağlayıb yatdı.

Gülməli gecə yarısı gəlib qapını döydü, arvad özünü eşitməməzliyə vurdu. Gülməli bir neçə dəfə də səslədi. Arvad dedi:

- Açmaram qapını. Get, o biri otaqda yat.

Gülməli dedi:

- Mən sehirliyəm indi açaram. Açıl, qapılarım, açıl – deyərək qapını itələdi, qapılar laybalay açıldı.

## 55. Bu quzudur, ölü deyil

Gülməli yeməyə bir quzu kəsdi. Soymaq üçün asılqandan açmaq istəyəndə, birdən yadına düşdü ki, ölü ağır olur, o arvadı çağırıb dedi:

- Gəl, kömək et, quzunu asaq.

Arvad dedi:

- İşim var, 10 kq ağırlığında olan quzu nədir ki, məni də köməyə çağırırsan, özün as.

Gülməli dedi:

- Ölü ağır olur. Bu da ölü quzudur. Görməmisən ölmüş adamı neçə nəfər yerdən qaldırır. Gəl bir yerdə quzunu asaq.

Arvad hirslə gəlib tək əliylə quzunu qaldırıb, asılqandan asdı. Sonra Gülməliyə tərs-tərs baxıb dedi:

- Bu quzudur, ölü deyil.

## 56. Ölü ağır olur

Gülməli həmkəndliləri ilə bazardan gəlirdi. Kəndə az qalırdı ki, onun atı dala qaldı. Həmkəndlilərindən biri soruşdu:

- Gülməli, atın yükü ağırdır?

Gülməli dedi:

- Pal-paltar, ərzaq, balıqdır. Qaraayaq quşdur. Məncə ağır deyil, atın yükü yüngüldür.

Həmkəndlisi yoldaşlarına göz vurub dedi:

- Gülməli, ölü ağır olur. Balıq da, quş da ölüdür. Ona görə də atın yükü ağırdır. Düş dalınca çək.

Gülməli atdan düşüb, atı dalınca çəkərək evə gəldi. Həyətdə yükü açırdı arvad soruşdu:

- Kişi, yoldaşların atı minmişdi. Bəs sən niyə minməyib atı dalınca çəkirdin?

Gülməli dedi:

- Arvad sən mənə balıq, quş tapşırmışdın, məndə aldım. Ölü ağır olur, onlarda ki, ölüdür. Düşdüm ki, atın yükü yüngül olsun.

## 57. Stəkanın rəngi gedər

Gülməli armudu stəkan alıb evə gəldi. Arvada dedi:

- Arvad, gör nə qəşəng stəkanlardır, yuxarısında da qırmızı enli xətti var. Stəkanı daha da yaraşıqlı göstərir. Gətir onda çay içək.

Arvad stəkanları aparıb yarım saat sonra çayla dolu gətirdi. Onlar çay içdi. Arvad stəkanları yuyanda Gülməli dedi:

- Stəkanı bərk ovma, qırmızı rəngi gedər.

Arvad gülə-gülə dedi:

- Kişi, məgər stəkanı ovmaqla rəngi gedər...

## 58. Külək lələyi apardı

Gülməlinin arvadı quş lələklərin teştə yığmışdı. İçərisində iri lələkləri ayırırdı. Bu vaxt Gülməli birbaşa işdən arvadının yanına gəldi. Arvad dedi:

- Yaxşı gəldin, gəl bunun iri lələklərin ayır. Mən gedim tikiş maşınında astar-üz tikim.

Arvad getdi. Gülməli isə bir palaz gətirib lələklə dolu teştin yanında sərdi. Asta külək əsirdi. O, lələkləri qaldırıb sovurdu ki, yel onun xırdasını palaz üstə, irisini isə teştə töksün. Bir də baxıb gördü ki, teştə iri lələklər qalıb, xırda lələkləri isə külək həyətə yayıb. Bir dənə də palaz üstə lələk qalmayıb.

Arvad gəldi. Soruşdu ki, kişi sən nə etmisən, teştdə lələk qalmayıb.

Gülməli dedi:

- Arvad, buğdanı sovuran kimi elədim, irisi teştdə qalsın, xırdası palaz üstə tökülsün. Sən demə, lələk çox yüngül imiş, külək hamısını həyətə yaydı.

## 59. Dəyirmançılığı verdim sənə

Gülməli dəyirmana dən apardı. Yolda həmkəndlisi Gülməliyə rast gəldi, dedi:

- Dəyirmanda o qədər dən var ki, heç beş günə növbə sənə çatmaz.

Gülməli dəyirmana gəlib gördü ki, doğrudan da dən çoxdur. Öz-özünə dedi:

- Əsgərlikdən təzə gəlmişəm, həm də ki, xəstəliyə görə. Özümü dəliliyə qoyum, dəni tez çəkim.

Gülməli dəyirmana girib qışqırdı:

- Kömək eləyin tayları qaldırıb qoyaq dənliyin yanına. Adamlar kömək elədilər. Dəyirmançı görüb dedi:

- Tayları bura niyə yığmısan, o tərəfə yığ, hələ sənə beş gündən sonra nöbə çatacaq.

Gülməli dedi:

- Sən kimsən! Dəyirmançı sən idin, indi isə mən oldum.

Dəyirmançının qolundan tutub itələdi. Az qaldı ki, dəyirmançı yıxılsın, qol-qıçı sınsın. Adamlar dəyirmançıya işarə edib dedi:

- Xəstədir. Qoy dənin üyütsün.

Gülməli dənin dənliyə boşaltdı. Gəlib aşağıda ununu taylara yığırdı. Unu yığa-yığa gülüb qışqırdı:

- Bura bax e, bura, bu cür ağır daşları su gör necə fırladır.

Gülməlinin az qalırdı ki, dəni qurtarsın, dəyirmançı əlində çekləri, dəftər gəlib dedi:

- Pulunu ver.

Gülməli dəyirmançının əlindən çekləri, dəftəri və arasındakı pulu alıb cibinə qoydu və dedi:

- Gedəndə çaya atacam sən məndən pul istədin?

Dəyirmançıdan yapışıb unluğa basdı. Adamlar gəlib dəyirmançını Gülməlinin əlindən aldılar.

Dəyirmançı dedi:

- Pulunu istəmirəm. Çekləri, dəftəri, pulları ver.

Gülməli dedi:

- Atımın yükünü çatın. Çekləri, dəftəri, pulları qaytarım.

Adamlar, o cümlədən dəyirmançı cəld elə də etdilər. Gülməli çekləri, dəftəri və pulu dəyirmançıya qaytarıb dedi:

- Mənimki bura qədərdi. Dəyirmançılığı verdim sənə.

## 60. Əti çox idi

Gülməlinin qızının toyu idi. Xeyli qonaq gəlmişdi. Gülməli əvvəlcədən aşbazlara tapşırmışdı ki, Gülbalanı göndərəcəm mənə yaxşı yemək göndərərsiniz.

Gülməli qonaqlarla oturmuşdu, yemək gəldi. Baxıb gördü ki, onun da yeməyim ümumi yeməkdir.

Gülməli Gülbalanı çağırıb dedi:

- Bu yeməklərin dağı-yağı çoxdur. Aşbazlara de ki, mənə yaxşı dağsız yemək versinlər.

Gülbala dedi:

- Hamısı eyni qazanda bişib, eyni yeməkdir.

Gülməli çox dedi, Gülbala az eşitdi. Gülməli məcbur olub ümumi yeməkdən yedi.

Məclis dağıldı. Gülməli Gülbalaya dedi:

- Ay fərsiz oğlu, sənə deyirəm get aşbazlardan yemək al gətir, sən deyirsən hamısı eyni qazanda bişib. Mən aşbazlara tapşırmışdım, əvvəlcədən mənə yaxşı yemək göndərərsiniz.

Gülbala dedi:

- Ata, aşbazlar mənə o vaxt dedi ki, atan üçün yemək apar. Sən onda çoxdan yemişdin. O yeməyi mən özüm yedim. Deyirəm axı, o yemək siz yeyən yeməkdən deyildi. Çox ləzzətli idi, həm də əti çox idi:

## 61. Əriyi dənəqarışıq yeyiblər

Gülməli bir zənbil ərik yığıb bazarda satmağa apardı. Zənbilin ağzını açıb qışqırdı:

- Ay ərik alan, ay ərik alan.

Bu vaxt beş-altı əsgərlə bir komandır gəldi. Ərikdən bir dənə götürüb yeyib əsgərlərə dedi:

Çox ləzzətlidir. Siz də yeyin, gəlib pulunu verəcəm.

Komandir getdi. Gülməlinin tərəzisi olmadığına görə əsgərlərə dedi:

- Yeyin dənəsini yığın bura. Dənəni sayıb pulunu alacağam.

Əsgərlər əriyin hamısını yedilər. Gülməli bir də baxıb gördü ki, ərik qurtarıb, hamısını yeyiblər. Ancaq dənəsi bir azdır. Qışqırdı:

- Əriyin dənələrini neyləmisiniz?

Bu vaxt komandir səsə gəldi. Gülməli onları ona danışdı. Komandir gülə-gülə dedi:

- Olmazdı ki, əriyi sayıb verəydin.

Gülməli dedi:

- Sən özün də gördün ki, zənbil dolu idi. İndi isə bir ovuc dənə qalıb.

Komandir artıqlaması ilə əriyin pulunu Gülməliyə verib dedi:

- Bunlar əsgərdilər, dənəsi xırda olduğuna görə əriyi dənə-qarışıq yeyiblər.

## 62. Həm atasıyam, həm də əmisi

Gülməli oğluna zəng eləyib dedi:

- Avtomobili göndər kəndə gedirəm.

Gülbala xidməti sürücüsünə dedi:

- Sür, əmimi kəndə apar.

Sürücü gəldi. Gülməli avtomobilə mindi. Xeyli vaxt keçmişdi ki, Gülməli dedi:

- Sür gedək də, kimi gözləyirsən?

Sürücü dedi:

- Müdir mənə tapşırdı ki, əmimi kəndə apararsan. Tələsmə, gəlsin gedərik.

Gülməli qəh-qəh çəkib gülərək soruşdu:

- Mən müdirin nəyiyəm?

Sürücü cavab verdi ki, atasısan.

Gülməli dedi:

- Mən qardaşımla bir yerdə yaşayırdım. Mənim oğlum mənə ata deyir. Qardaşım oğlu da ona baxıb ata deyirdi. Oğluma da, qardaşım oğluna da dedim ki, mənə ata yox, əmi deyin. O gündən də balalrım mənə əmi dedi. İndi mən müdirin həm atasıyam həm də əmisi. Sür gedək.

## 63. Yandırmağa şam istəyirsən

Qardaşı idarədən zəng edib Gülməliyə dedi:

- İşim var, evə gec gələcəyəm. Şam yeməyinin vaxtıdır. Tez şam gətir.

Gülməli cibinə iki dənə şam qoyub idarəyə gəldi. Cibindən şamları çıxarıb masanın üstünə qoydu. Qardaşı Gülməlidən soruşdu:

- Bu nədir gətirmisən? Mən səndən yanan şam yox, şam yeməyi, yəni axşam yeməyi gətir demişdim.

Gülməli dedi:

- Elə bildim ki, lampanın nefti qurtarıb yandırmağa şam istəyirsən.

## 64. Pulla şair olmaq olmur

Müəllim ədəbiyyat dərsi keçirdi. Mövzu isə Azərbaycanın dünya şöhrətli şairlərindən biri haqqında idi. Müəllim dərsi izah edib qurtardıqdan sonra Gülməli əlin qaldırıb müəllimə sual verdi:

- Müəllim, dünya şöhrətli şair olmaq üçün mənə nə qədər pul lazımdır?

Müəllim gülə-gülə cavab verdi:

- Bala, pulla şair olmaq olmur. Şair olmaq üçün dərslərini yaxşı oxumalısan, çox bilməlisən. Ən əsası isə şeir yazmaq qabiliyyətin olmalıdır.

## 65. Birdən kəmər qırılar e!

Gülməli təyyarə ilə birinci dəfə idi ki, gedirdi. Təyyarəyə minib öz yerində əyləşdi. Bir neçə dəqiqədən sonra bələdçinin səsi eşidildi:

- Təyyarə havaya qalxır, kəmərləri bağlayın!

Gülməli kəməri bağladı. Sonra öz-özünə dedi:

- Birdən kəmər qırılar e!

O, şalvarının kəmərini çıxardıb özünü oturacağa möhkəm-möhkəm bağladı. Bələdçi bunu görüb soruşdu:

- Vətəndaş nə edirsiniz?

Gülməli dedi:

- Heç, dedim ki, birdən təyyarənin kəməri qırılar, yerə yıxılaram. Öz kəmərimlə möhkəm bağladım ki, yerə yıxılmayım.

## 66. Paltarlarım əynimə olmaz

Gülməli paltar həvəskarı idi. Hansı yeni dəbdə olan paltar çıxsaydı, hökmən ondan alardı. On görə də xeyli paltarı vardı.

Günlərin bir günü Gülməli oğlu Gülbala ilə yemək yeyirdi. Gülməli həmişə olduğu kimi az yeyib daha yemədi. Gülbala soruşdu:

- Ata, sən niyə həmişə az yeyirsən? Həmişə də arıqsan, kökəlmirsən. Çox ye, kökəl.

Gülməli dedi:

- Bala, sən bilmirsən niyə çox yemirəm. Mənim çoxlu paltarım var, qorxuram ki, kökələrəm paltarlarım əynimə olmaz.

## 67. Gələ bilməyəcəkdim

Günlərin bir günü Gülməli dərsə gecikmişdi. Artıq üçüncü dərs idi. Müəllim Gülməlidən soruşdu:

- Niyə dəsrə gecikmisən?

Gülməli cavab verdi:

- Müəllim axşam gec yatmışam. Ona görə səhər yuxudan ayıla bilmədim.

Müəllim yenə soruşdu:

- Bəs niyə gec yatmısan, gecə vaxtı nə işin vardı?

Gülməli cavab verdi:

- Müəllim, düzü filmə baxırdım, necə oldusa başım qarışdı. Bir də gördüm ki, saat ikini keçib.

Müəllim hirslə dedi:

Deməli, sənin üçün film dərsdən irəlidir?

Gülməli dedi:

- Xeyir, müəllim, axıra kimi baxmadım. Fikirləşdim ki, sabah dərsə gedəcəyəm.

Müəllim dedi:

- Sən hələ də başa düşmürsən? Fərqi nədir yarımçıq baxdın, ya axıra kimi. Onsuz dərsə gecikmisən.

Gülməli dedi:

- Müəllim, fərqi odur ki, axıra kimi baxsaydım, yatıb qalacaqdım. Yerli-dibli heç dərsə gələ bilməyəcəkdim.

## 68. Əleyküm salam

Avtomobil yolda dayanmışdı. Gülməli çağırıb sürücüdən soruşdu:

- Yerin var? Mən də rayona gedirəm.

Sürücü dedi:

- Tez gəl!

Gülməli sənədlərin, işlərin sahmana salıb avtomobilin yanına gəldi. Sürücü dedi:

- Yarım saatdır səni gözləyirik, tez ol, gedək.

Sərnişinlərdən biri, -evdən ayrılmaq istəmirsən? O biri, -kimsə səbr vurub? Qeyri-biri, -qara pişik çıxıb qarşına? Beləcə suallar verdilər.

Gülməli könülsüz sualların yarısına cavab verdi yarısına vermədi. Avtomobilə əyləşdi. Beş dəqiqə olardı ki, yola düşmüşdülər. Gülməli dedi:

- Salam əleykum.

Sürücü və sərnişinlər ətrafa baxdılar. Gördülər ki, yolda və yolun kənarında heç kim yoxdur. Sonra elə bildilər ki, Gülməli telefonla danışır. Gördülər telefonla da danışmır. Sürücü soruşdu:

- Salamı kimə verdin?

Gülməli işin nə yerdə olduğunu başa düşüb dedi:

- Avtomobilə minərəkən mənə o qədər atmacalı replika atdınız ki, salam verməyi də unutdum. İndi yadıma düşdü ki, salam verməmişəm, salam verdim. Siz də salamın cavabını almaq əvəzinə məndən soruşursunuz ki, salamı kimə verdim. Salamı sizə verdim də!

Gülməli yenidən bərkdən dedi:

- Salam əleykim.

Sürücü və sərnişinlər Gülməliyə baxıb hamısı bir ağızdan dedi:

- Əleyküm salam!

## 69. Kömürün haqqı

Xəstəxananın həyətinə daş kömür yığılmışdı. Müdir hər gün kömürə nişan vururdu. Günlərin bir günü gəlib gördü ki, kömrüdən xeyli aparıblar. Müdir kömürün kim tərəfindən aparılmasını müəyyən etməkdən ötəri yalandan belə bir şayə yaydı:

- Kömür yığılan yerin böyrünə kimin 25 manat pulu düşmüşdür, oradan tapdım, həmin pulməndədir.

Pulun tapılmasını Gülməli də eşitdi. O, işin nə yerdə olduğunu başa düşdü.

Gülməli bir məktub yazıb gizlincə kömür yığılan yerə qoydu. Xidmətçilər kömürü yığarkən məktubu görüb müdirə verdilər. Müdir məktubu açıb oxudu. Məktubda yazılmışdı:

- Tapdığın pul kömürün haqqı idi. O pulu verib təzədən kömür alarsan.

## 70. Birinci dəfə idi

Gülməli evin kənarında odun yığmışdı. Axşamlar odundan hər gün oğurlayırdılar. Bunu görən Gülməli bir gün oğrunu tutmaq üçün axşam odunun arxa tərəfində gizləndi. Gecədən xeyli keçmiş kimsə gəlib odunu götürüb aparmaq istəyəndə Gülməli onu arxadan odunla vurdu. Baxıb gördü ki, qonşudur. Gülməli dedi:

- Deməli gündə odunu sən oğurlayırsan?

Qonşu dedi:

- Allah evini yıxsın mən hələ birinci dəfədir ki, gəlirdim.

## 71. İt çatdı mənə dərsim yadımdan çıxdı

Gülməli dördüncü sinifdə oxuyurdu. Tarix dərsi idi. Müəllim Gülməliyə dedi:

- Gülməli gəl dərsi danış. Gülməli cavab verdi:

- Dərsi bilmirəm.

- Nə səbəbə dərsi bilmirsən?

- Öyrənmişdim.

- Yaxşı, danış. Tez ol vaxtımız azdır.

Gülməli dedi:

- Müəllim məktəbə gələrkən, sən demə, çobanın bəd iti yolda imiş. İt çatdı mənə, az qaldı qapa. Qorxumdan dərs yadımdan çıxdı.

## 72. Bu kibrit mənimdir

Gülməli siqaret çəkmək istəyir. Amma baxıb görür kibriti (alışqan, kibrit) qurtarıbdır. Evdə heç kim olmur. Məcbur qalaraq ağıldan kəm qonşusundan kibrit alır. Evdəkilər axşam evə gələndə Gülməli kibrit alıb qonşusunun kibritini qaytarır. Qonşu kibritə baxıb deyir:

- Bu kibrit mənim deyil, mənim öz kibritmi ver.

Gülməli qonşuya bir neçə artıq kibrit versə də qonşu yenə razılaşmır. Elə öz dediyini deyir.

- Mənim öz kibritmi verəcəksən. Vəssalam.

Gülməli başa düşür ki, kibritin üstündəki şəkilə görə kibriti almır. Ondan aldığı kibiritdə bir neçə çülə qalmışdı. Evə gəlib aldığı kibriti çüləylə doldurub, qonşusuna qaytarır. Qonşu kibriti görən kimi deyir:

- Bax belə, bu kibrit mənimdir.

## 73. Gəlməyə vaxt tapdın

Alverçi Gülməlidən qoyun alırdı. Gülməli qoyunun qiymətini 120 manat dedi. Bu bazar qiymətinə uyğun idi. Alverçi dedi:

- Bunda çörək pulu yoxdur, puldan çıxmalısan.

Gülməli isə dediyi qiymətdən bir manat da çıxmaq fikrində deyildi. Bu vaxt birdən Gülməlinin on yaşlı oğlu Gülbala atasının yanına gəldi. Alverçi tez Gülbaladan yapışıb deyir:

- Sən Allah, bu oğlana görə on manat çıx. Gülməli oğluna baxıb dedi:

- Yaxşı on manat çıxdım.

Alverçi gedəndən sonra Gülməli oğluna dedi:

- Ay fərsiz, ziyankar oğlu! Gəlməyə vaxt tapdın. Məni on manat ziyana saldın.

## 74. Şəhərdə dilün açıldı

Gülməli həmkəndlisi ilə şəhərə gedirdi vağzalda bilet alıb avtobusa minərkən Gülməli baxıb görür ki, yerində bir adam oturub. Gülməli bileti ona göstərib deyir:

- Bu yer mənimdir dur ayağa.

Oturan adam əlləri ilə başa salır ki, lalam. Həmkəndlisi Gülməliyə deyir:

- Lal adamdı işin olmasın. Biz ikimiz oturarıq.

Gülməli deyir:

- 300 km-i ikimiz oturaq. Həmkəndlisi deyir:

- Eybi yoxdur növbəylə oturarıq.

Bunlar bir təhər gəlib şəhərə çıxırlar. Gülməli şəhərdə bazarda gəzə-gəzə gedəndə görür ki, avtobusda özünü lallığa qoyan adam satıcıyla danışır. Gülməli sakitcə gəlib ona yaxınlaşaraq deyir:

- A kişi avtobusda lal olmuşdun. Şəhərdə dilin açıldı. Kişi Gülməlini görən kimi əlindəki şeyləri piştaxtanın üstünə atıb qaçır.

## 75. Eşşəy körpüdən keçdi

Gülməli oğlu Gülbala ilə Teşkan kəndinə armud gətirməyə gedirdilər. Çaydan keçmək üçün ancaq eşşək suya girmirdi. Nə

qədər çalışdılarsa xeyri olmadı. Eşşək suya girmədi ki, girmədi. Gülməli oğlu Gülbalaya dedi:

- Gəl gedək eşşəyi yaxınlıqdakı piyada körpüsündən keçirək.

Onlar gəldilər. Amma eşşək piyada körpüsündən də keçmədi. Bunu görən Gülməli oğlu ilə bir müddət çarəsiz qalıb körpünün kənarında dayanmışdılar. Birdən Gülbala dedi:

- Ata, eşşək suyun axdığını görüb qorxusundan suya girmir. Gəl eşşəyin başına boş kisə keçirdib, gözlərini bağlayaq. Onda eşşək lap rahatca keçər.

Gülməli də oğlunun fikriylə razılaşdı. Eşşəyin başına boş kisə keçirdib, eşşəyin gözünü bağladılar.

Gülbala eşşəyin nuxtasından tutub, Gülməli də eşşəyi sürə-sürə körpüdən keçirtdilər. Eşşək rahatca keçdi. Gülməli eşşək keçən kimi sevincindən bərkdən dedi:

- Əhsən, oğul, sən olmasaydın gecə burda qalacaydıq.

## 76. Eşşəyin ayağı sürüşmədi

Gülməli oğlu Gülbala ilə meşədən gəlirdilər. Qış olduğu üçün yollar buz bağlamışdı. Yol yoxuş olduğundan eşşəyin ayağı sürüşürdü. Nə qədər çalışsalar da eşşək yoxuşu çıxa bilmədi.

Gülbala dedi:

- Ata, mənim yun corablarım var. Gəl corabı eşşəyin ayaqlarına geyindirək.

Bunlar belə də edirlər. Eşşəyin ayağı sürüşmədən evə rahat gəlirlər.

## 77. Atı tərsə minibsən

Gülməli həmkəndlisi ilə bazardan gəlirdi. Hava qaralmışdı. Artıq axşam idi. Gülməli həmkəndlisinə dedi:

Xeyli yol gəlmişik, atlar yorulub. Dayanaq həm atlar otlasın, həmdə ki, biz çörək yeyək. Meşənin içərisidir, vəhşi heyvan olar. Ay çıxandan sonra gedərik.

Onlar bir saata yaxın idi ki, söhbət edirdilər. Atlar da bunlardan aralı otlayırdı. Bu vaxt uzaqdan fit səsi eşidildi. Gülməli dedi:

- Qaçaq-quldurlardır, qaçaq canımızı qurtaraq. Yoxsa bizi öldürərlər.

Onlar tələsik atlarını mindilər. Gülməli qışqırdı:

- Atım dal-dala qaçır. Quldurlara sarı gedir.

Gülməlinin həmkəndlisi baxıb gördü ki, Gülməlinin atı onun atının dalısıyca gəlir. Gülməli atı tərsə minib, yügən əvəzinə atın quyruğundan yapşıb. Atını saxladı. Gülməlinin də atı dayandı. Dedi:

- Gülməli, atı tərsə minibsən. Düş, atı düz min.

## 78. Biriqadir sahədən baxır

Gülməli öz həmkəndlisi ilə xırmanda işləyirdilər. Günorta vaxtı idi. Xırmanda gözətçilərdən başqa heç kim yox idi. Gülməlinin həmkəndlisi Gülməliyə dedi:

- Gəl hərəmiz bir kisə buğda götürüb samanın altında gizlədək. Axşam evə apararıq.

Gülməlinin həmkəndlisi buğdanı kisəyə yığdı, samanın altında gizlədi. Gülməliyə dedi:

- Nə qoyun kimi gözünü döyürsən? Tez ol! Adam gələr, tez yığ. Gülməli diz üstə çöküb kisəsinə buğda yığdı. Sonra yığdığı buğdanı boşaldıb ayağa qalxdı. Həmkəndlisinə dedi:

- Biriqadir Vərzanə sahəsindən baxır.

Həmkəndlisi dedi:

- Görsün də! Bir kilometr məsafədən briqadir nə bilir biz burda nə edirik. Özünə ziyan vurma kisəni doldur.

Gülməli dedi:

- Yox, briqdir mənə baxır.

Həmkəndlisi nə qədər çalışdısa, Gülməlini başa sala bilmədi. O, elə dediyini dedi ki, briqadir mənə baxır.

## 79. Briqadirin sünbül aparması

Kolxoz sədrinə məlumat verdilər ki, sahədən axşamlar buğda sünbülünün dərzin apardılar. Sədr Gülməlini yanına çağırıb dedi:

- Gülməli, sən özün briqadirsən. Sənin evinin yaxınlığdakı sahədən buğda sünbülünün dərzin aparırlar. Sahəni nəzarətə götür.

Bir neçə gündən sonra sədrə yenə məlumat verdilər ki, sahədən axşamlar sünbül dərzin aparırlar.

Sədr axşam adamlarla həmin sahəyə gəldi. Hərəsi bir tərəfdə gizləndilər. Gecədən xeyli keçmiş Gülməli gəlib kəndlərinin arasına üç dərz yığdı. Təsadüfən sədrin gizləndiyi yerə çox yaxın idi. Gülməli dərzi belinə qaldırıb aparmaq istəyəndə sədr arxadan kəndirə yapışdı. Gülməli nə qədər qaldırdısa da dərz qalxmadı. Gülməli öz-özünə dedi:

- Hər gün aparırdım. Axı bu gün nə olub dərzi yerdən heç qaldıra bilmirəm!

Bu vaxt sədr bərkdən qışqırdı:

- Deməli, hər gün dərzləri sən özün aparırmışsan.

## 80. Dardanel boğazı burdadır

Coğrafiya dərsi idi. Müəllim uşaqlara Avropada yerləşən dəniz və boğazlar haqqında dərsi izah edirdi. Müəllim dərs izah etdikdən sonra şagirdlərə dedi:

- Kimin sualı var, nəyisə başa düşməyib soruşa bilər.

Gülməli əlin qaldırıb dedi:

- Müəllim, mən bilmədim Dardanel boğazı harda yerləşir.

Müəllim xəritədə göstərdi ki, Dardanel boğazı Egey dənizini Mərmərə dənizi ilə birləşdirir. Sonra müəllim Gülməliyə dedi:

- İndi başa düşdün Dardanel boğazı harada yerləşir?

- Xeyir, müəllim, başa düşmədim.

Müəllim Gülməlini xəritənin qarşısına keçirtdi. Əli ilə göstərdi ki, bu Egey dənizi, bu isə Mərmərə dənizidir. Dardanel boğazı isə burada yerləşərək bu dənizləri birləşdirir.

Sonra müəllim dərsi davam etdirərək bir neçə şagirdin də mövzuya uyğun bir neçə suallarına cavab verdi. Zəng çalındı. Müəllim jurnalını götürüb qapıdan çıxarkən Gülməli dedi:

- Müəllim, axı mən bilmədim Dardanel boğazı harada yerləşir.

Elə qapıdaca müəllim ağzını açıb, barmağı ilə boğazını göstərdi.

- Bax bala, Dardanel boğazı burada yerləşir.

## 81. Mən də yetim kimiyəm

Məktəbin direktoru ilə rayondan gələn nümayəndə sinifdəki yetim və kimsəsiz uşaqlara başdan-ayağa paltar verirdilər. Gülməli rayondan gələn nümayəndəyə dedi:

- Üst-başıma bax, ayaqyalın, başıaçıq cır-cında içindəyəm. Atam-anam olmasına baxmayaraq, mən də yetim kimiyəm. Mənə də başdan-ayağa paltar ver.

Nümayəndə direktordan soruşdu:

- O dərsini necə oxuyur?

- Direktor dedi:

- Əlaçıdır.

Rayondan gələn nümayəndə hamı kimi Gülməliyə başdan-ayağa paltar verdi.

## 82. Saatın çəkilməsi

Gülməli iş yerinə gec gəlmişdi. Müdir ondan soruşdu:

- Sən intizamlı işçisən. Axı nə üçün iş yerinə gec gəlmisən? Bəlkə xəstələnmişsən, yoxsa bir iş olub?

- Xeyir, müdir, xəstə deyiləm. Nə də bir iş olmayıb. Gecə 4:00-da saatlar bir saat irəli çəkiləcəkdi. Mən də gecəni yatma-

yıb düz 4:00-da saatın əqrəbin bir saat irəli çəkdim. Sonra yatdım. Yuxusuz qaldığıma görə səhərsəhəri vaxtında oyana bilməmişəm. Ona görə də gecikdim.

Müdir qəh-qəhə çəkib Gülməliyə dedi:

- Gülməli saat 4:00-u nə üçün gözlədin ki? Olmazdı ki, saatı yatmamışdan əvvəl irəli çəkib, sonra yatardın.

Gülməli müdirə dedi:

- Düz deyirsən, müdir. Heç ona şəkim ötməyib.

## 83. Gülməli canı, Gülbala canı

Gülməlinin qonşusu alverçiyə inək satırdı. Ora çoxlu adamlar yığışmışdı. Bunu görən Gülməli və oğlu Gülbala da bura gəldi.

Alverçi dedi:

- Mən uzaq kənddən gəlmişəm. Burada heç kimi tanımıram. İnəyin eybi varsa almayıb çıxıb gedim.

İnəyi satan Gülməlinin qonşusu alverçiyə dedi:

- Nə danışırsan! Gülməli canı, Gülbala canı inəyin heç bir eybi yoxdur.

Alverçi elə bildi ki, o, əzizlərinin canına and içir. İnəyi yaxşı qiymətə alıb aparıb getdi. Bu söz-söhbət bütün kəndə yayıldı. Adamlar da zarafata Gülməli canı, Gülbala canı deyib gülürdülər.

Gülməli oğlu Gülbala ilə Masallı rayonuna getmişdilər. Bazarda Gülməli qarpız satana yaxınlaşıb dedi:

- Sən Allah, iki-üç dənə mənə yaxşı qarpız ver.

Qarpız satan dedi:

- Gülməli canı, Gülbala canı qarpızların hamısı çox yaxşıdır.

Bu sözləri bir neçə alverçidən də eşitdilər. Gülbala dedi:

- Ata bunlar bizi tanıyırlar.

- Yox, bala, Allah qonşunun evin yıxsın, bu söz gəlib bura da çatıb.

## 84. Quru ağaca mıx batmır

Gülməli oğlu Gülbala üçün yazda toy etmək istəyirdi. Müəyyən tədarük də gördü. Amma işləri tamam düzüb-qoşa bilmədiyi üçün toyu payıza saxlamalı oldu. Arvadı və oğlu isə toyun tez olmasını istəyirdi. Gülbala atasına dedi:

- Ata, toyxana qurmaq üçün meşədən ağac da gətirmişik. Toy payıza qalarsa, ağaclar quruyacaq. Mismar da batmayacaq.

Arvad oğlunun sözünə qüvvət verərək dedi:

- Kişi, Gülbala düz deyir. Quru ağaca mismar batmır.

Gülməli işin nə yerdə olduğunu başa düşdü. Dedi:

- Toyxananı bəyəm siz tikəcəksiniz? Usta quru ağaca da mıx vurmağı bacarır.

## 85. Duzu böcək yeyir

Gülməli sahədə duz əkmişdi. Bir-iki ay keçdi, duz cücərmədi. Gülməli fikirləşdi ki, duzu ya vəhşi heyvan, ya da nə isə yeyir. Gülməli özütək elə öz adamlarını çağırıb dedi:

- Tüfəngi götürün sahəyə gedək. Bu işə bir əncam çəkək.

Adamlar sahəyə gəldilər. Bir-birindən aralı duz əkilən sahəni mühasirəyə aldılar. Səhərə qədər yatmayıb nə olacağını gözlədilər. Hava təzəcə işıqlanmışdı ki, sahənin ortasında iri bir böcək uçaraq düz Gülməlinin şiş papağının ucuna qondu. Gülməli dərhal ürəyindən keçirtdi.

- Elə duzu yeyən bu böcəkdir.

Tez Gülməli özündən 25-30 metr aralı buna tərəf baxan adama işarə edib böcəyi göstərdi. Həmin adam tüfənglə Gülməlinin şiş papağındakı böcəyə atəş açdı. Dərhal güllənin səsinə böcək uçub getdi. Xoşbəxtlikdən güllə Gülməlinin özünə dəymədi, papağının ucundan deşik açdı.

## 86. Buğda əvəzində duz əkibdir

Gülməli gecə yarısı buğda tayın öküzə çataraq sahəyə getdi. Ay işığına buğdanı əkin sahəsinə səpib, şumlamağa başladı. Xeyli yer şumlamışdı ki, səhər açıldı. Gülməli baxıb gördü ki, səhvən buğda tayı əvəzinə duz tayın gətirib.

Səhər tezdən arvad Gülməli üçün yemək gətirdi. Duz tayın görüb arvadı işin nə yerdə olduğunu bildi. Dedi bu nə işdi başına gəldi, ay kişi!

Kişi dedi:

- Haçana qədər Masallıdan duz alacaydım. Əkdim ki, almayım.

## 87. Kişi toyuq banlayanda bəd gətirir

Gülməlinin arvadı Gülməliyə dedi:

- Ay kişi, toyuq banlayıb, bəd gətirir. Get, mollaya baxdır.

Gülməli də qonşu kəndə gedib, nə üçün gəldiyini mollaya bildirdi. Mollanın dərhal yadına düşüb, ürəyindən keçirdi:

- Bu şəxs iki-üç il bundan əvvəl mənim mallarımı qoruq sahəsindən aparıb, sədrə cərimə etdirmişdi.

Molla sakitcə dəftər-kitabın o üzə, bu üzə aşırıb dedi:

- Çox pis göstərir. Bir həftədən sonra öləcəksən.

Gülməlinin rəngi ağardı. Özünü itirməyə başladı. Molla dedi:

- Yaşamaq istəyirsənsə yalnız bir yol var. Get indicə həmin toyuğun başın kəs, yerə basdır, üç baş qoç qurban kəs, hamısını qonşulara payla. Gülməli sevinə-sevinə gəlib, mollanın dediklərinə əməl etdi.

## 88. Gafeyni suya qoyanda yeri yaxşı şümlayır

Gülməli cüt əkinindən gəlir. Şam yeməyindən sonra deyir:

- Arvad, mən çox yorulmuşam. Sən kotanın gafeynin soyuq suya qoy ki, yaxşı islansın. Səhər yenə şuma gedəcəyəm.

Arvad kişinin dediklərinə əməl edir. Səhər şuma gedərkən, kişi baxıb görür ki, doğrudan da, arvad gafeyinləri suya qoyubdur. Gülməli gafeyinləri götürüb şuma gedir.

Arvad Gülməli üçün günorta yeməyi gətirmişdi. Gülməli gülə-gülə deyir:

- Arvad, görürsən gafeyni suya qoyanda yeri necə şümlayır.

## 89. O quzu elə bağlanmalı quzuymuş

Gülməli çölə gedərkən görür ki, oğlu çal quzunu çidarlayıb. Gülməli oğluna bir-iki çubuq vurub deyir:

- Quzunu niyə bağlayıbsan?

Oğlu deyir:

- Quzu zəmiyə girir:

Sonra oğlun evə göndərib özü çöldə qalır. Görür ki, həmin quzu yenə zəmiyə girdi. Bir-iki dəfə qaytarır. Bir dəfə qaytaranda ağacı kirttənəy atır. Ağac quzuya dəyərək quzu ölümcül hala düşür. Quzunu kəsib evə gətirir. Oğluna deyir:

- Bala, səni nahaq döydüm. O quzu elə bağlanmalı quzuymuş.

## 90. Elektirik cəryanı vurdu

Evlərə elektirik xətti çəkilmişdi. Transformator hazır olmadığı üçün evlərə elektirik işığı verə bilmədilər. Gülməli elektirik lampası almamışdı. Ona görə də patronun içərisinə toz girməsin deyə pambıq qoydu.

Bir neçə aydan sonra elektirik cərəyanı verildi. Gülməli sevinə-sevinə patrondan barmağı ilə pambığı çıxartmaq istəyərkən onu elektirik cərəyanı vurdu. Özündən asılı olmayaraq yerə yıxıldı. Arvad bərkdən qışqırdı:

- Bilmirsən elektirik cərəyanı adamı öldürür?

Gülməli özünə gəlib dedi:

- Mən heç pambığı patrona taxanda məni elektirik cərəyanı vurmadı. Elə bildim indi də məni vurmaz.

## 91. Sən özün hülqumsuzsan ki...

Gülməli çayın kənarında traktor işləyə-işləyə saxlayıb, tormuza çəkici keçirib yerə düşür. Lapetə yük vurmaq üçün adamlarla birlikdə işləyirdi. Traktorun silkələnməsi nəticəsində çəkic çıxır. Traktor hərəkət etməyə başlayır. Gülməli istiyir ki, qaçıb traktoru saxlasın, adamlar getməyə qoymur. Buna baxmayaraq Gülməli adamların əlindən buraxılaraq, qaçıb düz qayanın qırağında cəld traktora tüllanıb minib traktoru saxlayır. Adamlara deyir:

Bir işdi başıma gəldi. Heç yerdə deməyin.

Gülməli kəndə gələrkən yolda traktoru saxlayıb çobana deyir:

- Az qaldı traktor qayadan aşsın. İçərisinə girib güclə saxladım.

Bu minvalla Gülməli hadisəni çaydan gələnə qədər 7-8 nəfərə danışır. Yanında oturan adam ona deyir:

- Bizə dedi ki, bir işdir başıma gəldi, heç kəsə deməyin. Sən özün hülqumsuzsan ki...

## 92. Gizlətmə, onsuz onu da sındıracağam

Gülməlinin atası Bakıya gəlirdi. Gülməli dedi:

- Məni də apar.

Atası dedi:

- Sonra apararam.

Gülməli dedi:

- Aparmasan gör evdə nə edəcəyəm.

Gülməli evə qayıdıb, evdəki bütün qab-qacaqları sındırdı. Qoca nənəsi nehrəni gizləyərkən Gülməli görüb dedi:

- Gizlətmə, onsuz da sındıracağam.

## Sən demə divar qurtarıbmış

Gülməli usta idi. O, həmişə hördüyü divarın üstünə çıxıb divarın düzlüyünü müəyyən etmək üçün dal-dala çəkilib gözəyarı yoxlayırdı. Bu minvalla divarı hörüb başa çatdırırdı. Həsənqulunun evin tikəndə yenə də öz adəti üzrə divarın düzlüyünü bilmək üçün geri çəkilərkən Gülməli yerə yıxıldı. Ağlı başından çıxdı. Gülməli ayılandan sonra Həsənqulu soruşdu:

Sənə nə oldu yıxıldın?

Gülməli dedi:

- Mən elə bilirdim ki, arxada divardan qalır. Sən demə divar qurtarıbmış.

## 93. Neynək, heç fərqi yoxdur

Gülməlinin oğlunun əsgərlik vaxtı idi. Onu əsgər aparacaqdılar. Kolxoz sədri isə istəyirdi ki, o əsgər getməsin. Kolxozun mal-qarasına naxırçılıq edənə güzəşt edirdilər. Əsgər aparmırdılar. Sədr də istəyirdi ki, bu yolla Gülməlinin oğlun əsgər getməyə qoymasın.

Rayonda hərbi komisarın komissiyasında sədr Gülməlinin oğluna dedi:

- Kolxozun 40 baş danasını otararsan?

Oğlan dedi:

- Vallah otara bilmərəm. İtirərəm.

Sədr çox dedi, oğlan az eşitdi. Sədr ona məcbur etdi ki, - otaracaqsan.

Oğlan dedi:

- Danaları yox, quzuları otararam.

- Neynək, heç fərqi yoxdur.

## 94. Deyirsən ip qırıl, qırılır

Gülməlinin arvadı cəhrə əyirirdi. Nəvəsi də yaxınlıqda əyləşmişdi. Uşaqlar görür ki, cəhrənin pərləri bir neçə dəfə fır-

landıqdan sonra iy əyri olduğu üçün ip qırılır. Uşaq bu vəziyyəti görüb həmin yerə çatanda deyirdi:

- İp qırıl, -ip qırılırdı.

Artıq bu bir neçə dəfə davam edirdi. Gülməlinin arvadı cana yığılıb uşağı qovmağa başlayır. Deyinə-deyinə deyirdi:

- Qoymursan cəhrəni əyirəm. Deyirsən ip qırıl, ip qırılır.

Gəlin dedi:

- Məgər uşaq deməklə ip qırılar? İy əyridir, ona görə də qırılır.

## 95. Gəl şokaladlarımızı dəyişək

Gülməli oğluna deyir:

- Bala, cibimdə şokolad var. Götür böl yarısını mənə ver, yarısı da özündə qalsın, sonra yeyərsən.

Oğlu şokoladı bölüb atasına verir. Atası şokolada baxan kimi hissələrinə əsasən şokoladdan ona yarısından az verildiyini bilir. Oğluna deyir:

- Oğul, mən bilirəm ki, sən məni çox istəyirsən. Ona görə də mənə çoxun veribsən, özünə azı qalıb. Mən isə şokolad çox yeyə bilmirəm, elə az yeyirəm. Ona görə də gəl şokoladlarımızı dəyişək.

Oğlu öz səhvini başa düşərək utanıb xəcalət çəkir.

## 96. Demədin ki, odun doğra

Gülməli öz qardaşı ilə meşəyə odun doğramağa getmişdi. Qardaşı meşədə atın üstündən baltanı götürərkən gördü ki, kəndir evdə qalıb. Gülməliyə dedi:

- Get, evdən kəndiri gətir.

Gülməli getmir. Qardaşı nə qədər yalvardısa, xeyri olmadı. Gülməli getmədi ki, getmədi.

Qardaşı Gülməliyə dedi:

- Onda sən burda qal, mən gedib kəndiri gətirim.

Qardaşı evə gəldi. Kəndiri götürüb meşəyə qayıtdı. Gördü ki, Gülməli odun doğramayıb, elə göstərdiyi yerdə çayın qırağında qalıb. Soruşdu:

- Bəs niyə odun doğramayıbsan?

Gülməli dedi:

- Dedin ki, qal burda məndə qaldım. Demədin ki, odun doğra.

## 97. Bacanaq, səni bağışladım

Gülməlinin bacanağı kəndə gəlir. Məqsədi adamları gizlincə pambıq yığmaq üçün Muğana aparmaq istəyi idi. Bundan kolxozun sədri xəbər tutur. Sədr işçilərini göndərərək onun qaldığı evdən onu idarəyə gətirtdirir.

Adamlar onu müdafiə etmək üçün kimisi balta, kimisi yaba, kimisi ağac götürüb idarəyə gəlirlər.

Gülməli sədrin otağına böyük bir ağacla daxil olub deyir:

- Əclaflar, bunun nə günahı var gətirmisiniz? Hirsli ağacı qaldırıb sədrin başına vurarkən ağacın ucu tavana ilişib Gülməlinin öz başına sürətlə dəyir. Onun başından qan axmağa başlayır. Sədr işin nə yerdə olduğunu başa düşüb Gülməliyə gülə-gülə deyir:

- Özün öz başına vurduğun üçün, bacanaq, səni bağışladım. Çıx get.

## 98. Oğru pişiyin qaşqaldaq yeməsi

Gülməli bazardan gəlib həyətdə zənbillərin yerə yığırdı. Oğlu Gülbala soruşdu:

- Dədə mənim üçün qaşqaldağ quşu alıbsan?

- Almışam, zənbillərdədir.

Gülbala zənbilləri axtarıb qaşqaldaq quşunun ətin tapdı. Əlinə götürüb sevinə-sevinə, oynaya-oynaya bir neçə dəfə dedi:

- Qızardıb ətin ləzzətlə yeyəcəyəm. Sonra yerə qoyub atasına dedi:

- Dədə, mənə paltar da alıbsan?

- Hər şey almışam. Hamısı zənbildədir.

Gülbala zənbilləri axtararkən bir oğru pişik qaşqaldağı götürüb qaçmağa başladı. Gülməli, arvadı və oğlu Gülbala nə qədər qaçsalar da pişiyə çata bilmədilər. Pişik qaçıb evin tirinə çıxdı. Heç nə olmamış kimi oturaraq, pəncəsinin arasında qaşqaldağın ətini yeyirdi. Gülbala da məyus-məyus pişiyə baxırdı. Gülməli isə xeyli pişiyə baxdıqdan sonra dönüb ikiəlli Gülbalanın başına qapaz vuraraq dedi:

- Qaşqaldağın ətin qızırdıb yeyə bildin? Bilmədin ki. Amma gör pişik tirdə oturub necə ləzzətlə yeyir. Sənin də burda ağzının suyu axır.

## 99. Bəyin xoruz tutması

Gülməlinin toyu idi. Adamlar gəlini gətirmək üçün qızın həyətinə gəlmişdilər. Qara zurna çalındıqca adamlar rəqs edib şənlənirdilər. Oğlan adamları adəti üzrə toyuq, quş, xoruz tutmaq üçün çalışırdılar. Bəyoğlan, sağdiş və soldiş bu mənzərəni seyr edirdilər.

Bu vaxt vağzalı havası eşidildi. Adatə əsasən bəyoğlan gedib gəlini evdən çıxartmalıdır. Bu vaxt həm də cavanlar qırmızı xoruzu qovurdular, amma tuta bilmirdilər. Xoruz çıxıb qaçarkən bəyoğlan gəlini gətirmək əvəzinə qaçaraq xoruzu bir anlığa tutdu. Gətirib cavan oğlanlara verib dedi:

- Siz də özünüzə cavan deyirsiniz. Cavan mənim kimi olar.

## 100. Ölü deyil

Hava qaralmışdı. Gülməli kinoya getmək üçün yolda qalıb yoldaşlarını gözləyirdi. Bu vaxt Gülməli görür ki, qəbirstanlığın yanından bir ağ paltarlı buna sarı gəlir. Onu ölü bilib, qorxusundan qaçır. Gəlib kəndin ortasında dayanır. Bir də görür ki, həmin

ağ paltarlı ölü yenə ona sarı gəlir. Yenə qorxusundan qaçaraq gəlib klubla xəstəxana arasında toplaşmış adamların içərisinə girərək qışqırır:

- Qoymayın məni ölü tutmaq istəyir.

Adamlar baxıb görürlər ki, ağ xalatda gələn xəstəxana işçisidir. Gülməli deyir:

- Qorxma, bala, o, ölü deyil, tibb işçisidir. Xəstəxanaya gəlir.

## 101. Ye öz malın kimi

Gülməlinin oğlunun toyu idi. Toyda kəsməyə cöngəsi arıq idi. Kolxozun çobanına arıq cöngə verib kök bir cöngə aldı. Toy günü kolxoz sədri də toya gəlmişdi. Sədrin stolunda cöngənin ətindən müxtəlif növ hazırlanmış yeməklər düzülmüşdü. Gülməli gəlib sədrə dedi:

- Ye, öz malın kimi.

- Sağ ol. Yeyirəm.

Gülməli bir azda sədrə zarafatyana dedi:

- Yox! Yox, sən Allah, mənim sözlərimi təkrar elə. De, yeyirəm. Öz malım kimi.

Sədr də bu sözləri təkrar eləməyə başladı. Bunu bilənlər və Gülməli qəh-qəhə çəkib güldülər. Bir neçə aydan sonra sədr bildi ki, o sözü toyda mənə nə üçün deyiblər.

## 102. Oğrunu yox, stulu sındırıbsan

Payız gecələrinin biri idi. Güclü külək əsirdi. Gülməli evin ikinci mərtəbəsində yatmışdı. Küləyin təsirindən işıqlar sönmüş, hər tərəf qaranlıq zülmətə bürünmüşdü. Arabir taqqıltı səsi gəlirdi. Bu vaxt Gülməli səsə ayılır. Bu tappıltı bir neçə dəfə təkrar olur. Gülməli sobanın yanındakı yoğun odundan birini əlinə götürərək qapıya yaxınlaşdı. Qapını yavaş-yavaş aralayıb eyvana göz gəzdirdi. Gördü ki, bir nəfər enlükürək adam nəyəsə bü-

külüb eyvanın qırağından ona baxır. Cəld hərəkətlə odunu ona atıb. O, kəllə-mayallaq aşaraq ikinci mərtəbədən gurultu ilə həyətə düşdü. Gülməli qışqırdı:

- Arvad, oğrunu vurub ikinci mərtəbədən yerə saldım. Səsi gəlmir. Yəqin boynu altında qalıb qol-qıçı sındı. Arvad gəlib baxıb gördü ki, stul, palaz qarışıq yerə düşüb. Dedi:

- Kişi, sən oğrunu yox, stulu vırıb sındırmısan.

## 103. Oğrunun baş tutmayan kələyi

Gülməli öz həmkəndlisiylə Bakıya getmişdi. İşləri qurtarandan sonra qatara minmək üçün vağzala gəlmişdilər. Gülməli çox acmışdı. Zənbilindən peçenye qutusu çıxardıb qərzinkənin üstünə qoydu ki, yesin. Bu vaxt bir adam gəlib peçenyeni götürüb beş-altı metr kənara tulladı. Gülməli qaçıb peçenye qutusunu götürmək istəyəndə həmin adam-oğru qərzinkəni götürüb qaçmağa cəhd etdi. Qaçarkən Gülməlinin həmkəndlisi qərzinkədən yapışaraq qışqırdı:

- Kömək edin! Oğru qərzinkəni aparır.

Bu vəziyyəti görən oğru qərzinkəni ataraq qaçdı.

Gülməlinin həmkəndlisi Gülməliyə dedi:

- Ye indi, gözünün qurdu ölsün. Sən bilmirsən, oğru bu oyunu sənin üçün yalandan qurmuşdu. Bir qutu peçenyedən ötrü, mən görməsəydim, qərzinkəni aparacaqdır.

## 104. Dondurma

Yay günü idi. Gülməli ilk dəfə olaraq şəhərə getmişdi. O, qardaşıyla şəhərə gəzməyə çıxdı. Qardaşı onun üçün dondurma aldı. Gülməli soruşdu:

- Bu nədir? Qardaşı dedi:

- Dondurmadır. Bir neçə dəqiqədən sonra qardaşı gördü ki, Gülməlinin cibindən dondurma əriyib tökülür. Soruşdu:

- Gülməli, bəs niyə dondurmanı yemədin?

Gülməli dedi:

- Mən nə bilim o əriyəcək. Dedim evdə yeyərəm.

## 105. Gülməli qorxar, canı da çıxar

Gülməli qonşu kəndə getmişdi. İşi çox olduğuna görə gecikdi. Artıq qaranlıq düşmüşdü. Adamlar dedi:

- Getmə yolda qorxarsan.

Gülməli dedi:

- Evdə nigaran qalarlar, getməliyəm. Gülməli yolnan gələ-gələ deyirdi:

- "Gülməli qorxma! Gülməli qorxma" Gülməli qaçaq və igiddir! O, bu sözləri deyə-deyə gəlib Qışlar dərəsinə çatdı. Onu vahimə bürüdü. Dərədən axan suyun şırıltısı bir az da qorxutdu. Təsadüfən bu vaxt onun dalınca gələn qardaşları təpəlikdən Gülməlini çağırırlar. Bu səs dərədən əks-səda verirdi. Gülməli elə bildi ki, onu dərənin içindən cinlər çağırır. Özünü itirərək bərkdən qışqırdı:

- Gülməli qorxar, canı da çıxar! Gülməli qorxar, canı da qorxar!

Bu sözləri təkrar edə-edə öz kəndinə tərəf qaçır.

## 106. Yəqin sabunda iş var

Bir qrup adam pambıq zavodunda işləyirdi. Onlar hər gün işdən sonra hamamda yuyunurdular. Günlərin bir günü Gülməli adəti üzrə gözlərin yumub başın sabunlayıb, duşun altına girdi. Bunu görən həmkəndliləri iri bir sabunu əlində tutub yumağa başladılar. Gülməli başından sabunu yuduqca sabun getmirdi. Artıq xeyli vaxt idi. Gülməli qışqırıb həmkəndlilərinə dedi:

- Başımı yuyuram sabun başımdan getmir. Elə bil heç yumuram, sabun olduğu kimi qalır.

Həmkəndliləri qəhqəhə çəkib gülərək dedilər:

- Yəqin sabunda iş vardır.

- Yox! Elə gündə bu sabunla yuyuram. Bu gün bu sabuna nə olub bilmirəm.

## 107. Bu qurban o qurbanlardan deyil

Traktorla Güneylər adlanan sahədə şum vururdular. Sədr və kolxoz işçiləri hamısı orda idi. Sədr Gülməliyə dedi:

- Sən briqadisrən gəl mənimlə traktorda əyləşək, traktorçular da həvəslənib narahat yerləri də şumlasınlar.

Bunlar belə də etdilər. Traktor narahat yerdə yoxuşa qalxarkən çəkmədi. Traktor geriyə Şihlə dərəsinin uçurumuna sarı gəlirdi. Traktorçu özün itirdi. Yerə tullanmaq istərkən, sədr onun qolundan tutdu. Dedi sən nə edirsən? Tez kotanı tamamilə oturt yerə, traktoru sağa döndər. Gülməli isə ancaq belə deyirdi:

- Allah rəhm et, bu qurban o qurbanlardan deyil! Yalnız dönə-dönə dayanmadan bu sözləri təkrar edirdi. Sədr göstəriş verə-verə traktor rahata çıxdı. Sədr Gülməlidən soruşdu:

- Bu nədir sən hey deyirsən – Allah rəhm et, bu qurban o qurbanlardan deyil.

Gülməli dedi:

- Sədr, mən həmişə işim çətinə düşəndə qurban boyun alırdım. Amma işim düzələndən sonra qurban kəsmirdim. İndi isə kəsəcəyəm. Daha bu qurban o qurbanlardan deyil. Kolxoz işçilərini də götürüb axşam bizə gələrsən. Mən getdim qurban kəsməyə.

## 108. Yorğan örtün

Qış günü idi. Gülməlinin 10-12 yaşı olardı. Onun babası qışın soyuq günü öldü. Gülməli gəlib gördü ki, babasının üstünə mələfə örtüblər. O qışqırdı:

- Babam üşüyər, babam üşüyər! Üstünə yorğan örtün.

## 109. Avtobus elə həmən avtobusdur

Payız günlərinin biri idi. Gülməli Salyan rayonunun dayanacağında Yardımlı rayonuna gəlmək üçün avtobus gözləyirdi. Bir neçə dəqiqədən sonra avtobus gəldi. Qarşısındakı lövhəyə Masallı rayonu yazılmışdı. Gülməli avtobusa mindi. Fikirləşdi ki, Msallıda düşüb, Yardımlı avtobusuna minərəm. Gülməli Masallıda düşüb, təcili olaraq zənbillərini götürüb on beş dəqiqyə Yardımlı dayanacağına gəldi. Gördü ki, avtobus dayanıb. Qabağındakı lövhəyə Yardımlı yazılıb. Sevinib öz-özünə dedi:

- Yaxşı oldu, yubanmayıb, evə tez gedəcəyəm.

- Avtobusa mindi. Baxıb gördü ki, sürücü də avtobusdakı adamlar da həmin adamlardır. Özünün də yeri boş qalıb.

Gülməli özündən asılı olmayaraq bərkdən deyir:

- Pay atoynan avtobus elə həmən avtobusudr, elə adamlar da!

Ancaq lövhə dəyişib, Masallı rayonu yerinə Yardımlı rayonu yazılıb.

## 110. Atımın başı yoxdur

Gülməli həmkəndliləri ilə atlara minib uzaq bir kəndə toya getdilər. Toyda yeyib-içib şənləndilər. Gülməli şərab içib keflənmişdi. Evə gələndə toy sahibi ilə vidalaşıb, gəlib hərə öz atlarına mindilər. Birdən Gülməli qışqırdı:

- Ay aman, atımın başı yoxdur. Hanı atımın başı!

Həmkəndlilər baxıb gördülər ki, Gülməli atı tərsə minib. Onlar dedi:

- Gülməli bizi rüsvay etmə, atı təsə minibsən, düş düz min.

## 111. Sən də zirək olardın

Gülməlinin Masallı rayonunda olan dostu Gülməligilə qonaq gəlmişdi. Onlar çörək yeyərkən, hələ qonaq bir az yemişdi ki, Gülməli arvadını çağırdı:

- Gəl süfrəni yığışdır. Arvad cəld gəlib süfrəni yığışdırdı.

Qonaq ac qaldı. Gülməli bir neçə aydan sonra Masallıya həmin dostugilə qonaq getdi.

Ev sahibi gizlincə arvadına dedi:

- Mən sənə nə desəm onu yerinə yetirərsən.

Gülməli xörəkdən bir neçə qaşıq yemişdi ki, ev sahibi dedi:

- Arvad, gəl süfərni yığışdır. Arvad süfrəni yığışdıranda Gülməli cəld xörək qabından yapışıb dedi:

- Hara aparırsan? Hələ mən doymamışam. İndi başlamışam.

Ev sahibi Gülməliyə dedi:

- Mən sizə qonaq gələndə bir neçə tikə yemiş süfrəni arvadına yığışdıtdın. Mən də ac qaldım. Yadından çıxmayıb ki...

Gülməli dedi:

- Sən də zirək olardın, süfrəni qoymayardın yığışdırmağa.

## 112. Sağın evin təmiz elətdirdim

Gülməli sədr işləyirdi. İcra başçısı fermaya gəlib, sağın evin pis vəziyyətdə görüb Gülməliyə dedi:

- Bu gün döşəməni təmir etdirib mənə xəbər verirsən.

Gülməli gecə saat 4-də icra hakiminə zəng vurur. İcra hakimi yuxulu halda, həyəcan içində dəstəyi qaldırır. Gülməli deyir:

- Danışan sədr Gülməlidir. Sağım evini təmir elətdirdim. İcra hakimi əsəbi halda deyir:

- Allah evini yıxsın! Mən də elə bildim nəsə, hansısa bədbəxt hadisə baş verib. Bu vaxtı da adamı narahat edərlər. Bunu sabah deyə bilməzdin?

## 113. Qırmızı qələmlə yaz

Gülməli tikinti idarəsində işləyirdi. Ailəli olduğu üçün kirayədə qalırdı. Dəfələrlə müdiriyyətə ərizə vasitəsi ilə müra-

ciət etmişdi ki, ailə yataqxanasında məni də evlə təmin edin, ancaq bir nəticə olmamışdı. Bundan sonra gələnlər də ailə yataqxanasında ev alırdı. Amma Gülməliyə isə yataqxanada ev vermirdilər ki, vermirdilər.

Günlərin birində ona dostu rastlaşdı. Dedi, nədir, Gülməli, gözümə bikef dəyirsən. Gülməli dedi:

- Hamı ailə yataqxanasında ev alır, mən ala bilmirəm. Dostu ona dedi ki, mənim adım olmasın, əzizim, üstünü qırmızı qələmlə yazdır.

Növbəti ev bölgüsündə Gülməli müdirin qəbuluna girdi. Ərizəsini onun masası üstünə qoydu. Müdir qara qələmi götürüb, ərizənin üstünü yazmaq istəyərkən, gülməli qara qələmi tutaraq, cibindən qırmızı qələmi çıxarıb müdirə dedi:

- Xahiş edirəm ərizəmin üstünü bu qırmızı qələmlə yaz.

Müdir qəh-qəhə çəkib gülərək qara qələmi yerinə qoyub, oradan qırmızı qələmi götürüb ərizənin üstünü yazdı. Bununla da Gülməli axır ki, ailə yataqxanasında ev aldı.

## 114. Gülməlinin arvadlarıyıq

Kəndə kolxoz sədri başqa kənddən təyin edilmişdi. O, hələ kənd adamlarını yaxşı tanımırdı. Günlərin birində bir neçə qadın toplanmış taxıl zəmilərinin yerindən sünbül yığmaq üçün taxıl sahəsinə getdilər. Onlar bir-birinə dedilər:

- Əgər sədr gəlsə, sədrə deyərik ki, Gülməlinin arvadlarıyıq.

Onların hər biri sahənin müxtəlif yerlərinə getdilər. Sədr axşamacan adəti üzrə yenə də atı minib sahələri gəzirdi. Gəzərkən qadının birinə rastlaşdı. Soruşdu:

- Sən kimin arvadısan?

- Gülməlinin.

- Sabah kolxoz işinə gələrsən.

Sədr başqa bir sahədə yenə bir qadınla rastlaşıb soruşdu:

- Sən kimin arvadısan?

Gülməlinin.

- Sabah kolxoz işinə gələrsən.

Bunlardan xeyli aralı sədir üçüncü bir qadına rast gəlib ondan da soruşdu: -sən kimin arvadısan? O da Gülməlinin -deyə cavab verdi. Sədr ona da sabah kolxoz işinə gələrsən deyə tapşırıq verdi. Sədr kəndə qayıdıb, axşam gəlib idarədə adəti üzrə sabah üçün işçilərə işlərini tapşırırdı. Oradakı adamlara dedi:

- Bu gün sahədə bir neçə qadına ayrı-ayrılıqda rast gəldim. Soruşdum ki, kimin arvadısan. Hər biri dedi:

- Gülməlinin arvadıyam. Allah bu Gülməlinin evini yıxsın, onun nə çox arvadları var. Çağırın onu idarəyə, görüm arvadlarına niyə yəyə durmur, buraxıb çöllərə...

Sədrin bu sözlərinə bütün işçilər qəhqəhə çəkib gülməyə başladılar. Briqadir dedi:

- Sədr, Gülməli yeddinci sinifdə oxuyur, onun heç bir arvadı yoxdur.

Sədr işin nə yerdə olduğunu bilib, o da qəhqəhə çəkib işçilərlə gülməyə başladı.

## 115. Az qalmışdı ha, yerə yıxılam

Kənddə toy idi. Gülməli yenə də şərab içib keflənmişdi. O, dostları ilə rəqs edirdi. Birdən Gülməli öz müvazinətin saxlaya bilməyib yerə yıxıldı. Dostları onu yerdən qaldırdı. Gülməli dostlarına dedi:

- Az qalmışdı ha, yerə yıxılam.

## 116. Bu avtobus Yardımlıya getmir

Masallı şəhərində Gülməli bazarlıq edib avtobus dayanacağına gəldi. Yardımlı rayonuna gedən avtobusu müəyyən etmək üçün avtobusların qarşısında lövhələrə baxarkən bir avtobusun lövhəsindəki “Y” hərfini görən kimi tam oxumamış tez-tələsik avtobusa mindi. Bir neçə dəqiqədən sonra avtobus yola

düşdü. Yardımlıya sarı yox, əks istiqamətdə hərəkət etdi. Gülməli elə bildi ki, kimisə götürüb geri qayıdacaq. Avtobusda adamlar bir-birinə kimisi sabah üçün qamışlıqda quş vuracağını, kimisi çalada balıq tutacağını, qayıqla dənizdə balıq tutacağını söyləyirdi. Gülməli adamlara dedi:

- Siz nə danışırsız. Axı Yardımlıya gedirik. Guya bilmirsiniz Yardımlıda nə çala, nə də dəniz var. Adamlardan biri Gülməliyə dedi:

- Bu avtobus Yardımlı rayonuna yox, Masallı rayonunun Yeyinkəndinə gedir. Adamlar gülüşdülər. Gülməli pərt olub, avtobusdan düşüb məyus geri qayıtdı.

## 117. Vertolyotu görürəm

Gülməli öz həmkəndliləri ilə Bir May bayramı keçirtmək üçün Qəfər bulağına getmişdilər. Onlar yeyib-içib şənləndilər. Gülməli şərab çox içdiyinə görə kefliydi. O, arxası üstə uzanmışdı. Bu vaxt Masallı rayonu tərəfindən vertolyot səsi eşidib , görməyə başladı. Gülməli həmkəndlidinə dedi:

- Vertolyot səsi gəlir, hardan gəlir?

Həmkəndlisi dedi:

- Odur vertolyot çay boyu gəlir.

Həmkəndlisi nə qədər deyib göstərdisə, Gülməli də bir o qədər dönə-dönə dedi ki, vertolyotu görmürəm. Vertolyot getdikcə daha da yaxına gəldi. Həmkəndlisi dedi:

- Necə görmürsən, odur bizim qarşımızda uçur. Yardımlı rayonuna sarı gedir.

Adamlardan biri dedi:

- Nə özünü yorursan, görmürsən ki, Gülməlinin gözləri yumuludur.

O hardan vertolyotu görəcək.

## 118. Dadına baxıram

Gülməlinin atası Gülməlinin siqaret çəkdiyini eşidir. Onu yanına çağırıb deyir:

- Gülməli, sən siqaret çəkirsən?

- Yox, ata, nə siqaret, mən siqaret çəkmirəm. Heç bir gilə də ağzıma dəymiyib.

Atası Gülməliyə siqaretin sağlamlıq üçün təhlükəli ziyanları barədə danışır. Sonra da deyir ki, sən mənim ağıllı balamsan, heç vaxt dediklərimi unutma və heç zaman siqaret çəkmə. Əgər bir dəfə çəksən öyrəşib həmişə çəkəcəksən və heç vaxt da ata bilməyəcəksən.

Elə bir neçə gün keçmişdi ki, atası Gülməlini küçədə siqaret çəkərkən görür. Bərkdən qışqıraraq deyir:

- Əclaf, məni aldadırsan, bəs deyirdin siqaret çəkmiyəcəm!

Gülməli deyir:

- Ata, çəkmirəm ki, dadına baxıram, görüm, necədir.

## 119. Yavaş-yavaş gedirəm

Gülməli axırıncı dərslərdən məktəbdən qaçırdı. Bundan xəbər tutan direktor onu otağına çağırdı. Gülməliyə dedi:

- Eşitmişəm axırıncı dərslərdən qaçırsan .

- Xeyr, müəllim, mən dərsdən heç vaxt qaçmıram.

- İnanıram sənə, get sinifə.

Gülməli yenə də həmin gün dərsdən qaçdı. Bunu direktor da bildi. Növbəti gün direktor məktəbin həyətinə girişdə görünməyən yerdə gizləndi. Gülməli adəti üzrə yenə də axırıncı dərsdən əvvəl tənəffüsdə kitabları qoltuğuna vurub məktəbin həyətinə girişdən çıxarkən direktor onun qarşısını kəsdi. Gülməliyə dedi:

- Bəs deyirdin dərsdən qaçmıram!

Gülməli dedi:

- Müəllim görmürsən ki, qaçmıram, yavaş-yavaş gedirəm.

## 120. Gecən xeyrə qalsın

Axşam televizorda futbola baxmaq üçün Gülməli dayısıgilə gəldi. Futbola baxdılar. Gülməlinin sevdiyi komanda qalib gəldi. Gülməli sevinə-sevinə evlərinə getdi. Evə çatar-çatmaz yadına düşdü ki, mən dayıma “gecən xeyrə qalsın” deməmişəm. Gülməli dayısıgilə qayitdı. Dayısı soruşdu:

- Gülməli evinizdə nə olub, geri qayıtdın?

Gülməli dedi:

- Dayı, heç nə olmayıb, evimizə gedərkən sənə “gecən xeyrə qalsın” deməmişəm. Indi deyirəm.

- Gecən xeyrə qalsın.

Dayısı gülə-gülə dedi:

- Bacıoğlu, xeyrə qənşər.

# NAĞILLAR

## 1. Sehirli alma ağacı

Xoruzların səsinə, həm də adət etdiyinə görə baba vaxtından əvvəl yuxudan oyandı. Gözlərini ovxalaya-ovxalaya ulduzlarla zinətlənmiş göyə tərəf boylanaraq dan ulduzunu axtarmağa başladı. Dan ulduzu hələ görünmürdü. Baba özünü günahkar sayaraq dodağının ucunda öz-özünə astadan pıçıldadı:

- Deyəsən, yenə də vaxtından tez oyanmışam. Kaş ki, bir az yatmış olaydım. Yenə öz-özünə dedi:

- Məgər yatmaq olur, o qədər vərdiş etmişəm ki, eyni vaxtda oyanıram. Artıq 70 ildir ömrümdən, günümdən günlər sel kimi axıb gedir.

Baba dərindən köksünü ötürərək gileylərini yenə davam etdi:

- Mən boynuma almasam da, çağırmasam da, qocalıq qapımı döymüşdür.

Elə bu vaxt “Hamar meşə”nin yüksəkliyindən dan ulduzu yavaş-yavaş səmada göründü. Onun gur işığı yanındakı ulduzların işığını közərtdi.

Baba yatağından qalxıb, paltarlarını geyindi. Su qabını sərin su ilə doldurdu.

Dəstəmaz ala-ala bir neçə dəfə salavat dedi. Sonra sübh namazı qıldı. Ağır addımlarla həyətə düşərək tövləyə yaxınlaşdı və qapını açdı. Kəhər atını həyətə çəkib tut ağacına bağladı. Onu oxşaya-oxşaya çulladı. Sonra qayıdıb yavaşca astadan qarısını səslədi:

- Bibi qızı, ay bibi qızı...

İki dəfə çağırmışdı ki, qarı yerindən qalxa-qalxa:

- Gəlirəm, gəlirəm, - deyib cavab verdi.

Qarı tez süfrəni hazır elədi. Baba səhər yeməyini yedi. Sonra baltanı, sicimi, şivişi atın üstünə asdı. Atı minərək meşəyə sarı yollandı. Qonşu kəndin yanından keçəndə hava təmiz

işıqlandı. Günəş dağın arxasından qızıl sini kimi görünməyə başladı. Bir neçə dəqiqədən sonra nura qərq olmuş şüaları ilə isti nəfəsini ətrafa yaydı.

Baba otların üstündəki şehlərin neçə-neçə rəngə çaldığını sanki birinci dəfə idi ki, seyr edirdi. Otların, çiçəklərin üstündəki şeh damlaları qızıl sırğanı xatırladırdı. Qaratoyuq koldan-koldan yerini dəyişə-dəyişə çöl quşlarına və çöl heyvanlarına öz nəğməsi ilə gündüzün gəlişini bildirirdi. Çəpgöz, haçaqulaq dovşan yolun üstündəki koldan çıxıb atın ayaqları arasından yolun altına sıçradı. At qulaqlarını şəkliyib dovşanın ardınca baxdı. Baba ayaqlarını döyəcləyə-döyəcləyə meşənin dərinliyinə doğru getdi. Odun doğradığı yerə çatdı. Atdan düşüb, atı kiçik bir ağaca bağladı. Balta ilə ağacların quru budaqlarından doğrayaraq atın yükünü düzəltdi. Azca dincəldi. Torbasına qoyduğu su qabını çıxarıb sərin sudan içdikdən sonra Allaha şükür elədi. Günəşli hava olmasına baxmayaraq, hava sərin idi. Baba odunu atın üstünə yükləyib evə tərəf qayıtmağa üz tutdu.

Babanın nəvəsi Elşən yuxudan ayılanda Günəş lap yüksəkliyə qalxmışdı. Gülnisə nənə nəvəsinə qıçı gödək şalvar geyindirdi. Yemək verildikdən sonra həyətə düşürtdü. Beş yaşlı Elşən babasını çox sevirdi. Babası evdə olmayanda çox darıxırdı. O babasını bağçada axtarmağa başladı, çünki babası evdə deyildi. Amma onu bağçada da tapa bilmədi. Babasını səslədi.

- Baba, baba, ay baba!

Səsə Gülnisə eyvana çıxıb nəvəsini çağırıb dedi:

- Bala baban meşəyə gedib, harda olsa indi gələr.

Elşən mızıldaya-mızıldaya ağlamsındı. Sonra ağacdan düzəltdiyi atın minib həyətdə o başa, bu başa çapmağa başladı. Bir az keçmişdi ki, baba kəndin kənarındakı təpədə göründü. Elşən babasını dərhal tanıdı. Sevincindən atılıb düşə-düşə qışqırdı:

- Babam gəlir, babam gəlir! Ay can, ay can, babam gəlir.

Elşən babasına tərəf yüyürdü. Kəndin girəcəyində babasını qarşıladı.

Baba nəvəsini öpə-öpə əzizləməyə başladı:

- Ay mənim göyçək balam, ay mənim dəcəl balam, ay mənim ağıllı balam.

Baba nəvəsini qucağına götürərək həyətə gətirdi. Atın yükünü açıb sahmana salırdı. Gördü ki, nəvəsi torbanı axtarır. Nəsə su qabından başqa heç nə tapa bilmədi. Ona görə də üzünü babasına sarı çevirərək soruşdu:

- Babacan, ay babacan!

- Gözlərinə heyran. Nə deyirsən?

- Meşədən mənim üçün nə gətirmisən?

- Heç nə. Ancaq odun qırdım.

- Baba, bəs meşədə meyvə ağacı yoxdur?

Baba nəvəsinin başını sığallaya-sığallaya sözünə davam etdi.

- Əlbətdə ki var. Saymaqla qutaran deyil.

- Ay mənim gözəl balam,sabah sənə alma gətirərəm. Sonra öz-özünə dilləndi:

- Deyəsən, uşaq şəhərdə meyvə yeyirmiş. İndi də yadına meyvə düşüb.

Elşən sevinə-sevinə xırmanda oynayan uşaqların yanına qaçdı. Baba isə qarısını səslədi.

- Gülnisə,ay Gülnisə.

- Gəldim, a kişi.

Baba ona yaxınlaşan Gülnisə qarı ilə nə barədəsə pıpçıldaşdı. Donra da möhkəm-möhkəm tapşırdı ki, bunu Elşən bilməsin. Ertəsi gün baba meşədən qayıdanda Elşəni səslədi:

- Elşən, Elşən.

Səsdən Elşən babasını tanıdı və dilləndi:

- Nədir, baba.

- Bura gəl, gör sənin üçün nə gətirmişəm.

Elşən sevinə-sevinə babasına tərəf yüyürdü. Baba nəvəsini qucağına alıb onu əzizlədi. Torbaının içindən almanı çıxarıb ona verdi və dedi:

- Əziz balam, mən hər gün sənə bir dənə alma gətirəcəyəm.

- Neynək baba, sağ ol, çox sağ ol.

Elşən almanı yeyə-yeyə sevincindən atılıb düşürdü. Hər gün nəvə babasının yolunu səbirsizliklə gözləyirdi. Baba da dediyinə əməl edərək ona hər gün bir alma gətirirdi. Günlər bir-birini əvəz edirdi. Artıq yay fəsli öz yerini payız fəslinə vermək üçün idi. Bir gün baba nəvəsinə yenə alma verəndə nəvə dilləndi:

- Babacan, ay babcan!

- Can bala, nə deyirsən?

- Elə həmişə sən mənim üçün bir dənə alma gətirirsən. Olmaz ki, çox gətirəsən?

- Bala, meşədə gördüyüm alma ağacı gündə bir dənə gətirir.

-Yox, baba, alma ağacında alma çox olur.

- Əziz balam, mən dediyim alma ağacı isə sehirlidir.

- Onda sabah məni də meşəyə apar. Mən də sehirli alma ağacını görmək istəyirəm.

- Səni apara bilmərəm.

- Yox, yox, baba, apar. Axı nə üçün aparmırsan?

- Əgər səni o alma ağacının yanına aparsam, bir daha o ağac meyvə gətirməz.

Yaxşı, baba, elə bir alma bəsimdir.

Elşən şəhərə qayıdana kimi babası hər gün ona bir alma verirdi. Onun şəhərə getməsinə bir gün qalmış nənə paltarları və xurcunu həyətdə yuyurdu. Nəvə də ondan bir az aralı oyuncaqları ilə oynayırdı. Nənə xurcunu yuyarkən astarını çölə çevirdi. Bu vaxt xurcundan bir alma, bir neçə dənə alma yarpağı yerə düşdü. Alma Elşənə sarı diyirləndi. O, sevinə-sevinə almanı götürdü. Lakin birdən yerindəcə donub qaldı. İndi ona məlum olub, hər şey aydın oldu ki, "Sehirli alma ağacı" harda imiş.

## 2. Xançöhrə

Bu il yaz tez gəlmişdi. Dağların zirvəsi, yamacaları ağ donunu dəyişərək yaşıl paltarla əvəz etmişdi. Elin dediyinə görə bu ilki taxıl həmişəkindən bol olacaqdır.

İslam kişi "sübh namazı"ndan sonra Gülnisəyə dedi:

- Arvad, zəminin alağını təmizləməyə gedirəm. Mənim üçün yemək-içmək göndərərsən. Külfətin qayğılarının ağırını, yüngülünü əri ilə yanaşı aparan Gülnisə adəti üzrə gülə-gülə dedi:

- Baş üstə, ay kişi.

İslam ortaboy, enlikürək, qolları pələng biləyinə oxşayan, üz-gözündən igidliy, mərdlik yağan nurani bir kişi idi. Uşaq çağlarından zəhmətə qatlaşmış, başqasına möhtac olan adamlardan deyildi.

O, əkin sahəsinə çatanda Günəş öz şəfəqləri ilə "Talış dağları"nı nura boyamışdı. Pöhrələnmiş zəmiyə baxdıqca İslam kişinin gözlərində sevinc qığılcımları oynayırdı. Yaxınlıqdakı kolların dibində boylanan güllərin, çiçəklərin ətri aləmə yayılmışdı. Quşların ağız-ağıza verərək oxuduqları nəğmələr adamı görünməz-bilinməz bir aləmin ağuşuna atırdı. Gülnisə qızını səsləyərək dedi:

- Ay bala, atanın yemək vaxtına az qalır. O qırmızı torbanı bəri gətir. Allah verən nemətdən süfrə bağlıyım, apar. Qardaşların indicə meşədən qayıdarlar.

Çöhrə təbiətin gözəlliklərin seyr edə-edə ən çox sevdiyi mahnılardan birini zümzümə edə-edə atasının yanına yollandı.

O, on altı yaşına təzəcə girmişdi. Dolubədənli, çatmaqaşlı iri qara gözlü, kiprikləri uzun, qulac hörüklü, girdəsifət gözəllərdən biri idi. Görən deyirdi:

- Tanrı bəxtəvəri bekar vaxtında yaratmışdır.

Atası qızını zəminin yuxarı başında görəcək sevinclə dilləndi:

- A bala, gözləyəydin qardaşlarından biri gələrdi də. Axı sən qız xeylağı...

İslam kişi qəlbində nəsə düşündü, sözünü yarımçıq kəsdi. O, qızını çox sevirdi. Çöhrə ailənin sonbeşiyi, həm də tək qızı idi. Çöhrə ərköyünlüklə səsləndi:

- Ay ata, məgər Həcər haqqında az eşitmişik. Mən özümü kişi qeyrətli bilirəm. Heç kəsdən və heç nədən qorxan deyiləm. Mən sənin yanına gələcəyəm.

Ata əlini qızının çiyninə qoyaraq:

- Təki sən deyən olsun.

Çöhrə səyçəni əlinə alıb yaxınlıqdakı sərin bulaq suyundan gətirməyə yollandı. Hər gün bu vaxtlar qarşı dağın döşündən, qonşu kəndin bu üzündən qoyun otaran cavan oğlanın tütəkdə yanqılı-yanqılı çaldığı "Çobanbayatı" havası dərələrdə, kolluqlarda əks-səda verə-verə qəlbləri oxşamağa başladı. Çöhrə hər dəfə bu havanı eşidəndə nədənsə ürəyinə od düşür, tükləri ürpəşirdi.

Əlinəzərin yaşı iyirmi biri keçmişdi. Ucaboy, xoşsifət, işləyərkən dağı-dağ üstünə qoyan, ağıl-kamaldan tay-tuşlarından seçilən bir gənc idi. O, Çöhrəni dəfələrlə yaxından da təklif etmiş, lakin rədd cavabı almışdı.

Çöhrə ona belə demişdi:

- Mən səninçün göbələk deyiləm ki, yerdən çıxam, sən də dərib apararsan. Elimizin gözəl adəti var. Elçisiz mən sənə getmərəm. Kəndimizdəki qohum-qardaş məni binamus kimi tanıyar.

Camaat zəhmətinin bəhrəsini bir yerə topladıqdan sonra bu ilki ruzidən xeyli razı idi. Hamı Allaha şükr edirdi. Artıq payız fəslinin nəfəsi duyulmaqda idi. Günlərin birində İslam kişinin qapısını elçilər döydü. Qonşu kənddən olan Ağanəzər kişi Çöhrənin hə cavabını aldıqdan sonra yubanmadan oğlu Əlinəzərə toy çaldırdı.

Günlər axar çay kimi ötüb keçirdi. Bir neçə il arxada qalmışdı. Çöhrə işgüzar, qonşuları arasında hörmət qazanan, namuslu, mehriban, gülərüz, iki oğul anası kimi tanınmış, vəfalı qadın tək şöhrətlənmişdi.

Çöhrənin bu hərəkətlərinə görə onu Gülçöhrə adlandırdılar. Həmişə söz düşəndə qohum-əqraba Çöhrəni hey tərifləyirdi. Ər evinə yenicə qədəm qoymuş qızlara Çöhrədən ibrət dərsi almağı tapşırırdılar.

Çöhrə xoşbəxt idi. O, ərini sevdiyi kimi əri də onu çox sevirdi. Onun xoşbəxtliyi çox çəkmədi. Əlinəzər tez-tez mədəsindən şikayətlənirdi. Gündən-günə üzündə ayrı-ayrı xoşagəl-

məz cizgilər əmələ gəlirdi. Onda ruh düşkünlüyü yarnmış, arıqlamağa başlamışdı. Deyilənlərə görə xəstəliyi sağalmaz idi.

Gecələrin birində Əlinəzər arvad-uşağını yanına çağırıb dedi:

- Artıq amansız əcəl məni sizdən ayırmaq üzrədir. Mənim əziz Çöhrəm mən bu iki oğlumu sənə, səni isə o böyük Allaha tapşırıram.

Əlinəzərin səsi xırıldamağa başladı. Çöhrə onun sol tərəfində əyləşib, sağ əli ilə əlindən tutmuşdu. Onun sağ əli isə iki oğlunun əllərini ovcuna almişdı. Ərinin əli yavaş-yavaş soyuyur, övladlarının əllərindən gələn hərarət isə ona yeni ruh verirdi. Bu vaxt Çöhrənin gözləri yanan lampaya dikildi. Elə bil ki, lampanın işığı getdikcə saralır, ölgünləşir, hansı andaca qaranlığa qərq olacaqdı. Əlinəzərin göz qapaqları yavaş-yavaş qapanmağa başladı.

Çöhrə şüvən qopararaq belə deyə-deyə səsini ucaltdı:

Mən aşiq uymamışıq,
Baş yerə qoymamışıq.
Bizdən doymuş olsan da,
Biz səndən doymamışıq.

Çöhrənin qayınatası, qayınları, camaat hamısı bu xəbəri eşitcək məyus oldular. Ertəsi gün el öz igidini torpağa tapşırdı.

Çöhrə doğulduğu kənddən xeyli adam qonşu kəndə Əlinəzərin qırxı günü hüzr götürməyə gedirdilər. Yolda Ağaverdi ağa Səfiquluya yanaşıb sözə belə başladı:

- Səfiqulu sənin bacın orda qalıb qayınlarına nökərçilik etməkdənsə, gəlib mənim evimin xanımı olsun, sənin də kasıbçılıqdan canın qutarsın. Başa düşdün?

- Başa düşdüm ağa.

- Fikrini bacına bildirərsən.

Hüzn məclisindən adamlar dağlışdıqdan sonra Səfiqulu bacısının qaynatasına və qayınlarına dedi:

- Yəqin, Allahın işi belə imiş. Olacağa carə yoxdur. Mən bacımı özümlə aparıb gedirəm. Çöhrəni çağırdılar. Onu başa sa-

lıb dedilər ki, qardaşın səni özü ilə aparmağ istəyir. De görək sənin cavabın nədir?

Çöhrə cavab verdi:

- Mən qardaşımla heç yerə getmirəm. Övladlarımı böyüdüb kişi kimi yaşadacağam.

Səfiqulu pərt halda otağı tərk edib, öz kəndinə qayıtdı. Çöhrə balalarının başına pərvanə kimi fırlanırdı. İstəmirdi ki, onlar əzablı günlər görsünlər. Oğlanları ona dünya nemətlərinin hamısından qiymətli görünürdü.

Payız olsa da havalar isti keçir, quraqlar öz işini görürdü. Gecə olmasına baxmayaraq, ayın işığı əl içi kimi çox aydın göstərirdi. Səhərə az qalırdı. Çöhrənin evinin qapısı döyüldü.

Çöhrə hövlənak halda tələsik yerindən qalxdı:

- Kimsən?

- Mənəm.

Çöldə ögey qardaşı Səfiqulunun səsi ucaldı. Təşvişlə qapını açdı. Səfiqulu ilə salamlaşıb içəri dəvət etdi.

Tez-tələsik xəbər aldı.

- Ay qardaş, sübh tezdən bu vaxtı gəlməkdə xeyir ola! Nə işdir.

- Bacı, səndən nə gizlədim. İslamın vəziyyəti ağırdı. Səni istəyib.

- Hazıram, gedək.

Çöhrə əlacsız qalıb uşaqları qaynanasına tapşıraraq Səfiqulu ilə kəndə gəldilər. Səfiqulu ilə birlikdə kəndə gəldilər. Səfiqulu kəndə girəndə atın cilovunu darta-darta iri bir evin qabağında saxladı. Çöhrə işin nə yerdə olduğunu hələ indi anladı. Atdan düşən kimi qardaşına dedi:

- Binamus, namərd!

Artıq hər şey gec idi. Nökərlər bunları kəndin girəcəyindən izləyirdilər. Ağaverdi ağa Səfiqulunu yaxşı qarşıladı. Sonra nökərlərə dedi:

- Kəndin mollasın çagırın bura.

Molla gələndə gün təzəcə çıxmışdı. Ağaverdi ağa mollaya yumşaq döşəkcə üstündə yer göstərdi. Bığlarını eşə-eşə sözə başladı:

- Molla yəqin, sən bilirsən ki, səni bura nə üçün çağırmışam.

- İslam kişinin qızı Çöhrə mənim evimdədir. Mən istəyirəm ki, onun kəbinini mənım üçün kəsəsən.

Molla bir az diksinən kimi oldu. Sonra duruxdu. Daha sonra isə nəhayət dilləndi:

- Nə deyirəm ki, qadının özünü dinləmək lazımdır. Görək iddə müddəti qurtarıb, ya yox. Çöhrəni çarşaba bükülü halda həmin otağa gətirdilər. Mollabaşı öyrəndi ki, hələ iyirmi gündən sonra kəbin kəsmək olar. Elə bu vaxt həyətə bir atlı daxil olub, nökərlərə dedi:

- Ağaverdi ağaya Lənkəran qəzasından məktub var. Nökərlər məktubu ağaya çatdırdı. Ağa Çöhrəni ciddi nəzarət altında saxlamağı evdə olan iki arvadına, o cümlədən də nökər və qulluqçulara tapşırdı. Özü isə nökərlərdən ikisini götürüb Lənkəran şəhərinə getdi.

Çöhrənin bu evdə arvad olmasını günülər də istəmirdilər. Ona görə də çıxış yolu axtarırdılar.

Çöhrə isə gəldiyi gündən saralmağa başlamış, oğlanlarının şəkli hər an gözünün qabağında dayanmışdı. Hər axşam Günəş qürub edərkən Çöhrə astadan deyirdi:

Saçlarım ayrı-ayrı,
Dərdimdən oldun sayrı.
Siz deyin: Necə dözsün
Ana baladan ayrı.

Çöhrənin doğma qardaşı oğlu Mərdəli bibisinin əhvalına yanır, onu xilas etmək üçün gecə-gendüz fikirləşirdi.

Ağaverdi ağa Lənkəran şəhərində on gün qaldıqdan sonra kəndə qayıtdı. Lənkəranda qəbul etdiyi yükləri götürməkdən ötrü, kənddən də 20 at kirayə tutub nökərlərlə birlikdə Lənkəran şəhərinə göndərdi. Özü isə evdə qaldı. O, yorğun olduğu üçün gün batmamış yatdı.

Ağanın birinci arvadı Çöhrəyə dedi:

- Ağa həmişə uzaq səfərdən qayıdanda yorğun olur, ağır yatır. Nökərlər də burda yoxdur. Bu fürsəti əldən buraxmaq olmaz. Səni bu gecə qaçırdaq.

Nəhayət, Mərdəliyə bildirdi ki, bu gecə bibin uşaqların yanına qayıtmaq istəyir. Bu xəbəri eşitcək Mərdəli çox sevindi. Gecənin düşməsini səbirsizliklə gözləyirdi.

Çöhrə hamını yuxuya verdikdən sonra həyətə düşmək bəhanəsi ilə evdən çıxdı. Çəpərə yaxınlaşıb onu qaranlıqda gözləyən qardaşı oğlunun tərkinə sıçradı. Mərdəlinin yaxın dostları bunu izləyirdi. Bunların müşayəti ilə at bir göz qırpımında qonşu kəndə çatdı. Mərdəli dostları ilə tələsik geri qayıtdı. Yerinə təzəcə uzanmışdı ki, Ağaverdi ağanın adamlarının səsi həyətdən eşidildi. Səfiqulu həyətə çıxaraq işin nə yerdə olduğunu bildikdən sonra, otaqları axtarıb, qardaşı və qardaşı oğlanlarının evdə olduğunu görüb, bunların heç nədən xəbəri olmadığını onlara bildirdi. Ağaverdi ağanın adamları sakitləşdilər.

Çöhrə isə həyətlərinə çatanda özündən arxayınlıq duyurdu. Döyüşdə qalib çıxmış qartal kimi qapıya sarı cumdu. Özündən asılı olmayaraq sevinclə qışqırdı:

- Açın qapını, açın qapını. Mənəm, mənim əziz balalarım, sizin ananızam. Qapını qaynanası açdı. Çöhrə onu görmürmüş kimi balalarına sarı şığıdı. Hərəsini bir böyrünə alıb, dönə-dönə öpməyə başladı. Uşaqlar, həm də ana sevindiklərindən ağlayırdılar. Otağa yayılmış lampanın işığında görünən saralmış sifətlərə xoş təravət, sönməyən nur yayılaraq ayrı qalmış ürəkləri niskildən, kədərdən təmizlədi.

Ertəsi gün Çöhrənin şücaəti kəndə yayıldı. Kənd camaatı bundan sonra onu Gülçöhrə yox, "Xançöhrə" adlandırdılar. O, ömrünün axırına qədər oğlanları, nəvə və nəticələri ilə birlikdə yaşayıb, özünü xoşbəxt "nənə" sayırdı.

# OLMUŞ ƏHVALATLAR

## 1. Xilaskar ağcaqanadlar

Yay günlərinin birində axşam vaxtı moranlı Mürsəloğlu həmkəndlisi Salman kişi ilə birlikdə Astraxanbazar tərəflərdən at üstündə evlərinə qayıdırdı.Gecə çox bürkü olduğundan köynəyinin yaxasını tamam açmış Mürsəloğlu atını Limar hamarı ilə ayın işığında Moran dağındakı kəndlərinə tərəf asta-asta sürərək, gah zümzümə edir, gah da dönüb arxadan gələn yol yoldaşına nə isə deyib ucadan gülürdü. Yolun ortasında birdən at dayanıb yerimək istəmədi.

Mürsəloğlu atdan hoppandı. Qabağında quyruğu üstə dikəlmiş ilan onu görən kimi cəld bir hərəkətlə üstünə tullandı və çılpaq sinəsindən sancaraq tez də sürüşüb aradan çıxdı. Kişi bərkdən qışqırıb yoldaşını harayladı. Dəhşətli zəhərin təsirindən dərhal onun gözləri və nitqi tutuldu. İki-üç addım atıb yerimək istədisə də, bacarmadı, bataqlıq bir yerin yanında səntirləyib yerə sərildi. Yoldaşı Salman kişi Mürsəloğlunu çox silkələyib ayağa qaldırmağa cəhd göstərdi. Ancaq bir şey çıxmadı. Onu ölmüş bilib cəsədini bir tərəfə sürüyüb yıxdı. Adamları Mürsəloğlunun meyitini aparmaqdan ötrü çağırmaq üçün uzaqdakı kəndlərinə tərəf üz qoydu... Səhərə yaxın meyit üçün gələnlər Mürsəloğlunu bataqlığın yanında diri görüb çox sevindilər. Çılpaq sinəsində, açıq qolları, boyun-boğazı və sifətində üst-üstə yapışıb qalaqlanmış saysız-hesabsız ağcaqanadlara gözləri sataşanda təəccüblərini gizlədə bilmədilər. Sonradan Mürsəloğlunun özünə də, gələn adamlara da aydın oldu ki, onun dəhşətli ölümdən qurtarmasına səbəb, bədənindəki güclü zəhəri uzun xortumları ilə sorub özləri qırılan ağcaqanadlar olmuşdur.

## 2. Sultanxanımın faciəsi

Belə bir dözülməz vəziyyəti özündə ehtiva edən bir nümunəni yada salmaq istərdim. Şəhər sakini 1928-ci il təvəllüdlü Xanış Əmirov nəql edir ki, 1930-cu illərin əvvəlində Yardımlı kəndində dörd uşaq anası Sultanxanım arvadın əri Məlikməmməd kişi cavan ikən "vurma çalmadan" dünyasını dəyişir. Öz gözəlliyi və evdarlığı ilə tanınan Sultanxanımın ərinin qırx mərasimindən az keçməmiş birinci arvadından oğlu olmayan həmkəndlisi qəssab Mehdiqulu ona elçi düşür. Acı talehi ilə barışıb, öz azyaşlı övladlarını ərsəyə gətirmək istəyinin əksinə, böyük qaynı Cavadxan uşaqları özü saxlayacağını deyərək, zorla Sultanxanımı Mehdiquluya ərə verir. Qadınlara qarşı qəddar patiriarxal ənənələrinin qurbanı olan bu gəlin, körpələrinin ana fəryadı ilə isti ocağından zorla ayrılaraq yeni ər evinə gəlir. Ürəyi məzlum körpələrinin yanında qalan Sultanxanımın yeni ocaqda bir tərəfdən zülümkar ərinin çığır-bağırı,bir tərəfdən çoxlu mal-qaraya xidmət etməklə sübh tezdən başlanan iş günün axşamacan davam etməsi, bir tərəfdən də hüzuru pozulmuş evin xanımı - "günüsü" Şahnisənin ehyamlı atmacaları, onun əzablı həyatını br az da dözülməz etmişdi. Yeni əri "oğul doğmalısan" deyərək, əvvəlki körpələrinə gözücu belə baxmağı qadağan etmişdi. Heç bir hüququ olmayan Sultanxanımın əzablı ömür səlnaməsini danışan Xanış kişi onu də əlavə etdi ki, uşaqlardan yaşca böyükləri olan qızlar əminin evində təsərrüfat işlərinə kömək etdiyi üçün ana istəyi yalnız axşamlar yada düşür, beş və yeddi yaşlarında olan oğlan körpələr isə ana fəryadı ilə cəmi 200 metr məsafədə olan ananı haraylayır, ara-sıra gizlincə yaxınlaşmaqla "Ana, evimizə gedək" deyə yalvararaq imdad edirdilər. Ana ayrılığına dözməyən körpələr qısa zamanda tələf oldular. Mən soruşanda bəs, nə üçün o illərdə dul qadınların ikinci və yaxud, üçüncü arvad qismində ərə verilməsi mümkün olurdu, cavabında, insanlar səfalət içərisində olduğu üçün dul qadını daha tez ərə verməyi düşünürdülər. Bəli, bu epizod keçən əsrin

birinci rübünə qədər Yardımlı bölgəsində qadının iztirabı, kölə həyatının acı səlnaməsinə bir nümunədir.

### 3. Balının dərdi

İyirminci əsrin əvvəllərində Yardımlı kəndindən Kərbalayı İskəndər Arvana kəndindən olan dostu İsa bəylə inadla qohum olmaq istəyir, onun istəyinə qarşı çıxa bilməyən İsa bəy öz sevimli qızı Balını (əsil adı Balqız olub) dostunun oğluna erkən nigahla ərə verir. Uca dağlar qoynuna zorla gələn gəlinin bayatısı bu kədərli taleyin etiraz hıçqırtıları kimi bu gün də yaddaşlarda yaşayır:

Kəhər at nalı neylər,
Gözəl qız xalı neylər.
Qalıbdı dumanlı dağ başında,
Ağlayan Balı varı neylər?!.

### 4. Sırışna

Şahnişində Kosa bulağı həndəvərində kolxozun bir neçə hektarlıq kartof sahəsi vardı. Əvəz kişi ilə həmin kartof sahəsinin qarovulçusu idik. Gündüzlər sahədə işləyir, kartofun becərilməsi ilə məşğul olur, gecələr isə artıq dib tökmüş kolları heyvan-qaradan qoruyurduq. Ətraf yaylağa qalxmış fermalarla dolu idi. Qoyun sürüsü, mal naxırı, at ilxısı azmış kimi, gecələr donuz sürüsü bizi lap incidirdi. O biri heyvanlar heç olmasa, kartofun yarpağını, püzəsini yeyir, dibi ilə işi olmurdu. Ziyanxah donuzlar isə pingələri ilə kartofun dibini eşib, məhsulu paymal edirdi. Ən çətin anları duman gəlib hər tərəfi bürüyəndə yaşayırdıq. Günün günorta çağı beş addımlığı görünməz edən duman sızqa yağışla qoşalaşanda cəhənnəm əzabını gözümüzlə görürdük. Hələ gecəni demirəm. Bəzən sübhə qədər göz yummur, sırsıranın içində səhərə qədər vəlleyli vururduq. Əzabımızı yüngülləşdirmək üçün ağlıma maraqlı fikir gəlmişdi. Komamızdan bir

qədər aralı sahənin düz qırağında nəhəng bir çəllək vardı. Bu çəlləkdən yayda ferma qoyunlarını yumaq üçün istifadə edirdilər. Yaxşı qırmızı ağacım vardı. Bu ağacla çəlləyə vuranda elə bir səs qopurdu ki, dağ-daş titrəyirdi. Gurultudan qulaq tutulurdu. Qərara aldıq ki, daha səhərə qədər sahənin başına dolanıb özümüzü əldən salmayaq. Hər saatdanbir gedib çəlləyi danqıldadaq. O gurultunun qabağanda həndəvərdə heç nə duruş gətirə bilməz. Bu iş karımıza çox gəldi. Gecələr növbə ilə gedib çəlləyi döyəcləyir, geri dönürdük.

Qatı dumanlı gecələrin biri idi. Gecə yarı olardı. Əvəzin növbəsi idi. Uzandığım yerdə gurultu səsinin gəldiyi anı gözləyirdim. Bilirdim ki, təxminən on dəqiqəyə Əvəz çəlləyə yetəcək, onu döyəcləyəcək. Belə də? oldu. Amma o çəlləyə bircə zərbə endirdi. Bir az keçəndən sonra ikinci zərbənin səsi gəldi. Sükut çökdü. Nəhayət, üçüncü zərbə səsləndi. Vəssalam! Bir daha səs eşidilmədi. Narahat olub komadan çölə çıxdım, uzaqdan qulağma Əvəzin vahiməli bağırtısı gəldi. Məsafə uzaq olmasa da, aralıqda balaca bir təpə var idi. Təpəni aşıb dərəyə, çəlləyin yanına düşdüm, dərədən qalxan bağırtıya tərəf yüyürməyə başladım. Güman etdim ki, hansısa yırtıcı kişiyə zərər yetirir. Təpənin üstündə Əvəzlə qarşılaşdım. Kişi qışqırırdı: “Ay dədə vay, qoymayın, yedi məni”. Əvəz qaçır, yıxılır, durub yenə qaçırdı. Soruşdum: ”Ədə, Əvəz, nə olub, ədə, nə olub?” Özümü yetirib onu qovan yırtıcının əlindən almağa çalışdım. Əvəz o qədər vahimələnmişdi ki, nəinki mənim səsimi eşitmirdi, hətta mənimlə toqquşanda da canavarın əlinə düşdüyünü düşünürdü. Canın əlimdən qurtarıb komaya tərəf qaçırdı. Qışqıra-qışqıra arxadan çatıb onu qucaqladım: “Ədə, mənəm, ədə, mənəm”. Kişi məni tanıyıb handan-hana özünə gəldi. Soruşdum: “Əşi, səni nə yeyirdi, nə qovurdu?” Əvəz cavab verdi: “Nədisə, orda, çəlləyin yanındadı”. Mən də üşəndim. Bir-birimizə qoşulub qorxa-qorxa çəlləyin yanına gəldik. Heç nə gözə dəymirdi. Ağacı qaldırıb var gücümlə çəlləyə vurdum. Gurultu qopan kimi kartofluğun içindən elə çəlləyin gurultusundan bir az zəif səslər eşidildi. Əvəz səsi eşidən kimi yenə komaya tərəf

götürülmək istədi. Kişini zorla saxlayıb ikinci zərbəni endirdim. Yenə həmin səslər eşidildi.

Mürsəl əmim at fermasının müdiri olanda mən ata çox getmişdim, bilirdim ki, at ilxısı vahiməli səs eşidəndə ucadan sırışna çəkir. Dedim: "Ədə, Əvəz, sahəyə at ilxısı dolub, eşitdiyin atların sırışna səsidir". Kartof kollarının şehinə bata-bata xeyli irəlilədik, atların sahəyə doluşduğunu gördük. Yaxşı ki, kartofa çox ziyan vurmamışdılar.

## 5. Əhmədxan diyirlənən yer

Anamın atası İmpirat aran Alarının Hüseynxanlı tirəsinə, anası Xaki isə Qələndərli tirəsinə mənsub Alının qızıdur. Şıxhüseynli ilə Alar arasında Duzəxəş deyilən yerdə, Duzəxəş dərəsində balaca bir qaya vardı. Qayanın tən ortasından piyada cığırı keçirdi. Dərənin bu tayından o tayına keçmək üçün mütləq həmin cığırla qalxmaq lazım idi. Əks təqdirdə fırlanıb qayanın üstünə qalxmalı, ağzıyoxuşa böyük bir dairə vurub, xeyli yuxarıdan dərənin o tayına keçməlisən. Ortasında cığır keçən həmin yer – qaya "Əhmədxan prtiyə" adlanır. Bu söz birləşməsi "Əhmədxan diyirlənən yer" kimi anlaşılır. Atamın dediyinə görə, qışın çox sərt vaxtında Əhmədxanın heyvanlarının yemi qurtarır. Böyük bir xaralı samanla doldurub Şıxhüseynliyə evinə aparmaq istəyir. Ata yurdumuz Şıxhüseynlidəki məktəbin yerindəydi. Bu yer Penkijə - yuxarı küçə adlanırdı. Sonra babamgil Alara köçdülər, Vizomərz və Kuyərə deyilən yerlərdə məskunlaşdılar.

Əhmədxan saman dolu xaralı dalına şələləyib, qayadakı cığırdan keçməli olur. cığırın yarısını çətinliklə addasa da, sona qədər gedə bilməyib. Geriyə qayıtmaq barədə heç düşünməyə dəyməzdi. İrəliyə getməkdən başqa çarə yoxdu. Amma bu da mümkün olmayıb. Xaral qayaya ilişib kişini uçuruma yuvarlayıb. Əhmədxan hündürlükdə yumbalanıb, xaralqarışıq dərənin dibinə düşüb. Ancaq xoşbəxtlikdən ona heç nə olmayıb. Buna səbəb qarın çox qalınlığı və kişinin arxası üstə xaralın üstünə

yıxılması olub. Kişi necə qorxubsa, uzun müddət yıxıldığı yerdən tərpənməyib. Nəhayət, tay-tuşlarından biri onu bu vəziyyətdə görüb öldüyünü zənn edir. Nəfəsinin gedib-gəldiyini görəndə sağ olduğunu başa düşür. Amma nə qədər çalışsa da, kişini ayağa qaldıra bilmir. Əhmədxan yalnız bir söz deyib durur: "Mən ölmüşəm". Dostu deyir ki, ə kişi, ölü nəfəs almaz, danışmaz, sən dirisən. Sonra onu dalına alıb kəndə tərəf üz qoyur. Yolda dostu ondan soruşur: "Ay Əhmədxan, bəs haran ağrıyır, nə olub ki, ölmüsən?" Əhmədxan deyir: "Sidiyim duru axır, qardaşım, sidiyim". Dostu başa düşür ki, Əhmədxan onu aldadıb, kəndə qədər dalına minib.

Bu zarafat bu gün də dilxoşluqla xatırlanır. Keçmiş kişilərin baməzəliyindən ləzzətlə danışırlar. Həmin yer isə yaddaşlarda "Əhmədxan prtiyə-Əhmədxan diyirlənən yer" kimi yaşayır. Dar keçid babamın adını belə əbədiləşdirib. Əhmədxanın oğlu Əsgər, Əsgərin oğlu Paşa, Paşanın oğlu Şükürdür. Şükürün məzarı ata-baba yurdundadır.

## 6. Dəmirçi Babaş

İkinci dünya müharibəsi başlayanda elin əli silah tutanları hərbi xidmətə çağrılır. Hərbi komissar Milyuxin dəmirçi Babaş adlı balacaboy bir kişini də çağırıb davaya yola salır. Dəmirçi Babaş davaya gedəndən sonra dəyirman xarab olur, camaat dənini üyüdə bilmir. Babaşın arvadı komissarlığa gəlir və deyir:

Dəyirmanın diskinə, ay Hökü,
Şingəsinə, diskinə, ay Hökü.
Babaşdan əsgər olmaz, ay Hökü,
Bizi qoydun pis günə, ay Hökü.

"Hökü" hökümət sözünün el arasında qısaldılmış variantıdır.

# YER-YURD ADLARI

**1. Söhbət daşı**

Adından məlum olduğu kimi, camaatın söhbətləşmək üçün toplaşdığı daş olub.

**2. Xan daşı**

Xanın oturub dincəldiyi, ətrafı seyr etdiyi və qəlyan çəkdiyi yer olub. Daşın üstündə qəlyan oyuğu deyilən izlər var.

**3. Beşmərtəbə**

Təkdam şəlaləsinin arxa hissəsində, bir neçə km məsafədə, çox çətin coğrafi ərazidə yerləşir. Meşənin dərinliyində beş ayrı dağ mərtəbəsindən tökülən şəlalə bu adla tanınır. Maşın yolu olmadığından piyada getmək lazımdır. Enişli-yoxuşlu yol insanı yorsa da, daha möhtəşəm mənzərəsi olan bu yeri mütləq görmək lazımdır. Ərazidəki qayalarda görülən böyük dəliklər diqqəti çəkir. Bunların kaha (mağara) olduğunu söyləyən yerlilər vaxtilə bunlarda qaçaqların yaşadığını söyləyirlər.

**4. Qədim zəvvarlar yolu**

Yardımlı ərazisindən keçən qədim karvan və ticarət yolundan əlavə bir vaxtlar bölgədən Ərdəbilə tərəf uzanan digər bir yol da olmuşdur ki, xalq arasında bura Zəvvarilər yolu adı ilə tanınırmış. Ətraf kənd adamlarının müqəddəs ziyarətgahlara: Məkkə və Mədinə kimi şəhərlərə getməsi üçün istifadə edilmiş həmin yolun dincəlməyə görə ilk dayanacaq-mənzili kimi birinci düşərgəsi Nisəqala kəndinin yaxınlıqındakı ərazi hesab olunurmuş. Həmçinin əhalinin Xorasan, Qum, Kərbala, Nəcəf, Şam kimi digər şəhərlərə də səfər etmələri üçün bu yoldan istifadə etmişlər. Qaraqaya üstündə Mənzilgah adlı yer indi də qalır. Peştəsər silsiləsini aşıb İranin Nəmin və Meşkin şəhərciklərindəki böyük el yoluna qədər baş alıb gedən bu qısa zəvvarlar yolu göy qübbəsinə səpələnmiş ulduz topaları olan "hacılar yolu" ilə

sanki paralel bir şəkildə Yardımlı ərazisindən Yaxın və Orta Şərq ölkələri istiqamətində uzanmışdır.

**5. Bonayır – Bina yeri**

Yardımlıda iki ünvanlı yaşayış məskənlərindən biri Abasabaddır. Kəndin əvvəlki adı Bonayır olub. «Bina» və «yer» sözlərinin birləşməsindən əmələ gələn əski toponim Bina yeri, Bina yerləri mənasında açıqlanır. Bir vaxtlar Avur kəndi ərazisində Sığalan, Şiləvangə kəndinin yaxınlığında isə Almalı kəndləri də mövcud olub.

**6. Daşkənd Köryədisi**

Yardımlı toponimi uzaq Yardımlı kəndi kimi “yarı” sözlərinin birləşməsindən yarana bilər. Axı Yardımlının əvvəlki adı yaşlı sakinlərin yaddaşında Daşkənd Köryədisi kimi hələ də xatırlanmaqdadır. Mənbə və xəritələrdə isə bu toponimə cəmi 120-130 il əvvəl rast gəlmək mümkündür. Yardımlıda Şovut-Culut, Keçələkəran-Şahnazar kimi iki ünvanlı yaşayış məskənləri çoxdur. Köryədi kəndinin isə üç adı var: Rəsmi ünvanından başqa, bu toponim xalq arasında Çuxur kənd və Abışkənd kimi adlarla da tanınmaqdadır. Moran dağının qayalı sinəsində salınmış Daşkənd çox qədimliyi ilə seçilir. Coğrafi ad kimi təmiz Azərbaycan türklərinin dilində olan Daşkəndin ətrafında xeyli qədim türk mənşəli toponimlər mövcuddur. Kənd əhalisinin saf türk-oğuz nəslinə mənsubluğunu həm də onların inam, güvənc, inanc yeri kimi daha çox Göy tanrısına içdiyi müqəddəs anddan da yəqinləşdirmək mümkündür. Bu ulu ad daşkəndlilərin daha qədim əski türklərlə, bir vaxtlar şamançılıqla məşğul olan göy türklərlə bağlı olduğuna dəlalət edir.

**7. Dad, Həzər evindən**

Keçmişdə Yardımlıya uzaqdan Həzər adlı bir nəfər köçüb kəndin lap mərkəzi hissəsində yurd salaraq yaşamağa başlayır. Həzərin evi elə bir yerdə imiş ki, yerli adamlar başqa kəndlərdən

Yardımlıya iş arxasınca gələnlərə, yoldan ötən dərvişlərə, dilənçilərə, hətta oğrulara belə buranı nişan verib, öz başlarından uzaqlaşdırırmışlar. Birisi kəndir, birisi ot-ələf alar, birisi günortasını buraya salar, bir parası da at-ulaqlarını onun həyətində və bağında hörüklərmiş. Xülasə, biri ondan su, biri çörək istərmiş. Bütün var-yoxunu beləcə haqsız-müzdsüz yoldan keçənlərə verməyə məcbur olan Həzər kişi axırda tamam müflüsləşir. Görür qaçmaqdan başqa çarəsi qalmayıb. Odur ki, bir gün ailəsini də götürüb gəldiyi vilayətə qayıtmaq qərarına gəlir. Qonum-qonşu, eşidən-bilən ondan nə üçün buradan getmək istədiyini xəbər aldıqda Həzər kişi ilə arvadı dərhal bir ağızdan: "Dad Həzər evindən, dad Həzər evindən", - deyə cavab dərdlərini bu sayaq söyləyirlər.

**8. Ölü şəhər**

Peştəsər kəndi yaxınlığında Gur-gur dağ nekropolu? təxminən? 50 hektar sahəni əhatə edir. Aborigen tayfalardan sayılan qədim kadussilər və kaspilərə məxsus olan "ölü şəhəri" bir çox tədqiqatçılar miladdan əvvəl III əsrdən başlayaraq, yeni eranın II əsrinə qədər mövcud olan yaşayış məskəni kimi Kaspiana vilayətinin ən böyük şəhəri hesab edirlər. Peştəsər nekropolundan əldə edilən mədəniyyət nümunələri vaxtı ikən bu yerin sakinlərinin məşhur kaduisi tayfasının nümayəndələri olduğunu təsdiqləyir. Kadusilərin işdə ari: İrandilli olmadığını eradan əvvəl yaşamış coğrafiyaşünas Strabon da, sonralar məşhur tarixçi Lev Qumilyov da, akademik Sumbatzadə də subut etməyə çalışmışdı. Bu gün də Peştəsər və onun ətraf ərazisində olan kəndlərdə yaşayan yerli sakinlərin saf Azərbaycan türkcəsində danışmaları kimi danılmaz və ən tutarlı fakt da qədim kadisilərin məhz türkdilli olduğu ehtimalını bir daha gücləndirir

Peştəsər kəndinin qoçaq cəsur, dəliqanlı igidləri ilə bağlı xalq hafizəsində yaşayan bir neçə bəndlik mənzum folklor nümunəsinin tərkibində diqqəti cəlb edən belə misralar da vardır:

Peştəsərin uşaqları,
Qılqatmadır uşaqları.
At minib çapışarlar,
Bir-biriylə qapışarlar,
Divanxanda "tapışarlar".

Sən demə, cəsur və döyüşkən Peştəsər adamları haqqında qoşulmuş bu deyimlərin çox uzun və tarixi bir kökü, müəyyən bir əsası varmış. Yaxın illərdə kəndin ətrafında arxeoloqlar tərəfindən qədim zamanlara aid çoxlu sərkərdə və döyüşçü məzarları tapılmışdır. Tədqiqatçıların fikirlərincə, bura vaxtı ikən tarixdə çox məhşur olan döyüşkən kadusi tayfalarına məxsus imiş. Görünür, indi də Peştəsər əhalisində olan qaynar təbiətlilik, qorxmazlıq və dəliqanlılıq kimi cəngavərlik xüsusiyyətləri onların döyüşkən, qəhrəman ulu babalarının irsi əlamətləri ilə bağlı olmasındadır.

**9. Müqəddəs kahin məzarı**

Peştəsər nekropolundan tapılmış məzarlardan biri Zərdüşt kahininə: müqəddəs maqa aid edilir. Arxeoloqların fikrincə, qəbirdən çıxmış kuzələrdən biri burda uyuyan kahinin, din xadiminin hörmətli maqın xüsusi maddə sürtərkən istifadə edilən qabıdır. Qabın kənarlarına yapışdırılmış fiqurları və bərəkət ilahəsi Anahitin, lüləyinin altına yapışdırılmış öküzbaşı fiquri qələbə allahı Vertiraqanın, dəstəyinin üzərindəki həyat ağacının təsviri isə müqəddəs haoma içkisi və şərab Allahı homanın simvollarıdır. Müqəddəs kahinlərə - maqlara aid belə məzarlara hələlik respublika ərazisində Mingəçevirdə və Peştəsərdə rast gəlinmişdir.

**10. Təng dərəsində bir tənə var...**

Keçilməz qayalıqların arası ilə Avarağa doğru uzanan el yolundan ötüb keçənlər Təng çayının sahilində dayanaraq, hökmən yerdən kiçik bir daş parçası götürüb yolun üstündəki çoxlu daş yığılmış təpəyə atmalı oldular. Minlərlə adamın atdığı bu

çınqıl daşlar toplusu artıq bir təpəyə çevrilməkdədir. Deyilənlərə görə, vaxtı ikən burdan yol ilə müqəddəs dini kitabı oxuya-oxuya gedən bir kişini qayalıqlar arasında gizlənmiş qaçaqlar güllə ilə vurub al qanına boyamışdır. Yolçunun əlindəki müqəddəs səmavi qan damcıları ilə boyanmışdır. Odur ki, qatil tərəfindən günahsız öldürülən və oxuduğu müqəddəs kitabın səhifələrinə çilənən qana görə buradan ötən yolçular hər dəfə dayanıb düz zikr etməklə, təpənin üstünə kiçik bir daş atmağı özləri üçün həm böyük savab hesab edir:, həm də o dünyada özlərinin əcrpayının çoxalacağını güman edirlər.

**11. Peştənhəş seli**

Bir neçə yüz il əvvəl Avaş kəndinin ətrafında, Vilaşçayın başlanğıc hissəsinə yaxın olan yerdə kiçik bir dağ gölü yerləşirmiş. Gur bulaq sularının bir gün oyub uçurduğu göl böyük daşqın yaradaraq bir çox çay sahili kəndlərini viran qoymuşdu. Həmin vaxt indiki Yardımlı qəsəbəsinin yerində də çoxlu yaşayış binaları, dəyirmanlar sıradan çıxmış, xeyli insan və mal-qara tələf olurmuş. Əhali belə naqafil viranedici seldən uzun müddət özünə gələ bilməmiş, onu qorxulu bir bəla kimi qiymətləndirərək həştənhəş seli adlandırmışdır. İndi də Viləşçayda su gurlaşan kimi, çoxları "yaxşı baxın, birdən həştənhəş seli olar", – deyə zarafatla bir-birinə söz atırlar.

**12. Ağasən damı**

Yardımlıda uzun illər "Ağasən damı" adı ilə məşhurlaşan bir bina olmuşdur. Ünvanını Ağasən adlı ev sahibinin adından götürən bu balaca bina Şura höküməti qurulanda ilk polis idarəsinin həbsxanası kimi fəaliyyət göstərmişdir. Sonralar uçub dağılan həmin binanın yerində müasir tipli başqa tikili inşa edilsə də, xalq arasında bura yenə əzəlki, adını qoruyub saxlaya bilmişdir. Yardımlıda indi də, qayda-qanun pozanlarla bağlı "Tutub basarlar Ağasən damına, onda ağlın başına gələr" kimi yaranmış ifadə də deyirlər, o balaca binadan yadigar qalmışdır.

**13. Keçiatılan**

Avaş kəndindən Deman səhrasına millənən el yolu hamar bir yerdə baş-başa gəlmiş iki qaya parçasının arasından ötüb keçir. Indi heç bir heyvanın qüdrəti çatıb atıla bilməyəcəyi bir məsafədə yerləşən bu qayalar nədənsə "Keçiatılan" adlanır. Yəqin ki, bir vaxtlar dar olan, getdikcə oyulub genişlənən yolun kənarındakı qayalar üstündən dağ keçiləri adlayarmışlar. Əhvalat bu günlər üçün inandırıcı olmasa da, qayalar öz hünərli qəhrəmanının adını yaşatmaqda davam edir.

**14. Məlhəm bağı – can dərmanı**

40-cı illərin axırlarınadək Ostayır kəndinin Mirzəlilər məhəlləsində şöhrəti bütün bölgəyə yayılmış Məlhəm bağının meyvə ağacları qalırdı. İlk vaxtlar onu salan bağbanın şərəfinə Məlhəm bağı (Mövlam bağı) kimi məşhur olan bağ, sonradan müxtəlif dərdlərin müalicəsindəki dəvacatına görə Məlhəm bağı adı ilə tanınmışdır.

Tingləri əsasən XVII-XIX əsrlərdə İranın mərkəzi əyalətlərindən gətirilmiş bu bağda təkcə 120 ədəd növbənöv çeşidli armud ağacı var idi. Söycəgilə, abasbəyi, şahlıq, sallaq-armud, uzunmicə, sarıgilə, qarayarpaq, daş armud, meyxoş-məzə, söyüdyarpaq, quş armudu, İran quşarmudu, qonur armud, qırmızıgilə, qoşagilə kimi çoxlu nəvələri olan Məlhəm bağının məşhur armud ağacları qocalıb sıradan çıxsa da, onun xalq arasında geniş yayılmış bir çox növləri indi də kəndin müxtəlif həyət və ətraf sahələrində əvvəlki adları ilə öz ömürlərini hələ də davam etdirməkdədirlər.

**15. Yardımlının "İçəri şəhəri"**

Moran dağının ətəyində salınan Yardımlı qəsəbəsi təzə tikilən binaların hesabına gündən-günə böyüyüb gözəlləşdə də, Kələkbaşı adlanan məhəllə öz əvvəlki görkəmini olduğu kimi saxlamaqdadır... Üç dağ çayının qovşağında yerləşən Kələkbaşı digər məhəllələrdən tamamilə fərqlənir. Aşağıdan Viləşçay və

qayalıqlarla əhatə olunaraq, üstü qoşa gümbəzli məscidlə, sıx, darısqal küçələrlə və bu küçələr boyu uzanıb qala barılarını xatırladan divarlarla, qayaların qoynunda bir-birinə yapışmış kimi görünən keçmiş yaşayış tikililəri ilə səciyyələnən Kələkbaşı məhəlləsi Yardımlının "İçərişəhəri" hesab olunur.

**16. Pornayım**

Yardımlıda taxılçılıq zonası kimi tanın Pornayım İran dillərində "bol məhsullu yer" mənasında açıqlansa da, son vaxtlar bir sıra tədqiqatçılar toponimin XVII-XVIII əsrlərdə Səfəvilər zamanı Ərdəbil mahalının naibləri və onların övladlarına mənsub olan torpaqlar mənasında işləndiyini təsdiq edirlər. Fars dilindəki "pur" və "naib" sözlərindən yaranan Pur nayım sözü sonralar fonetik dəyişikliyə uğrayıb Pornayım şəklinə düşmüşdür.

**17. Gəvərzə**

Şiləvəngə kəndinin yaxınlığında yaşayış məskəninin xarabalıqları yerləşir. Keçmiş binaların təməl divarları açıqca hiss edilən bu qədim yaşayış məskənində **Bil ocağı** ziyarətgahının uçuqları hələ durur. Ətrafında köhnə bir qəbristanlıq da mövcud olan ziyarətgahın əsl adının **Gəvərzə** olduğunu söyləyənlər də çoxdur.

**18. Xəlsəlilər**

Yardımlı rayonunun qərb hissəsindəki Deman, Abasalı, Avaş, Köhnə Qışlaq kimi bəzi yuxarı dağ kəndlərinin adamları xalq arasında "xəlsəlilər" kimi tanınır. Özlərinin "xalis", "saf", təmiz, başqalarının isə "gəlmələr" kimi məna verdiyi "xəlsəlilər" adını Cənubi Azərbaycanın yaxın ərazilərindəki Ərdəbil və Ərşə mahallarında olan bir sıra kəndlərin sakinləri də daşıyırlar. Görünür, Ərdəbil hakimlərinin ailələrinə və sülaləsinə məxsus xalisə torpaqlarında yaşayan sakinlərə verilən bu ad - xalisə zaman keçdikcə "xəlsə" sözü ilə əvəzlənmişdir.

# AŞIQLAR VƏ EL ŞAİRLƏRİ

## *1. AŞIQ GÜLAĞA BAYRIYEV*

### BİZİM ELLƏR

Bahar gəlir çiçəklənir,
Gözəl olur bizim ellər.
Hər tərəf dönür şəhərə,
Abadlaşır bizim ellər.

Şirin-şərbət bulaqları,
Gül açıbdı yaylaqları.
Suvardıqca səhraları,
Üzə gülür bizim ellər.

Hər həftələr, hər fəsillər,
Ötüb keçir bu xoş günlər,
Gülağa sözün düz söylər,
Deyir-deyir bizim ellər.

### BƏYƏNMİR

Çərxi-fələk, nədir yenə dönmüsən,
Naşılar Şakiri, Xanı bəyənmir.
Dağ döşündə tütək çalan çobanlar,
Məclisdəki tar-kamanı bəyənmir.

Bir zaman var idi, gəzərdik qoşa,
Bir yerdə ömr edib dolardıq yaşa.
İndisə ürəklər dönübdür daşa,
Bülbül gülü, gül xandanı bəyənmir.

Köhnə adətlərin gedibdir suru,
Gözəl zəmanələr Günəştək duru.
İndi nə quldur var, nə də ki, oğru,
Molla- qazı bu dövranı bəyənmir.

Baxıram hər yanda xoş keçir həyat,
Namərdlər səfasın görürlər heyhat.
Ay Gülağa, aşıqlığı sən gəl at,
Aləm dönüb, hər ozanı bəyənmir.

## YARDIMLIYA GƏL

Sərin su içməyə, can bəsləməyə,
Min ilham almağa Yardımlıya gəl.
Qəlbində ən böyük arzularınla,
Gülüb şad olmağa, Yardımlıya gəl.

Qoca-cavan yenə verib əl-ələ,
Mingəçevir işıq verir hər yerə.
Masallı İstisuyun demirəm hələ,
Səfalı yaylağa – Yardımlıya gəl.

Viləşin üstündən keçərsən hər an,
Sərin bulaqlardan içərsən hər an.
Gülağa, yubanma, tez keçər zaman.
Çalıb-oxumağa Yardımlıya gəl.

## *2. AŞIQ HƏSƏN SAHRATOV*

## YARDIMLI

Tərifin söyləyim bir övlad kimi,
Adın gəzsin bu cahanı, Yardımlı.

Bu ellərə baxmaq olmaz yad kimi,
O bütün ruhların canı Yardımlı.

Dağlar arasında gözəl mənzərə,
Baxırsan yamyaşıl, böyük dağ-dərə.
Aşıqlar söz qoşub bil milyon kərə,
Bulağın tək bulaq hanı, Yardımlı?

Gözəl guşəsisən sən təbiətin,
Bu yerdə hər səhər vardı qiymətin.
İnkişaf etmişdir mədəniyyətin,
Ucaltmısan çox insanı, Yardımlı.

Dağlar döşündəki gözəl baxışın,
Hansı usta etdi gözəl naxışın?
İlhamla coşaraq aşıq qardaşın,
Gəzinir saz ilə hər yanı, Yardımlı.

Aşıq Həsən bil ki, səndə ucaldı,
İlhamın coşdurub, sazını çaldı.
Şirin mahnıları yadına saldı,
Ucalsın şənliyin sanı, Yardımlı.

## GƏRƏK

Eşqin dəryasına atılan aşiq,
Yeriyə bilməsən üzəsən gərək.
Vuranda daşlara dalğalar səni,
Göz yaşı tökməyib, dözəsən gərək.

Əgər Mənsur kimi çəkilsən dara,
Xəyanət eyləmə əhdə, ilqara.
Yetişmək istəsən Leyli tək yara,
Məcnun tək çölləri gəzəsən gərək.

Əgər tutsa səni sevdanın dəmi,
Tap özünə layiq könül həmdəmi.
Qismətinə çıxsa ağıldan kəmi,
Əlini dünyadan üzəsən gərək.

Həsənəm, bilməsəm öz hörmətimi,
Yar da uzaq tutar məhəbbətimi.
Arif adamsansa nəsihətimi,
Hər zaman qəlbinə yazasan gərək.

## SARIBULAQ

Dəstə-dəstə gələn ağ sürüləri,
Alırsan qoynuna sən, Sarıbulaq.
Bir neçə ayrığlı gen dərələri,
Bölürsən suyunla tən, Sarıbulaq.

Səninlə üz-üzə o Əlbuz dağı,
Qarşılar baharda çoban qonağı.
Olmusan ellərin geniş oylağı,
Suyundan içmişəm mən, Sarıbulaq.

Min çiçəklər açır onun sinəsi,
Güneydə-quzeydə quşların səsi.
Oxuyan quşların kəklik nəğməsi,
Yayılır sinənə gen, Sarıbulaq.

Adladı növbahar, gəldi zimistan,
El üçün olmusan ən böyük dastan.
İzin ver, gedirəm, incimə dostdan,
Başın üstdə duman-çən, Sarıbulaq.

Bulağının suyu olubdur dərman,
Bu dağ, bu meşə, bir də ki, orman.

Həsən tərifini söylər hər zaman,
Suyundan istərəm mən, Sarıbulaq.

## BAHAR OLDU

Canlandı bu dağ, meşə, düz, dərə,
Bizim ellər də gülbahar oldu.
İnsanlar sevinib tər gül üzəndə,
Dedilər, bax, təzə il bahar oldu.

Təbiət gün-gündən donun dəyişir,
Qoca bağban vuran calaq bitişir.
Buğda zəmiləri gəlib yetişir,
İnsanı oxşayan dil bahar oldu.

Yenə guruldayır çayların səsi,
Torpağa ruh verir elin nəfəsi.
Yamaclar qoynunda çoban nəğməsi,
Otarır sürüsün el bahar oldu.

Aşıq Həsən, götür telli sazını,
Oxşa bu dağları, çək sən nazını.
Tərif eylə bu ellərin yazını,
Eşidən qoy desin, bil, bahar oldu.

## VURULMUŞAM

Dağ döşündə bir ceyranın,
Duruşuna vurulmuşam.
Qaçma, olum mən heyranın,
Baxışına vurulmuşam.

Hansı ovçu vurar səni?
Gətirdin ilhama məni.

Dolan sən gəz bu çəməni,
Yerişinə vurulmuşam.

Aşıq Həsən sözün düzür,
Bir ox kimi necə süzür.
Ovçu onun bağrın üzür,
Sözlərinə vurulmuşam.

## DEYİRƏM

Gündüzün günəşi, gecənin ayı,
Başında qırmızı şala deyirəm.
Bu cahanda kim olar onun tayı,
Bir məni yadına sala deyirəm.

Mən Məcnunam sən gözəlin özünə,
Əğyar olma, baxma yadlar sözünə.
Örpəyin yan eylə, salma üzünə,
Qəlbimin sözünü yola deyirəm.

Adını demirəm özün biləsən,
Ara-bir xəlvəti məni görəsən,
Şahmarı saçları dala hörəsən,
Mən üçün yadigar qala, deyirəm.

İstərəm qanımı qatım qanına,
Eşqimin atəşin salım canına.
Aşıq Həsən durub gələ yanına,
Ağ buxaqdan busə ola, deyirəm.

## GƏLMƏDİ

Həsrətin çəkdiyim o nazlı dilbər,
Başında qırmızı xara gəlmədi.

Yolunda fədadır bu cavan canım,
Müddətdir həsrətim nara gəlmədi.

Xeyli vaxtdır gül üzünü görmürəm,
Əl uzadıb siyah zülfün hörmürəm.
Kəsilib güzarı yoxsa bilmirəm,
Olmaya düşübdür dara gəlmədi.

İltimasım budur bu təbiətdən,
Döyünür ürəyim, yar, məhəbbətdən.
İnandım eşqinə bil sədaqətdən,
Gətirib canımı zara gəlmədi.

Gəlir hər budaqda bülbülün səsi,
Yenə də canlanıb yazın nəfəsi.
Ətir saçan qızıl gülün dəstəsi,
Necə qismət oldu xara gəlmədi.

Deyirəm, incimə şirin sözümdən,
Bir busə istərəm oğul üzündən.
Keçərəm Arandan, Muğan düzündən,
Gəl sınıq könlümü ara, gəmədi.

Dəyişir dövranlar, yeni zamandır,
Həsəndən əlini üzmə, amandır.
Yazıram şerimi sözüm tamamdır,
Çox çaldım telli saz, tara gəlmədi.

## AYRILDIM

Yazıram o yara, dinləsin məni,
Məni Məcnun edən güldən ayrıldım.
Əbədi silmərəm qəlbimdən səni,
O şirin ləhcəli dildən ayrıldım.

Vurğunu olduğum xallı buxaqdan,
Ətirlər qoxuyan güllü yanaqdan.
Bir müşk-ənbərli qaymaq dodaqdan,
Çinbəçin tökülən teldən ayrıldım.

Gecələr, gündüzlər keçir xəyaldan,
Geymisən əyninə yaşılı-aldan.
Sən məni gəl qurtar bu qilu-qaldan,
Tutmadım əlini, əldən ayrıldım.

Gedirəm, gəl görüm gülər üzünü,
Dinləyim doyunca şirin sözünü,
Həsənəm, deyirəm sözün düzünü,
Sənin doğulduğun eldən ayrıldım.

## YATIRAM

Fələk çəngəlini vurdu sinəmə,
Yaralı qəlbimi çaldı yatıram.
Həsrət qoydu məni qohum-qardaşa,
Qəmlər dəryasına saldı yatıram.

Fələyin mənimlə ədavəti var,
Dünyanı üzümə bağlamış o dar.
Salmış ovlağıma bir qırıcı sar,
Ovlağı əlimdən aldı yatıram.

Yanıma bir kimsə gələnim yoxdur,
Fələyin sinəmdə yarası çoxdur.
Yaralı qəlbimə vurduğu oxdur,
Oxu bu sinəmdə qaldı - yatıram.

Yazıq Həsən çox artırma dərdini,
Qadir Allah özü çəksin dərdini,

Ondan başqa kimdi çəkən dərdini,
O, fikrə, xəyala daldı- yatıram.

## GÖRƏK

Gedən gözəl bir sözüm var,
Ağ telini dara, görək.
İlhamımı coşdurmuşam,
Varaq-varaq ara, görək.

Gəl bir gözüm görsün səni,
Küsdürmüsən sən də məni.
Yetir başa bu əhdimi,
Gəl bizim dünyaya, görək.

Həsən mizrab vurar telə,
Qurban olar şirin dilə.
Kəmər bağlar incə belə,
Onda durub sora gedək.

## QƏLƏM YAZIR

Sübhə qədər mən yatmıram,
Söz deyirəm-qələm yazır.
Bir kimsəni oyatmıram,
Döz deyirəm qələm yazır.

Acı əsən küləklərin,
Böhtan yazan biləklərin,
Xainlərin ürəklərin,
Üz deyirəm qələm yazır.

Dost yoluna kəmənd atma,
Doğru qəlbi yada satma.

Xainləri sən ucaltma,
Düz deyirəm, qələm yazır.

Ulduzlar da sönüb qaçır,
Ay fırlanır sübhü açır.
Günəş doğur şüa saçır,
Göz deyirəm, qələm yazır.

Aşıq Həsən çıxıb yaza,
Mizrab vurur telli saza.
Şən havaya, şux avaza,
Süz deyirəm, qələm yazır.

**VAR**

Məni eşq oduna atan ay gözəl,
İnsaf eylə, bir bəri bax, sözüm var.
Məni aşiq edən sən oldun əzəl,
Ayaq saxla, getmə, dayan, sözüm var.

Bir xalın var, ay qız, gül yanağında,
Təbəssüm oynayır xoş dodağında.
Nişanlisan- üzük var barmağında,
Ay vəfasız, mənim səndə gözüm var.

Vaxt var idi eşqin oduna yandın,
Əhd edib, and içib, ilqarı dandın.
Bülbül idim gül, cəfadan usandım,
Ay vəfasız, mənim səndə gözüm var.

Pərvanətək yandım yanar şamına,
Çağırsan gələrəm toy axşamına.
Mən ağlaram, odlar düşər canıma,
Həsrət qoyma ay qız, səndə gözüm var.

Təklif eylə Həsən toyu başlasın,
Təbrik edib qoy səni alqışlasın.
İzin versən qışı sənlə qışlasın,
Ay vəfasız, mənim səndə gözüm var.

## QADAN ALIM

Gəzdir barmaqları tellər üstündə,
Sədəfli sazını çal, qadan alım.
Bu dostlar əyləşən el məclisində
Zilini bir bəmə sal, qadan alım.

Beşgünlük dünyanın qalma qeydinə,
Dövlət toplamağın düşmə meylinə.
Demə, kasıblıqdır, düşüb püşkümə,
Salma ürəyinə xal, qadan alım.

Həsən ilə gəzsən eşqin bağında,
Biri durar solda, biri sağında.
Gecənin qarıyıb keçən çağında
Bir məni yadına sal, qadan alım.

## *3. El şairi AĞADƏDƏ DEMANLI*

## MƏNƏ

Ürək bir xəzinə, eşqi bir ümman,
İlham qəvvas olub, üz deyir mənə.
Məhəbbət sarayı güldür, çiçəkdir,
Aşiq ol, birini üz deyir mənə.

Gündüzlər ulduzlar yanar deyil ha,
Həyatın yolları hamar deyil ha,

Yoxlayan yoxlasın, bimar deyil ha,
Sevimli dostlarım düz deyir mənə.

Oturma nadanla, peşman olarsan,
Çox çəkməz, a bala, düşman olarsan.
Bir içim su verməz əfşan olarsan,
Bu sözü el-oba yüz deyir mənə.

Ağrım, acım çoxdur, yoxdur amanım,
Yoxsa, ölüm haqdır, gəlib fərmanım?
Nicat Yaradandan, vardır dərmanım,
Nəfsim Savalandan, buz deyir mənə.

Haqqa qurban verdim naxışlarımı,
Üzmədim Allahdan baxışlarımı.
Xəstə Demanlı da göz yaşlarımı,
Həzrəti Hüseynə süz, deyir mənə.

## HEYDƏRİ-KƏRRAR

Ərşin sütununa yazılıb adın,
Beşindən birisən, Heydəri-Kərrar!
Kəbədə doğuldun, Əsəd qızından,
Allahın şirisən, Heydəri-Kərrar!

Əmir Ərdəvidin canın alan sən
Əhməd yatağında yatıb qalan sən.
Xeybər qalasında zəfər çalan sən,
İslamın tirisən, Heydəri-Kərrar!

Bizə peyğəmbərin atası sənsən,
Fatimeyi Zəhranın butası sənsən.
Həsənin, Hüseynin atası sənsən,
Aləmin sirrisən, Heydəri-Kərrar!

Deyirlər çox yaşlı Nuh peyğəmbəri,
Quranda bu haqda vermiş xəbəri.
Qüdrətə bağlıdı ruhun cövhəri,
Aləmin pirisən, Heydəri-Kərrar!

Vəsi seçilmisən imanlı üçün,
Yaxından yaxınsan gümanlı üçün.
Başqasın bilmirəm, Demanlı üçün
Həmişə dirisən, Heydəri-Kərrar!

## HƏYAT

Bilirəm, heç kəsə olmayıb vəfan,
Bizi yarıyolda atansan, həyat.
Misir bazarında peyğəmbər oğlun,
Aciz qul eyləyib satansan, həyat.

Heç kəsin əbədi deyildir tacı,
Kim deyib şirinsən, acısan, acı.
Rəqibin əlində üryan qılıncı,
Əli pusqusunda yatansan, həyat.
Kiminə var-dövlət, şairə ürək,
Köksündə yaşayır min arzu-dilək.
Qələmlə gor qazıb qazansa çörək,
İçinə zəhrimar qatansan, həyat.

Edərsən namərdin cəfasın qəbul,
Neçə anlamazın davasın qəbul.
Etməzsən şairin duasın qəbil,
Oxsan, Demanlıya batansan, həyat.

## OLA

İman bir çiçəkdir, şehi üstündə,
Onu candan əziz saxlayan ola.
Nə olar qız versən uzaq ellərə,
Şərəfdir, bir gedib yoxlayan ola.

Birin tanımasan, salam ver, sovuş,
Səni sevənlərlə get görüş, qovuş.
Fəqirin, kasıbın əhvalın soruş,
Məzlumun halına ağlayan ola.

Səadət gülünü əksən bitəcək,
Sən yaxşılıq elə, demə, itəcək.
Bir gün əvəzini Allah verəcək,
Eşqin haqq yoluna bağlayan ola.

Qarşıda ölüm var, bir yada salaq,
Günah toplamışıq biz qalaq-qalaq.
Tövbə eyləyənlər şəffaf bir bulaq,
Haqdan zümzüməsi çağlayan ola.

Demanlı, içində eşqdir ədalət,
Ürəyində təpər, əldə səxavət.
İstəsən alarsan vasili cənnət,
Nəfsin haram yoldan dağlayan ola.

## DAĞLARIN

Möhtacam gəzməyə ulu dağları,
Gül-çiçək bitirər yazı dağların.
Duman bürüyəndə eldən gizlənər,
Bax, budur işvəsi, nazı dağların.

Əlçatmaz zirvəsi, geniş dərəsi,
Dərənin içində sərin çeşməsi.
Sədd çəkib bizlərə yaşıl çeşməsi,
Seyrə çıxıb maral qızı dağların.

Bax, odur, yamacda baş verib yemlik,
Neçə yarpağını qırıbdı əmlik.
Aşiqi bülbüldü, məşuqu kəklik,
Heç kökdən düşərmi sazı dağların?!

Sinəsi cığırdı, min elat keçir,
Səması gömgöydü, qartallar uçur.
Bürünüb ağ dona, gəlinmi köçür,
Küsüb yaşılbaşı, qazı dağların.

Demanlı inləyir, ay dost, ay lələ,
Gözümdən tökərəm yaş gilə-gilə.
Qəlbin arzusudu, bir qonaq gələ,
Qalıbdır yollarda gözü dağların.

## QARDAŞA

İstəsən baş əyim, təzim eyləyim,
Hər şeyin yerini bilən qardaşa.
Varımı, mülkümü qoy qurban deyim,
Acı göz yaşımı silən qardaşa.

Onundur nə varsa güc biləyimdə,
Götürüb gəzdirəm lap kürəyimdə.
Surətin saxlaram öz ürəyimdə,
Qeyrəti uğrunda ölən qardaşa.

Yüz tərif yazaram, olmaram yorğun,
Çəkərəm cəfasın, olmaram solğun.

Ariflər, bilin ki, vurğunam, vurğun,
Çətində güc tapıb gülən qardaşa.

Demanlı, o şəxsə şərafət düşür,
Sağ ikən payına min rəhmət düşür.
Tanrının özündən mükafat düşür,
Məzarının üstə gələn qardaşa.

**BU GEDƏN**

Könül, doyunca bax gedən ceyrana,
Aşiqi məst edən qızdı bu gedən.
Bu necə yerişdir, bu necə qəmzə,
Təpədən dırnağa nazdı bu gedən.

Məni öldürübdür, qoy deyim öncə,
Lətif danışığı incədən incə.
Haşa bədnəzərdən, açmamış qönçə,
Köklənmiş kamandı, sazdı bu gedən.

Çəməndə ətirli güldən gözəldir,
Şümşad barmaqları tüldən gözəldir.
Danışdır, ləzzət al, dildən gözəldir,
Gərək çox olaydı, azdı bu gedən.

Dağlarda kəklikdir, yanaq qırmızı,
Tərlan baxışı var, bülbül avazı.
Bizi məst eləyib bugünkü nazı,
Mavi göllərimdə qazdı bu gedən.

Ürkək baxışı var, naşıdı, naşı,
Aladır gözləri, qələmdir qaşı.
Demanlı hal əhli, olsan sirdaşı,
Zimistan görməyən yazdı bu gedən.

## 4. El şairi ZÖHRAB ZÖVÜNLÜ

## TƏCNİSLƏR

### AY AĞA

Əylən gözəl, şehli dərə sərindi,
İnkar etsən, söz də düşər ayağa.
Şirin canı qoy talaya, sər indi,
Qayğı göstər ələ, qola, ayağa.

Sənsiz çölü güllü yazda qar alar,
Allah sınıq ürəyi də qaralar.
Ağ üzündən xəcil olar, qaralar,
On dörd günə ha ki dola ay ağa.

Hay-küy olsa handan-hana haya var,
Qoy desinlər, o gözəldə haya var.
Yolun olsun ha cəngəllik, hay avar,
Səni gəzər yorulsa da ayağ a.

Zövünnü der, gər istəsə yarı yar,
Hər ikisi öz eşqindən yarıyar.
Günahkarın ya könlünü yarı yar,
Ya da onu özün oxla, ay Ağa.

### YARASAN

Əsli yoxsa, sən o yardan aralan
Xeyrin olar deyilənə yarasan.
Ucuzlaşar el gözündən ar alan,
Ürəyini dərddən niyə yarasan?

Əyri yollu duy ki, çətin düzələ,
Görüşəndə əl də uzat düz ələ.
Qeyrətə gəl, safniyyət ol, düzəl, ə,
Alçaqlığı çox ağrılı yara san.

Köhlən odur yiyəsini at ana,
İnanc yoxsa, de anana, atana.
Gəzə, sonda gözəlçəsin atana,
Ona derlər qətl eləyən, yar asan.

Yar arasan, eli dolan, qız ara,
O güləndə al yanaqlar qızara.
Sən könül ver, könlü sənə qızara,
Zövünnü, gəz, ələ düşsün yar asan.

## YAZAYAZ

Söz də güldür, təzə sözlər dər indi,
Şükr Allaha, hey çoxalır yazayaz.
Şirin sözlər dərindən də dərindir
Təzə ildə təzə şeiri yaza yaz.

Alanda da yaxşı dürrü alasan,
Sərrafı ol, dəyərincə al asan.
Deyən yoxdu, sən sözündə alasan,
Üzdə gülər görsənəndə yaz a yaz.

O yazarın sən desənə dərsinə?
Gül dərirsə, təzə gülü dərsin,ə,
Özün çağır şairləri dərsinə,
Şəlalə də əgər gəlsə yaz, ay, yaz.

Qaydadır ki, gül günəşdən al alar,
Güneylərdə güllər açar alalar.

Gül satandan yaxşı gülü alalar,
Günəş yoxsa, ha desinlər yaza, yaz.

Zövünnünü səsləsən də, ha laldı,
Üzdə, sözdə alqış sənə halaldı.
Tağı yazdı, Nağı yazdı, halaldı,
Deynən, sən də kağız götür yaz, Ayaz.

## DÜNYA

Çalış qazanc götür təmiz binədən,
Əzəldən bağlıdır halala dünya.
Zaman dönüb, bəxt yatıbsa binədən,
Şəxsi qoymaz sonda hal ala dünya.

İstər gəzsin ipək donlu, xaralı,
Bədəsilsə, el gözündən xar alı.
Verər siləl əmə dərd-qəm xaralı,
Düşkünə, yetimə, ha lala dünya.

Haram bir fitnədən Fərhadla Şirin,
Əmib doymadılar ləb şirin-şirin.
Ruhun oxşamaz ki, pələngin, şirin,
Ha açа qızılgül, ha lala dünya.

Ala dostdan iki düşün, bir inci,
Yaxşıları birincidir, birinci.
Namərd ömrü bada gedə birinci,
Mərdlərə halalsan, halal, a dünya.

Çox yaşaram, onu tutma nəzərdə,
Yox etibar nə altunda, nə zərdə.
Öldü getdi o milyonçu Nəzər də,
Şair Zöhrabı da halalla, dünya.

## DÜNYADIR
## (qoşma)

“Mənim dünyam” deyib, çox əzizləmə,
Bu gördüyün dünya yalan dünyadır.
İlana, əqrəbə, gürzəyə dönüb,
Hər kəsi vaxtında çalan dünyadır.

Bu dünya dediyin çox bietibar,
Bir üzü istisə, bir üzü buz, qar.
Demə, mərəz görən sağlam canım var,
Hər kəsin canını alan dünyadır.

Yüz iyirmi dörd min peyğəmbər hanı?
On iki imamın tez aldı canın.
Hər an qatilidir nökərin, xanın,
Təkcə bir Allaha qalan dünyadır.

Ömür qismətini tanrı bilsə də,
Nəfsin ləpələnən dərya, gölsə də,

Tamahsız, tamahkar bir qat ölsə də,
Yeddi qat çoxalıb dolan dünyadır.

Alim də, nadan da dünyaya bir fərd,
Zöhrab, bir ömürçün gəl çəkmə çox dərd.
Fərqi yox, olsan mərd, ya da ki, namərd,
Hər kəsi məzara salan dünyadır.

# YARDIMLI FOLKLORUNDA İŞLƏNƏN DİALEKT SÖZLƏRİ

**A**

Abeşik – meşəbəyi
Abi – mavi göy
Avar – ot-ələf
Ağbaşdü – aşbaz
Aybə – çöl soğanı
Ayəm – gecənin bir vaxtı
Alaquz – söz gəzdirən
Alalamaq – arıların şirə çəkməsi
Alu – cır gavalı
Alusun – dərialtı pərdə
Amanabənd – müvəqqəti
Amanabənd – bənd
Avarmaq – başa düşmək
Arba – bərabər
Acıtma – xəmir mayası
Amanat – əmanət
Ağuşkə – pəncərə
Arıtmaq – təmizləmək
Axur – heyvanın yem tökülən yeri
Alaçuğ – kiçik yaşayış yeri
Afsana – tikəsi kara gəlmək
Alarvadı – qar adamı
Ağuzdurmaq – təzə doğulmuş heyvanın balasını əmizdirməsi
Aluğ – palan
Arağaş – vaxtından tez böyüyən
Alaçalpo – qışın bir hissəsi
Abxor – su qabı
Abiəjdad – nəsli nəcabət
Abigərdən – belə bağlanan əşya
Alanqu – xırda,tez yanıb qurtaran ocaq,alov

Amxanaqo – münasibətin kiminləsə yaxşı olması
Avaraq – qovub çıxarmaq
Ala adam – sözünü dəyişən adam
Avsanadan çıxmaq – lazımsız olmaq
Alapitdi – başdansovdu
Abal – yük olmaq

**B**

Bab – uyğun, tay
Babal – yazığ
Babilitmək – ələ alıb öyrətmək
Balaburd – əlüstü yemək
Ban – çardaq
Basarat – imkan bacarıq
Basməmmədi – başdansovdu
Bəkələmək – özünə çəkmək
Boda – ucu iti ağac parçası
Bır – əl ayağa dolaşan böyürtkən kolu
Bulama – təzə doğmuş inəyin südü
Betər – övlad (söyüşdə işlənilir)
Bələt – həyət qapısı
Bəlim – əzilmiş saman
Biavan olmaq – işdən gücdən olmaq
Biney – əvvəl, əzəl
Binıxda – nöqtəsiz
Bürün – yarılmamış odun
Bapbun – şanapipik
Bıdarlamaq – sındırmaq
Bılaxaylıq – xamlıq etmək
Bıldır-bıldır – dil-dil ötmək
Bırığ – axta
Bırcitmək – əymək,döndərmək
Bısağa – qapının ağzı
Buçğu – böyük mişar

Boyunəti – asılılıq
Boraşim – şum
Bor-bor – yoğun səs
Buruz – yonulmamış yoğun agac
Bülül – yabanı lərgə
Bitdili – bilibitdan (quş)
Bazburut – cüssə
Benava – yazığ
Bevaris – övladsız
Banabərə – evin banına çıxmaq üçün yer
Bürüşdürmək – yığcam etmək
Bulağotu – suda bitən yeyilən bitki
Bəriehtiyyat – hər etimala qarşı
Bədyol – işi düz gətirməyən
Bicək (bicəkinə) – vaxtından tez olmuş arığ heyvan balası
Biçort – eybəcər
Biəməl – əməlində düz olmayan
Bimıdğar – keyfiyyətsiz
Başaq – yerə tökülmüş sünbül
Bılaxaylıq – xamlıq etmək
Buğur kimi – sağlam
Balaqurd – canavarın balası
Bilayığ – layiqsiz
Befər – fərsiz
Bəndbərə – hər yer
Bənööş – niyə,nə üçün
Bıdey – budur
Buzovburnu – böcək
Bəzirgan – hər şey ilə təmin olunmuş
Burunduğ – heyvanın ağzına keçirilən ip
Başbulud – pasport
Başbilən – ağsaqqal

**C**

Caymək – yolundan azmaq

Cail – cavan

Cəllo – hiyləgər

Cəməy – yorğan – döşək

Cəhəlləşmək – mübahisə etmək

Cingilimvay – vay-şivən

Cicə – nənə

Cıvığ – ağızdan boş

Cıqqan-cıqqan – az-az

Cınqır – qoz

Cıraləşməy – dalaşmaq

Cızdığ – qoyunun quyruğunu çox qızardandan sonra alınan kütlə

Cılğu – yara

Cuna – tənzif

Cilitgə – qısa qol geyim

Culaşmaq – birləşmək

Cirtdanağ – əzilmiş

Cozmələ – xırda

Cambaza – birdən durmaq

Cinnətmək – əsəbləşdirmək

Cürcənəy – əyinə üstdən atılan geyim

Coma – topa

Cuanəzən – qadın

Curi – balaca

Cürünbül – islanmış

Cələqırmış – düz iş baş verməyən insan

Casaratdu – həyasız

Candərdi – istəmədən

Cur olmaq – mehriban olmaq

Caydağ – enli,hündür insan

Cəddiaba – sülalə

Coz – balaca yumru

Cumculuğ olmaq – islanmaq
Ciyə – kəndir növü
Cüzüldəmək – ağlamsımaq

**Ç**

Çalğu – həyət süpürgəsi
Çaxırtikanı – göy rəngli tikan
Çaşnı – kapsul
Çəyləmək – qarışdırmaq
Çeşmələmək – seçmək
Çəpərə – qabırğa
Çəpi(çığ) – pendir tutmaq üçün qamış və ya budaq
Çəçəmək – boğazı qıcıqlanmaq
Çiyrimək – iyrənmək
Çillitmək – oğurlamaq
Çimçəşmək – ürpəşmək
Çinə – toyuq dəni
Çılğa – nazik təndir odunu
Çəpəndazı – maili
Çərrəmək – soyuqdəymə
Çiliyburnu – bataqlıq quşu
Çətənə – bitki
Çül – yük heyvanının belinə qoyulan parça
Çısratmaq – sıçratmaq
Çülləmək – palanlamaq
Çıqqıli – balaca
Çınqimək – sıçramaq
Çəmbərəbuynuz heyvan – buynuzları dik olan heyvan
Çilətdi – oyun
Çabalama çerni – heç yerə tərpənmə
Çülə – nazik
Çirtgüllə – tüfəng
Çimir etmək – gözünün acısını almaq
Çöleşşəyi – qanmaz

Çölləmə – axmaq
Çilməy – quş
Çilitmək – oğurlamaq
Çilbildirçin – oğurluq
Çivek – sandal
Çərtdənəgöz – gözləri domba
Çıstada – quş
Çola – çuxur
Çalpaşıq – qarışıq
Çatu – ip
Çalağan – ət yeyən quş
Çarpanaq – əldə və ya ayaqda kəsiyə oxşayan yara
Çuğul – yalançı, xəbərçi
Çilingağac – oyun
Çayan – sancan böcək
Çalğuçilər – musiqiçilər
Çer – çəpgöz
Çor – qarğış
Çamxorgöz – zəhimli göz
Çibin – milçək

**D**

Dalamurd eləmək – yoldaşdan və ya ümumi paydan oğurlamaq
Dallamaq – budamaq
Danqaz – lovğa
Daraqqun – şanapipik
Daram – tarım
Darıçi – qeybətçi
Dar vaxtı – axşam düşən vaxt
Dastar – əl dəyirmanı
Dələngavaz – çox böyük, yöndəmsiz
Damanda qalmaq – çarəsiz qalmaq
Dənəva – hədik aşı

Dənzərmək – qızarıb – bozarmaq
Dəngüş – düşük
Dəng – beyni-başı getmək
Dərinkə – qab
Dərmək – (əyinə) geymək
Dəsbəçə – əlüstü
Dəfə – daraq – şey-şüy
Dingilimqoz – yüngül xasiyyət
Dinşəmək – anlamaq
Dirsək – təpə
Dişxaru – çöl-bayır
Dır – açıq
Dümüsgül – omba
Dəstərxan – üstündə kündə tutulan parça
Dabrüşdürmək – tez-tez yerimək
Dümləmək – ayaqyoluna getmək
Darqursaq – hövsələsiz
Dingilimvay – dıörlanıb aşmaq
Düdük – söyüş
Dümbül – insanın oturacağı
Dürmənc – lavaşın içinə nəyisə yığılandan sonra, onu fırladandan sonra alınan forma
Darbalaq – alt paltarı
Dəbə – yırtıq
Dılğır – söyüş
Dinşəmək – anlamaq
Dişəmək – deşmək
Dıbır – axtalanmış çəpiş
Dingə – qadınların başına vurduğu yaylığın ön hissəindəki düyün
Dımbız – yumruq
Dımbıl – balaca boy
Dəhrə – baltanın başqa forması
Doğanaq – odundan hazırlanmış haça

**E**

Eyni açılmaq – könlü açılmaq
Ecahanlıq – asudəçilik
Eryəti – başdan sovdu
Etənə – canlının doğuşu zaman möhtəviyyatı

**Ə**

Əür – allergiya
Əvdiləmək – yığmaq
Əvnə – yemək vaxtı, günorta vaxtı
Əyləmlü – maili
Əlbasdi – qıza nişan qoymaq
Əlyesir – axtarmaq
Əlləmə – daş,kəsək
Əlcə-əlcə – parça-parça
Əmürçək – yabanı meyvə ağacı
Əmbüz – buğda tayası
Ənkə – ən yekə
Ənkirrəmək – çırpışdırmaq
Əvsimək – sovurmaq (buğda, arpa, düyü)
Əcirə – əzab-əziyyət
Əhləd – qəbr ağacı
Əyirdək – Yağda bişirilmiş diametri 1 sm olan uzun müddətli saxlamaq mümkün olan un məmulatı
Əv – ev
Əlöüs – dalayıcı yarpaq qurdu
Əbrəş – qoyun
Əblah – utanmaz
Əmcək – döş
Ələfi – çaşır
Əşiva – vəhşi
Əcirə – əziyyət
Əməlcadu – cadu
Əfəl – bacarıqsız
Əbəçi (əbəştü) – mamaça

**F**

Fitilləmək – aradan çıxmaq

Fıştırığ – fit

Fota vermək – bada vermək,itirmək

Farağat durmaq – sakit durmaq

Fərməş – yorğan döşək yığılan sandıxa oxşar toxunulmuş əşya

**G**

Gahgir – hərdənbir

Ger – bitki

Germüc – güclü külək

Gəyişmək – məsləhətləşmək

Gəzdəmək – nişan vurmaq

Gəgür – alçaq boylu ağac

Gəmə – quru ot topası

Gəmürçəy – bərkiməmiş sümük

Gərələməy – aralamaq

Giv – öküz boyunduruğu

Gizgə – pırpızlaşmış tük

Gilani toyuq – ala bula toyuq

Gilə atmaq – tək-tək düşmək

Giliz – siqaretin təki

Gildik – itburnu

Gilfə – təndirin aşağı bacası

Girdəkan – qoz

Girəvə – fürsət

Giri – çəki

Girə keçmə – ələ keçmə

Giri-giri qovmaq – durmadan qovmaq

Girinc qalmaq – avara qalmaq

Girrü – güclü

Gəvələmək – tez-tez yemək

Girdə – yumru

Gəlinboğan – qayada yaşayan iri kərtənkələ
Gəgöyün – acgöz
Güdül – qısa boy
Gürçat – güclü yağış
Güzürrrəmək – güc gəlmək
Güşatdığ – açıqlıq
Gurulu – gumbaz
Gölə qarğu sancan – əlindən pislik gələn insan
Göz portdadan – göz çxıardan
Güzəm – yunun növü
Gəvən – bitki
Gupitmək – vurmaq
Gədüy – yamac
Günəvər yer – gün düşən yer
Gəldaynən – gəl də
Gülıünc – düşük
Gəmə – ot topası
Gur – çoxluq
Gidişmək – qaşımaq

**H**

Havas – gecə ovu
Haykaza – həmçinin
Hagidə – cəld
Hamada – hazır
Hampa – həmyerli,həmkəndli
Həvəcuğa – şey-şüy
Heydən düşmək – gücdən düşmək
Hələm-hələm – nəvar-nəvar
Hələməl – hələm-hələm
Hərtə vurmaq – heçə çıxartmaq
Hərçikara – hər kimsə
Həsdəmək – dalaçəkmək
Hay-həşir – səs küy

Həs-hüs – anlamamaq
Hərküşdü – hər kəs
Həcin – hənirti
Hızırığ – his,yanıq iyi
Hırro – itələşmək
Hoza – əl ağacı
Hozu – kobud
Hüşənmək – qorxmaq
Hürülü çibin – ac və acıqlı arı
Hüşdürümqulu – səfeh
Havala vermək – dürtmək
Hürgüc – boyunun arxasında qat-qat piy yığını
Həftəxiyal – fikrini tez-tez dəyişən
Hörükləmək – heyvanı otlağa bağlamaq
Həvə – xalça toxumaq üçün alət
Həndəvər – ətraf
Hüni – aqcaqanad

**X**

Xalvar – 10 dərzdən ibarət ot yükü
Xartuşkə – şəkər və mədə bağırsaq üçün xeyirli olan kartofa bənzər bitki
Xədim – axta
Xərəngə – çılpaq, lüt taxıl
Xərpə – şalban
Xımı – hiyləgər
Xınzır – var-dövlət
Xitilənmək – yaltaqlanmaq
Xırçə – kiçik xiyar
Xıçə – bir hissə
Xuygar – xaş-xaş
Xurt düşmək – sakitləşmək
Xoriş – paxıllıq
Xoşdavlıq – zarafat

Xıra – xırda yemiş
Xəfəng – piştaxta
Xəkə – qənd unu
Xəfənəyli – öskürən canlı
Xışə – arx
Xırnək – təngənəfəs heyvan
Xırxıra – cəhrənin bir hissəsi
Xəşə – böyük kisə

**İ**

İgid – cüssəli
İlana ağu verən – kərtənkələ
İplik – oynaq,budun qurtaracağı
İrağbət – səliqə-sahman
İraic – arxayın
İrğa – parça qənd
İrisə – saplaqlı soğan dəsti
İfal – utanmaq
İşdəcək – əhvalat
İşıldanğuc – işıq verən böcək
İbişkə – kibrit
İşartu – kiçik işıq gələn yer
İşdəcəklü – bilmədiyimiz, eşitmədiyimiz

**K**

Kan – yuva
Kambağı – ulağın belinə qoyulan palanın bərkidilməsi üçün istifadə olunan ip
Kos – əyri, çəp
Keyvənd – palanın üstünə qoyulan ağacdan haça
Ker – yamac
Keş – yumşaq
Kəvəldüc – yabanı ot
Kəko – ağcaqayın

Kələk – divar
Kələy – hey-hərəkət
Kəm – az
Kəndü – arı pətəyi
Kəngirrəmək – yeriməmək
Kərəzdənmək – əl qaldırmaq
Kərtdəmək – kəsib nişan vurmaq
Kil – küt
Kiləğord – böyük bıçaq
Kirtdək – selbə
Kisib – xəzinə, var-dövlət (döyüşdən əldən edilən)
Kolat – qırılmış meşə hissəsi
Korsit eləmək – gözümçıxdıya salmaq
Kopinə – balaca ot tayası
Köbər salmaq – quraq qoymaq
Köyüz – ölçü qabı (buğda)
Köçə – heyvan saxlanılan yer
Küər – cavan keçi (çəpiş)
Küz – parça, hissə (əkin üçün torpaq)
Küz – boranının bir parçası
Kükü çalmaq – ilanın burulub yatması
Küm – evinin tirinin küncləri
Kürrənmək – əfəlləşmək
Kürünc – buğda saxlamaq üçün taxtadan düzəldilmiş qutu
Kürüsüm – ev tikiləndə işlənən dirək
Kütün – qoz bel
Kürüşnə – dənli bitki
Kömbə – dəyirmanda bişirilən çörək(qalın)
Küllənmək – tənbəllənmək
Kecələ – alabəzək uzunquyruq quş
Korakecələ – quş
Kirt (yadından çıxmaq) – tamamilə
Külmə – balıq növü
Keçisuyubulandırmaq – bəhanə

Keçisaqqalı – bitki
Kəbinəştəyi – cehiz
Kəkül – saçın qabağ hissəsi

**Q**

Qazouc – kündə kəsən
Qadağa – sifariş
Qəymə – dirək
Qambalağ – enliyarpaq bitki
Qəncümə – əzilib qan çıxmayan hissə
Qapışmək – güləşmək
Qaramat – nəslik
Qəlp – saxta
Qərəbağır – qara ciyər
Qərəbalıq – canavar sürüsü
Qərəqayıt alma – canını dərd alma
Qərəipi – nişan üçün ip
Qərəgilə – qara yemişan
Qərəxarman – tam yetişməmiş noxudun qabığlı ütülməsi
Qərəçuxa – bəxt
Qəflətif – mağaza
Qızılgöz – fısdıq
Qızılpaça – yeməli yabanı bitki
Qındırğax – qatırquyruğu
Qımıc – onurğanın aşağı hissəsi
Qırpın – sünbüldən ayrılmış
Qocinmək – qurdalanmaq
Qulaban – küləfrəngi
Qorcələ – qığılcım
Qart – bıçaq itiləyən
Qullabi – saxta
Qəlefeyn – şalvar
Qrapalan – aşsüzən
Qəmə – qılıncdan kiçik

Qəməaltı – qəmədən kiçik bıçaq
Qağa – ataya və ya qardaşa müraciət
Qəlit – peçenye
Qıçbağ – rezin
Qalxuzmaq – qaldırmaq
Qum-quma – hərbiçinin su qabı
Qundağ – uşaq bələyi
Qıvraq – cəld
Qavala – müqavilə
Qərədaban – uğursuz
Qərəltü – kölgə
Qurbağaçəni – suda olan yaşıl yosun
Quşğun – yük heyvanının yəhırinin qabağa sürşməsini əngəlləyən ip
Qarınaltı – palanın sağa və ya sola aşmasını əngəlləyən ip
Quşqun təklifi – ötəri təklif
Qəmbərqulu – əmma
Qavazax – boş qabıq
Qərəqulağ – vəhşi heyvan
Qırışmal – yaramaz
Qortdama – kartofun köz altında və ya ocağın üstündə bişirilməsi
Qızırğanmaq – qıymamaq
Qayagərnəyi – qayada yaşayan böyül kərtənkələ
Qorcələ – xırda qar dənələri
Qopalağ – toz-duman
Qalayla haqqına götür – xidmətə çəkilmiş xərcin malın dəyərinə bərabər olduğu halda işlənən ifadə
Qısğanc – qulağa girən böcək
Qırx ərşün quyu – bitib-tükənməyən, çətin işə düşmək
Qəfədan – çaynik
Qor – köz
Qılçıq – sümbülün bir hissəsi

**L**

Lapdan – qəfil

Laparülü – iri güllü

Lat – hissə

Las – parça

Lecim – evin üstünün künc bucağı

Ləvərə – vaxtından əvvəl doğulan uşaq və ya toyuğun vaxtından əvvəl yumurtaladığı yumurta

Lələgilə – meyvə

Ləm – müəyyən hündürlükdə əşya qoyulan yer

Ləmçə – rəf

Ləlöün – qarınqulu

Ləmsiyə-ləmsiyə – aşa-aşa

Lət götürmək – kökəlmək

Ləc – sulu yer

Lim – bataqlıq, palçıq

Linc – xəşil kimi plov

Lındır – tökülə-tökülə gəzən adam

Lodiş – qarın

Lodur – tənbəl

Loruq – şiş

Lorun – bayquş

Lotuğ – ağ çiçəkli bitki

Loxma – tikə

Löl – hin

Löhmə – palçıq

Luğab – qatı ləzzətli

Lifə – paltarın belə bağlanan hissəsi

Lünc – mağaraya oxşar qaya hissəsi

Lüppüz – lüt

Lıpığ – dişsiz

Lök – ağacın uzun budağı

Lıqka – bataqlıq

Lümə – qısaboy

Ləbələb – ağzınacan doldurulmuş
Lalalivala qalma – qarğış
Lüleyn – qab
Lokka – it adı
Lama – xəmirlə yağın qarışıqı (əzilən yerə qoymaq üçün)
Lək – göyərti və.s əkmək üçün düzəldilmiş torpaq hissəsi

**M**

Mağmun – peşman
Mazat – naza qoymaq
Malınaqıymaz – xəsis
Manqo – burnunda danışan
Man – ayıb
Manquc – süzgəc
Masxur – fincan
Mafa – cənazə
Məkəcin – dişi donuz
Mələngü – adama oxşamaz
Mərəkə – yığıncaq,məclis
Məhə – burğu
Mirgə – güvə
Mişeyrə – ağac
Mıdğar – dəyər, qiymət
Mıy qədər – tük qədər
Mızıx – mısmırıq
Mımığı batmaq – pərt olmaq
Mıcilənmək – ləng tərpənmək
Mumulğan – bal şanının ərintisi
Mübah – səfalı
Mırıza yatmaq – pusquya durmaq
Muçuqlama – qabar vurma
Muşqulat – məşğuliyyət
Muştuluq – göz aydınlığı
Müncül – heyvanın bədənində balaca şiş

Mıçə – saplaq
Müçük – oturaq sümük
Müçür – tumurcuğ
Malxuda – gucbəsər
Mücöürrəmək – narahat olmaq
Mələfə – ağ döşək üzü
Müzö – mozalan
Mamusta – xoruzun dal barmağı
Mərdəçaqqo – aravuran
Mıdığ – balaca,qısa
Mısmırıq – qaşqabağ
Miçətkə – ağcaqanaddan qorunmaq üçün tənzifdən düzəldilmiş yataq yeri
Mor – xasiyyət
Mıraşura – qəsdən nəyisə səbəb salmaq
Mızayğa – qıymamazlıq
Mitil – yorğan döşəyin astarı
Mərə – yataq yeri, yığnaq yeri

**N**

Nəbanaba – nəbadə
Nazbalış – ərköyün
Nal – eyvanın altı,səkisi
Nalçə – balış
Nədahim-nədahim – özündən böyük sözlər deyən
Nəzər damarı – şah damarı
Nəf – tab
Nəflənmək – köpmək
Niyaz vaxtı – axşam çağı
Nil ağacı – azad ağacı
Nişxord – tör-töküntü
Nıxtın qoymaq – sonuna çıxmaq
Nodərəməd – möcüzəli
Noxta – cilov

Nuhar – at çülü
Nobara – nübar
Nırta – suyun gur axması
Nırha – nırha vermək
Nataraz – yöndəmsiz
Namahlama – heç olmasa

**O**

Otaşxana – ciyər
Oxur – su qabı
Oxşey – bəlkə, görünür
Obaşdan – tezdən
Ombur – ağacın gövdəsində bitən bitki

**Ö**

Öcəşmək – sataşmaq
Örü – gecə səhərə qədər mal otarmaq

**P**

Papey olmaq – əhəmiyyət vermək
Parqu – söyüd (pufu) gülü
Peşkar – bostan
Peyləmək – yaralamaq
Pezirti – iri
Pel – kətman
Pəl vurmaq – ara vurmaq
Pələmə – alaçıq
Pəpül – pipik
Piyə – təndir palçığı
Pilək – düymə
Pillələmək – dəmə vermək
Pingə – qabanın böyük yan dişi
Pitdigan – bilibitdan
Pıt-pıt – iri kütlə

Pıtıl – çürük
Pıtıxmaq – kökəlmək
Pıtraq – yapışan bitki
Pıtraq – çoxlu gətirən meyvə
Portdaşuğ – qarışıq
Potuğ – camış balası
Pözələylənmək – qaçmaq
Pöykür – daş əzmək üçün iri çəkic
Pəlizgə – taxtadan qopan hissə
Püsük – sırsıra
Pəşəlo – təhdi
Parapozan – qarmaqarışıqlıq
Pərdü – evin üstünə vurmaq üçün yonulmuş ağac
Püskülüt – yemişan forması
Paranqu – əşyadan qopan hissə
Pilətə – peç
Pərpətöül – selikli yabanı bitki
Pısmırıq – qaş-qabağ
Pütülgə – butulka
Pinəküləmək – mürgüləmək
Pəndəm olmaq – köpmək
Pezimək – qaçmaq
Patrağ – bıtraq
Pendirəmaya – alça və gavalı ağacında tam mayalanmamış ağ şəkilli meyvə
Pilə kimi – ipək kimi
Pələqulaq – şəlpə qulaq
Pinti gülü – bitgi
Pərpiləmək – alından,dizdən və sair yerlərdən qan almaq
Paymal – zay olmaq
Pişik dırnağı – yemişana oxşar kol
Pişik alması – qırmızı topa meyvəsi olan kol
Pısmırıtdi – qaşqabaqlı
Pıçılğan – barmaq arası yara

Peşo – yüngül çölə çıxmaq
Pardağın vermək – cəzalandırmaq

**R**

Riyə-riyə – haşiyəli

**S**

Saburğa – qabırğanın uc hissəsi
Sağal – quyruğu ala
Sadır – kirli
Sayıl-sayıl – avara-avara
Sapluçə – uzunqulplu qab
Səmə – axmaq
Süzənək – sidik saxlaya bilməyən (xəstəlik)
Sümbə – tüfəngin içərisini təmizləyən alət
Siviş – ağacın elastik budağı
Simbirçək – sarı saç
Simsar – münasib
Sıvığ – duru
Səyirgəjdü – hərəkətini bilməyən
Setrə – pencək
Sədəf – düymə
Sərpmək – burxulmaq
Sərfə olmaq – acından başı ağrımaq
Səcən – odun yığımı
Siyəzü – kisə
Sirab eləmək – təmin eləmək
Sirgilə – qırmızı yemişan
Sıxım – ovuc
Soncuqlamaq – vurnuxmaq
Sori – toy şirnisi
Soutlamaq – narahat olmaq
Sual – kirəmit
Suanmaq – möhkəm yapışmaq

Suat – meyid yuyulan yer
Suyuşirin – xoşagəlimli
Suluq – sidik kisəsi
Silif – düyü qılçığı
Süng etmək – incitmək
Sütdügan – süd buraxan bitki
Sicim – yük heyvanını yükünü bağlamaq üçün ip
Somyəçə – balaca
Sümsünmək – veyillənmək
Soğansu – ətsiz xörək
Sərinc – süd sağılan qab

**Ş**

Şəlayin – arxayın
Şalpanaq – səliqəsiz
Şatur – çarıq növü
Şapatdamaq – tez-tez eləmək
Şeşkələbuynuz – iti buynuzlu
Şəbey – yöndəmsiz
Şəlpəqulaq – yekə qulaq
Şəngül – düşük
Şərəfə – məhəccər
Şəpəsi dəymək – zərəri dəymək
Şəpə vurmaq – qar yığnağı
Şiv – ağac şitili
Şinapopi – çiçək
Şirməy – zolaq-zolaq heyvan
Şirto – dadsız yemək
Şitətmək – dadandırmaq
Şitxa – duzsuz
Şırılişıppaz – birdən-birə
Şolitmək – necə gəldi işlətmıək
Şoxum – şum
Şülley papaq – hündür papaq

Şax – ağacın budağı
Şöngimək – sallağı oturmaq
Şelə – boran – bol
Şivərək – yığcam
Şılığ – pinti
Şivimək – sürüşüb çıxmaq
Şalapara – pinti
Şulum – öz nəfsini saxlaya bilməyən
Şuğul – bənnanın işlətdiyi alət
Şellənmək – rahatlanmaq
Şinimək – tərsliyi tutmaq
Şəkə düşmək – şübhələnmək
Şilə – qırmızı parça
Şapatdamaq – vurmaq
Şeşpər – ucu iti əşya
Şil – axsaq
Şir – samavarın kranı
Şivit – şüyüd
Şəlayin – arxayın
Şuğlüzumbə – üzü qara olmaq
Şurran – su şırnağı

**T**

Tavaxıl – səbr etmək
Tanxarmaq – tapşırmaq
Taraş stəkan – iri stəkan
Tasaddıq – borcluluq
Tata getmək – çörəyin kütə getməsi
Tati – çardaqsız
Tatur – quş
Təzimək – qaçmaq
Tələmək – sırımaq
Tələtəhdülü – tələsik
Tələfə – qisas
Təriyləşmək – minikdə ortaq olmaq(dalbadal)

Tərk olmaq – qurtarmaq
Təngənəfəs – tez-tez nəfəs alıb vermək
Tənbəkü – tütün
Təhdi vermək – əmr vermək
Tüncar – hər hansı ağac toxumunun basdırılması
Tünük – nazik
Taqqurçə – quru
Təşənəy – təzə doğmuş insan və ya heyvanın soyqulaması
Til – diribaş
Tifgə – sapsız bıçaq
Tir – evin üst hissəsi
Ticə – cücərti
Tığlanmaq – üst-üstə yığılmaq
Tımbalaşmaq – itələşmək
Tıncıxmaq – darıxmaq
Tıncıxma – yağlı pendirin qağsıması
Tifanadan salmaq – pis hala salamaq
Toratan – hörümçək
Tuluq meyvə – yetişmiş meyvə
Turşi – xörək
Tumbala – balığın hava qovuqcuğu
Tilişkə – hər hansı bir əşyanın kiçik hissəsi
Tamarzu – əlçatmaz
Teleqreyka – qalın pambıq sırıqlısı
Təlük – toya təklif
Tüllab – söyüş
Tifana – bütünlüklə əzilmə,cızılma
Təbərrik – yeni
Təceyn – pendir tutmaq üçün qab
Təpə – baş
Teşt – iri ləyən
Tərgivətən – vətəndən uzaq düşmək
Taqqanaq – quru
Tarıöküzü – uzun bığcıqları olan qara böcək

**U**

Ulas – vələs
Ulum – uçurum
Ur – şiş
Urub – it burnu soku
Uruğ – palıdın bir növü
Urfa – xəmir süfrəsi
Ust bilmək – ümid olmaq, etibar eləmək
Urcah – calamaq

**Ü**

Üçənə – alabəzək həşərat
Ücə – quyruq hissə
Ücərrəməy – narahat olmaq

**V**

Vayvətün – vay odur ki
Vayğan – bədxəbər
Valay vurmaq – ləngər vurmaq
Vel – ayı döşəyi
Vələ – dəryazla çalınmış ot sırası
Vələdi dönmək – işi gətirməmək
Vələmyesir – əlsiz-ayaqsız
Vənosə – vay-şivən
Vər – növbəli sıra
Vərəzan – əcəb
Vərrəmək – qırmaq ,biçmək
Vəçə – budaq
Vəcələ – yabanı kəvər
Vil – cökə
Visirgə – sürgün
Vızıtmək – qaçıb ardan çıxmaq
Vəlvələ – qorxu

Vurmaçalma – gözlənilmədən (canlılarda baş vermiş hadisə)
Vənosə – şüvən, ağlamaq
Vələdüzna – əlindən ancaq pis işlər gələn insan, bic, atasını tanımayan
Vən – ağac

**Y**

Yalanqu – yavaş yanan ocaq
Yaluşuq – yanlışlıq
Yalxu – tək
Yamın çəkmək – təəssübün çəkmək
Yano – qapının yan tərəfi
Yançı – yavər, köməkçi
Yasalamaq – üstünü malalamaq
Yastdan – hamar
Yegən – bacıuşağı
Yelbə – balaca yer quşu,yumurtayıb yumurtasını itirən ququ quşu
Yelkə – atın yalı
Yelpənək – xiyar
Yengi – təzə
Yeralma – kartof
Yeti evi xara – Yardmlı qəsəbəsinin sırf müraciət forması
Yozdağlamaq – oyan-buyana qaçmaq
Yoxsun – oxşar
Yambuz – budun yuxarı hissəsi
Yampörtü oturmaq – çəp oturmaq
Yon – söyüşdə işlənilir
Yahlış – düşük
Yarmaça – ortadan düzünə kəsilmiş ağac
Yalanbaşdan – yalandan
Yağır – yük heyvanının bel hissəsindıəki yara

Yonsuz – yöndəmsiz
Yelin – dişi heyvanın süd vəzisi

**Z**

Zağar – lovğa
Zayvaqlamaq – sarsaqlamaq
Zayıl – işə yaramayan
Zalo – zalo – şiddətli
Zəgal – qozun yumşaq qabığı
Zoruğ – tikanlı bitki
Zılığ – gözün ətrafında yığılmış çirk
Zavala gəlmək – bəlaya gəlmək
Zəlilizaxt – zəlil olmaq
Zənən – qadın
Züryət – övlad

## QEYDLƏR VƏ ŞƏRHLƏR

**Adət-ənənələr: "***Gafahın", "Motaltutma", "Çuvaldan un qurtarında", "Gəlin sınaqları"* Bilal Alarlı (Hüseynov) tərəfindən Yardımlı rayonunun Alar kənd sakini, 1928-ci il təvəllüdlü, savadsız Rəhmanova Dodogül (Bibigül) Şıxhüseyn qızından 29 avqust 2013-cü il tarixdə lentə yazılmışdır. **"***Duzlu çay"* **gəlin sınağı** Hacı İlham Əsgərov tərəfindən Yardımlı rayonunun Alar kənd sakini, savadsız Əsgərova Həvəs İmpirat qızından (1930-2011) yazıya alınmışdır.

**Ağıların bir qismi və qıyhalar** Yadigar Cəfərli tərəfindən 1908-ci ildə Jiy kəndində doğulmuş, Abasalılı kəndinə gəlin köçmüş, savadsız Qızılgül nənədən toplanmışdır. 1942-ci ildə əri Bəhram Mustafa oğlu İkinci Dünya Müharibəsində həlak olan Qızılgül nənənin yaşadığı Abasalılı kəndi köçürülmüş, kəndin xarabalığı və qəbiristanlığı İranla sərhədin neytral zonasında qalmışdır. Folklor nümunələrini Rövşən Süleymanov 2013-cü il avqustun 29-da Bilal Alarlıya təqdim etmişdir.

**"Cinlərin Telnazı aparması"** mifoloji rəvayəti Əsgərova Həvəs İmpirat qızının söyləməsindən Hacı İlham Əsgərov yazıya almışdır. Həvəs Əsgərova 1930-cu ildə Cəlilabad rayonunun Alar kəndində anadan olmuş, Yardımlı rayonunun Alar kəndinə gəlin köçmüş, 2003-cü ilədək orada yaşamışdır. O, 2011-ci ildə vəfat etmişdir, qəbri Cəlilabad rayonunun Alar kəndindədir. Hacı İlham Əsgərov "Başagəldi"ni 2013-cü il oktyabrın 11-də Bilal Alarlıya təqdim etmişdir.

**Qız qalası haqqında əfsanələr.** *Birinci əfsanə*: *Sabir Rüstəmxanlı variantı* "Ömür kitabı"nın (Bakı: Gənclik, 1988. 368 s.) 326-327-ci səhifələrindən çap olunur. *İkinci əfsanə: Mirnağı Nəzərli variantı* "Yardımlı rayonunun qədim və orta əsrlər tarixi. I cild" kitabının (Bakı, Nafta-Press, 2012, 112 s) 47-48-ci səhifələrindən çap olunur. *Üçüncü əfsanə: Şamil Əsgər variantı* "Dağların hikməti" kitabının (Bakı, İşıq, 1987) 16-cı səhifəsindən götürülmüşdür. Ş. Əsgər qalanın adını "Qız qalası –

Nigar qalası" kimi yazmışdır. Bunun səbəbi əfsanənin mətnində aydın şəkildə izah olunmuşdur. Ş.Əsgər Alar kəndindəki abidələr haqqında ətraflı məlumat verir: "Yardımlı abidələrinin ən çoxu Alar kəndi ərazisində və və onun səmtlərindədir. Bu ərazidə dəvə karvanını, qəbiristanlığı, qadın fiqurunu və s. xatırladan təbii daşlar toplusu vardır. Ətəyində Alar kəndi yerləşən hündür dağın döşündə, sıldırım bir qayanın üstündə "Qız qalası"nın xarabalığı qalmışdır... Alar kəndi səmtindəki "Qoreş" və "Gavur" qəbiristanlıqları da tədqiqat əhəmiyyəti olan abidələrdir" (Dağların hikməti. Bakı, İşıq, 1987, s. 16). *Dördüncü əfsanə: İlham Əsgərov variantını* Hacı İlham Əsgərov atası Əsgərov Şükür Paşa oğlunun söyləməsindən yazıya almışdır. Şükür Əsgərov 1925-ci ildə Yardımlı rayonunun Alar kəndində anadan olmuş, 1996-cı ildə vəfat etmişdir. Qəbri Alar qəbiristanlığındadır. Hacı İlham Əsgərov əfsanəni 2013-cü il oktyabrın 11-də Bilal Alarlıya təqdim etmişdir. *Beşinci əfsanə: Rəhmanov Sənhan Nurulla oğlunun vüriantı* 29 avqust 2013-cü il tarixdə Bilal Alarlı tərəfindən 1929-cu ildə anadan olmuş, Alar kənd sakini, təhsilsiz Rəhmanov Sənhan Nurulla oğlundan lentə alınmışdır. Sənhan kişi gəncliyində ağac döyüşçüsü olub, xüsusi təlimlə hazırlanan ağac döyüşçüləri eli-obanı təhlükələrdən qoruyurdular. Sənhan kişi hər iki gözünü itirib, ancaq evdə hər şeyin yerini bilir və övladları onun bəllədiyi əşyaların yerini dəyişmirlər. Sənhan kişi Əmiqonanın nəslindəndir, Əmiqona Şıxhüseynin atası olub. Şıxhüseyndən Xanhüseyn, Xanhüseyndən Rəhman, Rəhmandan Nurulla olub. Nurulla Sənhan kişinin atasıdır. Cənub bölgəsinin istedadlı qələm sahibi Şakir Xanhüseynli bu nəsildəndir.

**Yolocaq lətifələri** 1950-ci ildə Yardımlı rayonunun Yolocaq kəndində anadan olmuş Təbiət Fərman oğlu Tanrıverdiyevdən toplanmışdır. Nümunələri 19 iyul 2013-cü il tarixdə Bilal Alarlıya Əli İsgəndərov təqdim etmişdir. Yazıları "Təbiət Yolocaqlı" imzası ilə işıq üzü görən Tanrıverdiyev Təbiət Fərman oğlunun gözü işıq üzünə həsrətdir. O, 1950-ci ildə Yardımlı rayonunun Yolocaq kəndində anadan olub. Yeniyetmə yaşların-

dan atasını itirib, anası Adgözəlova Narı Fərzi qızının himayəsində böyüyüb. Gözlərindəki illətlə bağlı müalicə alsa da, nəticəsi olmayıb. Həkimlər ona oxuyub-yazmağı qadağan ediblər. Buna görə də, Təbiət Tanrıverdiyev təhsilini davam etirə bilməyib. O, hər iki gözdən birinci qrup əlildir. T.Tanrıverdiyevin gözləri görmür, lakin o, qəlbinin hökmü ilə doğulub boya-başa çatdığı yurd haqqında bir neçə kitab ərsəyə gətirib. T.Tanrıverdiyevin 2003-cü ildə ”Müqəddəs Yurd Yeri”, 2010-cu ildə “Yolocaq kəndi yaddaşlarda”, 2012-ci ildə “Yolocaq - kəndin zirvəsi” kitabları çap olunub. Təbiət Yolocaqlını həmyerliləri “Yardımlının Homeri” adlandırırlar. Tarixi mənbələrin verdiyi məlumata görə, Homer kor olmağına baxmayaraq, bəşəriyyət üçün dəyərli sayılan dahiyanə poemalarını yaratmışdır.

**“Sırışna”** adlı olmuş əhvalatı 1925-ci ildə Yardımlı rayonunun Alar kəndində anadan olmuş Əsgərov Şükür Paşa oğlu söyləyib. O, 1996-cı ildə vafat edib və Alar qəbristanlığında dəfn olunub. Folklor nümunəsini Hacı İlham Əsgərov yazıya alıb və 2013-cü il oktyabrın 11-də Bilal Alarlıya təqdim edib.

**El şairi Ağadədə Demanlının qoşmaları** 2006-cı ildə Bilal Alarlı tərəfindən toplanmışdır. Ağadədə Demanlı 1939-cu ildə Deman kəndində anadan olmuş, 2006-cı il sentyabrın 10-da vəfat etmişdir.

**El şairi Zöhrab Zövünlünün təcnisləri və “Dünyadır” qoşması** 2013-cü ilin iyun ayında Bilal Alarlı tərəfindən toplanmışdır. Zöhrab Balamirzə oğlu Eyniyev (Zöhrab Zövünlü) 1939-cu ildə Zövün kəndində anadan olmuşdur.

**Yardımlı folklorunda işlənən dialekt sözləri** Mehdi Həsənov, Şahlar Məmmədli, Yusif Sultanov və Bilal Alarlı tərəfindən toplanılmışdır. Dialekt sözlərini qruplaşdırıb sahmana salan Sultanov Yusif Həsənəli oğlu 17 yanvar 1957-ci ildə Yardımlı rayonunun Gilar kəndində anadan olmuşdur. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda işləyən Şahlar Məmmədli isə Yardımlı şivələrini elmi şəkildə araşdırmışdır.

## SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

**Abbasova Qızbəs Qüdrət qızı, Qaraqaya kənd sakini, 1927-ci il, savadsız.** *Söylədiyi mətnlər: VIII, 296-304. 2013-cü il avqustun 28-də toplanmışdır. Topladılar: Eynulla İsmayılov və Rövşən Süleymanov.*

**Ağayev İsməli Ağa oğlu, Dağüzü kənd sakini, 1877-ci il, savadsız.** *Söylədiyi mətnlər: VIII, 178-201. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Babayev Həmdulla Abdulla oğlu, Kürəkçi kənd sakini, 1923-cü il, orta təhsilli.** *Söylədiyi mətnlər: IV, 1-13; XX, 10 (2); XXII, 12-14. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Bayrıyev Gülağa Sərdar oğlu, Ostayır kənd sakini, 1934-cü il, orta təhsilli, aşıq.** *Söylədiyi mətnlər: XV, 2; XXVII, 1. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Bayrışova Aliyə Səməd qızı, Yardımlı qəsəbə sakini, 1942-ci il, orta təhsilli.** *Söylədiyi mətnlər: VIII, 242-286. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Bədəlov Əliş Mirzə oğlu, Əsədabad kənd sakini, 1986-cı il, savadsız.** *Söylədiyi mətnlər: XII, 23. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Camalov Əmirxan Şahvələd oğlu, Kürəkçi kənd sakini, 1928-ci il, orta təhsilli.** *Söylədiyi mətnlər: VIII, 201-242. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Caniyev Mirxan Zəki oğlu, Alar kənd sakini, 1936-cı il, orta təhsilli.** *Söylədiyi mətnlər: I, 1-4; VIII, 126-151. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Cəfərova Gülşən Əvəz qızı, Ostayır kənd sakini, 1909-cu il, savadsız.** *Söylədiyi mətnlər: X, 66-69; XIII, 4; XV, 1. 28 avqust 2013-cü il tarixdə toplanmışdır. Topladı: Rəfaei Həbib-oğlu və Rövşən Süleymanov.*

**Cəfərov Ələsgər Əvəz oğlu, Şəfəqli kənd sakini, 1954-cü il, li təhsilli.** *Söylədiyi mətnlər: XXII, 19-42, 45-69.* 28 avqust 2013-cü ildə toplanmışdır. Topladılar: Rövşən Süleymanov və Bilal Alarlı (Hüseynov).

**Demanlı Ağadədə, Deman kəndi (1939-2006), orta təh-silli, el şairi.** *Söylədiyi mətnlər: XXVII, 3. 2006-cı ildə toplan-mışdır. Topladı: Bilal Alarlı (Hüseynov).*

**Eyniyev (Zövünlü) Zöhrab Balamirzə oğlu, Zövün kən-di, 1939-cu il., orta təhsilli, el şairi.** *Söylədiyi mətnlər: XXVII, 4. 2013-cü ildə toplanmışdır. Topladı: Bilal Alarlı (Hüseynov).*

**Eynullayev Fəttah Abdulla oğlu, Yardımlı şəhər sakini, 1934-cü il, orta təhsilli.** *Söylədiyi mətnlər: XV, 4. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Əbülhəsənov Cəlal Zülfüqar oğlu, Alar kənd sakini, 1967-ci il, orta təhsilli.** *Söylədiyi mətnlər: XI, 1-12; XVII, 1-2.* 2013-cü il avqustun 28-də toplanmışdır. Topladı: Bilal Alarlı (Hüseynov).

**Əliyeva Qızılgül Mustafa qızı, Jiy (Abasalılı) kənd sakini, 1908-ci il, savadsız.** *Söylədiyi mətnlər: X, 70-81; XIV, 1-2. 29 avqust 2013-cü il tarixdə toplanmışdır. Topladıar: Yadigar Cəfərli və Rövşən Süleymanov.*

**Əliyev Nadir Hüseyn oğlu, Şəfəqli kənd sakini, 1938-ci il, orta təhsilli.** *Söylədiyi mətnlər: II, 9-10; VIII, 151-186; XX, 4(2); XXII, 8-11. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Əliyev Sahib İsgəndər oğlu, Bilnə kənd sakini, 1938-ci il, ali təhsilli.** *Söylədiyi mətnlər: XXII, 43-44.*. 28 avqust 2013-cü ildə toplanmışdır. Topladı: Bilal Alarlı (Hüseynov).

**Əmirov Xanış Nüsrət oğlu, Yardımlı şəhəri, 1928-ci il, savadsız.** *Söylədiyi mətnlər: XXV, 1-3. 29 avqust 2013-cü il tarixdə toplanmışdır. Topladılar: Əli İsgəndərov və Bilal Alarlı.*

**Əsgərova Həvəs İmpirat qızı, Alar kənd sakini, 1930-cu il, savadsız.** *Söylədiyi mətnlər: VII, 1; VII, 2 ç; XIII, 5-8; X, 1; XX, 14. 2011-ci ildə toplanmışdır. Topladılar: İlham Əsgərov və Bilal Alarlı.*

**Əsgərov İlham Şükür oğlu, Alar kənd sakini, 1965-ci il, ali təhsilli.** *Söylədiyi mətnlər: XXI, 1 (Dördüncü əfsanə), 6; XXV, 4-5. 11 oktyabr 2013-cü il tarixdə toplanmışdır. Topladı: Bilal Alarlı (Hüseynov).*

**Əsgərov Şamil Səlim oğlu, Kəlbəcər rayonu, Ağcakənd kəndi, 1929-cu il, ali təhsilli.** *Söylədiyi mətnlər: XXI, 1 (Üçüncü əfsanə). 1987-ci il tarixdə toplanmışdır. Topladı: Bilal Alarlı (Hüseynov).*

**Həsənov Mehdi Əli oğlu, Ostayır kənd sakini, 12 iyul 1954-cü il, ali təhsilli.** *Söylədiyi mətnlər: XVIII, 1-5; XX, 3 (1) 5-9; XXVI, 1-18; XXVIII, A-Z. 29 avqust 2013-cü il tarixdə toplanmışdır. Topladıar: Əli İsgəndərov və Bilal Alarlı (Hüseynov).*

**Hüseynov Taqi Həsən oğlu, Ostayır kənd sakini, 1938-ci il, orta təhsilli.** *Söylədiyi mətnlər: XX, 16; XXII, 1-7. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**İmranova Maral Şahmirzə qızı, Çayüzü kəndi, 1926-cı il, savadsız.** *Söylədiyi mətnlər: V, 1-8; XII, 24. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**İsgəndərov Əli Mirzəli oğlu, Yardımlı şəhər sakini, 1961-ci il, ali təhsilli tarixçi.** *Söylədiyi mətnlər: XIX, 2, 15. 28-29 avqust 2013-cü il tarixdə toplanmışdır. Topladı: Bilal Alarlı (Hüseynov).*

**Kəlbiyev Yusif Bəxtiyar oğlu, Alar kənd sakini, 1951-ci il, ali təhsilli.** *Söylədiyi mətnlər: XV, 3 (1-5).* 2013-cü il avqustun 28-də toplanmışdır. Topladı: Bilal Alarlı (Hüseynov).

**Quliyeva Qızılgül Alışan qızı, 1912-ci il, savadsız.** *Söylədiyi mətnlər: VIII, 91-125. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Malıyeva Xanımzadə Söhbət qızı, Alar kənd sakini, 1913-cü il, savadsız.** *Söylədiyi mətnlər: IV, 14-47; VIII, 52-90. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Manafov Gündüz Adış oğlu, Bozayran kənd sakini, 1979-cu il, orta təhsilli.** *Söylədiyi mətnlər: XXI, 5.* 28 avqust 2013-cü ildə toplanmışdır. Toplayıcılar: Rövşən Süleymanov və Bilal Alarlı (Hüseynov).

**Məmiyeva Firoza Mirəhməd qızı, Kürəkçi kənd sakini, 1939-cu il, yeddiillik təhsil.** *Söylədiyi mətnlər: VIII, 169-178. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Məmmədova Xanımnaz Məhəmməd qızı, Şovut kənd sakini, 1893-cü il, savadsız.** *Söylədiyi mətnlər: VIII, 287-292; XX, 13. 2013-ci ildə toplanılmışdır. Topladılar: Coşqun Hüseynov və Rövşən Süleymanov.*

**Mustafayev Urufbaba Səfər oğlu, Gavran kənd sakini, 1936-cı il, orta təhsilli.** *Söylədiyi mətnlər: XX, 2. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Nəzərli Mirnağı Mirəzəddin oğlu, Yardımlı şəhəri, 1974-cü il, ali təsilli, tarixçi-arxeoloq.** *Söylədiyi mətnlər: XXI, 1 (İkinci əfsanə). 2012-cü il tarixdə toplanmışdır. Topladı: Bilal Alarlı (Hüseynov).*

**Rəhmanova Dodogül (Bibigül) Şıxhüseyn qızı, Alar kənd sakini, 1928-ci il, savadsız.** *Söylədiyi mətnlər: VII, 2 a, b, c; X, 56-65; XIII, 2-3. 29 avqust 2013-cü il tarixdə toplanmışdır. Topladı: Bilal Alarlı (Hüseynov).*

**Rəhmanov Sənhan Nurulla oğlu, Alar kənd sakini, 1929-cu il, təhsilsiz.** *Söylədiyi mətnlər: XXI, 1 (Beşinci əfsanə).*

*29 avqust 2013-cü il tarixdə toplanmışdır. Topladı: Bilal Alarlı (Hüseynov).*

**Rəsulov Misir(xan) Abdul oğlu, Alar kəndi, 1936-cı il, orta təhsilli.** *Söylədiyi mətnlər: XXI, 2-4. 1998-ci ildə toplanmışdır. Topladı: Bilal Alarlı (Hüseynov).*

**Rüstəmxanlı Sabir Xudu oğlu, Hamarkənd kəndi, 1946-cı il, ali təhsilli.** *Söylədiyi mətnlər: XXİ, 1 (Birinci əfsanə). 29 avqust 1988-ci il tarixdə toplanmışdır. Topladı: Bilal Alarlı (Hüseynov).*

**Rzayev Firudin Feyzi oğlu, Şəfəqli kənd sakini, 1928-ci il, yeddiillik təhsil.** *Söylədiyi mətnlər: I, 5-9; VIII, 152-169; XX, 1; XXII, 14-18. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Sahratova Furoza Allahqulu qızı, Əsədabad kənd sakini, 1892-ci il, savadsız.** *Söylədiyi mətnlər: II, 1-8; III, 1-2; VIII, 1-25. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Sahratov Həsən Bilal oğlu, Əsədabad (Köhnə Qışlaq) kənd sakini, 1938-ci il. orta təhsilli, aşıq.** *Söylədiyi mətnlər: XVI, 1; XXVII, 2. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Sultanova Lalaş Şahmirzə qızı, Alar kənd sakini, 1927-ci il, savadsız.** *Söylədiyi mətnlər: XII, 19-22. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Sultanov Yusif Həsənəli oğlu, Gilar kənd sakini, 1957-ci il, ali təhsilli.** *Mətnlər: XXVIII, A-Z. 2013-cü ildə toplanmışdır. Topladı: Bilal Alarlı (Hüseynov).*

**Şahverənova Sərmə Hacıəli qızı, Alar kənd sakini, 1931-ci il, yeddiillik təhsil.** *Söylədiyi mətnlər: VI, 1; VIII, 26-51. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli.*

**Şahverənova Zöhrə Hacıəli qızı, Alar kənd sakini, 1926-cı il, savadsız.** *Söylədiyi mətnlər: II, 20-28; XII, 1-5; XIII,*

*1. 1987-ci ildə toplanılmışdır. Topladılar: Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli; VIII, 293-295; X, 1-13; XII, 6-13, 28. 2013-cü il avqustun 28-də toplanmışdır. Topladı Bilal Alarlı (Hüseynov). X, 14-55; XII, 14-18, 25-27. 5-13 sentyabr 2013-cü il tarixdə toplanmışdır. Topladı: Məlik Nizami Bəxtiyaroğlu (Əliyev)*

**Tanrıverdiyev Təbiət Fərman oğlu, Yolocaq kəndi, 1950-ci il, orta təhsilli.** *Söylədiyi mətnlər: VII, 3; IX, 1-6; XX, 11-12; XXIII, 1-120; XXIV, 1-2. 19 iyul 2013-cü il tarixdə toplanmışdır. Topladılar: Əli İsgəndərov və Bilal Alarlı.*

## TOPLAYICILAR HAQQINDA MƏLUMAT

**1. Bəhlul Abdulla, İsrafil Abbaslı və Elxan Məmmədli. 1987-ci il yay ekspedisiyası zamanı kollektiv şəkildə Yardımlı rayonunun müxtəlif kəndlərindən topladıqları folklor nümunələri:** *I, 1-9; II, 1-28; III, 1-2; IV, 1-47; V, 1-8; VI, 1; VIII, 1-286; XII, 1-8, 10-14; XV, 1-2, 4; XVI, 1; XX, 1-2, 9-11; XXII, 1-18; XXVII, 1-2;*

**2. Hüsynov Bilal Hüseynağa oğlu (Bilal Alarlı). 2013-cü il iyun-oktyabr aylarında şəxsi təşəbbüslə fərdi qaydada Yardımlı rayonunun müxtəlif kəndlərindən topladığı folklor nümunələri:** *VII, 1, 2 (a-ç), 3; VIII, 287-304; IX, 1-6; X, 1-81; XI, 1-2; XII, 9, 15;24-28; XIII, 1-8; XI, 1-2; XV, 3; XVII, 1-2; XVIII, 1-5; XIX, 1-2; XX, 3-8, 12-16; XXI, 1 (Birinci-beşinci əfsanələr), 2-6; XXII, 19-69; XXIII, 1-120; XXIV, 1-2; XXV, 1-5; XXVI, 1-18; XXVII, 3-4; XXVIII, A-Z.*

## BAŞLIQLAR

**Ertem türklərinin yurdu (Bilal Alarlı)..................... 3**

**MIFOLOJİ RƏVAYƏTLƏR .................................. 44**
**ƏFSANƏLƏR ......................................................... 55**
**RƏVAYƏTLƏR...................................................... 63**
**İNANCLAR.......................................................... 75**
**ATALAR SÖZÜ VƏ DEYİMLƏR........................... 76**
**LAYLALAR............................................................ 79**
**TAPMACALAR ..................................................... 80**
**MƏRASİM FOLKLORU ........................................ 84**
**TOY ADƏTLƏRİ .................................................... 86**
**BAYATILAR ......................................................... 90**
**AĞILAR............................................................... 112**
**AĞI-EPİTAFIYALAR .......................................... 118**
**NƏĞMƏLƏR........................................................ 121**
**KÜRDÜLƏR.......................................................... 143**
**QIYHALAR .......................................................... 148**
**CIRNATMALAR................................................... 149**
**MEYXANƏ .......................................................... 153**
**TÜRKƏÇARƏLƏR................................................ 155**
**YARDIMLI LƏTİFƏLƏRİ..................................... 158**
**NAĞILLAR........................................................... 252**
**OLMUŞ ƏHVALATLAR....................................... 262**
**YER-YURD ADLARI............................................. 268**
**AŞIQLAR VƏ EL ŞAİRLƏRİ**
Aşıq Gülağa Bayrıyev........................................ 275
Aşıq Həsən Sahratov.......................................... 276
El şairi Ağadədə Demanlı .................................. 285
El şairi Zöhrab Zövünlü ..................................... 291

**Yardımlı folklorunda işlənən dialekt sözləri............ 295**
**Qeydlər və şərhlər..................................................... 322**
**Söyləyicilər haqqında məlumat ................................ 325**
**Toplayıcılar haqqında məlumat ............................... 331**

**Yadımlı folklor örnəkləri.**
**1-ci kitab.**
Bakı, Elm və təhsil, 2014.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Vüsal Abıyev**

Kompyuterdə yığan:
**Bilal Hüseynov**

Korrektor:
**Validə Bədəlova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 334 səh
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun Kompyuter Mərkəzində yığılmış, səhifələnmiş, “Elm və təhsil” NPM-də hazır deopozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.